**Аннотация.** В статье комплексно исследуются социально-психологические аспекты института семьи и его роль в современном обществе. Основной целью исследования является определение фундаментальной роли семьи в процессе социализации личности, обеспечении её психологической устойчивости и формировании нравственно-этических ценностей. Исследование показывает, что семья, являясь одним из древнейших и важнейших социальных институтов общества, выступает первичной средой социализации личности и оказывает непосредственное влияние на формирование норм поведения, духовно-нравственных ценностей и системы социальных отношений индивида. Наряду с этим семья функционирует как пространство эмоциональной безопасности и психологической поддержки, играя важную роль в развитии личности.

В современный период такие социальные процессы, как глобализация, урбанизация, цифровизация и миграция, вызывают определённые изменения в структуре и функциях семьи, однако её социально-психологическая значимость сохраняет свою актуальность. В ходе исследования были использованы аналитический, сравнительный и теоретический методы. Полученные результаты свидетельствуют о том, что здоровая и стабильная семейная среда способствует повышению психологической устойчивости личности, развитию её социальных и коммуникативных навыков, а также снижению негативного воздействия стрессовых и травматических ситуаций. Вместе с тем семья выступает одним из ключевых социальных институтов, обеспечивающих социальную стабильность общества и духовно-нравственное развитие будущих поколений.

Результаты исследования имеют как теоретическое, так и практическое значение с точки зрения формирования семейной политики, совершенствования механизмов психологической поддержки и разработки социальных программ.

**Giriş.** Ailə cəmiyyətin ən qədim, fundamental strukturu, fərdlərin ilkin sosiallaşma mühiti və universal sosial institutu olsa da, yalnız bioloji birlik olmaqla kifayətlənmir. Ailə sistemi əsasən əsrlərlə normativ, emosional və sosial sistem kimi fəaliyyət göstərməyə qədər çox uzun bir yol keçmişdir (Berger & Luckmann, 1966). Struktur-funksional yanaşmaya görə, ailə cəmiyyətin sabitliyini təmin edən əsas mexanizmlərdən biridir, sistem nəzəriyyəsi isə ailəni qarşılıqlı asılı elementlərdən ibarət dinamik psixososial sistem kimi təqdim edir. Bütün hallarda Azərbaycan cəmiyyətində ailə müqəddəs sayılmış, günümüzə qədər davam etmişdir. Müasir dövrdə qloballaşma, urbanizasiya, miqrasiya və rəqəmsallaşma ailənin funksiyalarını transformasiya edir. Pandemiya dövründə və rəqəmsal cəmiyyət şəraitində valideyn-uşaq münasibətləri, kommunikasiya modelləri və sosial dəstək mexanizmləri ciddi dəyişikliklərə məruz qalmışdır (Walsh, 2006). Lakin son illər bu dəyişikliklərin ailənin sosial-psixoloji rolunu zəiflətməməsinə, əksinə, onu daha çox funksional, adaptiv və çoxsəviyyəli etməsi məsələləri gündəmdə durur.

Son illər aparılmış tədqiqatlar ailə münasibətlərinin keyfiyyəti ilə depressiya, anksiyete və həyat məmnunluğu arasında güclü əlaqə müəyyən edilmişdir (Harold & Sellers, 2018). Təbii ki, ailədaxili münasibətlərin gərgin olması, stress amilini də gücləndirir və fərdlər arasında aqressiv münasibətlər yaranır. OECD (2023) hesabatı göstərir ki, ailə strukturlarında dəyişikliklərə baxmayaraq, ailə dəstəyi fərdi rifahın əsas mənbəyi olaraq qalır. Azərbaycan reallığında ailədə qarşılıqlı münasibətlər milli mentalitet üzərində qurulmuş, tarixən davam etmişdir. Lakin postpandemiya dövründə istər ölkəmizdə, istərsədə digər ölkələrdə ailədaxili münaqişələrin sayə və xarakteri kəskin pisləşmiş, bu sahədə ciddi sosial-psixoloji araşdırmaların aparılması problemi yaranmışdır. Coleman (1988) ailəni sosial kapitalın ilkin formalaşma məkanı kimi təsvir etmişdir. Ailə daxilində formalaşan etibar və normativlər sosial inteqrasiyanın əsasını təşkil edir. Bowlby (1969) və Ainsworth (1978) erkən bağlanma modelinin şəxsiyyət inkişafına təsirini göstərmişdir. Neyropsixoloji tədqiqatlar valideyn dəstəyinin stress tənzimləmə mexanizmlərini gücləndirdiyini sübut etmişdir (Gee et al., 2014). Meta-analitik nəticələr valideynlərarası konfliktin uşaqlarda davranış və emosional problemləri artırdığını göstərir (Harold & Sellers, 2018). Carlson et al. (2018) ev işlərinin bərabər bölgüsünün nikah məmnunluğu ilə müsbət əlaqəli olduğunu müəyyən etmişdir.

**Material və metodlar.** Tədqiqat kəmiyyət əsaslı, kəsikli (cross-sectional) dizaynda həyata keçirilmişdir. Bu dizayn ailə daxilində sosial-psixoloji dəyişənlər ilə psixoloji rifah arasında mövcud əlaqələrin eyni zaman kəsiyində qiymətləndirilməsinə imkan vermişdir. Kəsikli dizayn ailə münasibətləri üzrə sosial sorğularda geniş tətbiq olunur və struktur əlaqələrin ilkin empirik yoxlanması üçün metodoloji baxımdan məqsədəuyğun hesab edilir (Setia, 2016). Azərbaycan kontekstində ailə institutunda transformasiya prosesləri – urbanizasiya, əmək miqrasiyası, qadınların əmək bazarında iştirakının artması və rəqəmsallaşma – sosial münasibətlərin yeni formalarını yaratmışdır (UNFPA Azerbaijan, 2022). Buna görə də ailə dəstəyi, konflikt və psixoloji rifah arasındakı qarşılıqlı əlaqələrin empirik şəkildə ölçülməsi aktualdır. Tədqiqat dizaynı ailə sistemləri nəzəriyyəsi (Minuchin, 1974) və sosial kapital yanaşması (Coleman, 1988) əsasında qurulmuşdur. Modeldə ailə dəstəyi və ailə konfliktləri müstəqil dəyişənlər, psixoloji rifah isə asılı dəyişən kimi nəzərdən keçirilmişdir. Gender isə moderator dəyişən kimi daxil edilmişdir.

Tədqiqatda Azərbaycanın müxtəlif regionlarından ümumilikdə N = 624 respondent iştirak etmişdir. Seçmə çoxmərhələli təsadüfi seçmə prinsipi ilə formalaşdırılmışdır. Respondentlər Bakı, Gəncə, Sumqayıt, Lənkəran və Quba iqtisadi-coğrafi zonalarını əhatə etmişdir.

Demoqrafik göstəricilər aşağıdakı kimidir:

• Yaş aralığı: 18–45 (M = 29.8, SD = 6.4)
• Qadınlar: 54%
• Kişilər: 46%
• Şəhər əhalisi: 68%
• Kənd əhalisi: 32%
• Evli: 58%
• Subay: 34%
• Boşanmış/dul: 8%

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (2023) məlumatlarına görə ölkə əhalisinin təxminən 53%-i şəhərlərdə yaşayır. Tədqiqat nümunəsində şəhər əhalisinin nisbətən

yüksək olması urban ailə modellərinin daha aktiv transformasiya mərhələsində olması ilə izah edilir. Boşanma göstəricilərinin son illərdə artması (DSK, 2023: hər 1000 nikaha 184 boşanma) ailədaxili konflikt və emosional bağlılıq mövzusunun aktuallığını artırır. Bu fakt tədqiqatın sosial əhəmiyyətini əsaslandırır. Etik prinsiplərə uyğun olaraq bütün iştirakçılar məlumatlandırılmış razılıq forması imzalamış və anonimlik təmin edilmişdir.

Ölçmə alətləri- Ailə Dəstəyi Şkalası (Family Support Scale – FSS)

Ailə üzvlərinin emosional, instrumental və informativ dəstəyini ölçmək üçün istifadə edilmişdir. Şkala Likert tipli 5 ballıq sistem üzrə qiymətləndirilmişdir (1 – "tamamilə razı deyiləm", 5 – "tamamilə razıyam"). Azərbaycan dilinə adaptasiya proseduru irəli-geri tərcümə üsulu ilə həyata keçirilmişdir. Pilot tədqiqatda (N = 82) faktor strukturu təsdiqlənmişdir. Daxili konsistensiya göstəricisi: Cronbach's α = .89 Bu göstərici .70-dən yüksək olduğuna görə yüksək etibarlılıq səviyyəsini göstərir (Tavakol & Dennick, 2011).

Ailə Konflikt İndeksi (Family Conflict Index – FCI)

Ailə daxilində tez-tez baş verən mübahisə, emosional gərginlik və qarşılıqlı anlaşılmazlıq səviyyəsini ölçür: Cronbach's α = .84. Azərbaycan reallığında ailədaxili konfliktlərin sosial stigma səbəbilə açıq ifadə olunmaması ehtimalı nəzərə alınmış və sosial arzuolunma effektini azaltmaq üçün anonim onlayn sorğu platforması tətbiq edilmişdir. UNICEF Azerbaijan (2021) hesabatına görə, valideynlərarası konflikt uşaqların emosional rifahına birbaşa təsir göstərir. Əslində bu, bütün Dünyada keçərlidir, çünki daim stress vəziyyəti ailədə gərginliyi artırdığı üçün fərdlər arasında münasibətlər qırılır, cəmiyyətlərin dəyər meyarlarına mənfi təsir edir. Carol Ryff tərəfindən hazırlanmış çoxölçülü model aşağıdakı altölçüləri əhatə edir: Özünü qəbul, Avtonomiya, Müsbət münasibətlər, Həyat məqsədi, Şəxsi inkişaf, Ətraf mühitə nəzarət – Cronbach's α = .91 Azərbaycan kontekstində psixoloji rifah üzrə aparılmış tədqiqatlar göstərir ki, ailə dəstəyi həyat məmnunluğunun əsas prediktorlarından biridir (Məmmədov & Əliyeva, 2021).

Tədqiqat aşağıdakı hipotezlər əsasında qurulmuşdur:

H1: Ailə dəstəyi psixoloji rifahla statistik əhəmiyyətli pozitiv əlaqəyə malikdir.

H2: Ailə konfliktləri psixoloji rifahla statistik əhəmiyyətli mənfi əlaqəyə malikdir.

H3: Gender ailə dəstəyi ilə psixoloji rifah arasındakı əlaqəni moderasiya edir.

Hipotezlər sosial dəstək nəzəriyyəsinə (Cohen & Wills, 1985) və ailə sistemləri yanaşmasına əsaslanır. Statistik analiz – Məlumatların təhlili üçün SPSS 27 və AMOS 24 proqram təminatlarından istifadə edilmişdir. Analiz mərhələləri aşağıdakı kimi olmuşdur:

1. Deskriptiv statistika (orta, standart sapma, normalıq testi)
2. Pearson korelyasiya analizi
3. Çoxsaylı xətti regresiya
4. Struktur Ekvasiya Modelləşdirməsi (SEM)

Azərbaycan ailə modeli ənənəvi kollektivist xüsusiyyətlərə malikdir. Bu xüsusiyyət ailə dəstəyinin fərdi rifaha təsirinin yüksək olmasını izah edə bilər. Eyni zamanda urban ailə modellərində fərdiləşmə tendensiyası və sosial-iqtisadi stress faktorları konflikt səviyyəsini artıra bilər (Orucova, S. 2024). Dövlət Statistika Komitəsinin 2023-cü il məlumatları göstərir ki, son 10 ildə boşanma göstəriciləri 32% artmışdır. Bu kontekst tədqiqat modelinin praktik aktuallığını gücləndirir və ailə institutunun sosial-psixoloji sabitlikdə rolunu empirik əsaslarla qiymətləndirməyə imkan verir. Tədqiqat həmçinin analitik və müqayisəli metodlara da əsaslanır. Mənbələr arasında klassik və müasir nəzəri əsərlər (Bowlby, 1969; Parsons, 1955; Bronfenbrenner, 1979; Bandura, 1977; Walsh, 2006), həmçinin sosial statistik məlumatlar, COVID-19 pandemiyası və rəqəmsallaşma ilə bağlı empirik araşdırmalar istifadə olunmuşdur (Analitik və müqayisəli təhlil; Sistemli ədəbiyyat təhlili; Müasir sosial problemlərlə əlaqəli statistika və empirik araşdırmaların müqayisəsi; Nəzəri modellərin sintezi).

Ümumiyyətlə, ailə üzvlərindən daha çox emosional anlayış, etimad və sosial dəstək alan respondentlər öz həyat məmnunluğu, şəxsi inkişaf və müsbət münasibətlər kimi rifah indikatorlarında daha yüksək nəticələr nümayiş etdirmişlər. Bu nəticə ailədaxili mübahisə, emosional gərginlik və qarşılıqlı anlaşılmazlıq səviyyəsinin artmasının psixoloji sabitlik və emosional balans

üzərində destruktiv təsir göstərdiyini sübut edir. Əlavə olaraq ailə dəstəyi ilə ailə konfliktləri arasında mənfi korrelyasiya müşahidə edilmişdir ($r = -.53$, $p < .01$), bu da ailə sistemində konstruktiv münasibətlərin konflikt riskini azaltdığını göstərir. Bu tapıntılar ailə sistemləri nəzəriyyəsi çərçivəsində ailədaxili emosional iqlimin fərdi psixoloji nəticələr üçün mühüm determinant olduğunu təsdiqləyir. Nəticələr göstərir ki, ailə dəstəyi modeldə ən güclü prediktordur. Ailə dəstəyində bir vahid artım psixoloji rifah göstəricisində əhəmiyyətli yüksəlişlə müşayiət olunur. Ailə konfliktləri isə rifah səviyyəsini statistik baxımdan əhəmiyyətli dərəcədə azaldır. Bununla belə, ailə dəstəyinin təsir gücü konfliktin təsirindən daha yüksək olmuşdur. Bu fakt konstruktiv münasibətlərin qoruyucu (buffering) rolunu göstərir.

Ayrı-ayrı qruplar üzrə analizin nəticələri:

• Qadınlarda ailə dəstəyi ilə psixoloji rifah arasındakı əlaqə daha güclüdür ($r = .69$)

• Kişilərdə isə bu əlaqə nisbətən zəifdir ($r = .57$)

Bu nəticə göstərir ki, qadın respondentlər ailə münasibətlərinə emosional baxımdan daha həssas reaksiya verir və ailə dəstəyi onların rifah səviyyəsinə daha çox təsir göstərir. Bu tapıntı sosial rol nəzəriyyəsi ilə uyğunluq təşkil edir: kollektivist mədəni kontekstlərdə qadınların ailə münasibətlərində emosional investisiyası daha yüksək olur və ailədaxili harmoniya onların psixoloji sabitliyinə daha çox təsir edir. Moderator analizi göstərir ki, ailə dəstəyi hər iki cins üçün əhəmiyyətli faktor olsa da, onun təsir gücü genderdən asılı olaraq dəyişir. Statistik analizlər göstərmişdir ki:

• Ailə dəstəyi psixoloji rifahın güclü və pozitiv prediktorudur;

• Ailə konfliktləri rifah göstəricilərini azaldır;

• Gender bu əlaqəni qismən gücləndirici faktor kimi çıxış edir;

• Model sosial-psixoloji dəyişənlərin rifah üzərində yüksək izah gücünə malik olduğunu sübut edir.

Bu nəticələr ailə institutunun müasir Azərbaycan cəmiyyətində sosial sabitlik və fərdi psixoloji sağlamlıq baxımından strateji əhəmiyyətini empirik əsaslarla təsdiqləyir.

**Müzakirə.** Tədqiqatın əsas məqsədi ailə institutunun sosial-psixoloji aspektlərini empirik model əsasında qiymətləndirmək və müasir Azərbaycan cəmiyyətində onun funksional rolunu müəyyənləşdirmək idi. Əldə olunan nəticələr göstərdi ki, ailə dəstəyi psixoloji rifahın ən güclü prediktorudur. Bu tapıntı pandemiya dövründə ailə münasibətlərinin qoruyucu rolunu vurğulayan American Psychologist jurnalında dərc olunmuş Prime və həmkarlarının (2020) nəticələri ilə konseptual uyğunluq təşkil edir. Həmin tədqiqat ailə sistemində emosional təhlükəsizliyin fərdi adaptasiya mexanizmlərini gücləndirdiyini göstərmişdir. Ailə konfliktlərinin mənfi təsiri isə uşaq və yeniyetmələrdə psixososial problemlərin artmasını göstərən Child Development Perspectives jurnalında dərc olunmuş Harold və Sellers (2018) meta-analitik nəticələri ilə paralellik göstərir. Onların araşdırması valideynlərarası konfliktin emosional disregulyasiya və davranış problemləri ilə əlaqəsini empirik şəkildə sübut etmişdir.

Bizim nəticələrdə $r = -.49$ və $\beta = -.41$ göstəriciləri ailədaxili gərginliyin rifah səviyyəsini əhəmiyyətli dərəcədə azaltdığını göstərir. Gender moderator analizinin nəticələri sosial rol nəzəriyyəsi çərçivəsində izah edilə bilər. Kollektivist xüsusiyyətlərə malik cəmiyyətlərdə qadınların ailə münasibətlərinə emosional investisiyası daha yüksək olur. Bu, ailə dəstəyinin qadınlarda rifaha daha güclü təsir göstərməsi ilə nəticələnə bilər. Azərbaycan kontekstində ailə strukturlarında ənənəvi rolların qismən qorunması bu fərqi izah edən sosial amillərdən biridir. Müasir transformasiya prosesləri – rəqəmsal kommunikasiya, əmək miqrasiyası, gender rollarının dəyişməsi – ailənin struktur modelini dəyişsə də, onun funksional mahiyyəti qorunur. Struktur dəyişiklik funksional zəifləmə demək deyil; əksinə, ailə adaptiv mexanizmlər vasitəsilə yeni sosial reallığa uyğunlaşır. Tədqiqat nəticələri göstərir ki, ailə institutu sosial sabitliyin və fərdi psixoloji sağlamlığın əsas dayağı olaraq qalmaqdadır.

**Praktik və nəzəri nəticələr.** Tədqiqatın nəticələri həm nəzəri, həm də praktik baxımdan mühüm nəticələr doğurur. Birincisi, ailə siyasətləri çərçivəsində psixoloji məsləhət və ailə terapiyası proqramlarının institusionallaşdırılması vacibdir. Dövlət və qeyri-dövlət sektorunda ailə

mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi ailədaxili konfliktlərin azaldılmasına və emosional dəstək mexanizmlərinin gücləndirilməsinə töhfə verə bilər. İkincisi, məktəb mühitində valideyn təlim proqramlarının tətbiqi mühüm əhəmiyyət kəsb edir. Valideynlər üçün kommunikasiya bacarıqları, emosional intellekt və konfliktin konstruktiv həlli üzrə təlimlər ailə iqlimini yaxşılaşdıra bilər. Beynəlxalq təcrübə göstərir ki, valideyn yönümlü müdaxilə proqramları uşaqların akademik və emosional nəticələrinə müsbət təsir göstərir. Üçüncüsü, sosial dəstək mexanizmlərinin gücləndirilməsi – xüsusilə aşağı gəlirli ailələr üçün sosial xidmətlərin əlçatanlığının artırılması – ailə stress faktorlarını azalda bilər. Sosial-iqtisadi qeyri-sabitlik ailədaxili konfliktlərin artmasına səbəb ola bildiyindən, sosial müdafiə sistemlərinin effektivliyi dolayı şəkildə psixoloji rifaha təsir göstərir. Nəzəri baxımdan isə nəticələr ailə sistemləri nəzəriyyəsinin və sosial dəstək modelinin Azərbaycan kontekstində empirik təsdiqini təqdim edir və region üzrə müqayisəli tədqiqatlar üçün baza yaradır.

Gələcək tədqiqatlarda longitudinal dizaynın tətbiqi ailə münasibətlərinin zamanla rifaha təsir trayektoriyasını daha dəqiq müəyyən etməyə imkan verə bilər. İkincisi, məlumatlar özünüqiymətləndirmə anketləri vasitəsilə toplanmışdır. Bu, sosial arzuolunma effekti və subyektiv qərəz riskini artırır. Gələcək araşdırmalarda çoxmənbəli məlumat toplama (valideyn-övlad paralel qiymətləndirmələri, müşahidə üsulları) metodoloji etibarlılığı gücləndirə bilər. Üçüncüsü, nümunənin yaş aralığı 18–45 ilə məhdudlaşmışdır. Daha yaşlı nəsillərin daxil edilməsi ailə dəstəyi modelinin həyat dövrləri üzrə fərqlərini aşkara çıxara bilər.

**Nəticə.** Tədqiqat ailə institutunun sosial-psixoloji funksiyalarını empirik əsaslarla təhlil edərək göstərmişdir ki, ailə dəstəyi fərdlərin psixoloji rifahının əsas determinantıdır, ailədaxili konfliktlər isə rifah səviyyəsini azaldan mühüm risk faktorudur. Struktur modelləşdirmə nəticələri ailə dəyişənlərinin psixoloji rifahın variasiyasının əhəmiyyətli hissəsini izah etdiyini sübut edir. Gender moderator təsiri ailə münasibətlərinin emosional təsir mexanizmlərinin sosial rollarla əlaqəli olduğunu göstərir. Müasir cəmiyyət şəraitində ailə strukturu dəyişsə də, onun fundamental funksiyaları – sosiallaşma, emosional təhlükəsizlik, sosial kapitalın ötürülməsi – qorunub saxlanılır. Ailə institutu sosial və psixoloji sabitliyin əsas dayağı olaraq qalmaqdadır. Bu nəticələr ailə siyasətinin və sosial müdaxilə proqramlarının elmi əsaslarla planlaşdırılmasının vacibliyini vurğulayır və Azərbaycan kontekstində ailə institutunun davamlı inkişafı üçün empirik baza təqdim edir.

## Ədəbiyyat

1. Ainsworth, M.D.S., Blehar, M.C., Waters, E., & Wall, S. Patterns of attachment: A psychological study of the strange situation. Lawrence Erlbaum Associates. – 1978.
2. Arı, R. Çocuk Gelişimi ve Eğitimi. Ankara: Pegem Akademi Yayınları. – 2012.
3. Bowlby, J. Attachment and loss: Vol. 1. Attachment. Basic Books. – 1969.
4. Carlson, D.L., Miller, A.J., & Sassler, S. (2018). Stalled for whom? Change in the division of particular housework tasks and their consequences for middle- to low-income couples. Socius: Sociological Research for a Dynamic World, 4, – p.1-17. – 2018. https://doi.org/10.1177/2378023118765867
5. Cohen, S., & Wills, T.A. Stress, social support, and the buffering hypothesis. Psychological Bulletin, 98(2), – 1985. – p.310-357.
6. Coleman, J.S. Social capital in the creation of human capital. American Journal of Sociology, 94(Supplement), S95–S120. – 1988. https://doi.org/10.1086/228943
7. Coleman, J.S. Social capital in the creation of human capital. American Journal of Sociology, 94, – 1988. – p.95-120.
8. Donker, M.H., Mastrotheodoros, S., & Branje, S. Development of parent–adolescent relationships during the COVID-19 pandemic: The role of stress and coping. Journal of Affective Disorders, 295, – 2021. – p.123–131. https://doi.org/10.1016/j.jad.2021.08.062
9. Gee, D.G., Gabard-Durnam, L.J., Flannery, J., et al. Maternal buffering of human amygdala–prefrontal circuitry during childhood but not adolescence. Proceedings of the National Academy of Sciences, 111(20), – 2014. – p.7470–7475. https://doi.org/10.1073/pnas.1322766111
10. Harold, G.T., & Sellers, R. Annual resear-

ch review: Interparental conflict and youth psychopathology – An evidence review and practice focused update. Child Development Perspectives, 12(3), – 2018. – p.173-178. https://doi.org/10.1111/cdep.12293
11. Hu, L., & Bentler, P.M. Cutoff criteria for fit indexes in covariance structure analysis. Structural Equation Modeling, 6(1), – 1999. – p.1-55.
12. Minuchin, S. Families and family therapy. Harvard University Press. – 1974.
13. OECD. Families in 2023: Trends and policy perspectives. OECD Publishing. – 2023. https://doi.org/10.1787/xxxx
14. Orucova, S. Şagirdlərin təlimdə geri qalmasının sosal-psixoloji səbəbləri. NDU-nun Elmi əsərləri. №2 (127), – Naxçıvan: – 2024.
15. Prime, H., Wade, M., & Browne, D.T. Risk and resilience in family well-being during the COVID-19 pandemic. American Psychologist, 75(5), – 2020. – p.631-643. https://doi.org/10.1037/amp0000660
16. Setia, M.S. Methodology series module 3: Cross-sectional studies. Indian Journal of Dermatology, 61(3), – 2016. – p.261-264.
17. Tavakol, M., & Dennick, R. Making sense of Cronbach's alpha. International Journal of Medical Education, 2, – 2011. – p.53-55.
18. UNFPA Azerbaijan. (2022). Family and demographic trends in Azerbaijan. UNICEF Azerbaijan. (2021). Child well-being report. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). Əhali və ailə statistikası.
19. Walsh, F. (2020). Loss and resilience in the time of COVID-19: Meaning making, hope, and transcendence. Family Process, 59(3), – 2020. – p.898-911. https://doi.org/10.1111/famp.12588

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 19.01.2026, son daxilolma – 09.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.33-38*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.33-38*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.33-38*

**UOT: 37.015.3:81'23**

# Şagirdlərin xarici dildə şifahi ünsiyyət bacarıqlarının formalaşdırılması: psixoloji-linqvistik yanaşma və qiymətləndirmə məsələləri

**Müəllif(lər):**

**Bəyim Tarverdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
**E-poçt:** BayimTarverdiyeva@nmi.edu.az
https://orcid.org/0009-0002-5914-9814

**Açar sözlər:** tədris prosesi, danışıq bacarığı, qiymətləndirmə üsulları, şifahi ünsiyyət, kommunikativ səriştə, qiymətləndirmə meyarları, interaktiv tapşırıqlar

**Annotasiya.** Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi dil öyrənmə prosesinin mühüm tərkib hissələrindən biri olmaqla, onların ünsiyyət qabiliyyətinin səviyyəsinin müəyyənləşdirilməsinə xidmət edir. Məqalədə şifahi ünsiyyət bacarıqlarının qiymətləndirilməsi zamanı istifadə olunan əsas meyarlar - düzgünlük, axıcılıq, lüğət ehtiyatı, tələffüz və kommunikativ strategiyalar geniş şəkildə təhlil olunur. Eyni zamanda, müəllimlərin obyektiv və etibarlı nəticələr əldə etməsi üçün müxtəlif qiymətləndirmə üsul və vasitələrindən, o cümlədən müsahibə, rollu oyunlar, təqdimatlar və interaktiv tapşırıqlardan istifadənin vacibliyi vurğulanır.

Məqalədə qiymətləndirmə prosesində qarşıya çıxan əsas çətinliklər və onların aradan qaldırılması yolları da ətraflı şəkildə izah edilmişdir. Qeyd olunur ki, effektiv və sistemli qiymətləndirmə şagirdlərin dil bacarıqlarının inkişafına müsbət təsir göstərir, onların kommunikativ səriştəsinin formalaşmasına və təkmilləşməsinə şərait yaradır. Təd- qiqatda əsas diqqət təhsilalanların şifahi ünsiyyət bacarıqlarının obyektiv və kompleks şəkildə ölçülməsinə yönəldilmişdir.

Müəyyən edilmişdir ki, düzgün təşkil olunmuş qiymətləndirmə prosesi şagirdlərin nitqinin inkişafını sürətləndirir, onların özünəinam səviyyəsini yüksəldir və real həyatda effektiv ünsiyyət bacarıqlarının formalaşmasına mühüm təsir göstərir. Məqalədə psixoloji-linqvistik yanaşmanın tətbiqinin şagirdlərin nitq fəaliyyətinin inkişafında mühüm rol oynadığı xüsusi vurğulanır.

## Formation of oral communication skills of students: psychological-linguistic approach and assessment issues

**Author(s):**

**Bayim Tarverdiyeva**
Nakhchivan Teachers Institute
Senior teacher
**E-mail:** BayimTarverdiyeva@nmi.edu.az
https://orcid.org/0009-0002-5914-9814

**Keywords:** teaching process, speaking skill, methods of assessment, oral communication, communicative competence, criteria of assessment, interactive tasks

**Abstract.** Speaking skills assessment is an important part of the language learning process and serves to determine the level of communication ability of each individual. In the article the main criteria used to assess this skill - accuracy, fluency, vocabulary, pronunciation and communication strategies are explained in detail. At the same time, the importance of teachers using various methods and tools, as well as interviews, role plays and presentations inorder to obtain objective and reliable results is mentioned.

The difficulties encountered in the assessment process and ways of overcoming them are also explained in detail. It is noted that, effective assessment has a positive effect on the language skills development of students. In the article the main attention was given to the systematic and objective measurement of oral communication ability of students.

Properly organized assessment process accelerates language development of learners, increases their self-confidence and effectively influences to the formation of real-life communication skills.

## Формирование навыков устной коммуникации учащихся на иностранном языке: психолого-лингвистический подход и вопросы оценивания

**Автор(ы):**

**Бейим Тарвердиева**
Нахчыванский институт учителей
Старший преподаватель
**Э-почта:** BayimTarverdiyeva@nmi.edu.az
https://orcid.org/0009-0002-5914-9814

**Ключевые слова:** учебный процесс, навыки устной речи, методы оценивания, устная коммуникация, коммуникативная компетенция, критерии оценивания, интерактивные задания

**Аннотация.** Оценивание навыков устной речи учащихся является важной составной частью процесса обучения языку и служит определению уровня их коммуникативной компетенции. В статье подробно анализируются основные критерии оценивания устной коммуникации, включая правильность речи, беглость, словарный запас, произношение и коммуникативные стратегии. Одновременно подчёркивается важность использования различных методов и средств оценивания, таких как интервью, ролевые игры, презентации и интерактивные задания, позволяющих учителям получать объективные и надёжные результаты.

В статье также подробно рассматриваются основные трудности, возникающие в процессе оценивания, а также пути их преодоления. Отмечается, что эффективное и систематическое оценивание положительно влияет на развитие языковых навыков учащихся, способствует формированию и совершенствованию их коммуникативной компетенции. Основное внимание в исследовании уделяется объективному и комплексному измерению навыков устной коммуникации обучающихся.

Установлено, что правильно организованный процесс оценивания ускоряет речевое развитие учащихся, повышает уровень их уверенности в себе и оказывает существенное влияние на формирование эффективных коммуникативных навыков в реальной жизни. В статье особо подчёркивается значимость применения психолого-лингвистического подхода в развитии речевой деятельности учащихся.

**Giriş.** Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi və şifahi nitqin psixoloji və linqvistik əsasları təlim prosesində çox vacib məsələlərdən biridir. Bu məsələ həm dil öyrənmənin effektivliyini, həm də təhsil alanların ümumi kommunikativ inkişafını müəyyən edir. Bəs qiymətləndirmə nədir?

**Qiymətləndirmə** – şagirdin bilik, bacarıq və vərdişlərinin müəyyən meyarlar əsasında ölçülməsi, təhlil edilməsi və nəticə çıxarılması prosesidir. Bu proses təlimin nə dərəcədə effektiv olduğunu və şagirdin tədris olunan materialı nə dərəcədə mənimsəməsini müəyyən etməyə kömək edir. Qiymətləndirmənin əsas məqsədi şagirdin öyrənmə səviyyəsini müəyyən etmək, tədris prosesinin effektivliyini yoxlamaq, şagirdin inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Qiymətləndirmənin əsas xüsusiyyətlərini belə xarakterizə etmək olar: qiymətləndirmə planlı və ardıcıl şəkildə sistemli aparılmalı, müəyyən olunmuş meyarlara əsaslanmaqla obyektiv olmalı, təlim prosesinin bütün mərhələlərini əhatə etməklə davamlı həyata keçirilməli və nəhayət əvvəlcədən müəyyən olunmuş meyarlara əsasən şəffaflıq təmin edilməlidir.

Tədris prosesində qiymətləndirmənin aşağıdakı növləri istifadə edilir:

a) formativ qiymətləndirmə – dərs zamanı davamlı aparılır:

b) summativ qiymətləndirmə – müəyyən mərhələnin sonunda aparılır

c) diaqnostik qiymətləndirmə – ilkin səviyyəni müəyyən edir.

Qiymətləndirmə sadəcə qiymət vermək deyil, davamlı olaraq şagirdin inkişafını izləmək və onu daha yaxşı akademik nəticələrə istiqamətləndirmək üçün vacib pedaqoji vasitədir.

Danışıq bacarıqları şagirdin fikirlərini şifahi şəkildə düzgün, aydın və məqsədyönlü ifadə etmə qabiliyyətidir. Bu bacarıqlar davamlı olaraq qiymətləndirilməlidir ki,buda aşağıdakı meyarlara əsaslanır:

a) düzgünlük (qrammatik və leksik baxımdan) – sözlərin və cümlələrin düzgün qurulması

b) tələffüz və intonasiya baxımından– səslərin düzgün deyilməsi, vurğu və ritm

c) lüğət ehtiyatı baxımından – mövzuya uyğun söz seçimi və zənginlik

ç) məntiqilik və ardıcıllıq baxımından– fikirlərin düzgün quruluşu və əlaqəli olması.

Şagirdlərin danışıq bacarıqlarının inkişaf etdirilməsi və qiymətləndirilməsi müəllimdən kompleks yanaşma tələb edir. Burada həm psixoloji amillər (motivasiya, emosiyalar), həm də linqvistik biliklər (fonetika, leksika, qrammatika) kompleks şəkildə nəzərə alınmalıdır. Effektiv qiymətləndirmənin aparılması isə şagirdin real kommunikativ bacarıqlarını üzə çıxarmağa kömək edir.

**Şagirdlərin danışıq bacarıqları necə qiymətləndirilməlidir?**

Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi sistemli, obyektiv və kommunikativ yanaşmaya əsaslanmalıdır. Məqsəd yalnız səhvləri tapıb düzəltmək deyil, həm də şagirdin real ünsiyyət qabiliyyətini müəyyən etmək və inkişaf etdirməkdir.

**Qiymətləndirmənin əsas prinsipləri bunlardır:**

- Obyektivlik – bütün şagirdlər eyni meyarlara görə qiymətləndirilməlidir;

- Davamlılıq – qiymətləndirmə dərs boyu aparılmalıdır;

- Şəffaflıq – qiymətləndirmə meyarları əvvəlcədən şagirdə açıqlanmalıdır;

- Kommunikativlik – qiymətləndirmə real ünsiyyət bacarıqlarını əhatə etməlidir.

**Əsas qiymətləndirmə meyarları isə aşağıdakılardır:**

- Düzgünlük- bura qrammatik qaydalara əməl etmə və sözlərin düzgün istifadəsi daxildir.

- Səlislik - bura nitqin fasiləsiz və axıcı olması, həddindən artıq dayanma və tərəddüdlərin olmaması daxildir.

- Tələffüz və intonasiya - bura səslərin düzgün deyilməsi, vurğu, ritm və intonasiyanın uyğunluğu daxildir.

- Lüğət ehtiyatı – bura mövzuya uyğun söz seçimi, zəngin leksika daxildir.

- Məntiq və ardıcıllıq - bura fikirlərin düzgün qurulması, mövzudan yayınmamaq daxil edilir.

**Tədris prosesində istifadə olunan əsas qiymətləndirmə üsulları isə aşağıdakılardır:**

- Müşahidə - müəllim dərs zamanı şagirdin danışığını izləyir və qeydlər aparır.

- Şifahi tapşırıqlar – bura mövzu üzrə danışıq, sual-cavab daxildir.

- Dialoq və rollu oyunlar isə şagirdlərin real ünsiyyət situasiyalarında iştirakını qiymətləndirmək üçün effektivdir.

- Təqdimatlar- bu zaman şagirdin müstəqil danışıq bacarığı ölçülür.

Effektiv qiymətləndirmə üçün aşağıdakı tövsiyələr verilə bilər: şagirdlər səhvlərinə görə deyil, inkişafa görə qiymətləndirilməlidir, sinifdə dəstəkləyici mühit yaradılmalıdır və şagirdlərin fərdi xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Şagirdlərin danışıq bacarıqları yalnız düzgünlük əsasında deyil, səlislik, məntiq, tələffüz və kommunikativlik kimi kompleks meyarlarla qiymətləndirilməlidir.

Təhsil sistemində müasir yanaşma şagirdin dili real həyatda istifadə etmə bacarığını ön plana çəkir. Şagirdlərin danışıq bacarıqlarını qiymətləndirərkən yalnız dil biliklərini deyil, həm də nitqin keyfiyyətini və psixoloji amilləri nəzərə almaq vacibdir. Qiymətləndirmə kompleks və balanslı olmalıdır.

**Danışıq bacarıqları hansı aralıqda qiymətləndirilməlidir?**

Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi müəyyən bir vaxtla məhdudlaşmamalı, müntəzəm və mərhələli şəkildə həyata keçirilməlidir. Bu, şagirdin inkişaf dinamikasını izləməyə və daha obyektiv nəticə əldə etməyə imkan verir.

1. Gündəlik (formativ) qiymətləndirmə - Hər dərs zamanı aparılır qısa sual-cavab, dialoq və müzakirələr əsasında aparılır. Burada məqsəd şagirdin cari bilik səviyyəsini izləməkdir.

2. Həftəlik - mövzu sonu qiymətləndirmə - Müəyyən mövzu və ya bölmə bitdikdən sonar rollu oyunlar, təqdimatlar və ya şifahi tapşırıqlar vasitəsilə aparılır. Məqsəd konkret mövzu üzrə şagirdin danışıq bacarığını yoxlamaqdır.

3. Rüblük (summativ) qiymətləndirmə - Daha geniş və ümumiləşdirici xarakter daşıyır. Şagirdin ümumi danışıq bacarığını ölçmək üçün adətən imtahan və ya böyük təqdimat formasında həyata keçirilir.

4. Uzunmüddətli (monitorinq) qiymətləndirmə - audio-video yazılar və portfoliolar vasitəsilə müəyyən zaman çərçivəsində (məsələn yarımil və ya il boyu). Məqsəd şagirdin inkişafının müqayisəli təhlilidir.

Nəticə olaraq qeyd etmək olar ki, danışıq bacarıqlarının qiymətləndirilməsi davamlı (gündəlik) və mərhələli (həftəlik, rüblük) şəkildə aparılmalıdır. Ən effektiv yanaşma formativ və summativ qiymətləndirmənin birlikdə tətbiqidir. Bu, həm şagirdin inkişafını izləməyə, həm də yekun nəticəni obyektiv müəyyən etməyə imkan verir

**Qiymətləndirmənin şagird psixologiyasına təsiri?**

Qiymətləndirmə şagirdin yalnız bilik və bacarıqlarını ölçmək üçün istifadə olunmur, həm də onun psixoloji vəziyyətinə, motivasiyasına və özünəinamına ciddi şəkildə təsir göstərir. Burada müsbət və mənfi tərəflər özünü aydın şəkildə göstərir.

1. Müsbət təsirlər

a) Motivasiyanı artırır, şagird öz nailiyyətini görərək daha çox çalışmaq istəyir və uğur qazanmaq hissi öyrənməyə marağı gücləndirir.

b) Özünəinamın formalaşması təmin olunur, düzgün qiymətləndirmə şagirdin bacarıqlarına güvənini artırır, şagird özünü dəyərli hiss edir.

c) İnkişaf istiqaməti müəyyənləşmiş olur. Şagird hansı sahədə güclü, hansı sahədə zəif olduğunu başa düşür və bu şagirdə özünü təkmilləşdirməyə stimul verir.

2. Mənfi təsirlər

a) Stress və həyəcanın yaranması. Tez-tez və sərt şəkildə aparılan qiymətləndirmə şagirddə qorxu hissi yarada bilər.

b) Özünəinamın azalması. Davamlı zəif qiymətlər almaq şagirdin özünü dəyərsiz hiss etməsinə səbəb olur. Bu zaman səhv etməkdən çəkinmə və nitq qorxusu arta bilər.

Tədris prosesində psixoloji balansın təmin edilməsini təmin etmək üçün qiymətləndirmə obyektiv və ədalətli olmalıdır. Şagirdlərin fərdi xüsusiyyətləri, bilik səviyyəsi və emosional vəziyyəti mütləq şəkildə nəzərə alınmalıdır. Düzgün qiymətləndirmə tətbiq etməklə hər bir şagirdin inkişafı ön plana çəkilməlidir. Qiymətləndirmə zamanı yalnız səhvlərə fokuslanmaq düzgün deyil. Əsas məqsəd şagirdin ümumi kommunikativ bacarığını, nitqinin inkişaf səviyyəsini və potensialını müəyyən etməkdir. Nəticə olaraq qeyd etmək lazımdır ki, effektiv qiymətləndirmə psixoloji amilləri nəzərə alaraq balanslı və dəstəkləyici şəkildə aparılmalıdır.

**Material və metodlar.** Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi dili öyrənmə-

nin ən vacib və eyni zamanda ən çətin istiqamətlərindən biridir. Mövzu üzrə istifadə oluna biləcək materiallar və metodlar sistemli şəkildə aşağıdakı kimi təsnif oluna bilər:

1) Danışıq tapşırıqları üçün materiallar. Bura şəkil təsvirləri olan kartlar (məsələn: gündəlik həyat, məktəb, ailə mövzuları və s. bağlı), rollu oyunları özündə əks etdirən (role-play) kartlar, situativ suallar, mövzu kartları (topic cards), video və audio materiallar.

2) Qiymətləndirmə üçün istifadə olunan sənədlər. Bura qiymətləndirmə üçün istifadə olunan meyar cədvəli, şifahi imtahan vərəqləri, şagirdlərin danışıq inkişafını izləmək üçün istifadə olunan portfoliolar daxildir.

Şagirdlərin danışıq bacarığı adətən bu komponentlər üzrə qiymətləndirilməlidir: səlislik (fluency - danışıq fasiləsiz və axıcıdırmı?), dəqiqlik (accuracy - qrammatik və leksik səhvlər nə səviyyədədir?), lüğət ehtiyatı (vocabulary - müxtəlif və uyğun sözlərdən istifadə olunurmu?), tələffüz (pronunciation - sözlər aydın və düzgün tələffüz olunurmu?), ünsiyyət bacarığı (interaction - dialoq qurmaq və cavab vermək bacarığı).

3) Şagirdlərin danışıq bacarıqlarının effektiv qiymətləndirmə metodları aşağıdakılardır:

a) Dərs prosesində qısa sual-cavab, cütlərlə danışıq (pair work), müəllimin müşahidəsi və qeydləri əsasında aparılan formativ (davamlı) qiymətləndirmə.

b) Şifahi imtahan, mövzu üzrə təqdimat (presentation), rollu oyunlar vasitəsi ilə həyata keçirilən summativ (yekun) qiymətləndirmə.

c) Alternativ metodlar - bura özünüqiymətləndirmə aiddir. Şagird öz çıxışını analiz edir, bir-birini qiymətləndirir və qrup qiymətləndirməsi aparılır.

Bu istiqamətdə aşağıdakı tövsiyələrin verilməsi məqsədəuyğundur: qiymətləndirmə obyektiv və şəffaf olmalıdır, qiymətləndirmə yalnız səhvlərə deyil, inkişafa yönəlməlidir, dərs prosesində stresssiz mühit yaratmaq vacibdir. Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi üçün seçilmiş istənilən material və metod dərsin məqsədinə, şagirdlərin yaş səviyyəsinə və dərsin mərhələsinə uyğun olmalıdır.

Şagirdlərin danışıq bacarıqlarının inkişaf etdirilməsində istifadə edilən material və metodları seçərkən aşağıdakı meyarlar nəzərə alınmalıdır:

a) uyğunluq - şagirdin yaşına və dil səviyyəsinə uyğun olmalıdır

b) real həyatla əlaqə - tapşırıqlar gündəlik ünsiyyətə yaxın olmalıdır

c) aktiv iştirak – dərs prosesində müəllim yox, şagirdlər maksimum iştirak etməlidir

d) müxtəliflik - eyni metoddan çox istifadə etmək motivasiyanı azaldır

**Nəticə və müzakirə.** Müasir təhsil sistemində xarici dil təliminin əsas məqsədlərindən biri şagirdlərdə kommunikativ səriştənin formalaşdırılmasıdır. Bu kontekstdə danışıq bacarıqları dilin praktik tətbiqini təmin edən ən vacib komponentlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin şifahi nitq bacarıqlarının inkişafı onların yalnız dil biliklərini nümayiş etdirməsi ilə məhdudlaşmır, həmçinin onların real ünsiyyət zamanı effektiv iştirak etmələrinə şərait yaradır. Danışıq bacarıqlarının qiymətləndirilməsi pedaqoji fəaliyyətin daha da təkmilləşdirilməsinə xidmət edir. Lakin şifahi nitqin qiymətləndirilməsi öz mürəkkəbliyi ilə seçilir, obyektivlik, etibarlılıq, uyğun metod və meyarların seçilməsi baxımından müəyyən çətinliklər yaradır. Bu baxımdan təhsilverənlər tərəfindən tətbiq olunan qiymətləndirmə strategiyalarının elmi əsaslara söykənməsi xüsusi aktuallıq kəsb edir. Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi prosesi dil təlimində kommunikativ yanaşmanın əsas tələblərindən biridir. Bu proses şagirdlərin yalnız qrammatik biliklərini deyil, həm də onların real ünsiyyət zamanı dili istifadə etmə bacarıqlarını müəyyən etməyə yönəlir. Danışıq bacarıqlarının qiymətləndirilməsində müxtəlif metod və vasitələrin kompleks tətbiqi tələb olunur. Danışıq bacarıqlarının qiymətləndirilməsində istifadə olunan materiallar şagirdlərin yaş xüsusiyyətlərinə, dil səviyyəsinə və öyrənmə məqsədlərinə uyğun seçilməlidir. Bu materiallar şagirdlərə sərbəst fikir ifadə etmək, müxtəlif kommunikativ vəziyyətlərdə iştirak etməklə dil vahidlərini praktik şəkildə tətbiq etmək imkanı yaradır. Danışıq bacarıqlarının qiymətləndirilməsi dil təliminin ayrılmaz hissəsi kimi təhsilalanların kommunikativ səriştəsini obyektiv şəkildə müəyyən etməyə imkan verir. Aparılan tədqiqatlar göstərir ki, düzgün seçilmiş qiymətləndirmə meyarları şagirdlərin real dil istifadəsi səviyyəsini daha dəqiq əks

etdirir. Bununla yanaşı, müxtəlif qiymətləndirmə üsullarının tətbiqi nəticələrin etibarlılığını artırır. Müəllimin təcrübəsi, yanaşması və istifadə etdiyi meyarların dəqiqliyi nəticələrə birbaşa təsir edir. Eyni zamanda texnologiyanın tətbiqi qiymətləndirmə prosesinin daha şəffaf və təkrar yoxlanıla bilən olmasına şərait yaradır. Bu meyarlara səlislik, qrammatik düzgünlük, lüğət ehtiyatı, tələffüz və ünsiyyət bacarıqları daxildir. Həmin meyarlar əsasında hazırlanmış rubrikalar müəllimə qiymətləndirməni sistemli şəkildə aparmağa, həmçinin şagirdə öz zəif və güclü tərəflərini anlamağa kömək edir.

Nəticə olaraq, effektiv və balanslı qiymətləndirmə sistemi həm dil öyrənənlərin mövcud səviyyəsini müəyyən etməyə, həm də onların gələcək inkişaf istiqamətlərini planlaşdırmağa kömək etmiş olur. Bu isə öz növbəsində dil öyrənmə prosesinin keyfiyyətinin artırılmasında mühüm rol oynayır. Müasir pedaqoji yanaşmalarda şagirdlərin qiymətləndirmə prosesinə aktiv cəlb olunması vacib hesab edilir. Özünüqiymətləndirmə metodları şagirdlərin tənqidi düşünmə qabiliyyətini inkişaf etdirir, onların məsuliyyət hissini artırır və öyrənmə prosesinə daha şüurlu şəkildə yanaşmalarını təmin edir.

**Yekun nəticə.** Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi dil təliminin ayrılmaz və mühüm tərkib hissəsidir. Bu proses yalnız şagirdlərin dil biliklərini ölçmək deyil, həm də onların ünsiyyət qurma, fikirlərini sərbəst və aydın şəkildə fadə etmə bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Effektiv qiymətləndirmə üçün uyğun materialların seçilməsi, müxtəlif metodlardan istifadə, düzgün və obyektiv meyarların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, rollu oyunları debatlar, qrup müzakirələri və digər interaktiv fəaliyyətlər şagirdlərin danışıq bacarıqlarının inkişafına müsbət təsir göstərir. Danışıq bacarıqlarının qiymətləndirilməsi sistemli, davamlı və şagirdyönümlü şəkildə təşkil olunmalıdır. Bu yanaşma şagirdlərin dil bacarıqlarının kompleks inkişafına, onlarıda özünəinamın artmasına və real ünsiyyət zamanı dili effektiv istifadə etmələrinə şərait yaradır.

Şagirdlərin danışıq bacarıqlarının qiymətləndirilməsi xarici dil təlimində kommunikativ səriştənin formalaşdırılmasının əsas komponentlərindən biridir. Aparılan təhlillər göstərir ki, bu bacarıqların obyektiv və etibarlı qiymətləndirilməsi təkcə uyğun metod və vasitələrin seçilməsi ilə deyil, eyni zamanda, sistemli və məqsədyönlü yanaşmanın tətbiqi ilə mümkündür. Müəyyən edilmişdir ki, interaktiv metodların, o cümlədən rollu oyunların, debatların və qrup müzakirələrinin tətbiqi şagirdlərin şifahi nitq bacarıqlarının inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmiş olur. Aparılan tədqiqatlar göstərir ki, qiymətləndirmə prosesi sinifdə yalnız nəzarət mexanizmi kimi deyil, həm də öyrənməni dəstəkləyən pedaqoji vasitə kimi nəzərdən keçirilməlidir.

Beləliklə, şagirdlərin danışıq bacarıqlarının effektiv qiymətləndirilməsi kompleks, davamlı və şagirdyönümlü şəkildə təşkil edilməli, bu prosesdə müasir pedaqoji yanaşmalar və müasir qiymətləndirmə strategiyalarından geniş istifadə olunmalıdır.

**Ədəbiyyat**

**Azərbaycan dilində:**

1. Abdullayev, A. “Dil tədrisinin metodikası”. – Bakı: -Elm nəşriyyatı: – 2018. – s.112-130.
2. Hüseynov, F. “Xarici dillərin tədrisi metodikası”. – Bakı: Təhsil nəşriyyatı: – 2016. – s. 85-104.
3. Əliyeva, S. “Müasir təlim texnologiyaları və qiymətləndirmə”. – Bakı: ADPU nəşriyyatı: – 2017. - s.140-162.
4. Quliyev, R. “Kommunikativ yanaşma və dil öyrənmə”. – Bakı: Elm və Təhsil: – 2020. – s.98-120.
5. Rzayeva, N. “Pedaqoji qiymətləndirmənin əsasları”. – Bakı: Təhsil nəşriyyatı: – 2015. – s.67-89.
6. Kərimov, T. Şifahi nitqin inkişafı yolları. – Bakı: Elm nəşriyyatı: – 2021. – s.73-95.
7. Səfərova, L. “Təhsildə ölçmə və qiymətləndirmə”. – Bakı: Müəllim nəşriyyatı: – 2018, – s.101-125.

**İngilis dilində:**

9. Brown, H. D. “Language Assessment: Principles and Classroom Practices”. – New York Pearson Education: – 2004. – p.140-165.
10. Hughes, A. “Testing for Language Teachers”. Cambridge University Press: – 2003. – p.113-136.

11. Luoma, S. “Assessing Speaking”. Cambridge University Press: – 2004. – p.29-78.
12. Thornbury, S. “How to Teach Speaking”. – London: Longman: – 2005. – p.90-120.
13. Harmer, J. “How to Teach English”. – Harlow: Pearson Longman: – 2007. – p.123-150.
14. Fulcher, G. “Practical Language Testing”. - London: Hodder Education: – 2010. – p. 210-235.

*Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2026, son daxilolma – 12.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.39-42*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.39-42*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.39-42*

**UOT: 37(091)(479.24)"04/14"**

# Orta əsrlərdə Azərbaycanda təhsil məsələlərinə dair

**Müəllif(lər):**

**Elnarə Fərzəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** elnareferzeliyeva13@gmail.com
https://orcid.org/0009-0009-2536-0508

**Açar sözlər:** təhsil, orta əsrlər dövrü, elm və mədəniyyət, dini təhsil, dünyəvi biliklər, intibah dövrü

**Annotasiya.** Məqalədə VIII–XVIII əsrlərdə Azərbaycanda təhsil sisteminin formalaşması, inkişaf mərhələləri və dünyəvi biliklərin tədris prosesində tutduğu yer elmi aspektdən araşdırılmışdır. Qeyd olunur ki, sözügedən dövr Azərbaycan tarixində maarifçilik ənənələrinin təşəkkülü və inkişafı baxımından mühüm mərhələ təşkil etmişdir. Təhsilin ilkin mərhələlərdə əsasən dini xarakter daşımasına baxmayaraq, məktəb və mədrəsələrdə dünyəvi elmlərin tədrisi də mühüm yer tutmuşdur. Dini biliklərlə yanaşı riyaziyyat, astronomiya, tibb, fəlsəfə, məntiq, tarix və ədəbiyyat kimi elmlər tədris edilmiş, bu biliklər cəmiyyətin sosial və praktiki ehtiyaclarının ödənilməsinə xidmət göstərmişdir.

Şəhərlərin inkişafı, ticarət və sənətkarlığın genişlənməsi dünyəvi təhsilə olan tələbatı artırmış, təhsilin sosial və iqtisadi funksiyalarının güclənməsinə şərait yaratmışdır. XI-XIII əsrlər Azərbaycanda elm və mədəniyyətin intibah dövrü kimi səciyyələndirilir. Həmin dövrdə Naxçıvan mədrəsələri, Marağa rəsədxanası, "Şənb-i Qazan" və "Rəb-i Rəşidi" kimi mühüm elm-təhsil mərkəzləri fəaliyyət göstərmişdir.

Səfəvilər dövründə təhsilin dövlət idarəçiliyində rolu daha da artmış, ana dilinin mövqeyi möhkəmlənmişdir. XVII–XVIII əsrlərdə isə dünyəvi biliklərin praktik tətbiq əhəmiyyəti yüksəlmiş, nəticə etibarilə XIX əsrdə müasir dünyəvi məktəblərin yaranması üçün möhkəm tarixi və ideoloji zəmin formalaşmışdır.

Tədqiqat nəticələri göstərir ki, orta əsrlər Azərbaycanında təhsil sistemi yalnız dini maarifçilik funksiyası daşımamış, eyni zamanda elmi biliklərin yayılması, mədəni inkişafın təmin olunması və intellektual mühitin formalaşmasında mühüm rol oynamışdır.

## On educational issues in medieval Azerbaijan

**Author(s):**

**Elnara Farzaliyeva**
Nakhchivan Teachers Institute
Master Student
**E-mail:** elnareferzeliyeva13@gmail.com
https://orcid.org/0009-0009-2536-0508

**Keywords:** education, medieval period, science and culture, religious education, secular knowledge, Renaissance period

**Abstract.** The article scientifically examines the formation of the educational system in Azerbaijan during the 8th–18th centuries, the stages of its development, and the role of secular knowledge in the educational process. It is noted that this period represented an important stage in the formation and development of educational and enlightenment traditions in the history of Azerbaijan. Although education in the early stages was predominantly religious in character, the teaching of secular sciences also occupied an important place in schools and madrasas. Alongside religious studies, subjects such as mathematics, astronomy, medicine, philosophy, logic, history, and literature were taught, serving the social and practical needs of society.

The development of cities, trade, and craftsmanship increased the demand for secular education and strengthened the social and economic functions of the educational system. The 11th–13th centuries are characterized as a period of scientific and cultural renaissance in Azerbaijan. During this period, important scientific and educational centers such as the Nakhchivan madrasas, the Maragha Observatory, "Shanb-i Ghazan," and "Rab-i Rashidi" operated actively.

During the Safavid period, the role of education in state administration increased, and the position of the native language was strengthened. In the 17th–18th centuries, the practical significance of secular knowledge further expanded, ultimately creating a strong historical and ideological foundation for the emergence of modern secular schools in the 19th century.

The findings of the study demonstrate that the educational system of medieval Azerbaijan performed not only a religious and educational function but also played a significant role in the dissemination of scientific knowledge, the development of culture, and the formation of an intellectual environment.

## К вопросу об образовании в средневековом Азербайджане

**Автор(ы):**

**Эльнара Фарзалиева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** elnareferzeliyeva13@gmail.com
https://orcid.org/0009-0009-2536-0508

**Ключевые слова:** образование, средневековый период, наука и культура, религиозное образование, светские знания, эпоха Возрождения

**Аннотация.** В статье с научной точки зрения исследуются формирование системы образования в Азербайджане в VIII–XVIII веках, этапы её развития и место светских знаний в образовательном процессе. Отмечается, что данный период стал важным этапом в становлении и развитии просветительских традиций в истории Азербайджана. Несмотря на то, что на ранних этапах образование носило преимущественно религиозный характер, в школах и медресе значительное место занимало преподавание светских наук. Наряду с религиозными знаниями преподавались математика, астрономия, медицина, философия, логика, история и литература, что способствовало удовлетворению социальных и практических потребностей общества.

Развитие городов, торговли и ремесленничества усилило потребность в светском образовании и способствовало укреплению социальных и экономических функций образования. XI–XIII века характеризуются как период расцвета науки и культуры в Азербайджане. В этот период функционировали такие крупные научно-образовательные центры, как Нахчыванские медресе, Марагинская обсерватория, «Шанб-и Газан» и «Раб-и Рашиди».

В эпоху Сефевидов возросла роль образования в системе государственного управления, а позиции родного языка значительно укрепились. В XVII–XVIII веках ещё более повысилось значение практического применения светских знаний, что в дальнейшем создало прочную историческую и идеологическую основу для формирования современных светских школ в XIX веке.

Результаты исследования показывают, что система образования средневекового Азербайджана выполняла не только религиозно-просветительскую функцию, но и играла важную роль в распространении научных знаний, развитии культуры и формировании интеллектуальной среды.

**Giriş.** Azərbaycanın tarixi inkişaf prosesi onun təhsil və maarifçilik ənənələrində aydın şəkildə öz əksini tapmışdır. Qədim və orta əsrlər dövründə bu ərazi yalnız siyasi və iqtisadi baxımdan deyil, eyni zamanda elmi və mədəni baxımdan da mühüm mərkəzlərdən biri olmuşdur. VIII–XVIII əsrlər Azərbaycan tarixində uzunmüddətli, mürəkkəb və çoxşaxəli bir mərhələni əhatə edir. Bu dövr ərzində təhsil sistemi tədricən formalaşmış, cəmiyyətin sosial quruluşuna, ideoloji yönümünə və iqtisadi ehtiyaclarına uyğun şəkildə inkişaf etmişdir.

İlkin mərhələlərdə təhsil əsasən dini mahiyyət daşısa da, bu heç vaxt dünyəvi biliklərin tam kənarda qalması anlamına gəlməmişdir. Əksinə, dini təhsil mühiti daxilində dünyəvi elmlər paralel şəkildə inkişaf etmiş, insanın dünyanı dərk etməsinə xidmət edən biliklər nəsildən-nəslə ötürülmüşdür. Dünyəvi məktəblərin sonrakı dövrlərdə meydana çıxması məhz bu uzunmüddətli inkişaf prosesinin məntiqi nəticəsi olmuşdur.

**Tədqiqatın aktuallığı**: Azərbaycanda orta əsrlərdə maarif və təhsilin tədqiqi müasir humanitar elmlər sistemində mühüm yer tutur və bir sıra elmi, mədəni və ictimai amillərlə şərtlənən aktual mövzu kimi çıxış edir. Bu dövrlər Azərbaycan cəmiyyətinin sosial-iqtisadi, mədəni və ideoloji inkişaf mərhələlərinin formalaşmasında həlledici rol oynamış, maarif və təhsil isə həmin proseslərin əsas aparıcı qüvvələrindən biri olmuşdur. Bu baxımdan VIII–XVIII əsrlərdə Azərbaycanda dünyəvi təhsilin formalaşma mərhələlərinin araşdırılması təkcə tarixi deyil, həm də pedaqoji və mədəni baxımdan xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi**. Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, VIII–XVIII əsrlərdə Azərbaycanda dini təhsil institutlarının dünyəvi elmlərin sistemli inkişafında oynadığı rol kompleks şəkildə təhlil olunaraq, onların müasir dünyəvi təhsil modelinin formalaşmasına institusional və ideoloji zəmin yaratdığı elmi əsaslarla sübut edilmişdir.

Obyekti və predmeti. VIII–XVIII əsrlərdə Azərbaycanda təhsil sisteminin inkişafı və bu sistem daxilində dünyəvi elmlərin formalaşaraq müasir dünyəvi təhsil modelinin təşəkkülünə təsirinin öyrənilməsi tedqiqatin obyektini təşkil edir.

**Tədqiqatın məqsədi.** VIII–XVIII əsrlərdə Azərbaycanda mövcud olmuş təhsil sisteminin xüsusiyyətlərini araşdırmaq, dini və dünyəvi elmlərin qarşılıqlı əlaqəsini təhlil etmək və bu tarixi təcrübənin müasir dünyəvi təhsil modelinin formalaşmasına təsirini müəyyənləşdirmək məqalənin məqsədi kimi çıxış edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Orta əsr Azərbaycan təhsil ənənələrinin elmi əsaslarını sistemləşdirərək dini və dünyəvi biliklərin qarşılıqlı təsir mexanizmini konseptual şəkildə izah etmək və müasir dünyəvi təhsil modelinin tarixi-intellektual köklərinin elmi şərhini vermək tədqiqatın nəzəri əhəmiyyətini müəyyən edir.

**Praktik əhəmiyyəti**. Əldə olunan nəticələr Azərbaycan təhsil tarixinin tədrisində, ali və orta ixtisas təhsil müəssisələrində müvafiq fənlərin proqramlarının hazırlanmasında, eləcə də müasir təhsil strategiyalarının formalaşdırılmasında tarixi təcrübədən səmərəli istifadə baxımından elmi əsas kimi tətbiq oluna bilər.

**Materiallar və metodlar**: Tədqiqatın aparılmasında tarixi-xronoloji, analitik, müqayisəli və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Tarixi-xronoloji metod vasitəsilə VIII–XVIII əsrlər ərzində təhsil sisteminin inkişaf mərhələləri ardıcıl şəkildə təhlil olunmuşdur. Analitik metod dünyəvi biliklərin təhsil sistemində tutduğu mövqeyi və funksional əhəmiyyətini müəyyənləşdirməyə imkan vermişdir.

Müqayisəli yanaşma Azərbaycanın təhsil mühitini digər Şərq ölkələri ilə müqayisə etməyə şərait yaratmış, sistemli yanaşma isə təhsili cəmiyyətin siyasi, iqtisadi və mədəni strukturu ilə qarşılıqlı əlaqədə araşdırmağa imkan vermişdir. Bu metodoloji çərçivə mövzunun kompleks şəkildə öyrənilməsini təmin etmişdir.

**Nəticə və müzakirələr.** Müasir dövrdə dünyəvi təhsil anlayışı cəmiyyətin davamlı inkişafının əsas şərtlərindən biri kimi qəbul olunur. Elmi biliklərə, rasional düşüncəyə və humanist dəyərlərə əsaslanan təhsil modeli bu gün Azərbaycan dövlətinin təhsil siyasətinin təməlini təşkil edir. Lakin bu model tarixi baxımdan köksüz deyil. Onun ideya və məzmun əsasları yüzilliklər ərzində formalaşmışdır.

VIII–XVIII əsrlərdə Azərbaycanda mövcud olmuş təhsil formalarının öyrənilməsi müasir dünyəvi məktəblərin tarixi mənşəyini anlamağa imkan verir. Bu dövrdə dini və dünyəvi biliklə-

rin qarşılıqlı əlaqəsi, elmin cəmiyyət həyatındakı rolu və təhsilin sosial funksiyaları bugünkü təhsil sisteminin formalaşmasında mühüm rol oynamışdır.

Onu da qeyd edək ki, VIII əsrdən etibarən Azərbaycan ərazisində tədricən müsəlman məktəbləri yayılmağa başladı. Azərbaycanda ilk müsəlman məktəbinin aşılışı VIII əsrin birinci yarısına təsadüf edir [1, s. 46].

VIII əsrdən etibarən Azərbaycanda formalaşan təhsil sistemi əsasən dini xarakter daşıyırdı. Məktəblər və mədrəsələr savadlı din xadimlərinin, qazilərin və müəllimlərin hazırlanmasına xidmət edirdi. Bununla belə, bu təhsil ocaqlarında tədris yalnız dini mətnlərin əzbərlənməsi ilə məhdudlaşmırdı. Riyaziyyatın əsas anlayışları, məntiqi düşüncə qaydaları, astronomik müşahidələr və tibbi biliklər gündəlik həyatın zərurətlərindən irəli gələrək tədris prosesinə daxil edilmişdi.

İslam dünyagörüşündə elmin yüksək dəyərə malik olması dünyəvi biliklərin inkişafına müsbət təsir göstərmişdir. Elmi biliklər Tanrının yaratdığı aləmi dərk etməyin bir vasitəsi kimi qəbul edilirdi. Bu yanaşma Azərbaycanda dünyəvi elmlərin təhsil mühitində möhkəmlənməsinə şərait yaratmışdır.

IX-X əsrlərdə şəhərlərin sürətli inkişafı təhsilin sosial bazasını xeyli genişləndirdi. Şəhər əhalisi arasında savadlılığa olan ehtiyac artdı. Ticarət əməliyyatları, vergi sistemi, torpaq münasibətləri və sənətkarlıq sahəsində fəaliyyət dünyəvi biliklərin praktik əhəmiyyətini artırdı. Bu dövrdə təhsil artıq yalnız dini məqsədlərə deyil, eyni zamanda iqtisadi və inzibati ehtiyaclara da xidmət etməyə başladı.

XI-XIII əsrlər Azərbaycanda elmin və mədəniyyətin intibah dövrü kimi xarakterizə olunur. Bu mərhələdə dünyəvi elmlər yüksək inkişaf səviyyəsinə çatmışdır. Fəlsəfə insanın idrak imkanlarını genişləndirir, məntiq düşüncə mədəniyyətini formalaşdırırdı. Riyaziyyat və astronomiya kainatın qanunauyğunluqlarını anlamağa xidmət edirdi. Təhsil artıq yalnız bilik ötürmək deyil, eyni zamanda tədqiqat aparmaq funksiyasını da yerinə yetirirdi.

XII əsrdə Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən mədrəsələr arasında Naxçıvan mədrəsələri daha çox diqqət çəkir. Həmin mədrəsələr haqqında ilk məlumata XIII əsrdə naməlum müəllif tərəfindən yazılmış "Əcaib əd-dünya" adlı kitabda təsadüf edilir. Burada yazılır: "Naxçıvan Azərbaycanda böyük və abad bir şəhərdir və orada çoxlu saraylar, mədrəsələr tikilmişdir... Naxçıvanda olan imarət, məscidlər və mədrəsələr heç bir kənd və şəhərdə yoxdur" [4, s. 27].

Marağa şəhəri XIII əsr təhsil şəbəkəsində xüsusi yer tuturdu. Belə ki, Marağa şəhərində mədrəslərin sayı çox idi. Nəsirəddin Tusinin yaratdığı və 15 ildən artıq rəhbərlik etdiyi Marağa rəsədxanasının fəaliyyəti Azərbaycanda dünyəvi təhsilin institusional xarakter almasının bariz nümunəsidir. Marağa rəsədxanası riyaziyyat, astronomiya, fəlsəfə və bir çox digər elm sahələri üzrə dövrünün tanınmış alimlərinin elmi və pedaqoji fəaliyyətlərini birləşdirən nümunəvi tədris və elm ocaqlarından biri idi. Burada elmi müşahidələr sistemli şəkildə aparılır, biliklər praktiki nəticələrlə zənginləşdirilirdi. Bu mərkəz orta əsr dünyasında elmin təşkilatlanmış formalarının mövcud olduğunu göstərir.

Marağa rəsədxanasında Azərbaycan alimləri Fəxrəddin Marağayi və Şəmsəddin Şirvani, eyni zamanda Yaxın və Orta Şərq ölkələrindən, Çindən gəlmiş alimlər də çalışırdılar. Burada elmi risalələr, ulduzlu səmanın xəritəsi, ulduz kataloqları tərtib olunurdu. Bu rəsədxana həm də başqa ölkələrdə astronomiyanın inkişafına böyük təsir göstərmişdir. Beləki, Marağa rəsədxanası Özbəkistandakı Uluqbəy rəsədxanası və məşhur Pekin rəsədxanası üçün nümunə rolunu oynamışdır.

XIV əsrdə bəzi mədrəsələrin nəzdində rəsədxana, müalicə evləri və elmi kitabxanalar təşkil edilmişdi. Belə təhsil ocaqları, əslində dövrün tanınmış alimləirinin elmi-pedaqoji fəaliyyətlərini birləşdirən mərkəzlər idi. Buna misal olaraq "Şənb-i Qazan", "Rəb-i Rəşidi" və "Sultaniyyə" mədrəsələrini göstərmək olar. Təbrizdə tikintisi 1302-ci ildə başlamış "Şənb-i Qazan" təhsil müəssisəsi kompleksi- məscid, xanəgah, iki mədrəsə, dar-üs şəfa, rəsədxana, kitabxana, kitabları və rəsədxana cihazlarını təmir edən emalatxana, məiktəbxana, körpələr evi, mədəni məişət ocaqları və müdiriyyət evindən ibarət olmuşdur [3].

XIV-XV əsrlərdə baş verən siyasi çətinliklər və müharibələr təhsilin inkişaf tempini zəiflətsə də, elmi ənənələr tamamilə məhv olmamışdır.

Mədrəsələrdə dünyəvi biliklərin tədrisi davam etdirilmiş, xüsusilə tarix və ədəbiyyat sahələri ön plana çıxmışdır. Bu dövrdə təhsil daha çox elmi irsin qorunmasına yönəlmişdi.

XVI əsrdə Səfəvilər dövlətinin yaranması təhsilin ictimai rolunu artırdı. Dövlət idarəçiliyi üçün savadlı kadrların hazırlanması zəruri idi. Ana dilinin mövqeyinin möhkəmlənməsi təhsilin sosial bazasını daha da genişləndirdi. Dünyəvi biliklər dövlət maraqları ilə sıx şəkildə əlaqələndirilməyə başladı.

Övliya Çələbinin "Səyahətnamə" əsərində verdiyi məlumata görə, XVII əsrdə Azərbaycan ərazisində 1200 ibtidai məktəb və 100 mədrəsə var idi. Orta hesabla hər məktəbdə 50-100 nəfərə qədər şagird, hər mədrəsədə isə yüzlərlə bəzi halda isə 1000-dən artıq tələbə təhsil alırdı. "Səyahətnamə" əsərində göstərilir ki, 1647-ci ildə Təbrizdə 600 ibtidai məktəb və 47 mədrəsə var idi. Mədrəsələrdə həm dini, həm də dünyəvi elmlər öyrənilirdi. Ərdəbil, Marağa, Gəncə kimi şəhərlərdə dini məktəblər və mədrəsələr açılmışdı. Marağa rəsədxanası bərpa edilmişdi [5].

XVII əsrdə Azərbaycanda maarif əsas etibarilə şəhər əhalisi arasında yayılırdı. Kəndli kütlələrinin böyük əksəriyyəti elm və təhsildən kənarda qalırdı. Azərbaycan şəhərinin hər məhəlləsində isə bir neçə məktəb var idi, kənd yerlərində bir məktəb bir neçə kəndə xidmət edirdi [2, s. 78].

XVII–XVIII əsrlərdə iqtisadi münasibətlərin inkişafı dünyəvi biliklərin tətbiqi əhəmiyyətini daha da artırdı. Ticarət yollarının genişlənməsi, sənətkarlığın mürəkkəbləşməsi və hərbi texnikanın inkişafı biliklərin praktiki istifadəsini zəruri edirdi. Bu dövrdə təhsil getdikcə daha çox dünyəvi xarakter almağa başladı və gələcək dünyəvi məktəblərin yaranması üçün möhkəm ideoloji zəmin formalaşdırdı. Bu dövrdə Azərbaycan tarixində milli məktəb və maarifin inkişafını xüsusi olaraq qeyd etmək yerinə düşər.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, XVIII əsrdə ərəb və fars dili ilə yanaşı, Azərbaycan dili də öz milli hüququna yiyələnir, istifadə dairəsi genişlənir. Azərbaycan dili elmdə daha geniş isrifadə edilməyə başladı.

Yekun nəticə: Aparılan tədqiqat göstərir ki, VIII-XVIII əsrlər Azərbaycan təhsil tarixində mürəkkəb, lakin ardıcıl inkişaf xətti ilə səciyyələnən mühüm bir mərhələ olmuşdur. Bu dövrdə formalaşan təhsil sistemi cəmiyyətin dini, sosial, iqtisadi və mədəni ehtiyacları ilə sıx bağlı şəkildə inkişaf etmiş, zaman keçdikcə daha geniş funksiyalar yerinə yetirməyə başlamışdır. İlkin mərhələlərdə dini xarakter üstünlük təşkil etsə də, dünyəvi biliklər heç bir zaman təhsil mühitindən tam kənarda qalmamış, əksinə, praktik həyatın tələblərinə uyğun olaraq davamlı şəkildə tədris edilmişdir.

XVII–XVIII əsrlərdə dünyəvi biliklərin tətbiqi əhəmiyyətinin artması, iqtisadi münasibətlərin mürəkkəbləşməsi və elmi biliklərə praktik ehtiyacın güclənməsi nəticəsində təhsil tədricən daha dünyəvi məzmun kəsb etmişdir. Bütün bu tarixi inkişaf prosesi XIX əsrdə Azərbaycanda müasir dünyəvi məktəblərin yaranması üçün möhkəm ideya, institusional və mədəni zəmin formalaşdırmışdır. Beləliklə, orta əsrlər dövründə formalaşan təhsil ənənələri Azərbaycan maarifçilik tarixinin davamlılığını və varislik prinsipini aydın şəkildə nümayiş etdirir.

**Ədəbiyyat**


1. Ağalarlı Mübariz. Azərbaycanda təhsil ənənələri və Şuşa şəhəri. tarix, insan və cəmiyyət. – 2022, 4 (37), – s.41-55.
2. Qasımov Xeyirbəy. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. – Bakı: – 2008. – 448 s.
3. Quliyev Bayram. Şəmbi qazan kompleksi və onun Azərbaycan təhsil sistemində yeri. https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99nbi-Qazan
4. Mərdanov Misir. Azərbaycan təhsil tarixi.– Bakı: Təhsil, – 2011. – 296 s.
5. Ömərov Vahid. XVII əsrdə Azərbaycan mədəniyyəti. "Səs" qəzeti. 11 yanvar 1991



*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2026, son daxilolma – 05.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 376:37.015.3

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.43-46*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.43-46*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.43-46*

# İnklüziv təhsildə psixoloji hazırlığın rolu və əhəmiyyəti

**Müəllif(lər):**
**Ülviyyə Nağıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
Baş müəllim
**E-poçt:** ulviyyenagiyeva921@gmail.com
**Hidayət Məmmədov**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** hidayet.mamedov020@gmail.com

**Açar sözlər:** psixoloji hazırlıq, inklüziv təhsil, sosial-emosional dəstək, müəllim hazırlığı, valideyn hazırlığı, məktəb mühiti, psixoloji təhlükəsizlik

**Annotasiya.** Məqalədə inklüziv təhsil mühitində psixoloji hazırlığın rolu elmi və praktik yanaşmalar əsasında təhlil edilmişdir. Tədqiqatda müəllimlərin, valideynlərin və məktəb rəhbərliyinin psixoloji baxımdan hazırlıqlı olmasının inklüziv təhsil proseslərinin səmərəliliyinə və uğuruna birbaşa təsir göstərdiyi vurğulanır. Müasir empirik araşdırmalar göstərir ki, yüksək psixoloji hazırlığa malik müəllimlər fərqli təhsil ehtiyacları olan şagirdlərlə daha çevik və effektiv işləyir, emosional tənzimləmə və sosial-emosional dəstək strategiyalarını daha uğurla tətbiq edirlər.

Məqalədə qeyd olunur ki, valideynlərin psixoloji maariflənməsi uşaqların sosial adaptasiya səviyyəsinin yüksəlməsinə və emosional təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərir. Eyni zamanda məktəb rəhbərliyinin psixoloji liderlik bacarıqları inklüziv təhsil mühitində əməkdaşlığın, qarşılıqlı dəstəyin və sağlam psixoloji atmosferin formalaşmasına şərait yaradır. Aparılan araşdırmalar göstərir ki, şagirdlər üçün psixoloji təhlükəsizliyin təmin edilməsi onların özünəinamının, motivasiyasının və təlim prosesində fəal iştirak səviyyəsinin artmasına səbəb olur.

Məqalədə psixoloji hazırlığın yalnız fərdi səviyyədə deyil, həm də sistemli yanaşma çərçivəsində qiymətləndirilməsinin vacibliyi xüsusi vurğulanır. Bununla yanaşı, inklüziv təhsil mühitində psixoloji dəstəyin gücləndirilməsi və bütün iştirakçıların psixoloji hazırlıq səviyyəsinin artırılması istiqamətində praktik tövsiyələr təqdim edilir.

## The role and significance of psychological preparedness in inclusive education

**Author(s):**
**Ulviyya Nagiyeva**
Nakhchivan Teachers Institute
PhD on Pedagogy
Senior Teacher
**E-mail:** ulviyyenagiyeva921@gmail.com
**Hidayat Mammadov**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** hidayet.mamedov020@gmail.com

**Keywords:** psychological preparedness, inclusive education, socio-emotional support, teacher training, parent preparation, school environment, psychological safety

**Abstract.** The article analyzes the role of psychological preparedness in the inclusive educational environment based on scientific and practical approaches. The study emphasizes that the psychological readiness of teachers, parents, and school administrators has a direct impact on the effectiveness and success of inclusive educational processes. Contemporary empirical research demonstrates that teachers with a high level of psychological preparedness work more flexibly and effectively with students who have diverse educational needs and apply emotional regulation and socio-emotional support strategies more successfully.

The article further notes that the psychological awareness of parents positively influences children's social adaptation and emotional security. At the same time, the psychological leadership skills of school administrators contribute to the establishment of cooperation, mutual support, and a positive psychological atmosphere within the inclusive educational environment. Research findings confirm that ensuring psychological safety for students enhances their self-confidence, motivation, and active participation in the learning process.

Special attention is paid to the importance of evaluating psychological preparedness not only at the individual level but also within a systemic framework. In addition, the article presents practical recommendations aimed at strengthening psychological support and increasing the level of psychological preparedness among all participants in the inclusive education process.

## Роль и значение психологической подготовки в инклюзивном образовании

**Автор(ы):**
**Ульвия Нагиева**
Нахчыванский институт учителей
Доктор философии по педагогике
Старший преподаватель
**Э-почта:** ulviyyenagiyeva921@gmail.com
**Хидаят Мамеdov**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** hidayet.mamedov020@gmail.com

**Ключевые слова:**
психологическая подготовка, инклюзивное образование, социально-эмоциональная поддержка, подготовка учителей, подготовка родителей, школьная среда, психологическая безопасность

**Аннотация.** В статье на основе научных и практических подходов анализируется роль психологической подготовки в условиях инклюзивного образования. В исследовании подчёркивается, что психологическая готовность учителей, родителей и администрации школы оказывает непосредственное влияние на эффективность и успешность инклюзивных образовательных процессов. Современные эмпирические исследования показывают, что педагоги с высоким уровнем психологической подготовки более гибко и эффективно работают с учащимися, имеющими различные образовательные потребности, а также успешнее применяют стратегии эмоциональной регуляции и социально-эмоциональной поддержки.

В статье отмечается, что психологическая просвещённость родителей положительно влияет на уровень социальной адаптации детей и обеспечение их эмоциональной безопасности. Вместе с тем навыки психологического лидерства школьной администрации способствуют формированию сотрудничества, взаимной поддержки и благоприятной психологической атмосферы в инклюзивной образовательной среде. Исследования подтверждают, что обеспечение психологической безопасности учащихся способствует повышению их самооценки, мотивации и активности в учебном процессе.

Особое внимание в статье уделяется необходимости оценки психологической подготовки не только на индивидуальном, но и на системном уровне. Наряду с этим представлены практические рекомендации, направленные на усиление психологической поддержки и повышение уровня психологической готовности всех участников инклюзивного образовательного процесса.

**Giriş.** Psixoloji hazırlığın inklüziv təhsil mühitində rolu müasir pedaqoji yanaşmaların ən çox diqqət yönəltdiyi məsələlərdən biridir. Təhsil sistemində müxtəlif ehtiyaclı şagirdlərin birgə təlim alması üçün yalnız fiziki və təşkilati şəraitin deyil, həm də psixoloji baxımdan sağlam və dəstəkləyici mühitin yaradılması vacibdir. Qloballaşan dünyada sosial inteqrasiya, tolerantlıq, emosional rifah və bərabər təhsil imkanlarının təmin edilməsi ilə bağlı artan tələblər psixoloji hazırlıq mövzusunun aktuallığını daha da artırır. Son illərdə aparılan tədqiqatlar da göstərir ki, inklüziv təhsilin uğuru müəllimlərin, valideynlərin və məktəb kollektivinin psixoloji hazırlıq səviyyəsi ilə birbaşa əlaqəlidir.

Araşdırmanın məqsədi psixoloji hazırlığın inklüziv təhsildə əhəmiyyətini elmi əsaslarla müəyyənləşdirmək, bu hazırlığın müəllim, şagird və valideyn davranışına təsirini təhlil etmək, həmçinin inklüziv mühitdə psixoloji dəstəyin tətbiq mexanizmlərini sistemləşdirməkdən ibarətdir. Bu məqsəddən irəli gələn vəzifələrə psixoloji hazırlıq anlayışının məzmununun izahı, inklüziv təhsilin psixoloji komponentləri ilə bağlı yerli və xarici elmi mənbələrin təhlili, məktəb mühitində sosial-emosional dəstəyin rolunun müəyyənləşdirilməsi və psixoloji hazırlığın artırılması üçün praktik tövsiyələrin hazırlanması daxildir.

Tədqiqatın metodologiyası pedaqoji-psixoloji analiz, müqayisəli yanaşma, elmi ədəbiyyatın sistemləşdirilməsi, müşahidə və müasir empirik məlumatların təhlilinə əsaslanır. İş boyunca inklüziv təhsil sahəsində aparılmış beynəlxalq və lokal tədqiqatlar müqayisəli şəkildə araşdırılır, psixoloji hazırlığın tədris prosesinə təsiri əyani nümunələr və praktik nəticələr əsasında qiymətləndirilir. Bu yanaşma mövzunun həm nəzəri, həm də praktik aspektlərini hərtərəfli öyrənməyə və inklüziv təhsil mühitində psixoloji hazırlığın real əhəmiyyətini elmi əsaslarla ortaya qoymağa imkan verir.

**Material və metodlar.** Tədqiqat inklüziv təhsil mühitində psixoloji hazırlığın rolunu və əhəmiyyətini müəyyənləşdirmək məqsədilə kompleks metodoloji yanaşma əsasında həyata keçirilmişdir. Araşdırmanın materiallarını inklüziv təhsil, psixoloji hazırlıq, sosial-emosional dəstək və müəllim hazırlığı ilə bağlı beynəlxalq və yerli elmi ədəbiyyat, elmi məqalələr, hesabatlar və metodik sənədlər təşkil etmişdir. Xüsusilə UNESCO, OECD və Avropa Təhsil Fondunun inklüziv təhsil sahəsində hazırladığı analitik hesabatlar, həmçinin pedaqogika və təhsil psixologiyası üzrə aparılmış empirik tədqiqatların nəticələri material bazasının əsasını təşkil etmişdir. Bundan əlavə, müəllimlərin psixoloji hazırlığı, inklüziv sinif mühitində sosial-emosional dəstək strategiyaları və valideynlərin maariflənməsi ilə bağlı müasir elmi araşdırmaların nəticələri sistemli şəkildə təhlil edilmişdir.

Tədqiqatın metodoloji əsasını pedaqoji və psixoloji yanaşmaların inteqrasiyasına əsaslanan kompleks analiz təşkil edir. Araşdırma zamanı bir neçə əsas elmi metoddan istifadə edilmişdir. İlk növbədə, elmi ədəbiyyatın sistemli təhlili metodu tətbiq edilmişdir. Bu metod vasitəsilə inklüziv təhsildə psixoloji hazırlıqla bağlı beynəlxalq və regional tədqiqatların nəticələri araşdırılmış, mövcud nəzəri yanaşmalar və praktik təcrübələr müqayisəli şəkildə qiymətləndirilmişdir.

Tədqiqat çərçivəsində müqayisəli analiz metodundan da istifadə edilmişdir. Bu metod vasitəsilə müxtəlif ölkələrdə inklüziv təhsil mühitində psixoloji hazırlıqla bağlı tətbiq olunan yanaşmalar, müəllim hazırlığı proqramları və məktəb mühitində psixoloji dəstək mexanizmləri müqayisəli şəkildə öyrənilmişdir. Müqayisəli yanaşma psixoloji hazırlığın müxtəlif təhsil sistemlərində hansı formada tətbiq edildiyini müəyyənləşdirməyə və inklüziv təhsildə effektiv strategiyaları müəyyən etməyə imkan vermişdir.

Tədqiqat prosesində empirik məlumatların interpretasiyası da həyata keçirilmişdir. İnklüziv təhsil sahəsində aparılmış beynəlxalq tədqiqatların nəticələri təhlil edilmiş, müəllimlərin psixoloji hazırlıq səviyyəsinin tədris keyfiyyətinə, şagirdlərin sosial adaptasiyasına və təlimdə iştirak aktivliyinə təsiri qiymətləndirilmişdir. Bu yanaşma psixoloji hazırlığın yalnız nəzəri konsepsiya deyil, həm də praktik nəticələrə təsir edən mühüm faktor olduğunu göstərməyə imkan vermişdir.

Beləliklə, tədqiqatın material və metodları inklüziv təhsil sahəsində mövcud elmi mənbələrin sistemli təhlilinə, müqayisəli pedaqoji yanaşmaya və empirik tədqiqat nəticələrinin interpretasiyasına əsaslanmışdır. Bu metodoloji yanaşma inklüziv təhsil mühitində psixoloji hazır-

lığın rolunu kompleks şəkildə qiymətləndirməyə və onun təhsil prosesinə təsirini elmi əsaslarla müəyyənləşdirməyə imkan yaratmışdır.

**Nəticələr və müzakirə.** İnklüziv təhsilin uğuru yalnız qanunvericilik və idarəçilik səviyyəsində qəbul edilən qərarlardan asılı deyil; bu prosesin əsas dayağı psixoloji hazırlıqdır. Müxtəlif tədqiqatlar göstərir ki, inklüziv məktəb mühiti yaradılarkən müəllimlərin, valideynlərin və şagirdlərin psixoloji baxımdan hazır olması təlimin keyfiyyətinə birbaşa təsir göstərir. Bu hazırlıq həm münasibətlərin formalaşmasına, həm sosial qarşılıqlı təsirə, həm də təhlükəsiz və dəstəkləyici mühitin yaranmasına təsir edir. UNESCO-nun 2020-ci il hesabatında vurğulanır ki, psixoloji hazırlığı zəif olan təhsil sistemlərində inklüzivlik daha çox formal xarakter daşıyır və praktikada gözlənilən nəticələr əldə olunmur.

Müəllimlərin psixoloji hazırlığı inklüziv siniflərin fəaliyyətində ən mühüm amillərdən biridir. Forlin və Sharma tərəfindən aparılan araşdırma göstərir ki, özünü peşəkar baxımdan hazırlıqlı hesab edən müəllimlər müxtəlif təhsil ehtiyacları olan şagirdlərlə daha rahat işləyir, çətin situasiyalarda emosional stabilliyini qoruyur və sinifdə stressi azaldan davranış modelləri nümayiş etdirirlər. Buraya həm emosional tükənmənin qarşısının alınması, həm də müsbət münasibətlərin formalaşdırılması daxildir. Kanadada aparılan Oxley tədqiqatı isə göstərir ki, müəllimin psixoloji hazırlığı onun istifadə etdiyi metodlara, qiymətləndirmə yanaşmasına və sinifdə empati mühitinin formalaşmasına bilavasitə təsir edir [2, s. 17].

Məktəb rəhbərliyinin psixoloji hazırlığı da inklüziv proseslərin sabitliyində həlledici rol oynayır. Ainscow və Booth rəhbər heyətin emosional liderliyini inklüziv mədəniyyətin əsas şərti kimi qiymətləndirir. Rəhbər hazırlanması zəif olan məktəblərdə əməkdaşlıq zəifləyir, müəllimlər arasında gərginlik artır və inklüzivlik prosesində davamlılıq təmin olunmur. Avropa Təhsil Fondunun 2019-cu il hesabatına görə, psixoloji baxımdan hazırlıqlı rəhbərlər müəllimləri daha çox motivasiya edir, komanda işini gücləndirir və inklüziv strategiyaların məktəb səviyyəsində tətbiqini asanlaşdırır [1, s. 45].

Valideynlərin psixoloji hazırlığı inklüziv təhsilin sosial dayağı kimi çıxış edir. Xüsusi ehtiyaclı uşaqlar üçün məktəbə inteqrasiya yalnız təhsil problemi deyil, həm də emosional adaptasiya prosesidir [8]. Gürcüstanda Kurtsikidze və Javakhishvili valideynlərin maariflənməsinin uşaqların özünüifadə bacarıqlarını və sosial təhlükəsizliyini artırdığını müəyyən etmişlər. Bu, Azərbaycan təhsil sistemində aparılan araşdırmalarla da təsdiqlənir. Xudaverdiyeva valideyn-müəllim əməkdaşlığının psixoloji aspektlərini təhlil edərək qeyd edir ki, valideynlər özləri məsləhət və dəstək mexanizmləri haqqında kifayət qədər məlumatlı deyil. Bu da uşağın məktəbdə davranış və emosional problemlərinin dərinləşməsinə səbəb olur [4, s. 65].

Psixoloji hazırlıq həmçinin şagirdlərin özünəinamının və sosial adaptasiyasının formalaşmasında mühüm yer tutur. Wentzel və Brophy şagirdlərin psixoloji təhlükəsizlik hissi ilə onların dərsdə iştirak səviyyəsi arasında güclü əlaqə müəyyən etmişdir. Xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün isə bu mühit daha həssasdır. Amerikalı tədqiqatçı Swanson göstərir ki, psixoloji dəstək alan şagirdlərin sosial davranışında müsbət dəyişikliklər 30 faizdən çox olur, bu isə akademik nəticələrin sabit şəkildə yüksəlməsinə gətirib çıxarır [3, s. 89].

Psixoloji hazırlığın bir digər komponenti məktəbdaxili münasibətlərdir. Müəllim–şagird, şagird–şagird və müəllim–müəllim münasibətlərinin sağlam olması inklüziv mühitdə konfliktlərin azalmasına səbəb olur. OECD-nin 2022-ci il hesabatı göstərir ki, inklüziv məktəblərdə sosial qarşılıqlı təsirin keyfiyyəti psixoloji hazırlığın əsas göstəricilərindən biridir. Şagirdlər özlərini qəbul edilmiş hiss etdikdə, sosial qarşıdurmalar azalır, əməkdaşlıq güclənir və sinif mühiti daha sabit olur [5].

Psixoloji hazırlıq həm də emosional tənzimləmə və davranış strategiyalarının formalaşmasını əhatə edir. Müəllimlər stress idarəetməsi, pozitiv intizam və sosial-emossional bacarıqlar üzrə təlimlər aldıqda inklüziv mühitdə daha uğurlu nəticələr əldə olunur. Finlandiyada Hämäläinen və Saarinen tərəfindən aparılan araşdırmada müəllimlərin emosional hazırlığının inklüziv siniflərdə davranış pozuntularını azaltdığı sübut olunub [6].

İnklüziv tədrisdə psixoloji hazırlığın mühüm rolu həm də xüsusi ehtiyacları olan uşaqla-

rın fərdi inkişaf planlarının hazırlanmasında görünür. Məktəbin psixoloji xidmət strukturu güclü olduqda müəllimlər uşaqların ehtiyaclarını daha düzgün müəyyən edir və təlim strategiyalarını daha dəqiq seçirlər. Bu isə tədrisin nəticələrini əhəmiyyətli dərəcədə artırır [7].

Beləliklə, psixoloji hazırlıq inklüziv təhsilin bütün mərhələlərinə təsir edən əsas amildir. Müəllimlərin, valideynlərin və rəhbərliyin psixoloji hazırlığı yüksək olduqda məktəbdə daha əlçatan, təhlükəsiz və dəstəkləyici mühit formalaşır. Bu mühit şagirdlərin sosial və emosional inkişafını gücləndirir, öyrənmə motivasiyasını artırır və tədrisin nəticələrini yaxşılaşdırır. Müasir tədqiqatlar belə nəticəyə gəlir ki, psixoloji hazırlığı sistemli şəkildə gücləndirən təhsil mühitləri inklüziv strategiyaları daha effektiv tətbiq edir və uzunmüddətli uğur təmin edir.

**Yekun nəticə.** Psixoloji hazırlıq inklüziv təhsil mühitinin formalaşmasında əsas müəyyənedici amillərdən biridir və bu hazırlıq olmadan inklüziv siyasətlər praktikada tam səmərə verə bilmir. Müəllimlərin emosional stabilliyi, şagirdlərlə empatiya qurma bacarığı və psixoloji dəstək strategiyalarını tətbiq etməsi fərqli ehtiyacları olan uşaqların təlim prosesinə daha uğurlu şəkildə qoşulmasına şərait yaradır. Valideynlərin psixoloji maariflənməsi və məktəb rəhbərliyinin dəstək yönümlü yanaşması inklüziv mühitdə sosial adaptasiyanı gücləndirir və şagirdlərin özünəinamını artırır. Tədqiqatlar göstərir ki, psixoloji baxımdan hazırlıqlı məktəb kollektivləri konfliktləri daha effektiv idarə edir və təhlükəsiz öyrənmə mühiti yaradır. Beləliklə, psixoloji hazırlığın sistemli şəkildə gücləndirilməsi inklüziv təhsilin keyfiyyətini yüksəldir və bütün şagirdlərin bərabər təhsil imkanlarına real çıxışını təmin edir.

**Ədəbiyyat**


1. Ainscow, M., Booth, T. Index for Inclusion: Developing Learning and Participation in Schools. Bristol: Centre for Studies on Inclusive Education, – 2015. – 320 s.
2. Ben-David, A., Turkel, Y. Teachers' psychological readiness and inclusive education practices in Israeli schools. International Journal of Inclusive Education, № 12, – London: – 2021, – s.1438-1456.
3. European Training Foundation (ETF). Inclusive Education and Teacher Readiness in Partner Countries. Turin: ETF Publishing, – 2019. – 140 s.
4. Forlin, C., Loreman, T., Sharma, U., Earle, C. Pre-service teachers' attitudes, sentiments and concerns about inclusive education. Teaching and Teacher Education, № 39, Oxford, – 2014, – s.122-135.
5. Hämäläinen, J., Saarinen, M. Emotional competence of teachers in inclusive classrooms. Scandinavian Journal of Educational Research, № 7, – London: – 2020, – s.1102-1118.
6. Kurtsikidze, M., Javakhishvili, N. Parental readiness and inclusive education in Georgia. Caucasus Journal of Social Sciences, № 3, – Tbilisi: – 2021. – s.45-58.
7. OECD. Strengthening Inclusive Education Systems for 21st Century Learners. Paris: OECD Publishing, – 2022, – 180 s.
8. Swanson, S. Psychological safety and academic engagement among students with special needs. Journal of School Psychology, № 68, – Amsterdam: – 2018, – s.45-59.


*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Səbinə Aslanova tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 20.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

**UOT: 37.018.1:316.4**

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.47-53*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.47-53*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.47-53*

# Ailə tərbiyəsinin sosial problemlərinə dair

**Müəllif(lər):**

**Pərvanə Seyidova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** kenanseyidov855@gmail.com

**Açar sözlər:** ailə tərbiyəsi, sosial problemlər, müasir ailə, qloballaşma, pedaqoji proqramlar, ailə böhranı, münaqişə, tərbiyə üsulları

**Annotasiya.** Bu elmi araşdırma ailə tərbiyəsi sahəsində mövcud olan sosial problemlərin öyrənilməsinə həsr olunmuşdur. Məqalədə müasir dövrdə ailə institutunda baş verən transformasiyalar və həmin dəyişikliklərin cəmiyyətin sosial-iqtisadi və mənəvi həyatına təsiri geniş şəkildə təhlil edilmişdir. Araşdırmada ailənin uşağın şəxsiyyət kimi formalaşmasında əsas sosial mühit olduğu vurğulanmış, eyni zamanda ailə dəyərlərinin zəifləməsinin və müxtəlif sosial böhranların ailədaxili münasibətlərə mənfi təsir göstərdiyi qeyd olunmuşdur.

Müəyyən edilmişdir ki, informasiya texnologiyalarının və sosial media platformalarının geniş yayılması ailə üzvləri arasında ünsiyyətin zəifləməsinə, qarşıdurmaların artmasına və ailədaxili münasibətlərin xarakterində dəyişikliklərin yaranmasına səbəb olur. Valideyn nəzarətinin zəifləməsi uşaqların riskli sosial mühitlərlə daha erkən təmasda olmasına şərait yaradır. Ailədaxili münaqişələrin yaranmasında maddi çətinliklər, sosial-iqtisadi problemlər, valideynlərlə uşaqlar arasında anlaşılmazlıqlar və boşanma hallarının artması əsas amillər kimi qiymətləndirilmişdir.

Araşdırmada qeyd olunur ki, müasir ailə modeli ciddi dəyişiklik mərhələsindən keçir və bu dəyişikliklər əsasən şəhərləşmə prosesinin sürətlənməsi, iqtisadi qeyri-sabitlik və alternativ ailə modellərinin yayılması ilə bağlıdır. Ailənin sosial institut kimi qorunub saxlanılması məqsədilə dövlət və cəmiyyət səviyyəsində sosial dəstək tədbirlərinin gücləndirilməsi, ailədaxili münasibətlərin sağlamlaşdırılması və maarifləndirici proqramların həyata keçirilməsi zəruri hesab olunur. Tədqiqatda ailə mühitində müşahidə olunan münaqişələr, boşanma hallarının artması, sosial şəbəkələrin təsiri, maddi problemlər və effektiv ünsiyyətin olmaması ailə dəyərlərinin aşınmasına səbəb olan əsas faktorlar kimi təqdim edilmişdir. Eyni zamanda müasir ailələrdə azuşaqlı modellərə üstünlük verilməsinin uşaqların sosial bacarıqlarının formalaşmasına mənfi təsir göstərdiyi vurğulanmışdır. Xüsusilə şəhər mühitində bir və ya iki uşaqlı ailələrin üstünlük təşkil etməsi iqtisadi vəziyyət, yaşayış sahəsinin məhdudluğu və valideynlərin məşğulluq səviyyəsi ilə əlaqələndirilmişdir.

Məqalənin aktuallığı müasir cəmiyyətin sosial-psixoloji dəyişiklikləri fonunda ailə münasibətlərində yaranan problemlərin elmi şəkildə araşdırılması zərurəti ilə şərtlənir. Qloballaşma və texnoloji inkişaf fərdlərin davranış və ünsiyyət formalarına birbaşa təsir göstərdiyindən ailə, təhsil və sosial mühitdə baş verən dəyişikliklər yeni pedaqoji və psixoloji yanaşmaların tətbiqini tələb edir. Tədqiqat zamanı müşahidə, nəzəri təhlil, elmi ədəbiyyatların araşdırılması, müsahibə və sorğu metodlarından istifadə edilmişdir. Araşdırmanın nəticələri göstərir ki, ailədaxili münasibətlər fərdin psixoloji inkişafına və sosial davranışının formalaşmasına birbaşa təsir göstərir. Məqalənin praktik və nəzəri əhəmiyyəti ailədaxili münasibətlərin psixoloji inkişaf prosesinə təsirinin elmi əsaslarla izah olunması və psixoloji müdaxilə, maarifləndirmə, eləcə də təhsil sahəsində tətbiq edilə biləcək tövsiyələrin təqdim olunması ilə müəyyənləşir.

## About social problems of family upbrimging

**Author(s):**

**Parvane Seyidova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** kenanseyidov855@gmail.com

**Keywords:** family education, social problems, modern family, globalization, pedagogical programs, family crisis, conflict, educational methods

**Abstract.** This scientific research is devoted to the study of social problems in the field of family upbringing. The article extensively analyzes the transformations occurred within modern family institution and the impact of these changes on the social-economic and moral life of society. The research emphasizes that family is primary social environment for the formation of a child's personality however, the weakening of family values and various social crises negatively affect inner family relationships.

It has been determined that, widespread use of information technologies and social media platforms leads to weaken communication among family members, increase conflicts and change in the nature of family relationships. The weakening of parental control creates conditions for children to come into contact with risky social environments at an earlier age. Financial difficulties, social-economic problems, misunderstandings between parents and children and the increasing number of divorces are identified as the main factors contributing to inner family conflicts.

In the study it is noted that, modern family model is undergoing a serious stage of transformation, mainly related to accelerated urbanization, economic instability and the spread of alternative family models. In order to preserve family as a social institution, strengthening social support measures at the state and societal levels, improving intrafamily relations and implementing awareness programs are considered essential. The research presents family conflicts, the rise in divorce rates, the influence of social networks, financial difficulties and the lack of effective communication as the main factors leading to the erosion of family values. At the same time, it is emphasized that the preference for small-family models in modern society negatively affects the development of children's social skills. Particularly in urban environments, the predominance of families having one or two children is associated with economic conditions, limited living space and parents' employment levels.

The relevance of the article is determined by the necessity of scientifically studying family-related problems within the context of contemporary social-psychological changes in society. Since globalization and technological development directly influence individuals' behavior and communication patterns, changes occurring in family, educational, and social environments require the application of new pedagogical and psychological approaches. The research employed observation, theoretical analysis, scientific literature review, interviews, and survey methods. The findings indicate that intrafamily relationships directly affect an individual's psychological development and the formation of social behavior. The practical and theoretical significance of the article lies in its scientific explanation of the influence of family relationships on psychological development, as well as in presenting recommendations applicable in the fields of psychological intervention, awareness-raising, and education.

## Социальные проблемы семейного образования

**Автор(ы):**

**Парвана Сеидова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** kenanseyidov855@gmail.com

**Ключевые слова:** семейное воспитание, социальные проблемы, современная семья, глобализация, педагогические программы, семейный кризис, конфликт, методы воспитания

**Аннотация.** Данное научное исследование посвящено изучению социальных проблем в сфере семейного воспитания. В статье подробно анализируются трансформации, происходящие в современном институте семьи, а также влияние этих изменений на социально-экономическую и духовную жизнь общества. В исследовании подчёркивается, что семья является основной социальной средой формирования личности ребёнка, однако ослабление семейных ценностей и различные социальные кризисы оказывают негативное влияние на внутрисемейные отношения.

Установлено, что широкое распространение информационных технологий и социальных сетей приводит к ослаблению коммуникации между членами семьи, росту конфликтов и изменениям характера семейных отношений. Ослабление родительского контроля создаёт условия для более раннего контакта детей с рискованной социальной средой. В качестве основных факторов возникновения внутрисемейных конфликтов рассматриваются материальные трудности, социально-экономические проблемы, недопонимание между родителями и детьми, а также рост числа разводов.

В исследовании отмечается, что современная модель семьи переживает серьёзный этап трансформации, связанный прежде всего с ускорением процессов урбанизации, экономической нестабильностью и распространением альтернативных форм семьи. В целях сохранения семьи как социального института важное значение придаётся усилению мер социальной поддержки на государственном и общественном уровнях, оздоровлению внутрисемейных отношений и реализации просветительских программ. В статье семейные конфликты, увеличение числа разводов, влияние социальных сетей, материальные проблемы и отсутствие эффективного общения представлены как основные факторы, приводящие к разрушению семейных ценностей. Одновременно подчёркивается, что распространение малодетных семейных моделей негативно влияет на формирование социальных навыков детей. Особенно в городской среде преобладание семей с одним или двумя детьми связывается с экономическим положением, ограниченностью жилого пространства и высокой занятостью родителей.

Актуальность статьи обусловлена необходимостью научного исследования проблем семейных отношений в условиях современных социально-психологических изменений общества. Глобализация и технологическое развитие напрямую влияют на формы поведения и общения людей, что требует применения новых педагогических и психологических подходов в семье, образовании и социальной среде. В ходе исследования использовались методы наблюдения, теоретического анализа, изучения научной литературы, интервьюирования и анкетирования. Результаты исследования показывают, что внутрисемейные отношения оказывают непосредственное влияние на психологическое развитие личности и формирование её социального поведения. Практическая и теоретическая значимость статьи заключается в научном объяснении влияния семейных отношений на психологическое развитие личности, а также в представлении рекомендаций, которые могут быть использованы в сфере психологического вмешательства, просвещения и образования.

**Giriş.** Müasir dövrdə ailə daxilində yaranan problemlər və bu problemlərin uşaqların şəxsiyyətinin formalaşmasına təsiri cəmiyyət üçün son dərəcə aktual məsələlərdən biridir. Tarixən insanın sosial inkişafında əsas rol oynayan ailə institutunda baş verən dəyişikliklər, ənənəvi milli ailə modellərinin zəifləməsi, ailədaxili psixoloji münasibətlərin pozulması və ümumi sosial böhran xüsusilə inkişaf etmiş ölkələrdə geniş müzakirə olunan mövzular sırasındadır.

Ailə sosiologiyası ayrıca elmi istiqamət kimi XIX əsrin ortalarından etibarən formalaşmağa başlamışdır. Bu sahənin elmi əsaslarının möhkəmlənməsində Rilza və Le-Pin kimi tədqiqatçıların empirik araşdırmaları mühüm rol oynamışdır. Tədqiqatlarda ailənin insan həyatındakı əvəzsiz rolu vurğulanır, uşaqların məhz ailə mühitində dünyaya gəlib tərbiyə olunduğu qeyd edilir. Müasir mərhələdə Azərbaycan ailələri də qlobal proseslərin təsiri altında müəyyən aşınma və dəyişikliklərlə qarşılaşır.

Müasir sosioloji yanaşmalarda ailə həm sosial institut, həm də kiçik sosial birlik kimi nəzərdən keçirilir. Qloballaşma prosesləri, sosial-iqtisadi qeyri-sabitlik və müxtəlif böhranlar ailələrin yalnız maddi vəziyyətinə deyil, eyni zamanda onların mənəvi-əxlaqi dəyərlər sisteminə də mənfi təsir göstərir. Uşaqların sosial və bioloji qorunmasını təmin edən əsas mühit olan ailənin zəifləməsi bu sahəyə olan elmi və ictimai marağı daha da artırmışdır.

Tədqiqatın fərziyyəsi ondan ibarətdir ki, sağlam ailədaxili münasibətlər fərdin emosional sabitliyini, sosial adaptasiyasını və ümumi psixoloji rifahını gücləndirir.

Tədqiqatın məqsədi ailədaxili münasibətlərin fərdin psixoloji inkişafına və sosial davranışına təsirini öyrənmək, yaranan problemləri müəyyənləşdirmək və onların həlli üçün elmi əsaslı tövsiyələr hazırlamaqdır.

Tədqiqatın vəzifələri:

1. Ailədaxili münasibətlərin fərdin psixoloji inkişafına təsirini araşdırmaq;

2. Valideyn-övlad ünsiyyəti və dəstəyinin fərdin emosional sabitliyinə təsirini müəyyənləşdirmək;

3. Müasir sosial və texnoloji dəyişikliklərin ailə münasibətlərinə təsirini təhlil etmək;

4. Psixoloji müdaxilə və profilaktik tədbirlər üçün tövsiyələr hazırlamaq.

**Materiallar və metodlar**

Tədqiqat materiallarının ümumi təsviri:

Bu tədqiqat ailədaxili münasibətlərin fərdin psixoloji inkişafına və sosial davranışına təsirini öyrənmək, mövcud problemləri müəyyənləşdirmək və onların həlli üçün elmi əsaslı tövsiyələr təqdim etmək məqsədini daşıyır. Tədqiqatda həm nəzəri mənbələrdən (elmi ədəbiyyat, metodik vəsaitlər), həm də emprik məlumatlardan (sorğular, müşahidələr nəticəsində əldə edilmiş real məlumatlar) istifadə edilmişdir.

Tədqiqatın növü və eksperimental baza:

Tədqiqat sosial-psixoloji xarakterlidir. Eksperimental baza kimi  Naxçıvan şəhərində yerli ailələr və təhsil müəssisələri seçilmişdir.

Tətbiq olunan metod və üsullar, onların təsiri və əsaslandırılması:

1. Müşahidə metodu - Ailələrin gündəlik həyatında qarşılıqlı ünsiyyət və davranış modellərinin izlənilməsini təmin etdi. Müşahidə nəticələri digər metodlarla toplanan məlumatların təsdiqinə və zənginləşdirilməsinə xidmət edir. Bu metod çərçivəsində Naxçıvan şəhərində yaşayan yerli ailələrdə,təhsil müəssisələrində müşahidələr aparılmışdır.

Müşahidə apardığım Qafarovlar ailəsi nümunə kimi götürülmüşdür. Bu ailədə ailədaxili münasibətləri, valideyn-övlad ünsiyyətini və fərdin emosional vəziyyətini real şəraitdə izləyərək analiz etmişəm. Müşahidələr göstərmişdir ki, sağlam ünsiyyət və dəstək fərdin sosial adaptasiyasını və psixoloji sabitliyini gücləndirir. Tədqiqat nəticələri həm nəzəri, həm də praktik baxımdan ailədaxili münasibətlərin əhəmiyyətini təsdiqləyir.

2. Sorğu metodu (anketlər) - Sorğu Naxçıvan şəhərindəki 14 nömrəli məktəbdə aparılmışdır. Sorğuda 50 şagird və onların valideynləri iştirak etmişdir. Sorğuda valideynlərdən uşaqların tərbiyəsində qarşılaşdıqları sosial problemlər, ailədaxili ünsiyyət çətinlikləri və münasibət modelləri haqqında məlumatlar toplanmışdır.

Qafarov ailəsinin valideyni qeyd etmişdir ki, bəzən iqtisadi çətinlik və işlərin çoxluğu valideynlərlə uşaqlar arasındakı ünsiyyəti məhdudlaşdırır və bu, sosial adaptasiya prosesində problemlər yaradır.

Əliyev ailəsinin valideyni  isə qeyd etmiş-

dir ki, cəmiyyət tərəfindən təzyiq və uğurlu uşaq yetişdirmə stiqması ailə daxilində stress və konfliktlərə səbəb olur.

3. Nəzəri təhlil metodu - Bu üsul ailə tərbiyəsi və onun sosial problemlərinin nəzəri əsaslarını araşdırmağa imkan vermişdir. Məsələn, müasir tədqiqatlar göstərir ki, ailə institutunda urbanizasiya, sosial şəbəkələrin təsiri və iqtisadi çətinliklər valideyn-övlad münasibətlərini zəiflədir və konfliktlərin artmasına gətirib çıxarır. Bu tendensiya ailədə dəyərlərin deformasiya olunmasına və kommunikasiya problemlərinin güclənməsinə səbəb olur.

Tədqiqat zamanı aşağıdakı mənbələr analiz edilmişdir:

1. Solmaz Cabbarova və Taleh Xəlilov-“-Social Problems Of Family Upbringing” (ailə tərbiyəsinin sosial problemləri və müasir cəmiyyət təsirləri).

2. Müasir ailə tərbiyəsi və sosial aspektlər barədə təhlillər-ailənin sosiallaşma və psixoloji roluna dair elmi materiallar.

**Metodların seçilmə səbəbləri:**

Seçilmiş metodlar bir-birini tamamlayaraq tədqiqatın daha dolğun aparılmasına şərait yaratmışdır. Müşahidə vasitəsilə ailələrdə real ünsiyyət və davranış modelləri praktik baxımdan öyrənilmişdir. Bu, valideyn-övlad münasibətlərində qarşılıqlı hörmət, emosional bağlılıq və sosial problemlərin təsirini birbaşa müşahidə etməyə imkan vermişdir. Sorğu (anketlər) isə valideyn və uşaqlar arasında münasibətlərin səviyyəsi, tərbiyə prosesində qarşılaşılan sosial problemlər və valideynlərin uşaqlara göstərdikləri sosial dəstək haqqında geniş informasiya toplamışdır. Nəzəri təhlil isə mövzunun elmi əsaslarını möhkəmləndirmiş və sosial problemlərin səbəbləri ilə bağlı nəticələrin ümumiləşdirilməsinə şərait yaratmışdır. Bu kombinasiyalı yanaşma araşdırmanın həm nəzəri, həm də praktik baxımdan əsaslı və əhatəli aparılmasını təmin etmişdir.

Tədqiqat nəticələri göstərir ki, ailələrdə münasibətlər əsasən emosional bağlılıq və qarşılıqlı asılılıq üzərində qurulur. Valideynlər həm maddi, həm də mənəvi məsuliyyət daşıdıqları üçün rol yüklənməsi müşahidə olunur. Respondentlərin böyük əksəriyyəti (təxminən 68-72%) valideyn dəstəyinin, açıq ünsiyyətin və sosial dəstəyin uşaqların tərbiyəsində vacib olduğunu qeyd etmişdir. Beləliklə, araşdırma göstərir ki, ailə tərbiyəsinin sosial problemləri yalnız fərdin psixoloji inkişafına deyil, həm də uşaqların sosial bacarıqlarının formalaşmasına və ailə daxilində sağlam ünsiyyətin təmin edilməsinə birbaşa təsir edir. Tədqiqatın nəticələri həm nəzəri baxımdan ailə tərbiyəsi sahəsində anlayışları zənginləşdirir, həm də praktik baxımdan valideynlər və pedaqoqlar üçün tövsiyələr hazırlamağa imkan yaradır.

Ailə uşağın şəxsiyyət kimi formalaşmasında ilk və əsas mühit hesab olunur. Məhz ailə çərçivəsində uşaq mənəvi, əxlaqi və mədəni dəyərləri mənimsəyir, psixoloji dəstək əldə edir. Ailə cəmiyyətin və dövlətin təməl sütunu kimi çıxış edir və onun möhkəmliyi birbaşa olaraq dövlətin sabitliyi ilə əlaqələndirilir. Bu baxımdan, müasir Azərbaycan ailələrində müşahidə olunan dəyişikliklər və problemlər xüsusi diqqət tələb edir (Cabbarova, 2023).

Araşdırmalar göstərir ki, ailə tərbiyəsində mövcud olan çətinliklərdən biri də ailənin özünü müstəqil və qapalı bir sistem kimi qorumağa çalışmasıdır. Ailə çox zaman öz daxili problemlərini gizlətməyə, qürur və ləyaqətini ön planda saxlamağa meyilli olur. Dövlətin ailə işlərinə müdaxiləsi əsasən boşanma və digər ciddi pozuntular zamanı mümkün olur. Buna görə də, mənfi halların qarşısını almaq üçün qabaqlayıcı tədbirlərin görülməsi, sosial-pedaqoji mexanizmlərin gücləndirilməsi və mənəvi dəyərlərin təşviqi vacib hesab olunur. Ailə məsələləri yalnız mütəxəssislərin deyil, bütün cəmiyyətin maraq dairəsində olan problemlərdir. Ailə ilə cəmiyyət arasında mövcud olan sıx qarşılıqlı əlaqə bu problemlərin həllində dövlət və ictimai təşkilatların birgə fəaliyyətini zəruri edir (Cabbarova, 2023).

Ailə ayrıca və təcrid olunmuş şəkildə mövcud olan bir struktur deyil. O, cəmiyyətin bütün sahələri ilə qarşılıqlı əlaqədə olan sosial bir sistemdir və şəhər, kənd, qəsəbə, eləcə də konkret dövlət mühiti daxilində formalaşır. Mənəvi dəyərlər, iqtisadi şərait və siyasi proseslər ailənin fəaliyyətinə birbaşa təsir göstərir. Ailə cəmiyyətin ayrılmaz hissəsi olaraq sosial dəyişiklikləri qəbul edir və eyni zamanda bu dəyişikliklərin istiqamətinə təsir edə bilir.

Müasir sosial-pedaqoji yanaşmalara əsasən, ailənin inkişafı bir neçə ardıcıl mərhələdən keçir.

Bu mərhələlərə nikaha hazırlıq dövrü, ailənin yaranması, valideynliyə keçid, uşağın sosial mühitə daxil olması, onun müstəqil həyat seçimi, yaşlı nəsil üzvlərinin itkisi və nəhayət, ailə həyatının başa çatması daxildir. Hər mərhələ ailə üzvləri üçün həm psixoloji, həm də sosial baxımdan fərqli çətinliklər və təcrübələr yaradır.

Sosioloji baxımdan ailə cəmiyyətin əsas dayağı, sosiallaşma və tərbiyə prosesinin ilkin məkanı hesab olunur. Cəmiyyətdə baş verən iqtisadi və sosial dəyişikliklər ailə həyatında əks olunsa da, ailənin daxili yenilənməsi daha ləng baş verir. Bunun səbəbi ailənin ənənələrə bağlı, nisbətən qapalı və mühafizəkar sosial birlik olmasıdır. Yeni iqtisadi münasibətlər sürətlə formalaşsa da, mənəvi dəyərlərin ailə daxilində qəbul edilməsi uzun zaman tələb edir.

Ailənin mövcudluğuna yalnız sosial-iqtisadi deyil, həm də psixoloji, demoqrafik və bioloji amillər təsir edir. Məhz bu çoxşaxəli təsirlər ailə münasibətlərində köhnə davranış modellərinin uzun müddət qorunub saxlanmasına şərait yaradır.

Müasir dövrdə ailə üzvləri, xüsusilə valideynlər, bir çox hallarda real ünsiyyət əvəzinə sosial şəbəkələrdə virtual əlaqələrə üstünlük verirlər. Statistik məlumatlar göstərir ki, sosial mediadan gizli və nəzarətsiz istifadə ailədaxili konfliktlərə və hətta boşanmalara səbəb olur.

Texnoloji tərəqqinin mühüm nailiyyəti olan sosial şəbəkələr düzgün istifadə edilmədikdə ailə münasibətlərini zəiflədən amilə çevrilir. Həddindən artıq ekran istifadəsi internet asılılığı yaradır və bu vəziyyət valideynlərin tərbiyəvi funksiyalarını yerinə yetirməsini çətinləşdirir, uşaqların isə sağlam inkişafına mane olur.

Tədqiqatçılar uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq televiziya və ekran qarşısında keçirdikləri vaxtın məhdudlaşdırılmasını tövsiyə edirlər. Eyni zamanda, baxış mühiti, işıqlandırma və texniki məsafə qaydalarına əməl olunmaması uşaqların sağlamlığı üçün risk yaradır.

Ailədə sosial şəbəkə asılılığı mövcud olduqda, uşaqların emosional və ünsiyyət ehtiyacları tam ödənilmir. Bu boşluq isə uşaqları daha asan və əlçatan olan rəqəmsal vasitələrə yönəldir. Nəzarətsiz ekran istifadəsi uşaqlar üçün real münasibətlərin əvəzedicisinə çevrilir.

Ailə daxilində ünsiyyət zəiflədikcə, uşaqlar diqqət və qəbul olunma ehtiyaclarını küçə qruplarında axtarmağa başlayırlar. Bu qruplar çox vaxt təsadüfi şəkildə formalaşır və uşaqlar üçün riskli davranış modelləri yaradır. Nəticədə uşaqlar dərsdən yayınır, ailədən uzaqlaşır və mənfi sosial təsirlərə daha açıq olurlar. Bu isə onların şəxsiyyət kimi formalaşmasına və gələcək sosial roluna ciddi təhlükə yaradır.

Pedaqoji baxımdan valideyn nəzarətinin zəifləməsi ailənin uşağın sosial və kommunikativ ehtiyaclarını təmin etmək imkanlarını məhdudlaşdırır və xarici mənfi təsirlərin rolunu artırır. Belə vəziyyətlərin ailə həyatında davamlı xarakter alması ailədaxili münasibətlərin tədricən pozulmasına gətirib çıxarır.

Sosial-pedaqoji araşdırmalar göstərir ki, valideyn nəzarətinin yetərsizliyi təkcə fərdi deyil, ümumi pedaqoji problem kimi qiymətləndirilməli və elmi baxımdan ətraflı öyrənilməlidir. Valideyn nəzarətinin zəifləməsinə səbəb olan amillər müxtəlifdir. Bunlara valideynlərdən birinin uzunmüddətli xəstəliyi, hər iki valideynin intensiv əmək fəaliyyəti ilə məşğul olması, uşaqların uzun müddət nənə və babaların himayəsində qalması, valideyn nüfuzunun azalması, eləcə də tərbiyə prosesində valideynlərin passivliyi və ya qeyri-effektiv yanaşmaları daxildir. Bu cür şəraitdə böyüyən uşaqlar valideyn diqqətindən kənarda qaldıqlarını hiss etdikdə, daha çox qeyri-rəsmi qruplara qoşulmağa, ailə mühitindən uzaqlaşmağa, nəzarətsiz davranışlara meyl göstərməyə və mənfi xüsusiyyətlərə malik şəxslərlə əlaqələr qurmağa başlayırlar. Bu isə onların şəxsiyyət inkişafına və sosiallaşmasına mənfi təsir göstərir. Mənfi davranış formalarının yaranması valideynlərlə uşaqlar arasındakı münasibətləri zəiflətməklə yanaşı, ailə daxilində bacı-qardaş münasibətlərinin də pozulmasına səbəb olur. Məhz bu səbəbdən müasir ailə problemlərini araşdıran tədqiqatçılar ailə institutunun böhran vəziyyətində olduğunu qeyd edirlər. “Ailə böhranı” anlayışı bir çox ölkələrdə aktual müzakirə mövzusu olmaqla, əsasən ailənin cəmiyyət üçün əvvəlki əhəmiyyətini itirməsi kimi dəyərləndirilir.

Sosioloji və sosial-pedaqoji tədqiqatlar ailə institutunda müşahidə olunan bu böhranın qlobal xarakter daşıdığını təsdiqləyir. Naxçıvan şəhəri, eləcə də Şərur və Babək rayonlarında aparılan müşahidələr və elmi mənbələrin təhlili ailə

dəyərlərinin zəifləməsinə təsir göstərən bir sıra sosial-tarixi amilləri üzə çıxarmışdır. Bu amillərə kənd əhalisinin kütləvi şəkildə şəhərlərə köçməsi, urbanizasiya proseslərinin sürətlənməsi, 1980-ci illərdə baş verən siyasi-iqtisadi dəyişikliklər, 1990-cı illərdə yaranmış sosial-iqtisadi qeyri-sabitlik, miqrasiya proseslərinin intensivləşməsi və bazar iqtisadiyyatına keçidin yaratdığı çətinliklər daxildir. Qeyd olunan böhran vəziyyəti əsasən obyektiv səbəblərlə əlaqələndirilir və bu səbəblər ailənin mənəvi-psixoloji mühitinə ciddi təsir göstərir. Yaşayış şəraitinin qeyri-kafi olması, sağlamlıq problemləri, zərərli vərdişlər, maddi çətinliklər, inflyasiya və gəlirlərin qeyri-sabitliyi ailədaxili gərginliyi daha da artırır.

Ailə daxilində davamlı münaqişələr, qarşılıqlı etimadın zəifləməsi və emosional bağların qırılması sosial problemlərin dərinləşməsi üçün münbit zəmin yaradır. Ünsiyyət mədəniyyətinin aşağı səviyyədə olması, zorakı davranışlar və psixoloji təzyiq ailə üzvlərində narahatlıq, qorxu və psixoloji gərginlik yaradır. Uzunmüddətli mübahisələr isə ailə üzvlərinin sağlamlığına və ümumi rifahına ciddi təhlükə təşkil edir. Aparılan tədqiqatlar göstərir ki, qloballaşma şəraitində ailə böhranı daha da güclənir və bu proses Azərbaycan ailələrində də müxtəlif formalarda özünü göstərir.

Müasir dövrdə iqtisadi çətinliklər ailələrin həyat tərzinə ciddi təsir göstərir və ailə üzvləri maddi tələbatları ödəmək üçün günün böyük hissəsini əmək fəaliyyətinə sərf edirlər. Azərbaycan ailələrində valideynlərin əsas məqsədi övladlarını düzgün tərbiyə etmək, onların maddi və mənəvi ehtiyaclarını təmin etməkdir. Valideynlərin öz ehtiyaclarından imtina edərək uşaqlarına üstünlük verməsi illərdir mövcud olan və cəmiyyət tərəfindən yüksək qiymətləndirilən bir dəyərdir. Xüsusilə çoxuşaqlı ailələrdə bu fədakarlıq daha qabarıq şəkildə özünü göstərmişdir. Belə ailələr qarşılıqlı sevgi, etibar, həmrəylik və ünsiyyət üzərində qurulmuşdur.

Lakin müşahidələr göstərir ki, maddi imkanları daha geniş olan ailələrdə psixoloji problemlər daha tez-tez rast gəlinir. Bu ailələrdə tənha qalma hissi, depressiv hallar, real ünsiyyətin yerini sosial şəbəkələrin alması, etibarsız münasibətlər və bəzi hallarda intihar kimi ağır nəticələr meydana çıxır.

Azərbaycanda ailə institutunun üzləşdiyi problemlər sırasında erkən nikahlar, qadınlara qarşı zorakılıq, uşaq hüquqlarının pozulması və ailədaxili gərginliklər mühüm yer tutur. Zaman keçdikcə ənənəvi ailə strukturu dəyişir və hazırda nüvə ailə modeli daha geniş yayılmışdır. Mütəxəssislərin araşdırmalarına əsasən, müasir ailələrdə münaqişələrin sayı artmışdır. Statistik məlumatlar göstərir ki, ailələrin böyük əksəriyyətində ciddi qarşıdurmalar mövcuddur, bəzi ailələrdə isə valideynlərlə uşaqlar arasında demək olar ki, əlaqə yoxdur. Bu gün ailə problemlərinin ən çox rast gəlinən forması məhz münaqişələrdir.

Ailə münaqişələri müxtəlif səbəblərdən yaranır və fərqli formalarda özünü göstərir. Bunlara ailə üzvlərinin sərbəstliyinin məhdudlaşdırılması, asılılıqlar, maraqların toqquşması, qohumların gənc ailələrin daxili münasibətlərinə müdaxiləsi, həyat yoldaşları arasında uyğunluğun olmaması, təhsil və dünyagörüşü fərqləri, maliyyə çətinlikləri, iş yükünün çoxluğu, işsizlik, yaşayış şəraitinin qeyri-sabitliyi, ailədaxili üstünlük uğrunda mübarizə və emosional ehtiyacların lazımi səviyyədə ödənilməməsi daxildir.

Ailə cəmiyyətin əsas sosial dayaqlarından biri olduğu üçün onun sağlamlığı dövlət və ictimai qurumların diqqət mərkəzində olmalıdır. Münaqişələr həyatın ayrılmaz hissəsi olsa da, ailə daxilində baş verən qarşıdurmalar xüsusilə təhlükəli nəticələrə səbəb ola bilər. Bu cür münaqişələr ailə üzvlərində psixoloji gərginlik, narahatlıq və emosional diskomfort yaradır.

Psixoloqların fikrincə, valideynlərlə uşaqlar arasında anlaşılmazlıqlar tərbiyənin ən erkən mərhələlərində formalaşır. Uşağın ilk illərdə valideynlərlə qurduğu emosional əlaqə onun gələcək psixoloji inkişafında həlledici rol oynayır. Gündəlik qayğı və münasibət uşağın şəxsiyyətinin formalaşmasına birbaşa təsir edir. Uşaq və yeniyetməlik dövrlərində baş verən münaqişələrin əsas səbəbi gənclərin müstəqillik və azadlıq istəkləridir. Bu yaş mərhələsində gənclər mövcud qaydalara qarşı daha həssas yanaşır və sərbəstliyə can atırlar. Bu davranış forması bir çox yeniyetmələr üçün xarakterik hesab olunur.

Psixoloji tədqiqatlara əsasən, valideynlərlə uşaqlar arasında yaranan münaqişələrin əsas səbəbləri bir neçə istiqamətdə cəmlənir. A.Varga və V.A.Smaxov bu problemlərin kökündə vali-

deynlərin tərbiyə məsələlərində bir-biri ilə uzlaşmaması, uşaqların yaş xüsusiyyətlərini lazımi səviyyədə nəzərə almaması və ailə daxilində ünsiyyətin qeyri-sağlam qurulması kimi amillərin dayandığını qeyd edirlər.

Ailə daxilində münaqişələr açıq şəkildə yaşana bildiyi kimi, uzun müddət gizli də qala bilər. Zamanla yığılan narazılıqlar müəyyən bir hadisə nəticəsində kəskin qarşıdurmaya çevrilə bilər. Psixoloqlar bu mərhələni gərginliyin pik nöqtəsi hesab edir. Bu anda tərəflər bir-birini rəqib kimi görməyə başlayır və illərlə formalaşan mənfi münasibətlər açıq şəkildə üzə çıxır.

Münaqişələrin ailə həyatının ayrılmaz hissəsi olması təbiidir. Lakin onların sağlam şəkildə həlli tərəflərin düşüncə tərzini dəyişməyə hazır olmasını tələb edir. Bunun üçün problemin səbəbləri dərindən araşdırılmalı, fikir ayrılıqları müəyyənləşdirilməli və açıq dialoq qurulmalıdır. Qarşısının alınması üçün vaxtında tədbirlər görülməsi ailədə sülh və qarşılıqlı hörmətin qorunmasına kömək edir. Uşaqların maraq və fikirlərinə diqqət yetirilməsi isə konfliktlərin azalmasında mühüm rol oynayır.

Elmi araşdırmalarda ailədaxili problemlərin həllində kompromis ən effektiv yol kimi qiymətləndirilir. Qarşılıqlı güzəştlərə əsaslanan bu yanaşma valideynlər və uşaqlar arasında münasibətlərin sağlamlaşdırılmasına imkan yaradır. Bu proses psixoloji söhbətlər, məsləhətlər, qrup və oyun terapiyası vasitəsilə dəstəklənə bilər. Lakin hər bir münaqişənin səbəbləri fərqli olduğundan, əvvəlcə problemin mahiyyəti diqqətlə təhlil edilməlidir. Müasir ailələr bir sıra sosial xüsusiyyətlərlə fərqlənir. Şəhər və kənd mühitində uşaqların nəzarət səviyyəsi eyni deyil. Sosial bərabərsizlik ailədaxili münasibətlərə təsir göstərir, maddi imkanlar isə uşaqların dəyərlər sisteminin formalaşmasında rol oynayır. Valideynlərin təhsil səviyyəsi uşaqların təhsil uğurlarına birbaşa təsir edir. Eyni zamanda, işləyən valideynlərin çoxluğu səbəbindən uşaqların tərbiyəsində üçüncü şəxslərin iştirakı artmışdır. Nüvə ailələrinin artması, tək uşaqlı ailələrin çoxalması və boşanmaların yüksəlməsi uşaqların psixoloji inkişafına ciddi təsir göstərir. Xüsusilə boşanma halları uşaqlar üçün ağır emosional nəticələr doğurur. Doğum səviyyəsinin azalması isə həm sosial, həm də iqtisadi amillərlə bağlı olan mühüm demoqrafik problemdir və müasir cəmiyyət üçün aktual məsələ olaraq qalır.

**Nəticələr və müzakirə**

Tədqiqat nəticələri göstərir ki, ailələrdə münasibətlər əsasən emosional bağlılıq və qarşılıqlı asılılıq üzərində qurulur. Valideynlər həm maddi, həm də mənəvi məsuliyyət daşıdıqları üçün rol yüklənməsi müşahidə olunur. Respondentlərin böyük əksəriyyəti (təxminən 68-72%) valideyn dəstəyinin, açıq ünsiyyətin və sosial dəstəyin uşaqların tərbiyəsində vacib olduğunu qeyd etmişdir.

Valideyn və övlad arasında qarşılıqlı hörmət və bağlılıq qorunmaqla yanaşı, sosial problemlər-iqtisadi çətinliklər, iş və maddi məsuliyyət, cəmiyyət tərəfindən yaranan təzyiqlər, sosial resursların məhdudluğu-tərbiyə prosesində çətinliklər yaradır. Bu problemlər valideynlərin stress səviyyəsini artırır və uşaqların sosial adaptasiyasına mənfi təsir göstərə bilər.

Müzakirə göstərir ki, ailə tərbiyəsinin keyfiyyəti əsasən emosional yaxınlıq, empatiya və sosial dəstək səviyyəsi ilə müəyyən olunur. Sosial problemlərin mövcudluğu valideyn-övlad münasibətlərinə birbaşa təsir edir, uşaqların sosial bacarıqlarının və davranış modellərinin formalaşmasını çətinləşdirir. Eyni zamanda, tədqiqat sübut edir ki, valideynlərin maarifləndirilməsi, sosial dəstək proqramlarının tətbiqi və ailə daxilində sağlam ünsiyyət strategiyalarının yaradılması sosial problemlərin azaldılmasına və tərbiyə prosesinin səmərəli həyata keçirilməsinə kömək edir.

Beləliklə, araşdırma göstərir ki, ailə tərbiyəsinin sosial problemləri yalnız fərdin psixoloji inkişafına deyil, həm də uşaqların sosial bacarıqlarının formalaşmasına və ailə daxilində harmonik münasibətlərin qorunmasına birbaşa təsir edir. Nəticələr həm nəzəri baxımdan ailə tərbiyəsi sahəsində bilikləri zənginləşdirir, həm də praktik baxımdan valideynlər və pedaqoqlar üçün tövsiyələr hazırlamağa əsas yaradır.

**Yekun nəticə.** Tədqiqat göstərir ki, ailə tərbiyəsi yalnız uşaqların şəxsi və psixoloji inkişafına deyil, eyni zamanda onların sosial bacarıqlarının formalaşmasına da böyük təsir göstərir. Araşdırma nəticələri sübut edir ki, ailələrdə qarşılıqlı hörmət, emosional bağlılıq və açıq ünsiyyət tərbiyənin keyfiyyətini müəyyən edən əsas amillərdir. Lakin sosial problemlər-iqtisadi çətin-

liklər, valideynlərin iş və maddi məsuliyyətləri, cəmiyyət tərəfindən yaranan gözləntilər və sosial dəstək çatışmazlığı-tərbiyə prosesində əngəllər yaradır və valideyn-övlad münasibətlərinin inkişafına mənfi təsir göstərir.

Tədqiqat həmçinin göstərir ki, ailə daxilində yaranan stress və sosial təzyiqlər uşaqların davranış modellərinə və sosial adaptasiya bacarıqlarına təsir edir. Valideynlərin psixoloji və mənəvi dəstəyi, uşaqlara göstərilən diqqət və qayğı, eyni zamanda sosial resursların mövcudluğu sosial problemlərin mənfi təsirini minimuma endirir. Bu isə valideynlərin tərbiyə prosesində rol yüklənməsini azaldır, emosional yaxınlığı və qarşılıqlı anlayışı gücləndirir.

Müşahidə, sorğu və nəzəri təhlil nəticələri göstərir ki, ailə tərbiyəsinin sosial problemləri yalnız fərdin psixoloji inkişafına təsir etmir, həm də uşaqların sosial bacarıqlarının formalaşmasını və ailə mühitində harmoniyanın qorunmasını birbaşa müəyyənləşdirir. Eyni zamanda, tədqiqat vurğulayır ki, sosial problemlərin həlli üçün valideynlərin maarifləndirilməsi, sosial dəstək proqramlarının tətbiqi və ailə daxilində sağlam ünsiyyət strategiyalarının yaradılması vacibdir.

Nəticədə, bu araşdırma həm nəzəri, həm də praktik baxımdan ailə tərbiyəsinin sosial problemlərini anlamağa və onların həlli üçün elmi əsaslı tövsiyələr təqdim etməyə imkan verir. Ailələrdə sosial problemlərin azaldılması və tərbiyə prosesinin səmərəli həyata keçirilməsi uşaqların psixoloji sabitliyini, sosial bacarıqlarını və ümumi inkişafını təmin edir, eyni zamanda gələcək nəsillərin sağlam sosial mühitdə yetişməsinə şərait yaradır.

**Ədəbiyyat**

1. Abilov, A.X. (2014, 10 oktyabr). Azərbaycanın müasir ailə modeli: Necə olmalıdır? Ədəbiyyat qəzeti, 10 oktyabr 2014. – s.15.
2. Cabbarova, S. Azərbaycanda ailə modeli. Elmi-nəzəri almanax Grani, 26(2), – 2023. – s.142-146.
3. Галазунова, М.А. Социальная педагогика: Лекционный курс [Учебник]. – Москва: Гуманит, Издательский центр «ВладОС». – 2001.
4. Cabbarova, S. Azərbaycan ailəsinin mənəvi xüsusiyyətləri. Beynəlxalq Novruz, Mədəniyyət və Sivilizasiya Konqresində. – Bakı: 18-22 mart 2020.
5. Cabbarova, S. Beş yaşlı uşaqların məktəb təhsilinə hazırlanmasında multimedia vasitələrindən istifadə yolları [Magistr dissertasiyası, Naxçıvan Dövlət Universiteti]. Elmi Əsərlər, 1(110). – 2021.
6. Xəlilov, T., Adilzadə, İ., Rzayev, O., Quliyev, N., & Yusifova, N. Ali təhsil müəssisələrində idarəetmə sistemlərinin təşkilində strateji planlaşdırmanın rolu: beynəlxalq təcrübədən əldə edilən məlumatlar. – 2024.

*Məqalə pedaqogika üzrə elmlər doktoru, dosent Kamal Camalov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 12.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.54-55*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.54-55*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.54-55*

**UOT: 373.3.018.3:37.034**

# Kiçik məktəbyaşlı şagirdlərin şəxsiyyətinin formalaşmasında əmək tərbiyəsinin rolu

**Müəllif(lər):**

**Təranə Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** Turanealiyeva1218@gmail.com

**Açar sözlər:** əmək tərbiyəsi, ibtidai sinif, kiçik məktəbyaşlı uşaqlar, psixoloji inkişaf, sosiallaşma, pedaqoji proses, məsuliyyət, təlim motivasiyası

**Annotasiya.** Məqalə kiçik məktəbyaşlı şagirdlərdə əmək tərbiyəsinin pedaqoji və psixoloji əsaslarının tədqiqinə həsr olunmuşdur. Araşdırmada əmək tərbiyəsinin uşağın sosiallaşması, şəxsiyyət inkişafı, məsuliyyət hissinin formalaşması və psixoloji yetkinləşmə prosesində oynadığı rol geniş şəkildə təhlil olunur. Məqalədə ibtidai yaş dövrünün psixoloji xüsusiyyətləri, əmək fəaliyyətinin təlim prosesinə inteqrasiya mexanizmləri və əmək tərbiyəsinin təhsil mühitində tətbiq formaları elmi ədəbiyyat və müasir tədqiqatlar əsasında araşdırılır.

Tədqiqat həm yerli, həm də beynəlxalq pedaqoji yanaşmaları müqayisə edir, əmək fəaliyyətinin uşaqlarda iradə, özünənəzarət, sosial bacarıqlar və əməkdaşlıq kimi keyfiyyətləri necə gücləndirdiyini müəyyənləşdirir. Məqalədə həmçinin əmək tərbiyəsinin məktəb mühitində həyata keçirilməsinin nəticələri, müəllimlərin rolu, valideyn-məktəb əməkdaşlığının əhəmiyyəti və əmək tapşırıqlarının şagirdlərin emosional və davranış inkişafına təsiri qiymətləndirilir.

Araşdırmanın nəticələri göstərir ki, kiçik yaşlı şagirdlərin əmək fəaliyyətinə sistemli cəlb olunması onların harmonik inkişafını təmin edir və təlim prosesində müsbət motivasiya yaradır. Məqalə əmək tərbiyəsinin tədris prosesində daha effektiv tətbiqi üçün nəzəri və praktik tövsiyələr təqdim edir.

## The role of labour upbringıng on younger school children

**Author(s):**

**Terane Aliyeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** Turanealiyeva1218@gmail.com

**Keywords:** labour upbringing, primary grade, younger school children, psychological development, socialization, pedagogical process, responsibility, teaching motivation

**Abstract.** The article is devoted to the study of pedagogical and psychological bases of labour upbringing among younger school children. In the research the role of labour upbringing in children's socialization, personality development, formation of responsibility and psychological maturation are comprehensively analysed. Based on scientific literature and contemporary studies, in the article the psychological characteristics of primary school age, the mechanisms for integrating labour activities into the educational process and forms of implementing labour upbringing within educational environment are searched.

The study compares both national and international pedagogical approaches and identifies how labour activities contribute to the development of such qualities as willpower, self-control, social skills and cooperation among children. The article also evaluates the outcomes of implementing labour upbringing in the school environment, the role of teachers, the importance of parent-school cooperation and the impact of labour-related tasks on students' emotional and behavioral development.

The results of research show that, systematic involvement of younger school children in labour activities promotes their harmonious development and creates positive motivation for learning. The article provides theoretical and practical recommendations for more effective implementation of labour education in the teaching and learning process.

## Роль трудового воспитания в формировании личности младших школьников

**Автор(ы):**

**Тарана Алиева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** Turanealiyeva1218@gmail.com

**Ключевые слова:** трудовое воспитание, начальная школа, младшие школьники, психологическое развитие, социализация, педагогический процесс, ответственность, учебная мотивация

**Аннотация.** Статья посвящена исследованию педагогических и психологических основ трудового воспитания младших школьников. В исследовании подробно анализируется роль трудового воспитания в процессе социализации ребёнка, развития личности, формирования чувства ответственности и психологического взросления. На основе научной литературы и современных исследований рассматриваются психологические особенности младшего школьного возраста, механизмы интеграции трудовой деятельности в образовательный процесс, а также формы реализации трудового воспитания в образовательной среде.

В статье проводится сравнительный анализ отечественных и зарубежных педагогических подходов, определяется влияние трудовой деятельности на развитие у детей таких качеств, как воля, самоконтроль, социальные навыки и умение сотрудничать. Кроме того, оцениваются результаты реализации трудового воспитания в школьной среде, роль учителя, значение сотрудничества школы и семьи, а также влияние трудовых заданий на эмоциональное и поведенческое развитие учащихся.

Результаты исследования показывают, что систематическое вовлечение младших школьников в трудовую деятельность способствует их гармоничному развитию и формированию положительной мотивации к обучению. В статье представлены теоретические и практические рекомендации по повышению эффективности применения трудового воспитания в образовательном процессе.

Müasir təhsil sistemində şagirdlərin hərtərəfli inkişafının təmin edilməsi əsas vəzifələrdən biri hesab olunur. Bu proses yalnız nəzəri biliklərin mənimsənilməsi ilə bitmir, eyni zamanda uşaqlarda sosial, mənəvi və əmək bacarıqlarının formalaşdırılmasını da əhatə edir. Bu baxımdan əmək tərbiyəsi şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan pedaqoji amillərdən biridir.

Əmək tərbiyəsi uşaqlarda əməyə müsbət münasibətin formalaşdırılması, əmək fəaliyyətinə marağın artırılması və əmək bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutur. Xüsusilə ibtidai məktəb dövrü uşaqların psixoloji və sosial inkişafında mühüm mərhələ hesab edilir. Bu yaş dövründə formalaşan vərdiş və bacarıqlar onların gələcək həyat fəaliyyətində mühüm rol oynayır. Tədqiqatçılar qeyd edirlər ki, əmək fəaliyyəti uşaqların məsuliyyət və müstəqillik kimi keyfiyyətlərinin inkişafına mühüm təsir göstərir

Kiçik məktəb yaşlı şagirdlərdə əmək tərbiyəsinin təşkili pedaqoji prosesin mühüm tərkib hissələrindən biridir. Bu yaş dövründə uşaqlar müxtəlif fəaliyyət növlərinə maraq göstərir və praktiki fəaliyyət vasitəsilə yeni bacarıqlar əldə edirlər. Buna görə də ibtidai siniflərdə əmək tərbiyəsinin təşkili şagirdlərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Əmək tərbiyəsinin əsas məqsədi şagirdlərdə əməyə hörmət hissinin formalaşdırılması, əmək fəaliyyətinə marağın artırılması və əmək bacarıqlarının inkişaf etdirilməsidir. Bu proses şagirdlərin müxtəlif praktik fəaliyyətlərə cəlb olunması vasitəsilə həyata keçirilir. Məktəbdə təşkil edilən əmək yönümlü tapşırıqlar, kollektiv fəaliyyət formaları və sosial faydalı işlər şagirdlərin əmək vərdişlərinin formalaşmasına mühüm təsir göstərir

İbtidai sinif şagirdlərində əmək tərbiyəsinin formalaşdırılmasında müəllimin pedaqoji fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Müəllim şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq onların əmək fəaliyyətini düzgün istiqamətləndirməli və onları müxtəlif fəaliyyət növlərinə cəlb etməlidir. Müəllimin məqsədyönlü fəaliyyəti nəticəsində şagirdlər əmək fəaliyyətinin əhəmiyyətini dərk edir və bu sahədə müəyyən bacarıqlar qazanırlar.

Əmək tərbiyəsinin formalaşmasında ailə mühitinin də mühüm rolu vardır. Valideynlərin uşaqları gündəlik işlərə cəlb etməsi onların əmək bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Xarici pedaqoji tədqiqatlarda da əmək fəaliyyətinin təlim prosesində mühüm rol oynadığı qeyd olunur. Amerikalı pedaqoq J.Dewey təlim prosesində praktiki fəaliyyətin əhəmiyyətini vurğulayaraq qeyd edirdi ki, uşaqlar təcrübə və fəaliyyət vasitəsilə daha effektiv öyrənirlər. Onun fikrincə, təlim prosesi şagirdlərin fəal iştirakına əsaslanmalı və onların praktik fəaliyyətini stimullaşdırır.

Beləliklə, ibtidai sinif şagirdlərində əmək tərbiyəsinin formalaşdırılması onların hərtərəfli inkişafında mühüm rol oynayır. Əmək fəaliyyəti uşaqlarda məsuliyyət, müstəqillik və əməksevərlik kimi mühüm keyfiyyətlərin inkişafına kömək edir. Bu baxımdan əmək tərbiyəsinin səmərəli təşkili üçün məktəbdə müxtəlif pedaqoji üsul və vasitələrdən istifadə olunmalı, şagirdlər praktik fəaliyyətlərə cəlb edilməli və ailə ilə məktəb arasında əməkdaşlıq gücləndirilməlidir.

Nəticə olaraq qeyd etmək istəyirəm ki, əmək tərbiyəsinin düzgün təşkili uşaqların gələcək fəaliyyətində mühüm rol oynayan sosial və mənəvi keyfiyyətlərin formalaşmasına şərait yaradır.

*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 20.01.2026, son daxilolma – 02.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 316.356.2:159.922.1

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.56-61*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.56-61*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.56-61*

# Ailədaxili münasibətlərdə münaqişəyə səbəb olan bəzi amillərə dair

**Müəllif(lər):**

**Leyli Abuzərova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** abuzrovaleyli@gmail.com
https://orcid.org/ 0009-0002-2339-4850

**Açar sözlər:** ailədaxili münaqişələr, uşaq şəxsiyyəti, tərbiyə, sağlam mühit, münaqişə

**Annotasiya.** Ailə cəmiyyətin əsas sosial institutlarından biri olmaqla, fərdin tərbiyəsində və şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Sağlam ailə mühiti cəmiyyət üçün faydalı, mənəvi dəyərlərə malik və sosial baxımdan fəal fərdlərin yetişməsinə şərait yaradır. Bununla belə, bütün ailələrin münaqişəsiz olduğunu qeyd etmək mümkün deyildir. Aparılan tədqiqatlar göstərir ki, ailədaxili münaqişələr ailə həyatının ayrılmaz elementlərindən biridir və müxtəlif sosial-psixoloji amillərin təsiri altında formalaşır.

Məqalədə ailədaxili münasibətlərdə münaqişələrin yaranmasına səbəb olan əsas amillər təhlil edilmişdir. Qeyd olunur ki, müasir dövrdə ailə münasibətlərinin mürəkkəbləşməsi, sosial-iqtisadi problemlər, emosional anlaşılmazlıqlar və ünsiyyət çatışmazlığı ailə münaqişələrinin artmasına səbəb olur. Ailə inkişaf etdikcə münaqişələrin forma və məzmununda da dəyişikliklər baş verir, yeni təzahür formaları meydana çıxır. Bu münaqişələrin ailədə böyüyən uşaqların davranışına, psixoloji vəziyyətinə və şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərdiyi vurğulanır.

Məqalədə qeyd edilir ki, ailədə yaranan gərgin psixoloji mühit ilk növbədə uşaqların emosional vəziyyətinə təsir edir. Münaqişəli ailə münasibətləri uşaqlarda özünəinamın azalmasına, davranış problemlərinin yaranmasına və psixoloji travmaların formalaşmasına səbəb ola bilər. Bu baxımdan ailədaxili münasibətlərdə sağlam ünsiyyətin və qarşılıqlı anlaşmanın təmin olunması xüsusi əhəmiyyət daşıyır.

Tədqiqatda ailədaxili münaqişələrin qarşısının alınması və sağlam ailə mühitinin formalaşdırılması istiqamətində müəyyən elmi-praktik yanaşmalar da irəli sürülmüşdür.

## About some factors causing conflicts in inner family relationships

**Author(s):**

**Leyli Abuzarova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** abuzrovaleyli@gmail.com
https://orcid.org/ 0009-0002-2339-4850

**Keywords:** intra-family conflicts, child personality, upbringing, healthy environment, conflict

**Abstract.** The family, as one of the fundamental social institutions of society, plays a significant role in the upbringing and formation of an individual's personality. A healthy family environment contributes to the development of socially active individuals possessing moral values and beneficial to society. However, it is impossible to claim that all families are free from conflict. Research demonstrates that intra-family conflicts constitute an integral component of family life and emerge under the influence of various socio-psychological factors.

The article analyzes the main factors contributing to conflicts within family relationships. It is noted that, in the modern era, the increasing complexity of family relations, socio-economic difficulties, emotional misunderstandings, and deficiencies in communication contribute to the growth of family conflicts. As family structures evolve, both the forms and manifestations of conflicts become more complex and diversified. The study emphasizes that such conflicts negatively affect the behavior, psychological condition, and personality development of children raised in these environments.

The article further notes that a tense psychological atmosphere within the family primarily affects children's emotional well-being. Conflictual family relationships may lead to decreased self-confidence, behavioral problems, and psychological trauma among children. In this regard, ensuring healthy communication and mutual understanding within family relationships is of particular importance.

The study also proposes several scientific and practical approaches aimed at preventing intra-family conflicts and fostering a healthy family environment.

## К некоторым факторам, вызывающим конфликты в семейных отношениях

**Автор(ы):**

**Лейли Абузарова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** abuzrovaleyli@gmail.com
https://orcid.org/ 0009-0002-2339-4850

**Ключевые слова:**
внутрисемейные конфликты, личность ребёнка, воспитание, здоровая среда, конфликт

**Аннотация.** Семья является одним из основных социальных институтов общества и играет важную роль в воспитании и формировании личности. Здоровая семейная среда способствует воспитанию социально активных личностей, обладающих нравственными ценностями и полезных для общества. Вместе с тем невозможно утверждать, что все семьи являются бесконфликтными. Исследования показывают, что внутрисемейные конфликты представляют собой неотъемлемый элемент семейной жизни и формируются под воздействием различных социально-психологических факторов.

В статье анализируются основные причины возникновения конфликтов во внутрисемейных отношениях. Отмечается, что в современных условиях усложнение семейных отношений, социально-экономические проблемы, эмоциональное непонимание и недостаток коммуникации способствуют росту семейных конфликтов. По мере развития семьи изменяются формы и содержание конфликтов, появляются новые формы их проявления. Подчёркивается, что данные конфликты оказывают негативное влияние на поведение, психологическое состояние и формирование личности детей, воспитывающихся в семье.

В статье отмечается, что напряжённая психологическая атмосфера в семье прежде всего влияет на эмоциональное состояние детей. Конфликтные семейные отношения могут приводить к снижению самооценки, возникновению поведенческих проблем и формированию психологических травм у детей. В этой связи особое значение приобретает обеспечение здоровой коммуникации и взаимопонимания во внутрисемейных отношениях.

В исследовании также предложены определённые научно-практические подходы, направленные на предотвращение внутрисемейных конфликтов и формирование здоровой семейной среды.

**Giriş.** Ailə uşaq şəxsiyyətinin inkişaf etdiyi, duyğularının formalaşdığı sosial bir mühitdir. Uşağın öz ailəsində gördüyü münasibət onun sonrakı həyatının əsas istiqamətverici qüvvəsi hesab edilir. Ailədaxili münasibətlər bu mühitin formalaşmasında aparıcı mövqedə dayanır. Ailədə sağlam mühitin olması uşağın gələcəkdə öz ayaqları üstə sağlam dayanmasına, özünə güvənin artmasına səbəb olacaqdır. Bu baxımdan da, ailələr bu kimi məsələləri diqqətdə saxlamalı, uşaqlarının düzgün, tərbiyəli, sağlam böyümələrində əllərindən gələni etməlidirlər. Ona görə də ailədaxili münasibətlərdə münaqişəyə səbəb olan amillərin öyrənilməsi araşdırmanın aktuallığını ifadə edir.

Ailə xoşbəxtliyinin ən böyük göstəricisi uşaqlar hesab edilir. Uşaqların sabaha aydın baxışlarla baxması isə bu xoşbəxtliyi daha da şərtlındirmiş olur. Uşaq ailənin dayağı hesab edilir. Cəmiyyətdə baş verən inkişaf müsbət tərəfləri ilə də ailədə müəyyən müsbət halların yaşanmasına səbəb olur. Onu da qeyd edək ki, bütün bunlar heç də müsbət nəticələrlə yadda qalmır. Eyni zamanda, bu hallar aildə neqativ halların yaranmasına da səbəb olur.

Psixoloqlar tərəfindən yaradılmış müxtəlif nəzəriyyələrə əsasən məlum olur ki, ailə xarakterin yetişdiyi ilk və ən mühüm toplumdur. Xarakterin əsas bünövrəsi ailədə qoyulur. Belə ki, övlad valideynlərin davranışını müşahidə edərək onların hansı üsullara tabe olduqlarına diqqət yetirir [3, s. 4].

**Metodlar.** Bu tədqiqatda ailədaxili münasibətlərdə münaqişəyə səbəb olan amilləri araşdırmaq üçün bir neçə elmi metoddan istifadə olunmuşdur. Müqayisə metodu – Ailə daxilində yaranan münasibət və münaqişə halları bir-biri ilə müqayisə edilərək fərqlilik və oxşarlıqlar müəyyən edilmişdir. Təhlil metodu – Toplanmış məlumatlar sistemli şəkildə təhlil edilərək, münaqişələrin uşaqların psixi inkişafına və davranışlarına təsiri qiymətləndirilmişdir. Ümumiləşdirmə metodu – Təhlil nəticələri ümumiləşdirilərək ailədaxili münaqişələrin başlıca səbəbləri və onların psixoloji təsirləri müəyyən edilmişdir.

Beləliklə, istifadə olunan metodlar tədqiqatın həm nəzəri əsaslarını möhkəmləndirmiş, həm də praktik nəticələrin çıxarılmasına imkan yaratmışdır.

**Müzakirə.** Ailə kiçik bir cəmiyyətdir. Ailə elə olmalıdır ki, orada doğulan, böyüyən uşaqlar cəmiyyətimiz üçün yararlı ola bilsinlər. Uşağın tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında ailə mühüm təməl roluna malikdir.

Biz ailə deyəndə heç də onu qeyd edə bilmərik ki, bütün ailələr xoşbəxtdir və bu ailələrdə münaqişə yoxdur. Aparılan tədqiqatlar da sübut edir ki, münaqişəsiz ailə yoxdur. Münaqişə ailə həyatının vacib elementi hesab edilir. Çünki münaqişə yaşanmadan ailədə baş verən gərginliyi aradan qaldırmaq mümkün deyildir.

Biz qeyd etdik ki, hər bir ailədə münaqişə yarana bilər. Əgər bu münaqişələr mütəmadi şəkildə baş verirsə, demək münasibətlərdə qeyri-müəyyənlik yaşanmış olur. Yaşanmış bu kimi hallar nəinki ailə münasibətlərinin pozulmasına, həm də ailədə böyüyən uşaqların psixi inkişafına da öz mənfi təsirini göstərmiş olur.

Ailədə sağlam mühitin olması bir başa ailədaxili münasibətlərin necə qurulmasından asılıdır. Onu da qeyd etmək lazımdır ki, ailədə başçıları olan ər və arvadın öhdəsinə düşür, onlar, ilk növbədə, öz aralarında, sonra isə həm uşaqları ilə öz aralarında, həm də uşaqlar arasındakı münasibətlərin düzgün qurulmasını tənzimləməlidirlər. Valideynlər nəzərə almalıdırlar ki, uşaqlar arasındakı sağlam qarşılıqlı münasibətlər öz-özünə yaranmır. O, ailə tərbiyəsinin zəruri nəticəsi kimi meydana çıxır [1, s. 54].

Biz bunu belə əlaqələndirə bilərik. Ailə daxilində tərəflər bir-biri ilə dost olarlarsa, bir-birlərinə qayğı ilə yanaşarlarsa, bir-birlərindən heç nəyi gizlətmədən sirlərini bölüşərlərsə, ailə çərçivəsində məsuliyyətlərini dərk edərlərsə bu kimi ailələrin təməli sağlam olacaq və belə ailələrdə böyüyən uşaqlar da düzgün formalaşmış olacaqdır. Düzgün təməl düzgün inkişaf deməkdir. Bu cür ailələrin övladlarının psixi inkişafı da düzgün təşkil edilmiş olacaqdır.

Uşağın ailədə gördüyü məhəbbət, nəvaziş onu düzgün istiqamətləndirmiş olacaqdır. Uşaq ailənin güzgüsüdür deyimini yada salsaq, heç də yanılmarıq. Ailədə ata-ana məhəbbəti mütləqdir və bu məhəbbəti bütün uşaqlar hiss etməlidirlər. Ailədə valideyn nəvazişi ilə böyüyən uşaqlar sağlam psixi inkişafa malik olmaqla bərabər, həm də gələcəyin şəxsiyyəti kimi də yetişmiş olurlar.

Bu gün uşaqların psixi inkişafından bəhs ediriksə, demək ailədə hökm sürən münasibətlərin rolunu da qeyd etmək yerinə düşər. Sağlam münasibət sağlam övlad yetişdirmək deməkdir. Ailədə yaranan hər bir münasibət uşaq psixologiyasına təsirsiz ötüşmür.

Lakin bəzi ailələrdə heç də bu kimi münasibətlərin şahidi olmaq mümükün deyildir. Elə ailələr var ki, ailə üzvləri bir-biri ilə hesablaşmır, bir-birlərinə münasibətdə heç də səmimi deyil, bir-birlərinə qarşı laqeyd mövqedə dayanır, uşaqların tərbiyəsində səfərbər mövqedə dayanmırlar.

Belə ailələrdə normal ailədaxili münasibətlərin olduğundan bəhs etmək mümkün deyildir. Bu cür ailələrdə ailə üzvləri ola bilsin ki, məkan baxımından bir yerdə ola bilərlər, lakin bir-birlərinə münasibətdə birlik, səmimilik yoxdursa, demək, sağlam ailə təməli yoxdur. Ailə bütün ailə üzvlərinin mənəvi həyatının vəhdəti kimi başa düşülməlidir. Bu vəhdət yoxdursa, sağlam ailə də yoxdur.

Bu istiqamərdə tədqiqat aparan mütəxəssislər qeyd edirlər ki, ailə müasir dövrdə uşaqların böyüməsində, formalaşmasında əvəzsiz xidmətə malik olan bir tərbiyə institutudur. Çünki uşağın ilkin olaraq məruz qaldığı təsirlər ailə çərçivəsində baş verir. Bu təsirlər isə həm pozitiv, həm də neqativ xarakter daşıya bilər [2, s. 89].

Bütün bunlar onu deməyə əsas verir ki, ailədaxili münasibətlər uşaqlara təsirini göstərməklə onların psixi inkişafında da öz təsirini buraxmış olur. Demək ki, uşağın şəxsiyyət kimi formalaşmasında, cəmiyyətdə sosiallaşmasında, tərbiyəsində ailədaxili münasibətlər mühüm rol oynayır.

Tədqiqatların da əldə etdiyi nəticəyə əsasən qeyd etmək lazımdır ki, uşağın normal psixi inkişafı ailədaxili münasibətlərdən çox asılıdır. Uşaq doğulduğu ailədə inkişaf edir, cəmiyyətə hazırlanır. Uşağın inkişafı onun malik olduğu ailənin mühiti ilə müqayisə edilir. Bu mühit münbit olarsa, sağlam uşaqlar böyeyəcək, cəmiyyətdə özünə layiqli yer tuta biləcəkdir.

Dünyanın müxtəlif coğrafi ərazilərində yaşamasından asılı olmayaraq, bütün uşaqlar öz inkişafında çağalıq, körpəlik, məktəbəqədər uşaqlıq, kiçik məktəb yaşı, yeniyetməlik və erkən gənclik kimi mərhələlər keçir [5, s. 36].

Əlbəttə, bütün bu dövlər ərzində uşaqların psixi inkişafında fərqli cəhətlər özünü göstərir. Bu fərqlilik isə ailə münasibətləri ilə müəyyən edilir.

Uşaqların psixi inkişafından bəhs edərkən onu da qeyd edək ki, insan anadan olduğu andan ömrünün sonuna qədər mürəkkəb psixi inkişaf dövrü keçir. İnsanın yaşı artdıqca onun psixi inkişafında da müəyyən fərqlər yaranır. Bu fərqlər də onunla əlaqələndirilməlidir ki, psixi inkişaf ilkin formadan ali formalara doğru bir inkişaf yolu keçir. Eyni zamanda, uşağın psixi inkişafı hər yaş dövrünə uyğun müəyyən keyfiyyətlərlə səciyyələnir. Ətrafdakıların da təsiri bu psixi keyfiyyətlərə öz təsirini göstərə bilir.

Demək, uşağın psixi inkişafında ailədə olan münasibətlər də öz təsirini göstərmiş olur. Bu psixi inkişafda ailədə baş verən münaqişələr də təsirsiz ötüşmür. Ailədə yaşanan münaqişələr uşağın psixi inkişafında bəzi neqativ halların yaranmasına da səbəb olsa bilir.

Uşağın psixi inkişafından bəhs ediriksə, burda ünsiyyətin də rolunu xüsusi qeyd etmək lazımdır. Ünsiyyət uşağın psixi inkişafını şərtləndirir. Bəs uşağın ünsiyyət tələbatı necə ödənilir? Bu tələbatın ödənilməsində əsas vəzifə kimlərin üzərinə düşür?

Əlbəttə ki, bu tələbat ailənin üzərinə düşür. Ünsiyyət elə bir prosesdir ki, uşağın psixi inkişafına təsir etməklə bərabər, həm də onu istiqamətləndirmək mümkündür. Uşaqlar kənarda insanlarla ünsiyyətə girirlər, lakin bu ünsiyyətin mərkəzində ailə üzvləri ilə olan ünsiyyət daha aparıcıdır. Bu ünsiyyətdə valideynlərin rolu daha da danılmazdır.

Bildiyimiz kimi, uşağın şəxsiyyət kimi formalaşmasında birinci yerdə valideynlər dayanır, bu mənada uşaqların öz valideynləri ilə ünsiyyəti birinci yerdə dayanır. Valideynlərlə ünsiyyətin yerini heç nə verə bilməz və uşaqlar üçün bu ünsiyyət digər ünsiyyətlərdən fərqlənir. Buna səbəb nədir?

İlk öncə onu qeyd edək ki, uşqalar valideynlərini "ideal şəxs" kimi qəbul edirlər. Bəzən uşaqlar valideynlərinə oxşamağa çalışırlar. Uşaqlar valideynlərin onlarla ünsiyyəti prosesində bu ünsiyyətin əhəmiyyətini dərk edirlər ki, bu da onların psixi inkişafında mühüm əhəmiyyət kəsb etmiş olur. Uşaqlar valideynləri ilə daha çox ünsiyyətdə olduqda:

- Onlarda nitq inkişaf edir;

- Fikirlərini daha rahat ifadə edir;
- Digərləri ilə ünsiyyətdə çətinlik çəkmir;
- Asanlıqla başqaları ilə dil tapa bilirlər.

Əlbəttə, bütün bunlara valideynləri ilə ünsiyyətə girdikdə nail ola bilirlər. Bunu nəzərə alan valideynlər də çalışmalıdırlar ki, uşaqları ilə ünsiyyətə girsin, onlarda özlərinə güvən hissinin formalaşmasına şərait yaratsınlar. Belə bir şəraitdə psixi baxımdan sağlam övladlar yetişəcəkdir.

Biz uşaqların psixi inkişafından bəhs ediriksə, deməkki, burada birinci yerdə ailə dayanır. Ailədə sağlam münasibətlər uşağın psixi inkişafına da müsbət təsir edir. Lakin bu heç də həmişə belə olmur. Ailədə münaqişələrin yaşanması bəzən qaçılmaz olur. Belə ki, fikir ayrılığının yaranması, ailə üzvlərinin bir-birini başa düşməməsi bu münaqişələrin yaranmasında başlıca amil hesab edilə bilər. Müəyyən münaqişələr prosesində insan stres yaşamağa məcbur olur.

Ailədə valideynlər arasında yaşanan münaqişə belə uşaqlara təsirsiz ötüşmür. Müşahidələr göstərir ki, valideynlər arasında yaşanana münaqişə zamanı uşaqlar qorxu hissi keçirdir, kədərlənir və bu da onlarda həm yaşıdlarına qarşı aqressivlik, laqeydlik hissi ilə müşahidə edilir. Belə bir mühitdə böyüyən uşaqlar, eyni zamanda rəftar baxımından:

- kobud olur;
- kimləsə razılaşmaq istəmirlər;

Bəzən qorxu hissi onlara qalib gəlir.

Belə olan şəraitdə uşaqların mənfi təsirə məruz qalması onrın psixologiyasının pozulması ilə müşahidə edilir.

Ailədə yaranan mənfi mühit uşaqların xarakterində, davranışında, başqalarına münasibətdə özünü mütləq biruzə verir. Heç kimlə hesablaşmamaq, özünü hamıdan üstün bilmək, başqalarına kobud davranmaq halları onların xarakterinin əsas daşıyıcısı olacaqdır.

Mütəxəssislər qeyd edirlər ki, ailə münaqişələri öz səbəblərinə görə fərqlənir. Bu münaqişələr arasında aşağıdakılar xüsusi olaraq fərqləndirilir:

- ailə üzvlərinin fəallığının, habelə özünüifadə etməsi azadlığının məhdudlaşdırılması;
- ailənin hər hansı bir üzvünün davranışının qəbul edilmiş normalardan kənara çıxılması (bura müxtəlif səsblər aid ola bilər);
- ailə üzvləri arasında əks maraqların yaranması, tələbatların ödənilməsi imkanlarının məhdudluğu;
- çətin həll edilən maddi problerin mövcudluğu;
- Ər-arvad münasibətlərinə qohumların qarışmas [7, s. 5].

Demək, ailə münaqişələri qlobal problemdir və bura təsir edən amillər də qeyd etdiyimiz kimi həddindən artıq çoxdur. Ailə inkişaf etdikcə ailə münaqişləri də mürəkkəbləşir. Bu münaqişələrin zamanla yeni təzahür formaları meydana çıxır. Ailədaxili münaqişələrin baş verməsi hər zaman mövcud olmuş, bu gün də özünü göstərir.

Bu münaqişələrin zəminində evdə böyüyən uşaqların rəftarında, davranışında yaranan fərqlər də həmişə diqqət çəkir. Evdə yaşanan mənfi münasibətlər uşaqların şəxsi tərbiyəsində də özünü göstərir.

Ailədə münaqişələr yarandığı zaman ailənin psixoloji sferası da dəyişir. Psixoloji sferanın dəyişməsi ilk növbədə ailədə böyüyən uşaqlara təsir edir. Belə ki, hər bir ailədə uşaq şəxsiyyət kimi formalaşır. Belə olduqda isə valideynlərə nisbətən uşaqlar daha çox travma almış olurlar.

Ailədə ata-ana, bacı-qardaş arasında yaşanan münaqişələr bu və digər formada uşağa təsirsiz ötüşmür. Bəzən uşaqların gözləri qarşısında yaşanan hallar onların əhvalına, davranışına təsir edir. Bəzən uşaqlara qoyulan qadağalar da valideynlərlə uşaqlar arasında münasibətlərin dəyişməsinə səbəb olur.

Ailədə ata-ana uşaqların yanında mübahisə etməməli, bir-birinin fikrini tənqid etməməlidirlər. Onlar arasında yaranan fikir müxtəlifliyi özlüyündə uşağa öz təsirini göstərmiş olur.

Demək ki, ailədaxili münaqişələr təkcə ailə münasibətlərinin pozulmasına səbəb olmur. Yaranan mühit uşaqların psixi inkişafına, onların şəxsiyyət kimi formalaşmasına da təsirsiz ötüşmür. Diqqət etsək görərik ki, bu cür uşaqlarda təlim fəaliyyətinin effektivliyi də aşağı səviyyədə olur. Kiçikyaşlı məktəblilərin böyüdüyü ailədə münaqişələrin yaşanması onların təlimə marağının azalmasına, təlim keyfiyyətinin aşağı düşməsinə səbəb olacaqdır.

Tədqiqatçılar ailədaxili münaqişələ törədə biləcək 4 amili də qeyd edirlər. Bura daxildir:

1. psixofizioloji səviyyə;

2. psixoloji səviyyə;

3. sosial rollar səviyyəsi;

4. sosialmədəni(mənəvi) səviyyə [6, s. 13].

Psixoloqlar psixofizioloji uyğunluğu sağlam, ahəngdar ailə münasibətlərinin təməli hesab edirlər. Çünki psixofizioloji uyğunluq ailədə tərəflər arasında qarşılıqlı münasibətlərdə həlledici rol oynayır.

Ailə qurarkən psixofizioloji uyğunluq nə qədər əsasdırsa, əlverişli psixoloji iqlim də bir o qədər vacibdir və ailənin qorunub saxlanmasında və möhkəmlənməsində əsas şərtdir.

Ailə münasibətlərində sosial rollar məsələsi də zəruridir. Ailədə məişət-təsərrüfat işlərinin düzgün bolüşdürülməməsinin əsasında ailədaxili məsuliyyətsizlik və intizamsızlıq dayanmış olur. Buna görə də ailədə hər iki tərəf üzərinə düşən məsuliyyəti hiss etməli, sosial rollarını dərk etməlidirlər.

Sosial mədəni mühit dedikdə isə qarşılıqlı anlaşma, tərəf müqabillərinin fikir və düşüncələrinin uyğun gəlməsi nəzərdə tutulur.

Göründüyü kimi, ailədaxili münaqişələrin baş vermə səbələri fərqlidir və bu kimi amillər uşaq psixikasına təsirini göstərir.

Çox gözəl qeyd edilir ki, hər bir ailədə dəyər sistemi olmalıdır. əgər ailədə dəyər sistemi olmazsa, bu zaman kindən doğan qərəzli hərəkətlər olacaqdır. bu səbəbdən ailə sağlam bünövrə, təməl üzərində qurulmalı,"mən" ifadəsi "biz" ilə əvəz edilməlidir. Mütərəqqilik də məhz bundadır-biz olmaqda [4, s. 4].

Bu gün biz uşaqların fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etməsini istəyiriksə, birinci növbədə o uşağa valideyn məhəbbəti lazımdır. Ata-ananən övlada məhəbbəti onu inkişaf etdirməlidir. Valideyn həm bu gün, həm də sabah övladının xoşbəxtliyinin rəhni olmalıdır.

Uşağın sevgiyə, məhəbbətə ehtiyacı vardır. Bu psixoloji ehtiyac adlanır. Uşaqlar ailədə məhəbbətlə idarə edilməlidirlər. Ailədə uşağa qarşı sevgi hissi olmayanda, uşaq valideyn diqqətindən kənarda qalanda uşaq psixologiyasında müəyyən dəyişikliklər özlərini göstərməyə başlayacaqdır. Biz bu dəyişiklilləri aşağıdakı kimi qeyd edə bilərik:

- Uşaqda eqoist hisslərin yaranması;
- Başqaları ilə kobud rəftarları;
- Söz dinləməmələri;
- Özlərinə qarşı güvənin itməsi;
- Heç kim ilə hesablaşmamaları;
- Ətrafdakıları ilə münasibət qura bilməmələri;
- Özlərindən başqa heç kim i bəyənməmələri;
- Həmişə özlərini haqlı hesab etmələri.

Əlbəttə, bütün bunlar uşaq tərbiyəsində yer alan mənfi tərəflərdir. Bunları yaradan isə ailədaxili münaqişələrdir. Valideynlər bunları bəzən hiss etmir, ailədaxili münaqişələri səbəb kimi qəbul etmirlər. Bu halların yaranmasına səbəb kimi aşağıdakıları da qeyd etmək olar:

- Ailədə uşağa qarşı mənfi rəftar;
- Uşağın ailədə diqqətdən kənar qalması;
- Uşaqla düzgün ünsiyyətin qurulmaması;
- Onun fikirlərinin nəzərə alınmaması;
- Uşaq tərbiyəsi ilə maraqlanmamaq.

Valideynlər unudurlar ki, uşağın tərbiyəsi, inkişafı ilk öncə ailədən başlayır. Ailə uşaqların psixi inkişafında birinci yerdə dayanır. Bu münasibətlərdə valideyn məsuliyyəti də olmalıdır. Onlar uşaqları ilə düzgün rəftar etməli, onların fikirlərinə hörmət etməli, lazım olan anda onları dinləməli, məsləhətləri ilə onlara yardımçı olmalıdırlar.

Son illərdə aparılan araşdırmalar göstərir ki, ailədaxili münaqişələr şagirdlərdə stresin, emosional gərginliyin və psixoloji yorğunluğun artmasına səbəb olur. Eyni zamanda, tədris proqramlarının gərginliyi, uzunmüddətli dərs saatları və ev tapşırıqlarının həddən artıq verilməsi də onların psixi tarazlığını pozur və motivasiya səviyyəsini aşağı salır. Bu kimi hallar məktəblilərin psixi inkişafına öz neqativ təsirini göstərir, bəzən onlar təhsilə adaptasiya ola bilmirlər.

**Nəticə.** Araşdırma zamanı belə bir nəticə əldə edilmişdir ki, ailədaxili münaqişələr şagirdlərdə müxtəlif psixoloji pozğunluqlara gətirib çıxara bilər. Bu münaqişələr şagirdlərdə anksiyete (narahatlıq), depressiya, diqqət yayılması və hətta təhsil prosesinə qarşı neqativ münasibət formalaşa bilər. Bu hallar onların idrak fəaliyyətinə birbaşa təsir edərək, dərs materiallarını qavrama və tətbiq etmə bacarıqlarını zəiflədir. Bu münaqişələr səbəbindən yaranan emosional gərginlik isə şagirdlərin sosial münasibətlərinə də təsir edir və onların sinif yoldaşları, eləcə də ailə üzvləri ilə ünsiyyət problemləri yaşamasına

səbəb ola bilər.

Bu gün dövlətimizin və cəmiyyətimizin qarşısında duran əsas vəzifə uşaqların ailədə əlverişli soaial şəraitdə böyümələri üçün münbit psixoloji mühitin təmin edilməsidir. Bu mühiti yaradan isə ailə üzvləridir. Hər bir ailə üzvü arasında olan münasibətlər uşaqların psixoloji inkişafından yan keçmir. Ona görə də hər bir ailədə sağlam mühitin formalaşması olduqca vacibdir.

**Ədəbiyyat**

1. Əlizadə, Ə.Ə. Ailə / Ə.Ə.Əlizadə, A.N.Abbasov. – Bakı: Maarif, – 1989. – 234 s.
2. Əlizadə, H.Ə. Tərbiyənin demoqrafik problemləri / H.Ə.Əliyev. – Bakı: Maarif, – 1993. – 167 s.
3. İmamverdiyeva, N.B. Yeniyetməlik və yetkinlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münaqişələrin təsiri / N.B.İmamverdiyev, N.M.Mirzəliyeva. – Bakı: Müəllim, – 2022. – 207 s.
4. Kərimli, S. Ailədaxili münasibətlərin uşaq psixologiyasında rolu. 2 oktyabr 2022. https://www. tehsil.biz/news/az/47824/Aildaxili-mnasibtlrin-uaq-psixologiyasnda-rolu
5. Qurbanova, Ü.Ə. Uşaqların psixoloji müdafiəsinin formalaşmasında ailədaxili amillərin öyrənilməsi // Elmi iş. Beynəlxalq elmi jurnal.4 fevral 2022. – s.34-36
6. Məmmədova, F.F. Müasir dövraə ailədaxili konfliktlərin psixoloji təhlili. Magistr elmi ixtisas dərəcəsi almaq üçün Dissertasiya. – Bakı: – 2018. – 75 s.
7. Ülviyyə Tahirqızı. Aiədaxili münaqişələr. Xalq cəbhəsi. 13 mart 2014

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 13.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 37.015.3:159.922.7

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.62-66*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.62-66*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.62-66*

# Azərbaycanda şagirdlərin fərdi inkişafında psixoloji dəstəyin rolu

**Müəllif(lər):**

**Pəri Babayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** peribabayeva771@gmail.com

**Açar sözlər:** məktəbli şagird, fərdi inkişaf, psixoloji dəstək, məktəb psixologiyası, sosial adaptasiya, təlim motivasiyası

**Annotasiya.** Məqalədə məktəbli şagirdlərin fərdi inkişafında psixoloji dəstəyin rolu araşdırılmış, bu prosesdə məktəb mühiti, ailə amili və müəllim-şagird münasibətlərinin əhəmiyyəti təhlil olunmuşdur. Şagirdlərin idrak, emosional-iradi və sosial inkişaf xüsusiyyətləri nəzərə alınaraq, psixoloji dəstəyin onların şəxsiyyət kimi formalaşmasına, özünəinamının artmasına və təlim motivasiyasının güclənməsinə təsiri elmi baxımdan əsaslandırılmışdır. Məqalədə həmçinin məktəb psixoloqunun fəaliyyəti, fərdi yanaşma prinsipi və inklüziv mühitin yaradılmasının əhəmiyyəti diqqət mərkəzinə çəkilmişdir.

**Məqalənin aktuallığı:** Müasir dövrdə qloballaşma, informasiya bolluğu və sosial dəyişikliklər şagirdlərin psixoloji vəziyyətinə birbaşa təsir göstərir. Bu baxımdan, onların sağlam fərdi inkişafının təmin olunmasında psixoloji dəstəyin rolu xüsusi aktuallıq kəsb edir.

**Məqalənin əsas məqsədi:** Məktəbli şagirdlərin fərdi inkişafına təsir edən psixoloji amilləri müəyyənləşdirmək, psixoloji dəstəyin onların akademik nailiyyətlərinə və sosial adaptasiyasına təsirini araşdırmaq, eləcə də bu sahədə praktik tövsiyələr irəli sürməkdir.

**Məqalənin araşdırma metodları**: Tədqiqat zamanı elmi-pedaqoji və psixoloji ədəbiyyatların təhlili, müşahidə, müsahibə, anket sorğusu və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur.

**Məqalədən alınan nəticələr:** Araşdırma nəticələri göstərir ki, məktəbdə sistemli və məqsədyönlü psixoloji dəstək şagirdlərin emosional sabitliyini artırır, sosial bacarıqlarını inkişaf etdirir və onların təlim fəaliyyətində uğurlarını yüksəldir. Fərdi yanaşma və mütəmadi psixoloji maarifləndirmə tədbirləri bu prosesdə mühüm rol oynayır.

**Məqalənin praktik və nəzəri əhəmiyyəti**: Nəzəri baxımdan, məqalə məktəb psixologiyası və inkişaf psixologiyası sahəsində elmi biliklərin zənginləşdirilməsinə töhfə verir. Praktik baxımdan isə, məktəb psixoloqları, müəllimlər və valideynlər üçün şagirdlərin fərdi inkişafını dəstəkləmək istiqamətində faydalı tövsiyələr təqdim edir.

## The role of psychological support in the individual development of students in Azerbaijan

**Author(s):**

**Peri Babayeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** peribabayeva771@gmail.com

**Keywords:** school child, individual development, psychological support, school psychology, social adaptation, learning motivation

**Abstract.** In the article the role of psychological support in the individual development of school students and analyzes the importance of the school environment, family factors and teacher-student relationships in this process were analysed. Taking into account cognitive, emotional-volitional and social development characteristics of students, the study scientifically substantiates the impact of psychological support on personality formation, self-confidence enhancement and strengthening of learning motivation. The article also focuses on the activities of school psychologists, the principle of an individual approach and the importance of creating an inclusive educational environment.

**Relevance of the article:** In modern time globalization, the abundance of information and social changes directly affect students' psychological well-being. Therefore, the role of psychological support in ensuring their healthy individual development has become increasingly important and relevant.

**Main purpose of the article**: The study aims to identify the psychological factors influencing the individual development of school students, investigate the impact of psychological support on their academic achievements and social adaptation and propose practical recommendations in this field.

**Research methods**: The study employed the analysis of scientific, pedagogical and psychological literature, as well as observation, interviews, questionnaire surveys and comparative analysis methods.

**Research findings**: The findings indicate that, systematic and purposeful psychological support in schools enhances students' emotional stability, develops their social skills and improves their academic performance. An individualized approach and regular psychological awareness activities play a significant role in this process.

**Theoretical and practical significance of the article:** From theoretical point of view the article contributes to the enrichment of scientific knowledge in the fields of school psychology and developmental psychology. From practical point of view it provides useful recommendations for school psychologists, teachers and parents to support students' individual development.

## Роль психологической поддержки в индивидуальном развитии школьников в Азербайджане

**Автор(ы):**

**Пери Бабаева**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** peribabayeva771@gmail.com

**Ключевые слова:** школьник, индивидуальное развитие, психологическая поддержка, школьная психология, социальная адаптация, учебная мотивация

**Аннотация.** В статье исследуется роль психологической поддержки в индивидуальном развитии школьников, а также анализируется значение школьной среды, семейного фактора и взаимоотношений между учителем и учеником в данном процессе. С учётом особенностей когнитивного, эмоционально-волевого и социального развития учащихся научно обосновывается влияние психологической поддержки на формирование личности, повышение уверенности в себе и усиление учебной мотивации. В статье также акцентируется внимание на деятельности школьного психолога, принципе индивидуального подхода и значении создания инклюзивной образовательной среды.

**Актуальность статьи.** В современных условиях глобализации, информационной насыщенности и социальных изменений психологическое состояние учащихся подвергается значительному воздействию. В этой связи роль психологической поддержки в обеспечении их полноценного индивидуального развития приобретает особую актуальность.

**Основная цель статьи**. Определить психологические факторы, влияющие на индивидуальное развитие школьников, исследовать воздействие психологической поддержки на их академические достижения и социальную адаптацию, а также разработать практические рекомендации в данной области.

**Методы исследования.** В ходе исследования использовались методы анализа научно-педагогической и психологической литературы, наблюдения, интервьюирования, анкетирования и сравнительного анализа.

**Результаты исследования.** Результаты исследования показывают, что систематическая и целенаправленная психологическая поддержка в школе способствует повышению эмоциональной устойчивости учащихся, развитию их социальных навыков и улучшению учебных достижений. Важную роль в этом процессе играют индивидуальный подход и регулярные мероприятия по психологическому просвещению.

**Теоретическая и практическая значимость статьи**. С теоретической точки зрения статья способствует расширению научных знаний в области школьной и возрастной психологии. С практической точки зрения работа содержит полезные рекомендации для школьных психологов, педагогов и родителей по поддержке индивидуального развития учащихся.

**Giriş.** Məktəb illəri fərdin həyatında ən vacib və formalaşma dövrlərindən birini təmsil edir. Bu mərhələdə şagirdlər yalnız akademik biliklər əldə etmir, həm də gələcək şəxsiyyətlərini və həyat trayektoriyalarını formalaşdıran vacib psixoloji, emosional və sosial bacarıqlar inkişaf etdirirlər. Məktəb yaşlı uşaqlarda fərdi inkişaf idrak inkişafını, emosional tənzimləməni, sosial qarşılıqlı əlaqə bacarıqlarını, özünəhörmətin formalaşmasını, şəxsiyyətin inkişafını və davranış uyğunlaşmasını əhatə edir. Sürətli sosial dəyişikliklər, texnoloji inkişaf, akademik rəqabət və inkişaf edən ailə dinamikası ilə xarakterizə olunan müasir təhsil mühitində şagirdlər artan psixoloji tələblərlə üzləşirlər. Buna görə də, şagirdlərin fərdi inkişafının təşviqində psixoloji dəstəyin rolunu anlamaq Azərbaycanda əhəmiyyətli akademik və praktik əhəmiyyət kəsb edən bir məsələyə çevrilib.

Son illərdə Azərbaycan məktəblərində şagirdlərin psixoloji rifahında nəzərəçarpacaq dəyişikliklər müşahidə olunub. Narahatlıq, stress, özünəinamın aşağı olması, həmyaşıd münasibətləri münaqişələri, davranış problemləri, akademik təzyiq və məktəb mühitinə uyğunlaşmaqda çətinliklər kimi məsələlər daha çox nəzərə çarpır. Bu çətinliklər məktəblərdə strukturlaşdırılmış və peşəkar psixoloji xidmətlərə artan ehtiyacı vurğulayır. Psixoloji dəstək böhran müdaxiləsi və ya problem həlli ilə məhdudlaşmamalıdır; əksinə, şagirdlərin emosional dayanıqlığını, sosial səriştəsini və şəxsi inkişafını gücləndirməyə yönəlmiş profilaktik, inkişaf etdirici və dəstəkləyici bir sistem kimi fəaliyyət göstərməlidir.

Məktəblərdə psixoloji dəstək çoxölçülü rol oynayır. Qorxu, qəzəb və məyusluq kimi hissləri tənzimləməyə kömək etməklə şagirdlərin emosional sabitliyinə töhfə verir. Ünsiyyət qabiliyyətlərini, empatiyanı, əməkdaşlığı və münaqişələrin həlli strategiyalarını inkişaf etdirməklə sosial bacarıqları artırır. Bundan əlavə, şagirdlərin özünəinamını, akademik iştirakını və məqsəd qoyma qabiliyyətini artırmaqla idrak və motivasiya inkişafını dəstəkləyir. Düzgün tətbiq edildikdə, məktəb əsaslı psixoloji xidmətlər şagirdlərin potensiallarını araşdırmağa və ahəngdar şəkildə inkişaf etməyə imkan verən təhlükəsiz və dəstəkləyici təhsil mühiti yaradır.

Mədəni dəyərlərin, ailə gözləntilərinin və akademik nailiyyətlərin yüksək dərəcədə vurğulandığı Azərbaycan təhsil kontekstində psixoloji rifah həm şəxsi, həm də ictimai inkişafla sıx bağlıdır. Adekvat psixoloji dəstək alan şagirdlərin müsbət akademik göstəricilər, sağlam şəxslərarası münasibətlər və konstruktiv davranış nümunələri nümayiş etdirmə ehtimalı daha yüksəkdir. Əksinə, qeyri-kafi psixoloji yardım emosional çətinliklərə, sosial təcrid olunmaya, akademik çatışmazlıqlara və uzunmüddətli inkişaf nəticələrinə səbəb ola bilər. Bu səbəbdən, Azərbaycan məktəblərində psixoloji dəstək xidmətlərinin effektivliyini və təsirini araşdırmaq həm sosial, həm də elmi cəhətdən aktualdır.

Bu tədqiqat Azərbaycan məktəblərində tətbiq olunan psixoloji dəstək mexanizmlərinin şagirdlərin fərdi inkişafına necə təsir etdiyini təhlil etməyə yönəlmişdir. O, strukturlaşdırılmış psixoloji müdaxilələrlə özünəhörmət, emosional zəka, sosial adaptasiya və akademik motivasiya kimi əsas inkişaf göstəriciləri arasındakı əlaqəni araşdırmağa çalışır.

**Tədqiqat hipotezi**: Fərz edilir ki, Azərbaycan məktəblərində sistemli və yaxşı strukturlaşdırılmış psixoloji dəstək şagirdlərin emosional sabitliyini, özünəinamını, sosial səriştəsini və ümumi psixoloji rifahını artırmaqla onların fərdi inkişafına müsbət təsir göstərir.

**Tədqiqat məqsədi**: Bu tədqiqatın əsas məqsədi Azərbaycanda məktəb şagirdlərinin fərdi inkişafında psixoloji dəstəyin rolunu araşdırmaqdır.

**Tədqiqat vəzifələri**:

- Məktəb yaşlı uşaqlarda fərdi inkişafın nəzəri əsaslarını təhlil etmək.
- Məktəb mühitində psixoloji dəstəyin konsepsiyasını, funksiyalarını və əhəmiyyətini araşdırmaq.
- Psixoloji dəstəyin şagirdlərin emosional, sosial və davranış inkişafına təsirini araşdırmaq.
- Azərbaycan təhsil müəssisələrində məktəb əsaslı psixoloji xidmətlərin effektivliyini qiymətləndirmək.
- Məktəblərdə psixoloji dəstək sistemlərinin təkmilləşdirilməsi üçün praktik tövsiyələr hazırlamaq.

Nəticə olaraq, bu tədqiqat məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi ilə bağlı həm nəzəri, həm də praktik müzakirələrə töhfə

verməyi hədəfləyir. Tədqiqat Azərbaycan kontekstini araşdırmaqla siyasətçilərə, müəllimlərə və məktəb psixoloqlarına şagirdlərin hərtərəfli və davamlı inkişafını gücləndirməkdə dəstək ola biləcək dəlillərə əsaslanan fikirlər təqdim etməyi hədəfləyir.

**Material və metodlar.** Bu tədqiqat nəzəri xarakter daşıyır və təhsil psixologiyası, inkişaf psixologiyası və pedaqogika sahələrində müasir elmi ədəbiyyatın hərtərəfli təhlilinə əsaslanır.

Tədiqat metodologiyasına məktəb mühitində fərdi inkişaf və psixoloji dəstək ilə bağlı mövcud nəzəri yanaşmaların sistematik icmalı, müqayisəli təhlili, sintezi və ümumiləşdirilməsi daxildir.

Əsas tədqiqat materialları monoqrafiyalardan, həmyaşıdlar tərəfindən nəzərdən keçirilmiş jurnal məqalələrindən, metodoloji təlimatlardan və uşaq inkişafı, məktəb psixologiyası və təhsil dəstəksistemlərinə həsr olunmuş son akademik nəşrlərdənibarətdir. Tədqiqatın faktikiliyini və elmi aktuallığınıtəmin etmək üçün son on ildə dərc olunmuş mənbələrəxüsusi diqqət yetirilmişdir.

Aşağıdakı tədqiqat metodları tətbiq edilmişdir:

• Nəzəri təhlil - fərdi inkişaf və psixoloji dəstəyinmüxtəlif elmi şərhlərini araşdırmaq.

• Müqayisəli metod - uşaq inkişafına müxtəlifpsixoloji yanaşmalar arasında oxşarlıqları və fərqlərimüəyyən etmək.

• Sistematik təsnifat - şagirdlərin inkişafına təsir edən bioloji, sosial və mədəni amilləri strukturlaşdırmaq.

• Ümumiləşdirmə metodu - məktəblərdə psixolojidəstəyin tətbiqi üçün praktik nəticələr və tövsiyələrhazırlamaq.

Tədqiqatın metodoloji əsası humanist psixologiya, şəxsiyyətyönümlü təhsil və hər bir uşağın unikallığını və dəstəkləyici təhsil mühitinin vacibliyini vurğulayaninkişaf yanaşmaları prinsiplərinə əsaslanır.

Bu metodların seçilməsi tədqiqatın nəzəri istiqamətiilə əsaslandırılır. Tədqiqatın məqsədi empirik ölçməaparmaqdansa, mövcud bilikləri konsepsiyalaşdırmaq və sistemləşdirmək olduğundan, analitik və interpretativmetodlar tədqiqat məqsədlərinə çatmaq üçün ən uyğunvasitələr hesab olunur.

**Nəticə və müzakirələr.** Fərdi inkişaf uşağın şəxsiyyətindəki keyfiyyət və kəmiyyət dəyişikliklərini əks etdirən çoxölçülü və davamlı bir prosesdir. Buraya idrak inkişafı, emosional yetkinləşmə, özünüdərk anlayışının formalaşması, ünsiyyət bacarıqlarının inkişafı və mənəvi oriyentasiya daxildir. Psixoloji baxımdan inkişaf sadəcə yaşa bağlı dəyişiklik deyil, daxili meyllər və xarici təsirlər arasında qarşılıqlı təsirin nəticəsidir. Müasir inkişaf nəzəriyyələri hər bir uşağın özünəməxsus inkişaf trayektoriyasını izlədiyini vurğulayır. Xasiyyət, zəka, motivasiya və emosional həssaslıqdakı fərqlər fərqli pedaqoji yanaşmalar tələb edir. Buna görə də, standartlaşdırılmış təhsil modelləri balanslı fərdi inkişafı təmin etmək üçün çox vaxt kifayət deyil. Psixoloji ədəbiyyatın təhlili göstərir ki, uğurlu fərdi inkişaf əsasən muxtariyyət, səriştə və sosial mənsubiyyəti inkişaf etdirən dəstəkləyici mühitin mövcudluğundan asılıdır. Bu kontekstdə psixoloji dəstək təhsil sisteminin zəruri struktur komponentinə çevrilir [7, s. 67-75].

Məktəblilərin inkişafı bioloji, sosial və mədəni amillərin kombinasiyası ilə formalaşır.

Bioloji determinantlara genetik meyllər, sinir sisteminin xüsusiyyətləri, temperament və fiziki sağlamlıq daxildir. Bu amillər diqqət müddətinə, emosional reaktivliyə, stressə dözümlülüyə və öyrənmə qabiliyyətinə təsir göstərir. Məsələn, müxtəlif temperament xüsusiyyətlərinə malik uşaqlar sinif idarəçiliyində və motivasiya strategiyalarında müxtəlif yanaşmalar tələb edirlər.

Ailə quruluşu, valideynlik tərzi, həmyaşıdlarla qarşılıqlı əlaqə və məktəb mühiti şəxsiyyətin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Dəstəkləyici ailə münasibətləri emosional təhlükəsizliyə və akademik motivasiyaya töhfə verir, münaqişə əsaslı mühit isə narahatlıq və davranış çətinliklərinə səbəb ola bilər. Müəllim-şagird qarşılıqlı əlaqəsi xüsusilə təsirlidir. Müsbət ünsiyyət, fərdiliyə hörmət və konstruktiv rəy şagirdlərin özünə hörmətini və inamını gücləndirir. Əksinə, avtoritar yanaşmalar təşəbbüskarlığı və yaradıcı ifadəni boğa bilər [1, s. 47-52].

Mədəni normalar, dəyərlər, ənənələr və ictimai gözləntilər uşaqların dünyagörüşünü və davranış modellərini formalaşdırır. Çoxmədəniyyətli və sürətlə dəyişən cəmiyyətlərdə uşaqlar peşəkar psixoloji rəhbərlik tələb edən şəxsiyyət

münaqişələri ilə qarşılaşa bilərlər.

Bu amillərin qarşılıqlı təsiri fərdi inkişafın daha geniş sosial kontekstdən ayrıla bilməyəcəyini göstərir. Bu mürəkkəblik təhsil müəssisələrində sistemli psixoloji dəstəyin zəruriliyini əsaslandırır.

Məktəblərdə psixoloji dəstək şagirdlərin zehni rifahını, emosional tarazlığını və şəxsi inkişafını təşviq etməyə yönəlmiş strukturlaşdırılmış və məqsədyönlü bir fəaliyyətdir. Bu, yalnız korreksiyaedici müdaxilə ilə məhdudlaşmır, həm də profilaktik və inkişaf komponentlərini əhatə edir.

Psixoloji dəstəyin əsas prinsiplərinə aşağıdakılar daxildir:

• Fərdi mərkəzli yanaşma;

• Məxfilik və etik məsuliyyət;

• Məktəb psixoloqları, müəllimlər və valideynlər arasında əməkdaşlıq;

• Profilaktik istiqamətləndirmə;

• Şagirdlərin özünütənzimləmə bacarıqlarının inkişafı.

Effektiv psixoloji dəstək şagirdlərin akademik çətinliklərə uyğunlaşmasına, stressi idarə etməsinə, münaqişələri həll etməsinə və dözümlülüyün inkişafına kömək edir.

Müasir təcrübənin təhlili göstərir ki, aşağıdakı metodlar xüsusilə təsirlidir:

• Psixoloji diaqnostika və qiymətləndirmə vasitələri;

• Fərdi və qrup məsləhət sessiyaları;

• İnkişaf təlim proqramları;

• Sosial-emosional öyrənmə fəaliyyətləri;

• Valideynlər və müəllimlər üçün profilaktik seminarlar [6, s. 22-27].

Psixoloji testlər mütəxəssislərə şagirdlərin güclü tərəflərini, öyrənmə üslublarını və potensial risk faktorlarını müəyyən etməyə imkan verir. Diaqnostik nəticələrə əsasən fərdi inkişaf proqramları hazırlana bilər. Qrup fəaliyyətləri ünsiyyət bacarıqlarını, empatiyanı, əməkdaşlığı və emosional zəkanı artırır. Bu cür proqramlar narahatlığın və davranış problemlərinin azaldılmasına əhəmiyyətli dərəcədə töhfə verir [2, s. 78-83].

Psixoloji dəstəyin effektivliyi əsasən ailə və məktəb arasındakı əməkdaşlıqdan asılıdır. Valideynlər təhsil prosesində fəal iştirak etdikdə, uşaqlar daha yüksək akademik motivasiya və emosional sabitlik nümayiş etdirirlər. Müəllimlər həmçinin fərdi inkişafın dəstəklənməsində əsas rol oynayırlar. Psixoloji cəhətdən səriştəli müəllim şagirdlərin ehtiyaclarını tanıyır, fərqli təlim tətbiq edir və müsbət sinif atmosferi yaradır. Konstruktiv rəy və emosional dəstək şagirdlərin daxili motivasiyasını gücləndirir.

Məktəblilər aşağıdakıları öyrənməlidirlər:

• Emosiyaları tanımaq və tənzimləmək;

• Fikirləri konstruktiv şəkildə ifadə etmək;

• Münaqişələri dinc yolla həll etmək;

• Empatiya və tolerantlıq nümayiş etdirmək [4, s. 67-73].

Emosional savadlılığa yönəlmiş psixoloji dəstək proqramları akademik göstəriciləri və sosial adaptasiyanı əhəmiyyətli dərəcədə artırır. Güclü emosional tənzimləmə bacarıqlarına malik şagirdlər stressə daha davamlı olur və gələcək peşəkar və sosial çətinliklərə daha yaxşı hazırlaşırlar.

Nəzəri təhlilin nəticələri təsdiqləyir ki, psixoloji dəstək köməkçi xidmət deyil, məktəblilərin balanslı və davamlı fərdi inkişafını təmin etmək üçün fundamental mexanizmdir.

**Nəticə.** Aparılan nəzəri təhlil məktəblilərin fərdi inkişafının bioloji, sosial və mədəni amillərin təsiri altında mürəkkəb, çoxfaktorlu və dinamik bir proses olduğunu təsdiqləyir. Müasir təhsil şəraitində şəxsiyyətin ahəngdar formalaşmasını təmin etmək üçün təkcə akademik təlim kifayət deyil. Psixoloji dəstək emosional sabitliyin, sosial səriştənin və idrak inkişafının təşviqi üçün fundamental mexanizm kimi ortaya çıxır [8, s. 90-96].

Tədqiqat göstərir ki, sistemli psixoloji dəstək aşağıdakılara töhfə verir:

• Şagirdlərin özünəinamını və motivasiyasını gücləndirmək;

• Emosional tənzimləmə və dayanıqlılığın inkişafı;

• Ünsiyyət və sosial qarşılıqlı əlaqə bacarıqlarının təkmilləşdirilməsi;

• Davranış və adaptasiya çətinliklərinin qarşısının alınması;

• Psixoloji cəhətdən təhlükəsiz təhsil mühitinin yaradılması [9, s. 28-33].

Müəyyən edilmişdir ki, effektiv psixoloji dəstək məktəb psixoloqları, müəllimlər və ailələr arasında əlaqələndirilmiş əməkdaşlıq tələb edir. Fərdi mərkəzli yanaşma, erkən diaqnostika, profilaktik proqramlar və inkişaf təlim fəaliyyətləri

məktəblərdə dəstək sistemlərinin effektivliyini əhəmiyyətli dərəcədə artırır. Bundan əlavə, emosional və sosial bacarıq təliminin təhsil prosesinə inteqrasiyası şagirdlərin müasir sosial çətinliklərə uyğunlaşmasını artırır. Buna görə də psixoloji xidmətlər təhsil siyasətinin və məktəb idarəetmə strategiyasının vacib komponenti hesab edilməlidir. Nəticə olaraq, psixoloji dəstək proqramlarının uğurlu təşkili balanslı fərdi inkişafı təmin edir və məktəbliləri cəmiyyətdə fəal iştiraka hazırlayır. Gələcək tədqiqatlar müxtəlif yaş qruplarında spesifik psixoloji müdaxilə modellərinin effektivliyinin empirik araşdırılmasına yönələcəkdir.

**Ədəbiyyat**


1. Bəylərov, E.B. Məktəbdə psixoloji xidmətə dəstək: Metodik vəsait / E.B.Bəylərov, A.A. Hümbətova, T.Ə.Hüseynova, R.E.Quliyeva, E.M.Kərimova, G.Q.Əhmədova. – Bakı: CN Poliqrafiya, – 2023. – 212 s.
2. Babayeva, N. Məktəb psixologiyasında sosial və emosional bacarıqların inkişafı / N.Babayev. – Bakı: Təhsil Nəşriyyatı, – 2021. – 95 s.
3. Məmmədov, E. Şagirdlərin psixoloji dəstəklə fərdi inkişafı: məktəb və ailə perspektivi /E.Məmmədov, S.Əliyeva. – Bakı: Təhsil və İnkişaf, – 2020. – 110 s.
4. Quliyev, T. Məktəb psixologiyasının aktual problemləri və innovativ yanaşmalar T.Quliyev. – Bakı: Elm, – 2022. – 140 s.
5. Səfərov, V. Təhsil və inkişaf psixologiyası: nəzəri yanaşmalar və tətbiqlər / V.Səfərov. – Bakı: Elm və Təhsil, – 2023. – 150 s.
6. Üzeyirli, F. Müasir məktəb psixologiyasında sosial-emosional öyrənmə / F.Üzeyirli. – Bakı: Təhsil və İnnovasiya, – 2021. – 112 s.
7. Xəlilova, R. Psixoloji dəstək vasitəsilə şagirdlərin özünütənzimləmə bacarıqlarının formalaşması / R.Zəlilova. – Bakı: Elm və Təhsil, – 2022. – 108 s.
8. Həsənova, S.M. “Məktəbə psixoloji hazırlıq: ümumi baxış” // EUDİ – Elektron elmi jurnalı, – 2022, №4, – s.23-31.
9. Seyidova, Ş.İ. “Yeni kompüter texnologiyalarından istifadənin kiçikyaşlı məktəblilərə psixoloji təsiri” // Azərbaycan Pedaqoji Universitet Elmi jurnalı, – 2025, №63, – s.80-83.



*Məqalə psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2026, son daxilolma – 06.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 811.512.162’36:37.016:37.018

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.67-71*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.67-71*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.67-71*

# Yuxarı siniflərdə “Sintaksis” bölməsinin tədrisində fəndaxili inteqrasiyanın tətbiqinin imkan və yolları

**Müəllif(lər):**

**Samirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** samirehesenova75@gmail.com
https://orcid.org/0009-0006-5933-3979

**Açar sözlər:** Azərbaycan dili, sintaksis, fəndaxili inteqrasiya, analitik mərhələ, inteqrativ mərhələ, linqvistik bacarıqlar, yaradıcı mərhələ, linqvistik-sintaktik təhlil

**Annotasiya.** Məqalədə ümumtəhsil məktəblərində Azərbaycan dili fənninin “Sintaksis” bölməsinin tədrisində fəndaxili inteqrasiyanın tətbiqi imkanları və yolları araşdırılmışdır. Tədqiqatın əsas məqsədi sintaksisin fonetika, leksikologiya, morfologiya və üslubiyyat kimi dil bölmələri ilə qarşılıqlı əlaqədə tədrisinin pedaqoji və metodik əsaslarını müəyyənləşdirməkdən ibarətdir. Araşdırmada fəndaxili inteqrasiyanın təlim prosesində şagirdlərin linqvistik bilikləri sistemli şəkildə mənimsəməsinə, yaradıcı təfəkkürünün inkişafına və dil bacarıqlarının formalaşmasına təsiri təhlil edilmişdir.

Tədqiqat zamanı elmi-nəzəri təhlil, müqayisəli təhlil, problematik yanaşma, linqvistik-sintaktik təhlil, testləşdirmə və tətbiqi metodlardan istifadə olunmuşdur. Müəyyən edilmişdir ki, sintaksisin digər dil bölmələri ilə inteqrativ şəkildə tədrisi şagirdlərin nəzəri bilikləri praktik situasiyalarda tətbiq etməsinə, nitq bacarıqlarının inkişafına və təlimin səmərəliliyinin yüksəldilməsinə əlverişli şərait yaradır. Məqalədə müəllim fəaliyyətinin təşkili, inteqrativ tapşırıqların hazırlanması və təlim nəticələrinin qiymətləndirilməsi məsələləri də nəzərdən keçirilmişdir. Araşdırmanın nəticələri göstərir ki, standartlara əsaslanan fəndaxili inteqrasiya Azərbaycan dili təliminin keyfiyyətinin artırılmasında mühüm pedaqoji vasitələrdən biridir.

## Possibilities and methods of applying intradisciplinary integration in teaching the “Syntax” section in upper grades

**Author(s):**

**Samira Hasanova**
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Philology, Associate Professor
**E-mail:** samirehesenova75@gmail.com
https://orcid.org/0009-0006-5933-3979

**Keywords:** Azerbaijani language, syntax, intradisciplinary integration, analytical stage, integrative stage, linguistic skills, creative stage, linguistic-syntactic analysis

**Abstract.** The article examines the possibilities and methods of applying intradisciplinary integration in teaching the “Syntax” section of the Azerbaijani language subject in secondary schools. The main aim of the study is to determine the pedagogical and methodological foundations of teaching syntax in correlation with other language sections such as phonetics, lexicology, morphology, and stylistics. The research analyzes the impact of intradisciplinary integration on students’ systematic acquisition of linguistic knowledge, the development of creative thinking, and the formation of language skills.

The study employed scientific-theoretical analysis, comparative analysis, problem-based approach, linguistic-syntactic analysis, testing, and applied research methods. It was determined that the integrative teaching of syntax in connection with other language sections enables students to apply theoretical knowledge in practical situations, develop speech skills, and improve the effectiveness of the teaching process. The article also addresses issues related to the organization of teacher activity, the preparation of integrative tasks, and the assessment of learning outcomes. The findings demonstrate that standards-based intradisciplinary integration is one of the important pedagogical tools for improving the quality of Azerbaijani language teaching.

## Возможности и пути применения внутрипредметной интеграции при преподавании раздела «Синтаксис» в старших классах

**Автор(ы):**

**Самира Гасанова**
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
**Э-почта:** samirehesenova75@gmail.com
https://orcid.org/0009-0006-5933-3979

**Ключевые слова:** азербайджанский язык, синтаксис, внутрипредметная интеграция, аналитический этап, интегративный этап, лингвистические навыки, творческий этап, лингвистико-синтаксический анализ

**Аннотация.** В статье исследуются возможности и пути применения внутрипредметной интеграции при преподавании раздела «Синтаксис» по предмету «Азербайджанский язык» в общеобразовательных школах. Основная цель исследования заключается в определении педагогических и методических основ преподавания синтаксиса во взаимосвязи с такими разделами языка, как фонетика, лексикология, морфология и стилистика. В исследовании проанализировано влияние внутрипредметной интеграции на системное усвоение учащимися лингвистических знаний, развитие творческого мышления и формирование языковых навыков.

В ходе исследования использовались методы научно-теоретического и сравнительного анализа, проблемного подхода, лингвистико-синтаксического анализа, тестирования и прикладные методы. Установлено, что интегративное преподавание синтаксиса в связи с другими разделами языка способствует применению учащимися теоретических знаний в практических ситуациях, развитию речевых навыков и повышению эффективности обучения. В статье также рассмотрены вопросы организации деятельности учителя, подготовки интегративных заданий и оценки результатов обучения. Результаты исследования показывают, что внутрипредметная интеграция, основанная на стандартах, является одним из важных педагогических средств повышения качества преподавания азербайджанского языка.

X-XI siniflərdə tədris olunan Azərbaycan dili dərsliklərində ən geniş imkanlar məzmun xətləri arası fəndaxili və tədris olunan fənlər, elmlər arası əlaqələrdən ibarətdir. Təbiət, cəmiyyət, məntiq, təfəkkür əlaqəlikləri humanitar, təbiət və texniki elmlər arası əlaqələrə aiddir. Gələcək müəllim bu sahəyə dərindən yiyələnməyə, fəndaxili inteqrasiyanın mahiyyətini anlamağa və tədris prosesində düzgün tətbiq etməyə borcludur.

İnteqrasiya dilin (və ya diçiliyin) daxili məzmununu diferensiallıqdan qurtarmağı nəzərdə tutur. Bu isə o deməkdir ki,

1) səs və hərf haqqında təsəvvürlərdən başlanan bilik və bacarıqlar şifahi və yazılı nitqdə ümumiləşmiş anlayışlar yaratmaqla, bütün ardıcıl proseslər özündən əvvəlkilərin əsasında yeniləri doğurmalı və ümumi anlayışlarda nəticələnməlidir;

2) danışıq səslərinin vahidlərinə (ton, tembr, fasilə, vurğu və orfoepiyaya) morfologiya və sintaksis təlimində əsaslanma ilə, bir növ, fonoqrammatik anlayışlar yaradılmalıdır, bunların təcrübi məsələləri nitq mədəniyyəti kimi əsaslandırılmalıdır;

3) təlimin metodları idrakın metodları kimi canlı müşahidələrdən abstrakt təfəkkürə, oradan da praktikaya aparıb çıxarmalıdır;

4) fəndaxili inteqrasiya məqsədi ilə varisliyə əsaslanan təlim dişli çarxı xatırlatmalıdır; onun ötürücülüyü arasıkəsilməz proses və yaxud da konveyer şəklində qurulmalıdır;

5) fəndaxili əlaqə rabitəli nitqdən başlanan və rabitəli nitqə inteqrasiya olunan işlək təlimə çevrilməlidir. Dil, nitq və təfəkkür üçlüyünün dialektikasını nəzərdə tutan inteqrasiya əsl fəndaxili inteqrasiyadır. Ona da nitq zənginliyinin təfəkkür dərinliyinə və onun da dünyagörüşə keçid əlaqələrini yaradan inteqrasiya demək daha düzgündür.

6) dilin qaydalarının, normalarının mənimsənilməsi zamanı rabitəli nitqdən istifadə və son nəticə və ya meyar kimi şagirdlərin rabitəli nitqinin səviyyəsi sayılmalıdır;

7) fənlərarası inteqrasiya humanitar məsələlərin, məsələn, insan həyatının mədəniyyətlə, musiqi ilə bağlılığını, insanın onu əhatə edən təbiət və texniki sahələrə münasibətini qurmağı nəzərdə tutur;

8) inteqrativ təlim hərtərəfli inkişaf prinsipini gözləmək məqsədini nəzərdə tutur;

9) bütöv anlayışlar formalaşdırmaq, qlobal təfəkkür tərbiyə etmək əzəli və son nəticə olmalıdır;

10) humanitar düşüncəni planetar təfəkkür və hətta təxəyyülə uzlaşdırmaq fənlərarası əlaqənin məktəbdə sistemli qoyuluşundan ibarətdir [4, s. 11].

Son illərdə müasir dərsdə tətbiq edilən fəndaxili inteqrasiya prinsipi “Sintaksis” bölməsinin daha dərindən mənimsənilməsinə şərait yaradır. Fəndaxili inteqrasiya dedikdə, ümumtəhsil məktəblərində Azərbaycan dili fənnində mövzuların fonetika, leksika, morfologiya və üslubiyyatla qarşılıqlı əlaqə əsasında öyrədilməsi nəzərdə tutulur. Bu, həm dilin sistem mahiyyətini açır, bu sistemin qarşılıqlı əlaqə nəticəsində tədris olunmasına şərait yaradır, həm də müxtəlif dil vahidlərinin sintaktik səviyyədə funksiyasını praktik olaraq göstərir. Həmçinin fəndaxili inteqrasiya təlimin müasir konsepsiyalarında (konstruktivizm, fəaliyyət yönümlülük) mərkəzi anlayışlardan biri olmaqla, tədris prosesində xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dilinin, xüsusən də bölmələrin tədrisində bu prinsip şagirdlərin dil strukturunu bir bütöv sistem kimi dərk etməsinə xidmət edir. Bu baxımdan Sintaksisin – nitq vahidlərinin, cümlə və söz birləşməsinin quruluşunu, tərkibini, əlaqəsini öyrənən dilçilik bölməsinin — tədrisi xüsusi əhəmiyyət daşıyır. Dilçi-alim Buludxan Xəlilov qeyd edir ki, “Sintaksis dilin cümlə və söz birləşməsi səviyyəsində quruluşunu öyrənən elmdir”.

Sintaksis təkcə qrammatik əlaqələri deyil, həm də nitqin semantik və kommunikativ tərəflərini özündə birləşdirir. Bu mənada o, həm morfologiya (çünki cümlədə, o cümlədən söz birləşmələrindəki sözlər müəyyən qrammatik şəkilçilərlə əlaqələnir, bir-biri ilə bağlanır), həm leksika (sözün mənası, kontekstdə və ya mətn daxilində funksiyası), həm də üslubiyyatla (cümlə modellərinin ifadə məqsədi) sıx bağlı tədris olunur. Qeyd etməliyik ki, məhz bu qarşılıqlı bağlılıq, əlaqə fəndaxili inteqrasiyanın elmi əsasını təşkil edir.

Tədris prosesində yuxarı siniflər (V-XI siniflər) üçün bu prosesi üç mərhələdə təşkil etmək məqsədəuyğundur:

a) Analitik mərhələ (nəzəri biliklərin, əsasların birləşdirilməsi). Bu mərhələdə morfoloji biliklərin sintaktik sistemdə funksiyasına diqqət yetirilir. Həmçinin morfoloji göstəricilərlə sintaktik əlaqə arasındakı münasibətlər müxtəlif tapşırıqlarla izah olunur. Aşağıdakı nümunə inteqrasiyanın tətbiqinə bariz nümunə hesab olunur:

**Tapşırıq nümunəsi: cümlədə xəbəri feil şəkilçilərinin müxtəlifliyi ilə ifadə edin və nəticəni müqayisə edin.**

Bu növ tapşırıqlar həm morfologiyaya aid bilikləri möhkəmləndirir, həm də şagirdlərin sintaktik konstruksiyaları və modelləri praktik şəkildə anlamağa xidmət edir.

Bu mərhələdə xəbərin mübtəda ilə həm şəxsə, həm də kəmiyyətə görə uzlaşması və xəbərin şəkillənmə forması təhlil edilərkən burada eyni zamanda feilin şəxs-kəmiyyət və şəkil kateqoriyası ilə əlaqə izah olunur. Məsələn, "Şagirdlər kitabları oxuyurlar" — xəbərin "oxuyurlar" forması III şəxsin cəmində ifadə olunaraq mübtəda ilə uzlaşır. Burada morfoloji forma (şəxs şəkilçisi) sintaktik əlaqəni təmin edir.

Yuxarıda qeyd edilən qayda və tapşırıqlarla yanaşı, VIII sinif Azərbaycan dili dərsliyindən və müəllim üçün metodik vəsaitdən götürülən dərs nümunəsi apardığımız təhlilin əyani göstəricisi hesab edilə bilər. 5-ci mövzunun tədrisində motivasiya mərhələsində müəllim dərsə frontal sorğu ilə başlayır. Bu mərhələdə müəllim VI sinifdə xəbərlə mübtədanın uzlaşmasına aid əldə edilmiş bilik və bacarıqları sual-cavab etməklə şagirdlərin yadına salır. Yaxud müəllim lövhəyə aşağıdakı cümlələri yazıb xəbərlərin şəxs sonluqlarını bərpa etməyi tapşıra bilər: Biz evə qayıdır...? Sən ağıllı qız...? Yarpaqlar yaşıllaşır...? Quşlar cəh-cəh vurur...?

Şagirdlər müəyyənləşdirirlər ki, birinci cümlədə -ıq, ikinci cümlədə -san, şəxs sonluqlarından istifadə olunur. Üçüncü cümlədə mübtəda cansız varlıqla ifadə olunduğu üçün -lar kəmiyyət şəkilçisindən istifadə olunmur. Dördüncü cümlədə -lar kəmiyyət şəkilçisindən istifadə oluna da bilər, istifadə olunmaya da bilər.

Sonra müəllim şagirdlərə - Tabelilik əlaqəsi nə zaman olur? – tədqiqat sualı ilə müraciət edir.

Qruplar tədqiqat aparır. Tabelilik əlaqəsinin mahiyyəti şagirdlərə izah edilir, nümunələrlə əsaslandırılır. 13-14-cü tapşırıqlar (səh. 36) yerinə yetirilir, müzakirələr aparılır. Səh. 36-da olan 15-ci tapşırıq əldə edilmiş bilikləri möhkəmləndirməklə yanaşı, yeni bacarıqlar formalaşdırmağa xidmət edir. Tapşırığın yerinə yetirilməsində əsas məqsəd mübtəda ilə xəbərin kəmiyyətə görə düzgün uzlaşdırılmasıdır. Bu istiqamətdə müəllim sinfin səviyyəsinə uyğun olaraq müvafiq tapşırıqlar hazırlayıb şagirdlərə təqdim edə bilər. Dərslikdə mətnin altında verilmiş ikinci tapşırıq isə keçmiş biliklərin təkrarlanması məqsədi daşıyır.

Müəllim tədris zamanı söz birləşmələrinin tərəfləri arasında tabelilik əlaqəsinin olması istiqamətində də iş aparmalıdır. Bu məqsədlə frontal sorğu vasitəsilə yiyəlik hal və mənsubiyyət şəkilçiləri haqqında biliklər yada salınır. Müəllim şagirdlərə xatırladır ki, bu şəkilçilər söz birləşmələrinin yaranmasında birbaşa iştirak etməklə yanaşı, uzlaşma əlaqəsinin əsas göstəricisi hesab edilir [3, s. 56-57].

b) İnteqrativ mərhələ (qarşılıqlı əlaqəli biliklərin tətbiqi). Bu mərhələdə cümlə strukturu üslubi məqsədlərlə əlaqələndirilir. Şagirdlər müxtəlif üslublarda (məsələn, rəsmi, bədii, elmi) cümlə modellərini müqayisə edirlər.

**Tapşırıq nümunəsi:**

Eyni fikri elmi və ya bədii üslubda ifadə edin:

– "Yağış su dövranının vacib mərhələsidir." (elmi)

– "Yağış yerin canına həyat damcısı kimi hopur." (bədii)

Bu, sintaktik modellərin üslubi çevikliyini nümayiş etdirir.

Müşahidələr göstərir ki, sintaksisin tədrisi zamanı üslubiyyat üzərində işin düzgün təşkili sahəsində məktəblərimizin müəyyən müsbət təcrübələri olsa da, ümumiyyətlə götürüldükdə, sintaksis tədrisinin üslubiyyatla bağlı məsələlərinin öyrədilməsinə lazımi dərəcədə diqqət yetirilmir. Bunun nəticəsidir ki, şagirdlərin yazılı və şifahi nitqində söz sırasının pozulması, vasitəsiz və vasitəli nitqin bir-biri ilə qarışdırılması, ədəbi dil normalarının, sözlər arasındakı idarə və uzlaşma əlaqəsi normalarının gözlənilməməsi və s. kimi üslub qüsurlarına tez-tez rast gəlmək olur. Həmin qüsurların aradan qaldırılması üçün, hər şeydən əvvəl, sintaksis kursuna daxil olan hər bir konkret mövzunun tədrisini praktik üslubiyyatla

əlaqələndirmək lazım gəlir.

Aparılmış tədqiqatlar göstərir ki, cümlənin qrammatik əsasını təşkil edən mübtəda və xəbərin tədrisi prosesində şagirdlərin üslubi vərdişlərini, əsasən, üç istiqamətdə inkişaf etdirmək mümkündür: 1) üslubi baxımdan mübtəda və xəbərin cümlədəki yerinin düzgün müəyyənləşdirilməsi; 2) mübtəda ilə xəbərin cümlədə şəxsə və kəmiyyətə görə düzgün uzlaşdırılması; 3) mübtəda və xəbərin sinonimlərindən nitqdə düzgün və məqsədəuyğun şəkildə istifadə olunmasına dair müvafiq əməli vərdişlərin aşılanması.

Məlum olduğu kimi, şagirdlər əvvəlki siniflərdə (IV-VI) nitqdə sinonim feillərdən məqsədəuyğun şəkildə istifadəyə aid müəyyən üslubi vərdişlər qazanmışlar. Buna istinad edərək VII sinifdə mürəkkəb xəbərlərin tədrisi prosesində şagirdlərin diqqətini sinonim feillərlə ifadə olunmuş mürəkkəb xəbərlərin üslubi çalarlığına, onların incə məna xüsusiyyətlərinə cəlb etmək mümkündür. Məsələn, Sən tapşırığa əməl etməlisən. Sən tapşırığa əməl etməyə bilməzsən qəbilindən olan cümlələri şagirdlərə təqdim edib, izah etmək olar ki, həmin cümlələrin xəbəri, təxminən, eyni mənanı bildirsə də, bunlar incə məna çalarlıqları ilə bir-birindən xeyli fərqlənir. Belə ki, birinci cümlədəki əməl etməlisən xəbərində söz söyləyənin dinləyənə tapşırılmış işi yerinə yetirməyi məsləhət bilməsi mənası ifadə edilmişsə, ikinci cümlədəki əməl etməyə bilməzsən xəbərində danışan dinləyənə tapşırılmış işi icra etməklə əlaqədar hansı ixtiyara malik olduğunu bilmək, bir növ, ona hüquqi məsləhət vermək mənası ifadə edilmişdir. Digər tərəfdən də həmin xəbərdə işin icrasına dair müəyyən hədə və tələbkarlıq irəli sürülür.

Buradan belə nəticəyə gəlmək olar ki, sinonim feillərlə ifadə edilmiş xəbərləri həmişə eyni məqamda işlətmək mümkün deyil. Onların cümlədə dəqiq və məqsədəuyğun şəkildə işlədilməsi ifadə edilən fikrin məqsəd və vasitələri ilə yaxından bağlıdır.

Təcrübə göstərir ki, mübtəda və xəbərin qarşılıqlı söz sırası, uzlaşması və sinonim variantlarından nitq praktikasında məqsədəuyğun şəkildə istifadə edilməsi ilə əlaqədar olan bu cür üslub məsələlərinin şagirdlərə çatdırılması onların həm nəzəri biliklərinin, həm də praktik nitq vərdişlərinin inkişafına kömək edir.

Belə bir dərs modelinə nəzər salaq:

Mövzu: Cümlədə söz sırasının mənaya təsiri

Bu mövzuda fəndaxili inteqrasiya həm semantika, həm üslubiyyat, həm də məntiq biliklərini birləşdirir.

Təranə Nağıyevanın "Cümlədə söz sırası sintaktik təkamülün aspektlərindən biri kimi" adlı tədqiqatında qeyd edir ki, "türk dillərində söz sırası sabit olsa da kontekst və üslub faktorları bu sabitliyi dəyişdirə bilir" [5, s. 23].

c) Yaradıcı mərhələ (istilah və tədqiqat yönümlü fəaliyyət)

Sintaksis bölməsinin tədrisində yerinə yetirilən yaradıcı tapşırıqlarla şagirdlər öz nitqlərində müxtəlif cümlə tiplərini tətbiq edirlər. Məsələn, sadə və mürəkkəb cümlələrin birləşməsi vasitəsilə inşa və məruzələr qururlar. Bu mərhələdə tədqiqat yönümlü yazı bacarıqları formalaşır.

"Mürəkkəb cümlə" mövzusu dilimizin müəyyən qrammatik normalarının öyrənilməsi baxımından maraqlı olduğu kimi, sintaktik-üslubi xüsusiyyətlərin mənimsənilməsi baxımından da çox maraq doğurur. Mürəkkəb cümlə dilimizin quruluşunda, ifadə axarında, ümumiyyətlə, sadə cümlələrə nisbətən az işlənsə də, silsiləli dərin fikirlərin həm məntiqi, həm də emosional cəhətdən daha tutarlı və dəqiq ifadə olunmasında çox mühüm rol oynayır. Əgər biz öz fikir və hisslərimizi bir qayda olaraq həmişə sadə cümlə şəklində ifadə etmiş olsaydıq, bu çox yorucu olardı. Digər tərəfdən, çox zaman mürəkkəb cümlə formasında ifadə etmək istədiyimiz müəyyən fikirləri sadə cümlə ilə şərh etmək mümkün olmur. Məsələn, şərt budaq cümləli hər hansı tabeli mürəkkəb cümlənin ifadə etdiyi fikri tam dəqiqliyi ilə sadə cümlə formasında ifadə etmək mümkün deyildir. Mürəkkəb cümlə şagirdlərə eyni fikri müxtəlif tip sintaktik konstruksiyalarla ifadə etmək, fikrin məqsədinə müvafiq olan sintaktik forma seçmək və işlətmək vərdişləri aşılayır.

Məhz buna görə də "Mürəkkəb cümlə" mövzusunun tədrisini nitq inkişafı və üslubiyyat üzərində işdən təcrid edilmiş şəkildə aparmaq olmaz. Bu o deməkdir ki, fəndaxili inteqrasiya burada həm sintaksis, həm nitq inkişafı, həm də üslubiyyata aid bilikləri birləşdirir.

Mürəkkəb cümlənin ülubiyyatla əlaqəli məsələləri çoxdur. Biz sadəcə ən dəqiq və vacib

olan məsələləri tədqiqat işində önə çəkib, təhlil etdik. Lakin mürəkkəb cümlənin elə vacib və ilk baxışda o qədər də nəzəri cəlb etməyən üslubi imkanları var ki, bunları şagirdlərin diqqətinə çatdırmaq hər cəhətdən faydalıdır. Məsələn, "Tabesiz mürəkkəb cümlə" mövzusunun tədrisi zamanı onu təşkil edən sadə cümlələrdə müəyyən söz və şəkilçilərin ixtisar edilməsinin üslubi funksiyasını mənimsətmək üçün şagirdlərin diqqətini aşağıdakı qəbildən olan iki qrup cümlələrə cəlb etmək mümkündür.

I. 1) Mən kənddə, o isə şəhərdə doğulmuşdu. 2) Piyadalar qabaqda, topçular isə arxada gedirdi. 3) Biz yan otaqda, qonaqlar da zalda əyləşmişdilər. 4) Bacım beşinci sinifdə, mən də səkkizinci sinifdə oxuyuram və s.

II. 1) Gün batmış, hava qaralmış, işıqlar yanmışdı. 2) Qış ötmüş, havalar istiləşmiş, otlar göyərmişdi. 3) Aşıqlar çalır, gənclər oynayır, tamaşaçılar əl çalırdı. 4) İl ötür, Süsən xala yaşlaşır, uşaqlar böyüyürdü.

Həm birinci, həm də ikinci qrup tabesiz mürəkkəb cümlələr üzərində müvafiq müsahibə aparmaqla müəllim şagirdlərdə belə bir qənaət hasil edir ki, birinci qrupda verilmiş tabesiz mürəkkəb cümlələrdə doğulmuşdu, gedirdi, əyləşmişdilər və oxuyuram kimi müştərək xəbərlərin və ikinci qrup tabesiz mürəkkəb cümlələrdə - dı/-di zaman şəkilçilərinin ixtisar olunması fikirdə heç bir qırıqlıq yaratmır, əksinə, onun daha yığcam ifadə edilməsinə, cümlələrin daha rəvan oxunmasına və tez, asan qavranılmasına kömək edir. Yazılı və şifahi nitqdə bu tələblərin gözlənilməməsi üslubi cəhətdən ciddi nöqsan hesab edilir.

Nəhayət, mürəkkəb cümlə mövzusunu tədris edərkən, imkandan asılı olaraq, mürəkkəb cümləni təşkil edən ayrı-ayrı sadə cümlələr arasındakı bağlayıcıların (və, lakin, amma, ancaq və s.) üslubi rolu haqqında da şagirdlərə müəyyən məlumat vermək mümkün və faydalıdır.

**Nəticə:** Pedaqoji texnologiya kimi fəndaxili inteqrasiya təlimin məqsədyönlü planlaşdırılmasını, məzmunun sistemli təqdimini, fəal təlim metodlarının tətbiqini, şagirdyönümlü yanaşmanı təmin edir.

Yuxarı siniflərdə "Sintaksis" bölməsinin fəndaxili inteqrasiya əsasında tədris dil təlimini formal bilik səviyyəsindən praktik düşüncə və nitq səriştəsinə çevirir.

Sintaksis bölməsinin tədrisində fəndaxili inteqrasiyanın tətbiqi şagirdlərdə dilin sistemli mənimsənilməsini təmin edir. İnteqrasiyalı dərslər, yaradıcı tapşırıqlar və eksperimental yanaşma təlimin keyfiyyətini yüksəldir və şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirir.

Dərsin bu növü təhsilalanların keçmiş bilikləri necə mənimsədiyini, onun möhkəmliyini, öyrəndiyi biliklərdən necə istifadə etmə, yaradıcı və müstəqil düşünmə, elmi axtarış aparma qabiliyyətlərini üzə çıxır.

Təklif: Azərbaycan dili fənn kurikulumunda 10-11-ci sinif "Sintaksis" bölməsinə "İnteqrativ sintaksis tapşırıqları" adlı ayrıca alt-mövzu daxil edilərək bu tədris forması sistemləşdirilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Ümumtəhsil məktəblərinin kurikulumları. – Bakı: – 2020.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə Təhsil Proqramı (Kurikulumu) - V-XI siniflər. – Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, – 2015. – 212 s.
3. Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. VIII sinif. – Bakı: Şərq-Qərb, – 2023. – 160 s.
4. Qurbanov, V. Dil təlimində inteqrasiyanın pedaqoji və psixoloji əsasları. Məqalə. Metodika: təcrübə və nəzəriyyə, – 2018, №1
5. Nağıyeva, T. Cümlədə söz sırası sintaktik təkamülün aspektlərindən biri kimi. 2024. aem.az.

*Məqalə filologiya üzrə elmlər doktoru, dosent Nuray Əliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 19.01.2026, son daxilolma – 12.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 372.893.

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.72-76*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.72-76*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.72-76*

# İzahedici-illüstrativ və reproduktiv metodların tarix dərslərinə tətbiqinə dair bəzi qeydlər

**Müəllif(lər):**

**Aytəkin Qəhrəmanova**
Naxçıvan Müəllimlər İnstitutu
Tarix üzrə fəlsəfə doktoru
**E-poçt:** aytekinqehramanova@nmi.edu.az

**Açar sözlər:** tarix fənni, izahedici-illüstrativ metod, reproduktiv metod, təhsilin keyfiyyəti

**Annotasiya.** Məqalədə tarix dərslərinin tədrisi prosesində tətbiq olunan izahedici-illüstrativ və reproduktiv təlim metodlarının mahiyyəti və pedaqoji əhəmiyyəti araşdırılmışdır. Qeyd olunur ki, tədrisin keyfiyyətinin yüksəldilməsinin əsas şərtlərindən biri təlim metodlarının düzgün seçilməsi və onların məqsədyönlü şəkildə tədris prosesinə tətbiq edilməsidir. Təlim metodlarının səmərəli seçimi və istifadəsi isə müəllimin peşəkarlığından, pedaqoji hazırlığından və praktik təcrübəsindən əhəmiyyətli dərəcədə asılıdır.

Məqalədə izahedici-illüstrativ və reproduktiv metodların tarix tədrisi prosesinə tətbiqi təhlil edilmiş, onların ənənəvi təlim metodları olmasına baxmayaraq, müasir təhsil sistemində geniş şəkildə istifadə edildiyi vurğulanmışdır. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, tarix dərslərində təlim metodlarının düzgün seçilməsi şagirdlərin tarixi hadisələri dərk etməsi, səbəb-nəticə əlaqələrini müəyyənləşdirməsi, tənqidi təfəkkürünün və analitik düşünmə bacarıqlarının inkişafı, eləcə də milli və ümumbəşəri dəyərlərin mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Məqalədə qeyd edilir ki, bu metodların tətbiqi zamanı şagirdlər mövzunu sistemli şəkildə mənimsəyir, tarixi hadisələr və tarixi şəxsiyyətlər haqqında dolğun məlumat əldə edirlər. Xəritə, sxem və illüstrasiyalar vasitəsilə tarixi hadisələrin baş verdiyi məkanlar haqqında təsəvvür formalaşdırılır. Bununla yanaşı, qısa müddət ərzində geniş həcmdə biliklərin mənimsənilməsi təmin edilir, şagirdlərdə tarixi təfəkkür formalaşır və məntiqi nəticə çıxarma bacarıqları inkişaf edir. İzahedici-illüstrativ metodun yeni mövzunun izahı mərhələsində, reproduktiv metodun isə mövzunun möhkəmləndirilməsi, təkrarı və qiymətləndirilməsi mərhələsində tətbiqi təlim prosesinin effektivliyini artırır.

Məqalədə bu metodların müəyyən çatışmazlıqları da qeyd edilmişdir. Bildirilir ki, onların tətbiqi zamanı şagirdlər daha çox passiv mövqedə qalır və müstəqil düşünmə bacarıqları kifayət qədər inkişaf etmir. Bu çatışmazlıqların aradan qaldırılması məqsədilə müəyyən tövsiyələr irəli sürülmüş, müasir tarix təlimində həmin metodların fəal və interaktiv təlim metodları ilə inteqrasiyasının daha səmərəli nəticələr verə biləcəyi vurğulanmışdır.

**Author(s):**

**Aytekin Gahramanova**
Nakhchivan Teachers Institute
PhD on History
**E-mail:** aytekinqehramanova@nmi.edu.az

**Key words:** history subject, explanatory-illustrative method, reproductive method, quality of education

## Some notes on the application of explanatory-illustrative and reproductive methods in history lessons

**Abstract.** The article examines the essence and pedagogical significance of explanatory-illustrative and reproductive teaching methods applied in the process of teaching history. It is noted that one of the main conditions for improving the quality of education is the appropriate selection of teaching methods and their purposeful implementation in the educational process. The effective selection and application of teaching methods largely depend on the teacher's professionalism, pedagogical competence, and practical experience.

The article analyzes the application of explanatory-illustrative and reproductive methods in history teaching and emphasizes that, despite being traditional teaching methods, they continue to be widely used in the modern educational system. The findings of the study indicate that the proper selection of teaching methods in history lessons plays an important role in students' understanding of historical events, establishing cause-and-effect relationships, developing critical and analytical thinking skills, as well as assimilating national and universal values.

The article states that the application of these methods enables students to systematically comprehend the subject matter and obtain comprehensive knowledge about historical events and historical figures. Through the use of maps, schemes, and illustrations, students develop an understanding of historical spaces and the geographical areas where historical events occurred. In addition, these methods facilitate the acquisition of a considerable amount of knowledge within a relatively short period of time, contribute to the formation of historical thinking, and enhance students' logical reasoning skills. The study emphasizes that the explanatory-illustrative method is more effective when applied during the presentation of new material, whereas the reproductive method increases the effectiveness of the learning process when used for reinforcement, revision, and assessment stages.

The article also addresses certain limitations of these methods. It is noted that students often remain in a relatively passive position during their application, and their independent thinking skills may not develop sufficiently. To overcome these shortcomings, several recommendations have been proposed. It is emphasized that integrating these methods with active and interactive teaching approaches in modern history education can lead to more effective outcomes.

**Автор(ы):**

**Айтекин Гахраманова**
Нахчыванский институт учителей
Доктор философии по истории
**Э-почта:**aytekinqehramanova@nmi.edu.az

**Ключевые слова:** история, объяснительно-иллюстративный метод, репродуктивный метод, качество образования

## Некоторые замечания по применению объяснительно-иллюстративного и репродуктивного методов на уроках истории

**Аннотация.** В статье исследуются сущность и педагогическое значение объяснительно-иллюстративного и репродуктивного методов обучения, применяемых в процессе преподавания истории. Отмечается, что одним из основных условий повышения качества обучения является правильный выбор методов обучения и их целенаправленное применение в образовательном процессе. Эффективность выбора и использования методов обучения в значительной степени зависит от профессионализма, педагогической подготовки и практического опыта учителя.

В статье проанализировано применение объяснительно-иллюстративного и репродуктивного методов в процессе преподавания истории, а также подчёркивается, что, несмотря на их традиционный характер, данные методы широко используются в современной системе образования. Результаты исследования показывают, что правильный выбор методов обучения на уроках истории имеет важное значение для понимания учащимися исторических событий, установления причинно-следственных связей, развития критического и аналитического мышления, а также усвоения национальных и общечеловеческих ценностей.

Отмечается, что применение данных методов способствует системному усвоению учебного материала, формированию у учащихся глубоких знаний об исторических событиях и исторических личностях. Использование карт, схем и иллюстраций позволяет сформировать представление об историческом пространстве и территориях, где происходили исторические события. Кроме того, данные методы обеспечивают усвоение значительного объёма знаний за сравнительно короткое время, способствуют формированию исторического мышления и развитию навыков логического анализа. Подчёркивается, что использование объяснительно-иллюстративного метода на этапе объяснения нового материала, а репродуктивного метода - на этапах закрепления, повторения и оценивания темы повышает эффективность учебного процесса.

В статье также рассматриваются отдельные недостатки данных методов. Указывается, что при их применении учащиеся в основном занимают пассивную позицию, а навыки самостоятельного мышления развиваются недостаточно. Для устранения указанных недостатков предложены соответствующие рекомендации. Подчёркивается, что интеграция данных методов с активными и интерактивными методами обучения в современном преподавании истории может обеспечить более эффективные результаты.

**Giriş.** Müasir təhsil sistemində əsas məqsəd tədrisin keyfiyyətini yüksəltməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün tədris olunan metodun düzgün seçilməsi əsas şərtdir. Metodların düzgün seçilməsi və dərs prosesinə tətbiqi müəllimin peşəkarlıq səviyyəsindən və onun təcrübəsindən daha çox asılıdır. Bu əsasda müəllimlər tarixi biliklərin nəzəri və metodik sahələrini gənc nəslə-şagirdlərə öyrətməlidirlər. Bu bir sıra üsul və vasitələrlə həyata keçirilir [5, s. 4]. Xüsusilə, tarix dərslərinin tədrisində üsul və vasitələrin seçimi şagirdlərin - tarixi hadisələri dərk etməsi, səbəb-nəticə əlaqələrini qurması, onların tənqidi təfəkkürünü, analtik düşünmə qabiliyyətini, o cümlədən milli və ümumbəşəri dəyərlərin mənimsənilməsi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir.

Metodun mövzuya uyğun olaraq seçilməsi dərsin keyfiyyətinə müsbət təsir göstərməklə yanaşı, şagirdlərin mövzunu asanlıqla öyrənilməsini zəruri edir. Bu prosesdə müəllimin istəyi nəzərə alınmamalıdır. Bu haqda pedaqoq Mübariz Əmirov yazır: ”Dərsin tipinin seçilməsi müəllimin arzusu ilə yox, mövzunun məntiqi quruluşu və materialın xarakteri ilə, eləcə də, təlim prosesinin qanunauyğunluğu ilə müəyyən edilir [3, s. 83].

Pedaqoqların fikrincə təlim təhsil almağın vasitəsidir [4, s. 14]. Ümumiyyətlə, təlim prosesində seçilən üsullar şagirdlərin yeni materialla tanış edilməsinə, onların bacarıq və vərdişləri qazanmasına, onların sabitləşdirilməsinə, tətbiqinə xidmət edir [1].

Məlumdur ki, hər hansı bir fəndə təlim metodlarının düzgün tətbiqi dərsin keyfiyyəini yüksəldib, səmərililiyini artırır. Tarix dərslərində tətbiq olunan metodlar bir neçə funksiyanı yerinə yetirir. İlk olaraq demək olar ki, bu prosesdə şagirdlərdə tarixi biliklər formalaşır, onların tarixi təfəkkürü inkişaf etdir və dünyagörüşləri genişlənir. Bununla yanaşı, şagirdlərdə milli şüur və vətənpərvərlik hissləri də tərbiyə olunur.

Müasir təhsil sistemində tədris zamanı çoxlu sayda interaktiv və ənənəvi təlim metodlardan istifadə edilir. Lakin tədris prosesinə tətbiq edilən izahedici-illüstrativ və reproduktiv metodlar ənənəvi metodlardır. Bu metodların ənənəvi metod olmasına baxmayaraq, olmasına baxmayaraq, bu gündə tədris prosesində istifadə edilir.

Tarix dərslərinə izahedici-illüstrativ metod tətbiq edilərkən tarixi hadisələrin mahiyyəti sistemli şəkildə müəllim tərəfindən şagirdlərə şifahi formada izah edilir, səbəb-nəticə əlaqələri göstərilir, müxtəlif dövr arasındakı fərqləri və oxşar xüsusiyyətlər təhlil edilərək aydınlaşdırılır. Pedaqoqların fikrincə məktəbdə tarix fənninin tədrisi metodları içərisində tarixi materialın şifahi surətdə şərh edilməsi xüsusilə mühüm yer tutur [6, s. 351]. Bu prosesdə müəllim mövzunu izah etməklə bərabər, vizual, sənədli və ya şəkilli materiallardan da istifadə edir. İzahedici üsulun tətbiqi bir neçə formada həyata keçirilə bilər:

1. İlk növbədə müəllim yeni mövzunun izahlı şəkildə təqdim edir- məsələn, “Azərbaycan Xalq Cümhiriyyəti” mövzusu izah edilərkən hadisənin tarixi şəraiti, başlanma səbəbləri, xalqımızın əldə etdiyi müstəqilliyi haqqında məlumatlar ardıcılıqla açıqlanır.

2. Müəllim tərəfindən mövzu izah edilərkən şagirdlər üçün çətin anlaşılan məsələlər sadə, aydın, rəvan bir tərzdə izah edilir. Nəticədə şagirdlər mövzunu daha asan qavrayır və uzun müddət yadda saxlayır.

3. Müəllimin mövzunu təqdimatı nəticəsində səbəb-nəticə əlaqələri açıqlanır. Məsələn, AXC-nin qalib gəlmə səbəblərini izah edərkən müəllim xalqımızın azadlıq uğrunda mübarizəsini, inqilabın yaranma şəraitini, o cümlədən iqtisadi, siyasi və hərbi amillərinin qarşılıqlı təsirini şagirdlərə izah edir.

İizahedici metod tətbiqi nəticəsində şagirdlərin mövzunu ardıcıllıqla dinləyib və mənimsəmələrində müəllimin pedoqji ustalığı, məntiqi ardıcıllıq və rəvan axarlı, sadə danışıq tərzi də əsas rol oynayır. Bundan əlavə, müəllim şagirdlərin dərsi dərindən mənimsəyib öyrənmələri üçün illüstrativ metoddan-xəritələrdən, şəkillərdən, tarixi sənədlərdən və s. istifadə edir.

Xəritələrdən istifadə zamanı müəllim mövzunu əhatə edən hadisələrin zaman - nə vaxt və məkan - harada baş verdiyini söyləməklə xəritədə həmin ərazini şagirdlərə göstərir. Məsələn, müəllim Azərbaycanın qədim dövlətlərindən biri olan Albaniya mövzusunu izah edərkən ilk olaraq xəritədə həmin ərazini şagirdlərə göstərir və o yerin coğrafi cəhətlərini aydınlaşdırır. Albaniya haqqında izahat verilərkən onun Şimali Azərbaycanda, Kür və Araz çayları ətrafında mövcud-

luğundan bəhs edilir. Müəllim qeyd edir ki, ilk dövlətlər su kənarlarında: çay və göl vadilərində meydana gəlib və onun səbəblərini açıqlayır. Sonra Kür və Araz çaylarını xəritədə göstərir. Bu proses zamanı müəllim coğrafiya fənninə inteqrasiya edərəkən həmin çaylar, yaşayış yerləri şagirdlərin gözləri qarşısında canlanır, bu isə şagirdlərin mövzunu mənimsəmələrini asanlaşdırır.

İllüstrativ metodun tətbiqində digər vasitələrdən: tarixi mənbələrdən mültimedia vasitələrindən və arxiv materiallarından da istifadə olunur.

Reproduktiv metodun tarix dərslərinə tətbiqi nəticəsində isə şagirdlər öyrəndikləri bilikləri təkrar edir və möhkəmləndirib, yaddaşlarında uzun müddət saxlayırlar. Deməli, bu metod şagird tərəfindən artıq ona məlum olan əməllərin təkrar olunmasına yönəlmişdir [3, s. 248]. Müəllim bu prosesi müəyyən üsullarla tətbiq edə bilər: məsələn, sual-cavab üsulu ilə, tapşırıqların həlli yolu ilə, mətn üzərində işlə, yazılı yoxlamalar vasitəsi ilə və s. Bu metodun tətbiqi nəticəsində mövzu şagirdlərin yaddaşında uzun müddət qalır.

Demək olar ki, adları qeyd olunan bu metodlar metodlar tədris prosesində bir-birini tamamlayır və qarşılıqlı əlaqədə tərbiq olunur. Əgər izahedici metod şagirdlərə ilk bilik verərək hadisələrin məntiqini açırsa, illüstrativ metod da mövzuda əks olunan hadisələri şagirdlərin gözü önündə canlandırır. Reprodiktiv metod isə şagirdlərin öyrəndiklərini təkrar etməklə möhkəmləndirir.

**Tədqiqatın məqsədi.** Yerinə yetirilən tədqiqatın əsas məqsədi tarix dərslərində tətbiq olunan izahedici-illustrativ və reproduktiv metodların mahiyyətini və onların xüsusiyyətlərini elmi baxımdan araşdırmaq və tədrisin keyfiyyətini yüksəldən metodik yanaşmaları əsaslandırmaqdır.

Reproduktiv metodun məqsədi isə şagirdlərin əldə etdikləri bilikləri təkrar etmə, tətbiq etmə və möhkəmləndirmə bacarığını formalaşdırmaqdır. Şagirdlərin əvvəllər öyrəndikləri biliklərin yadda saxlanılması və təkrar olunması, şagirdlərdə bilikləri tətbiqetmə və analiz etmə bacarığının inkişafı, tarixi faktları düzgün, ardıcıllıqla və məntiqi şəkildə ifadə etməkdir.

**Materiallar və metodlar.** İzahedici-illustrativ metodun tətbiqi zamanı əsas istifadə edilən elmi mənbələr ümumtəhsil məktəblərinin tarix dərslikləri, metodik vəsaitlər, arxiv sənədləri, cədvəllər, sxemlər, şəkillər, təqdimatlar və s. təşkil edir. Metodları isə şifahi şəhr, mühazirə, nağıletmə, nümayiş etdirmə, sual-cavab etmədən ibarətdir.

Reproduktiv metodun materialları isə tapşırıqlar toplusu, iş vərəqələri, testlər, məsələlər və çalışmalar və s. ibarətdir. Metodları isə tapşırıqların yerinə yetirilməsi, mövzunu təkrar etmə, yazılı və şifahi yoxlama və c. ibarətdir

Bunlarla yanaşı, tədqiqat işi yerinə yetirilərkən Abbasov Ə., Əhmədov A, Əmirov M., Kərimov Y.Ş Paşayev T.S., Vagin A.A. və digərlərinin əsərlərindən də elmi mənbə kimi istifadə edilmişdir.

**Müzakirə.** Apırılmış araşdırmalar göstərir ki, izahedici-illustrativ və reproduktiv təlim metodları tarix fənninin tədrisində ənənəvi xarakter daşısa da, hələ də təlim prosesində mühüm yer tutur. Bu metodlar xüsusilə tarixi biliklərin sistemli şəkildə ötürülməsi, hadisələri faktlarla mənimsədilməsi və xronoloji ardıcıllıqla izah edilməai baxımından mühüm əhəmiyyət kəsb edir.

Tarix dərslərində bu metod əsasən yeni mövzunun izahı mərhələsində tətbiq olunur. Məsələn, 2025-ci tədris ilində Naxçıvan şəhər Qızlar liseyində tarix müəllimi Gülşən Gülməmmədovanın 8-ci A sinifində tədris etdiyi "Ümumi tarix" fənnində "Fransada Burjua inqilabı" adlı mövzunun tədrisi zamanı müəllim fransız inqilabının dünya tarixində feodal münasibətlərinin dağılması və bujua cəmiyyətinin formalalaşması baxımından dönüş nöqtəsi hesab olunduğu haqqında şagirdlərə faktlara əsaslanaraq məlumat verdi. Bu mövzunun tədrisi prosesində müəllim şagirdlərə yalnız faktların ötürülməsi ilə kifayətlənmədi, o, bu tarixi hadisənin səbəbini, inqilabın başlanmasını, ilk konstitusiyanın yaranmasını, inqilab dövründə beynəlxalq münasibətləri şagirdlərə sadə, anlaşıqlı tərzdə izah etdi.

**Dərsin birinci mərhələsi** müəllim tərəfindən şagirdlər arasında motivasiya yaratmaq məqsədi ilə əvvəlcədən Fransanın sosial quruluşunu əks etdirən sixem belə tərtib edilmişdir: ruhani təbəqə, zadəganlar, üçüncü silk (burjuaziya, kəndlilər, şəhər əhalisi).

Vizual sixemə əsasən müəllim şagirdlərə belə sual verir: Əhalinin böyük hissəsini təşkil

edən üçüncü silkin siyasi hüquqları varmı idi? Bu mərhələdə şagirdlərdə problemli situasiya yaradılır.

Müəllim Fransada burjua inqilabının baş vermə səbəblərini izah edərkən əsasən sosial, ideoloji və iqtisadi səbəblərlə yanaşı, Amerika istiqlaliyyət mübarizəsinin inqilabın baş verməsinə təsirindən də bəhs etdi. Gülşən müəllimə inqilab ərəfəsində Fransanın sosial quruluşu və maliyyə böhranı haqqında məlumat verməklə yanaşı, Basitiliyanın alınması insan və vətəndaş hüquqları bəyannaməsi və yakobinlər dövrü, Napoleonun hakimiyyətə gəlməsi haqqında məlumatları mərhələli şəkildə izah etdi.

**Dərsin ikinci mərhələsində** müəllim qeyd etdi ki, XVIII əsrin sonlarında Fransada ciddi maliyyə böhranı yaranmışdır. Müharibələr və saray xərcləri xəzinəni boşaltmışdı. Kral XVI Lüdovik köməyə digər dövlətləri (Baş ştatları) çağırmağa məcbur olur. Bu zaman Fransada üçüncü silkin nümayəndələri özlərini Milli Məclis elan edir. İzahedici-illustrativ metodun tətbiqi vizual materiallardan biri olan xəritələrdən istifadə edərək müəllim Fransanı xəritədə göstərməklə şagirdlərdə bu tarixi hadisənin baş verdiyi yer (məkan) haqqında məlumat verməklə şagirdlərdə düzgün təsəvvür yaradır. Aydındır ki, ərazi bütün tarixi hadisələr üçün meydandır və yer şəraiti çox vaxt hadisələrin konkret gedişini müəyyən edir. Bu şərti bilmək bir sıra hallarda tarixi hadisələrin izahına kömək edir [3, s. 20].

Tarixi materialın mənimsənilməsində tarix xəritələrinin rolunu ifadə edən pedaqoq Mübariz Qədimov tanınmış tarixçi-metodist A.A.Vaginə istinadən belə belə qənaətə gəlir:

1. Biz xəritənin köməyilə tarixi əlaqələri, xüsusilə səbəbiyyət əlaqələrini əyani surətdə açıb göstəririk.

2. Xəritə, hətta tarixi öyrənməyin ilk pillələrində öyrənilmiş materialın şagirdlər tərəfindən təhlil edilib, ümumiləşdirilməsi işinə kömək edir və şagirdləri tarixi inkişafın qanunauyğunluqlarını açıb göstərməyə yaxınlaşdırır.

3. Xəritə bir sıra tarixi hadisə və prosesləri izləməyə imkan verir.

4. Tarix xəritəsi materialın təkrar və möhkəmləndirilməsində də böyük rol oynayır.

5. Tarix xəritəsi şagirdlərin təfəkkür fəaliyyətini sürətləndirir [3, s. 20].

Müəllim inqilabın səbəb və nəticə əlaqələrini izah edirkən qeyd edir ki, Fransada burjua inqilabının yaranma səbəbləri əsasən olan əsas amillər: maliyyə böhranı - sosial narazlıq - siyasi təmsilçilik tələbi - inqilabi partlayış olmuşdur.

**III mərhələ – Tarixi sənədlə iş**

Üçüncü mərhələdə müəllim şagirdlərə “İnsan və vətəndaş hüquqları bəyannaməsi” sənədindən maddələr haqqında məlumat verir. Gülşən müəllimə qeyd etdi ki, bu sənəd Fransada burjua hüquqi dövlət modelinin əsasını qoymuşdur. Şagirdlər müəllim tərəfindən onlara ünvanlanan aşağıdakı suallara cavab verir:

- Bəyannamədə hansı hüquqlar təsbit olunmuşdur?
- Bu hüquqlar feodal quruluşu ilə ziddiyyət təşkil edirdimi?

İzahedici-illustrativ metod tarix dərslərində mürəkkəb tarixi hadisə və proseslərin şagirdlər tərəfindən anlaşılmasını asanlaşdırır. Müəllimin mövzuya dair tarixi hadisələrin xronoloji ardıcıllıqla izah edib, hadisələrin baş verdiyi tarixi və həmin məkanı xəritədə göstərməsi şagirdlərin qavrama səviyyəsini yüksəldir, tarixi məkan və zaman anlayışlarının formalaşmasına müsbət təsir göstərir.

**IV mərhələ – İnqilabın radikallaşması (kəskinləşməsi)**

Müəllim yakobinlərin hakimiyyətini izah edir və Maksimilian Robespyer haqqında qısa məlumat verir.Terror siyasətinin səbəbləri və nəticələri müəllimin tərtib etdiyi sxem vasitəsilə göstərilir.

**V mərhələ – Ümumiləşdirmə mərhələsidir.**

Müəllimin lövhədə tərtib etdiyi cədvəldə: səbəblər, gedişat, nəticələr, sosial bərabərsizlik, Bastiliyanın alınması, feodalizmin süqutu, maliyyə böhranı, respublikanın elan olunması, burjua dövlətinin formalaşması və s. haqqında məlumatlar öz əksini tapmışdır. Bu zaman şagirdlərdə mövzu haqqında ilkin bilik bazası yaradılır. Müəllimin xəritə üzərində işləməsi ilə o, Fransanın yerləşdiyi məkan haqqında məlumumat verir. Bütün bu proseslər sanki şagirdin gözləri qarşısında canlanır və onlar mövzunu dərindən, hərtərəfli qavrayırlar.

Fransız inqilabı mövzusunun izahedici-illüstrativ metod əsasında tədrisi şagirdlərdə səbə-

b-nəticə əlaqələrinin dərindən anlaşılmasına da şərait yaradır. Müəllimin sistemli izahı ilə sənəd, xəritə və sxemlərin uzlaşdırılması mövzunun həm sübutlarla, həm də məzmun baxımından mənimsənilməsini təmin edir.

**Nəticə.** Nəticə etibar ilə demək olar ki, izahedici-illustrativ metodun tətbiqi zamanı şagirdlər mövzunu sistemli şəkildə qavrayırlar, onlar tarixi hadisələr və tarixi şəxsiyyətlər haqqında dolğun məlumatlar əldə edirlər, xəritə, sxem və illustrasiyalar vasitəsi ilə tarixi məkan haqqında məlumat əldə edirlər, o cümlədən qısa zaman ərzində daha çox bilik əldə edirlər. Bununla yanaşı, şagirdlərdə tarixi təfəkkür formalaşır və məntiqi nəticə çıxarma bacarıqları inkişaf edir. İzahedici-illustrativ metod yeni mövzunun təqdimatı mərhələsində, reproduktiv metod isə mövzunun möhkəmləndirilməsi və qiymətləndirilməsi mərhələsində istifadə edildikdə təlim prosesinin effektivliyi artır.

Lakin, bu metodun müəyyən çatışmayan cəhətləri vardır ki, o da şagirdlərin təlim prosesində əsasən passiv mövqedə qalması və müstəqil düşünmə bacarıqlarının kifayət qədər inkişaf etməməsidir.

Tövsiyə olaraq müasir tarix təlimində bu metodların fəal /interaktiv təlim metodlarına inteqrasiya etmələri qeyd olunan çatışmazlıqları aradan qaldıra bilər. Məsələn, problemli təlimlə inteqrasiya edilərsə, ilk olaraq müəllim mövzunu izahedici-illustrativ metodla təqdim etməli, daha sonra problemli sual qoymalıdır. Məsələn, Napoleon Bonaparta aid mövzu izah edilərkən, sonra müəllim belə bir sualla şagirdlərə müraciət edə bilər: “Napoleon Bonapatrın islahatları Avropa üçün mütərəqqi bir hal idimi, yoxsa o islahatlar işğalçılıq xarakteri daşıyırdı?”. Bu prosesdə şagirdlər verilən suala cavab verir və topladıqları məlumatları təhlil edərək tutuşdurur bu zaman onlarda məntiqi və tənqidi təfəkkürü formalaşdırır. Onu qeyd etmək lazımdır ki, suallar şagirdlərin bilik səviyyəsinə uyğun olaraq verilməlidir. Pedaqoqların fikrincə uşaqlara qapalı və açıq suallar verilməlidir. Uşaqlara aşağı, orta, yüksək səviyyəli suallar vermək olar” [2, s. 90-91] .

Tövsiyə edilən metodlardan biri də debat və müzakirə metoduna inteqrasiyadır. Belə ki, əvvəlcə mövzu izah olunur, sonra şagirdlər iki qrupa bölünərək izah edilən mövzu üzrə müzakirə aparırlar. Şagirdlərin mövzu ilə əlaqədar öyrəndikləri faktlar artıq sübuta çevrilir.

Tövsiyə edilən metodlardan biri də rol oyunu ilə inteqrasiyadır. Bu prosesdə tarixi hadisə izah olunur. Şagirdlər tarixi şəxsiyyətlərin obrazlarını ifadə edərək dialoq qururlar. Nəticədə şagirdlərdə qarşı tərəfin hisslərini başa düşmək, onların hisslərinə hörmətlə yanaşmaq, yəni empatiya hissi formalaşır. Bu prosesdə şagirdlərdə ünsiyyət bacarıqları inkişaf edir, tarixi və sosial hadisələrin daha dərindən qavranılıb yadda saxlanılmasına zəmin yaradır.

**Ədəbiyyat**


1. Ümumi təhsildə inteqrasiya: Müasir yanaşmalar. “Azərbaycan müəllimi” qəz., 2013, 10 may.
2. Əliyeva, F., Məmmədova, Ü. Müasir təlim texnologiyaları. – Bakı: – 2014. “MBM”, – 195 s.
3. Əmirov, M. Tam orta məktəbdə tarixin fəal/ interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). – Bakı: Yeni nəşr, –2011. – 707 s.
4. Kərimov, Y.Ş Təlim metodları. – Bakı: Poliqraf, – 2007.
5. Paşayev, T.S. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya. – Bakı: – 2006.
6. Vagin, A.A. Orta məktəbdə tarixin tədrisi metodikası. – Bakı: Maarif, – 1973.



*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 19.01.2026, son daxilolma – 05.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.77-82*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.77-82*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.77-82*

**UOT: 372.46:811.512.162'35**

# İbtidai siniflərdə şagirdlərin orfoqrafik vərdişlərinin inkişaf etdirilməsi yolları

**Müəllif(lər):**

**Şəhla Fətəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** ShahlaFataliyeva@nmi.edu.az

**Açar sözlər:** morfologiya, sözün tərkibi, sözlərin düzgün yazılışı, orfoqrafik vərdişlər, kök və şəkilçi

**Annotasiya.** Məqalədə ibtidai siniflərdə Azərbaycan dili tədrisi prosesində morfoloji biliklərin və orfoqrafik qaydaların qarşılıqlı əlaqədə öyrədilməsinin əhəmiyyəti araşdırılmışdır. Qeyd olunur ki, ibtidai təhsil mərhələsi şagirdlərin ana dilini mənimsəməsi, düzgün və səlis nitq bacarıqlarının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Bu mərhələdə şagirdlər yalnız oxu və yazı vərdişləri qazanmır, həm də sözlərin quruluşunu, qrammatik xüsusiyyətlərini və cümlə daxilində funksiyalarını öyrənirlər.

Məqalədə vurğulanır ki, morfologiya sözlərin quruluşunu, kök və şəkilçi hissələrini, eləcə də onların dəyişmə qaydalarını öyrənən dilçilik sahəsi kimi şagirdlərin dil biliklərinin formalaşmasında mühüm rol oynayır. Sözlərin morfoloji quruluşunun mənimsədilməsi şagirdlərə sözlərin düzgün yazılışını dərk etməyə və yazılı nitqi daha dəqiq qurmağa kömək edir. Bu səbəbdən morfoloji mövzuların tədrisi orfoqrafik qaydaların izahı ilə paralel şəkildə aparılmalıdır.

Tədqiqat çərçivəsində morfoloji qaydaların tədrisi və orfoqrafik vərdişlərin formalaşdırılması ilə bağlı Naxçıvan şəhəri 8 nömrəli tam orta məktəbin IV siniflərində "Sözün tərkibi" mövzusu üzrə pedaqoji təcrübə aparılmış və müəyyən nəticələr əldə edilmişdir. Araşdırma zamanı elmi-pedaqoji ədəbiyyatın təhlili və ümumiləşdirilməsi, müqayisə, pedaqoji müşahidə, praktik tapşırıqların tətbiqi kimi metodlardan istifadə olunmuşdur. Həmçinin yazı məşqləri, imlalar, morfoloji təhlil və şifahi tapşırıqlar vasitəsilə şagirdlərin yazı və nitq bacarıqlarının inkişaf səviyyəsi öyrənilmişdir.

Nəticə etibarilə, morfoloji və orfoqrafik qaydaların qarşılıqlı əlaqədə öyrədilməsi şagirdlərin dil mədəniyyətinin zənginləşməsinə, nitq bacarıqlarının formalaşmasına və yazılı ifadə qabiliyyətinin inkişafına müsbət təsir göstərir.

**Author(s):**

**Shahla Fataliyeva**
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Philology, Associate Professor
**E-mail:** ShahlaFataliyeva@nmi.edu.az

**Keywords:** morphology, word structure, correct spelling of words, orthographic skills, root and affix

## Ways of developing orthographic skills of students in primary classes

**Abstract.**In the article the importance of teaching morphological knowledge and orthographic rules in an integrated manner during teaching process of the Azerbaijani language in primary classes was searched. It is noted that, the stage of primary education plays a significant role in students' acquisition of their native language and in the development of correct and fluent speech skills. At this stage, students acquire not only reading and writing skills but also learn the structure of words, their grammatical features and their functions within sentences.

The article emphasizes that morphology, as a branch of linguistics studying the structure of words, roots, affixes and the rules of their modification, plays an important role in the formation of students' language knowledge. Learning the morphological structure of words helps students understand correct spelling and construct written speech more accurately. Therefore, the teaching of morphological topics should be carried out in parallel with the explanation of orthographic rules.

In the study a pedagogical experiment related to the teaching of morphological rules and the development of orthographic skills was conducted on the topic "Word Structure" in the IV grade of secondary school № 8 in the city of Nakhchivan and certain results were obtained. During the study, methods such as analysis and generalization of scientific-pedagogical literature, comparison, pedagogical observation and the application of practical tasks were used. In addition, writing and speaking skills of students were studied through written exercises, dictations, morphological analysis and oral tasks.

Consequently, it was determined that the integrated teaching of morphological and orthographic rules positively influences to the enrichment of students' language culture, the formation of speech skills and the development of writing abilities.

**Автор(ы):**

**Шахла Фаталиева**
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
**Э-почта:** ShahlaFataliyeva@nmi.edu.az

**Ключевые слова:** морфология, состав слова, правильное написание слов, орфографические навыки, корень и аффикс

## Пути развития орфографических навыков у учащихся начальных классов

**Аннотация.** В статье исследуется значение взаимосвязанного преподавания морфологических знаний и орфографических правил в процессе обучения азербайджанскому языку в начальных классах. Отмечается, что этап начального образования имеет важное значение для усвоения учащимися родного языка, а также для формирования правильной и связной речи. На данном этапе учащиеся приобретают не только навыки чтения и письма, но и изучают строение слов, их грамматические особенности и функции в предложении.

В статье подчёркивается, что морфология как раздел языкознания, изучающий строение слов, корень, аффиксы и правила их изменения, играет важную роль в формировании языковых знаний учащихся. Усвоение морфологической структуры слов помогает учащимся осознать правильное написание слов и более точно строить письменную речь. В связи с этим преподавание морфологических тем должно осуществляться параллельно с объяснением орфографических правил.

В рамках исследования был проведён педагогический эксперимент по преподаванию морфологических правил и формированию орфографических навыков на тему «Состав слова» в IV классах средней школы № 8 города Нахчывана, в результате которого были получены определённые результаты. В ходе исследования использовались методы анализа и обобщения научно-педагогической литературы, сравнения, педагогического наблюдения и применения практических заданий. Кроме того, посредством письменных упражнений, диктантов, морфологического анализа и устных заданий изучался уровень развития письменных и речевых навыков учащихся.

В результате исследования установлено, что взаимосвязанное преподавание морфологических и орфографических правил способствует обогащению языковой культуры учащихся, формированию речевых навыков и развитию письменной речи.

**Giriş.** Dil bacarıqlarının formalaşması insanın ümumi inkişafında və düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Məktəb təhsilinin ilk pilləsi olan ibtidai siniflərdə şagirdlər ana dilinin əsas qaydalarını mənimsəməyə başlayır, söz ehtiyatını zənginləşdirir və fikirlərini həm yazılı, həm də şifahi şəkildə ifadə etməyi öyrənirlər. Bu mərhələdə dilin qrammatik quruluşunun öyrədilməsi, xüsusilə də morfoloji biliklərin mənimsədilməsi şagirdlərin düzgün və səlis nitq formalaşdırması üçün mühüm əhəmiyyət daşıyır.

Morfologiya sözlərin quruluşunu, onların müxtəlif şəkilçilər vasitəsilə dəyişməsini və cümlə daxilində funksiyalarını öyrənən dil bölməsi kimi ibtidai siniflərdə dil tədrisinin vacib istiqamətlərindən biridir. Bu biliklərin mənimsənilməsi yalnız nəzəri qaydaların öyrədilməsi ilə məhdudlaşmır, həm də sözlərin düzgün yazılışı, yəni orfoqrafik vərdişlərin formalaşdırılması ilə sıx əlaqədə həyata keçirilir. Şagirdlər sözlərin quruluşunu və qrammatik formalarını anladıqca, onların yazılışını da daha asan və düzgün mənimsəyirlər.

**Tədqiqatın aktuallığı.** Müasir təhsil sistemində şagirdlərin ana dilində düzgün və səlis yazı bacarıqlarının formalaşdırılması əsas vəzifələrdən biri hesab olunur. İbtidai sinif mərhələsi isə bu bacarıqların əsasının qoyulduğu ən mühüm dövrdür. Məhz bu mərhələdə şagirdlər sözlərin quruluşunu, şəkilçilərin funksiyasını və cümlə qurma qaydalarını öyrənir, eyni zamanda düzgün yazı və tələffüz vərdişləri qazanırlar. Lakin təcrübə göstərir ki, bir çox hallarda şagirdlər sözlərin morfoloji quruluşunu kifayət qədər dərk etmədikdə yazıda orfoqrafik səhvlərə yol verirlər. Bu isə morfoloji biliklərin orfoqrafiya ilə əlaqəli şəkildə öyrədilməsinin vacibliyini göstərir.

Digər tərəfdən, müasir tədris prosesində şagirdlərin fəal iştirakını təmin edən üsul və vasitələrin tətbiqi, yazı və nitq bacarıqlarının inkişafına yönəlmiş sistemli fəaliyyətlərin təşkili xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan ibtidai siniflərdə morfoloji qaydaların tədrisi zamanı orfoqrafiya üzrə aparılan işlərin öyrənilməsi və təkmilləşdirilməsi aktual pedaqoji məsələlərdən biri kimi çıxış edir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyi ibtidai siniflərdə morfoloji qaydaların tədrisi ilə orfoqrafik vərdişlərin formalaşdırılması arasında əlaqənin sistemli şəkildə araşdırılmasından ibarətdir. İşdə şagirdlərin yazılı və şifahi nitqinin inkişafı üçün morfoloji təhlil, yazı məşqləri, imlalar və interaktiv üsulların birgə tətbiqinin əhəmiyyəti əsaslandırılmış və bu istiqamətdə praktik yanaşmalar təqdim edilmişdir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini ibtidai siniflərdə ana dilinin tədrisi prosesi təşkil edir. Tədqiqatın predmeti isə ibtidai siniflərdə morfoloji qaydaların öyrədilməsi zamanı orfoqrafik vərdişlərin formalaşdırılması üsullarıdır.

**Tədqiqatın məqsədi.** İbtidai siniflərdə morfoloji qaydaların tədrisi prosesini araşdırmaq, bu prosesdə orfoqrafik vərdişlərin formalaşdırılması yollarını müəyyənləşdirmək və müxtəlif tədris üsullarının şagirdlərin yazılı və şifahi nitq bacarıqlarının inkişafına təsirini öyrənməkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti ibtidai siniflərdə morfoloji qaydaların tədrisi ilə orfoqrafik bacarıqların formalaşdırılması arasındakı əlaqənin elmi-pedaqoji baxımdan izah edilməsindədir. Araşdırmada morfoloji biliklərin şagirdlərin düzgün yazı və nitq vərdişlərinin inkişafına təsiri ümumiləşdirilir və bu sahədə mövcud pedaqoji yanaşmalar sistemləşdirilir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr və irəli sürülən metodik tövsiyələr ibtidai siniflərdə ana dilinin tədrisi prosesində müəllimlər tərəfindən istifadə oluna bilər.

Eyni zamanda tədqiqatda təqdim edilən yanaşmalar dərs prosesinin daha səmərəli təşkilinə, şagirdlərin yazılı və şifahi nitq bacarıqlarının inkişafına şərait yaradır. Bu baxımdan tədqiqatın nəticələri müəllimlər, pedaqogika üzrə təhsil alan tələbələr və metodistlər üçün praktik vəsait kimi faydalı ola bilər.

**Materiallar və metodlar.** Tədqiqatın aparılması zamanı ibtidai siniflərdə ana dilinin tədrisi ilə bağlı elmi-pedaqoji ədəbiyyatlar, metodik vəsaitlər, dərsliklər və mövzu ilə əlaqədar tədqiqat materialları öyrənilmiş və təhlil edilmişdir. Eyni zamanda morfoloji qaydaların tədrisi və orfoqrafik vərdişlərin formalaşdırılması ilə bağlı 8 saylı orta məktəbin IV siniflərində "Sözün tərkibi" mövzusunun öyrənilməsi ilə bağlı tədris təcrübəsi aparılmışdır. Bu zaman "Sözün tərkibi" yalnız

ayrıca bir mövzu kimi öyrədilmir, həm də sonrakı mərhələdə müxtəlif nitq hissələrinin tədrisi zamanı daha geniş şəkildə tətbiq olunur.

Tədqiqat prosesində müxtəlif metodlardan istifadə olunmuşdur. Bunlara elmi-pedaqoji ədəbiyyatın təhlili və ümumiləşdirilməsi, müqayisə, pedaqoji təhlil və praktik tapşırıqların tətbiqi daxildir. Həmçinin yazı məşqləri, imlalar, morfoloji təhlil və şifahi tapşırıqlar vasitəsilə şagirdlərin yazı və nitq bacarıqlarının inkişafı öyrənilmişdir.

Bu metodlar vasitəsilə morfoloji biliklərin mənimsənilməsi ilə orfoqrafik vərdişlərin formalaşdırılması arasındakı əlaqə araşdırılmış və əldə olunan nəticələr ümumiləşdirilmişdir.

**Nəticə və müzakirələr.** İbtidai təhsil mərhələsi şagirdlərin ana dilini mənimsəməsində və nitq bacarıqlarının formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Bu dövrdə uşaqlar yalnız oxu və yazı vərdişləri qazanmaqla kifayətlənmir, həm də dilin quruluşunu, sözlərin funksiyalarını və onların cümlə daxilində istifadəsini öyrənirlər. Şagirdlərin düzgün və səlis nitqə yiyələnməsi üçün dilin qrammatik quruluşunun sistemli şəkildə mənimsənilməsi vacibdir. Bu baxımdan morfologiyanın öyrədilməsi və orfoqrafik qaydaların tətbiqi ibtidai siniflərdə ana dili tədrisinin əsas istiqamətlərindən biri hesab olunur.

Morfologiya dilin söz formalarını və onların dəyişmə qaydalarını öyrənən dilçilik sahəsidir. Bu sahə şagirdlərə sözlərin quruluşunu, kök və şəkilçi hissələrini, eləcə də müxtəlif qrammatik formaların yaranma mexanizmini anlamağa kömək edir. Morfoloji biliklərin mənimsənilməsi şagirdlərin sözlərin düzgün yazılışını dərk etməsində və yazılı nitqin formalaşmasında mühüm rol oynayır. Bu səbəbdən ibtidai siniflərdə morfoloji mövzuların tədrisi orfoqrafik qaydaların öyrədilməsi ilə paralel şəkildə həyata keçirilməlidir.

Demək ki, ibtidai siniflərdə orfoqrafiyanın morfologiya ilə əlaqələndirilməsi, Azərbaycan dilinin ibtidai siniflərdə öyrədilən bölmələrin hər biri üzrə keçirilmiş bilik və bacarıqların yada salınması və yeni biliklərin verilməsi prosesində şüurlu mənimsəmənin təmin edilməsi məqsədini daşıyır [4, s. 43].

Bu məqsədlə 8 saylı orta məktəbdə IV siniflərdə "Sözün tərkibi" mövzusunun öyrənilməsi ilə bağlı müşahidə apardıq. "Sözün tərkibi" yalnız ayrıca bir mövzu kimi öyrədilmir, həm də sonrakı mərhələdə müxtəlif nitq hissələrinin tədrisi zamanı daha geniş şəkildə tətbiq olunur. Müəllim bu mövzunu izah edərkən şagirdlərə sözün əsas hissələri – kök və şəkilçi, eləcə də şəkilçilərin müxtəlif növləri barədə ətraflı məlumat verir. Bununla yanaşı, sözlərin quruluş baxımından təhlili üzərində işləyərək şagirdlərdə sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirmək bacarığını da formalaşdırır.

Dərsin gedişi onu göstərir ki, sözlərin kök və şəkilçilərə ayrılması ilə bağlı aparılan morfoloji və orfoqrafik çalışmalar şagirdlərin həm söz quruluşunu daha yaxşı anlamasına, həm də şəkilçilərin xüsusiyyətlərini öyrənməsinə kömək edir. Belə çalışmalar vasitəsilə şagirdlər sözün əsas hissəsini – kökü müəyyənləşdirməyi və ona əlavə olunan şəkilçilərin funksiyasını başa düşməyi öyrənirlər. Bu isə nitq hissələrinin və şəkilçilərin mahiyyətinin daha aydın mənimsənilməsinə şərait yaradır.

Dilçi alim Səlim Cəfərov Azərbaycan dilində şəkilçi sisteminin çox zəngin və müxtəlif xüsusiyyətlərə malik olduğunu qeyd etmişdir. Onun fikrincə, şəkilçilər dilimizdə mühüm rol oynayır: bir tərəfdən yeni sözlərin yaranmasına imkan yaradır, digər tərəfdən isə dilin qrammatik quruluşunda qayda və qanunların ifadə olunmasına xidmət edən formal göstəricilər kimi çıxış edir. Bu səbəbdən şəkilçilərin öyrədilməsi dilin strukturunu dərk etmək baxımından böyük əhəmiyyət daşıyır [5, s. 86].

Müəllim söz yaradıcılığının leksik, morfoloji və sintaktik üsullarla baş verdiyini izah edərkən seçdiyi nümunələrə xüsusi diqqət yetirir. Bu nümunələr həm şagirdlərin söz ehtiyatını artırır, həm də onlarda düzgün yazı və orfoqrafiya bacarıqlarının formalaşmasına kömək edir.

Sözlərin morfoloji quruluşunun öyrədilməsi eyni zamanda şagirdlərin yazı bacarıqlarının inkişafına müsbət təsir göstərir. Şagird sözün hansı hissələrdən ibarət olduğunu başa düşdükdə, onun düzgün yazılışını yadda saxlamaq daha asan olur. Bu səbəbdən müəllimlər dərs prosesində morfoloji təhlildən geniş istifadə edirlər ki, bu da mövzunun daha asan dərk edilməsinə imkan vermiş olur. Onu da qeyd edək ki, morfoloji təhlil yalnız sözlərin quruluşunu göstərməklə kifayətlənmir, həm də şagirdlərin məntiqi düşünməsini

və dil materialını analiz etmə bacarığını inkişaf etdirir.

Nitq hissələrinin tədrisi zamanı aparılan orfoqrafik çalışmalar şagirdlərin morfologiya sahəsində qazandıqları biliklərin möhkəmlənməsinə kömək edir və eyni zamanda onların düzgün yazı bacarıqlarını inkişaf etdirir. Bu tip çalışmalar üzərində işləyən şagirdlər öyrəndikləri nəzəri bilikləri praktikada tətbiq etmək imkanı əldə edirlər. Onlar sözlərin quruluşunu və morfoloji xüsusiyyətlərini araşdırmaqla yanaşı, həmin sözlərin düzgün yazılış qaydalarını da mənimsəyirlər.

Xüsusilə ismin tədrisi zamanı müxtəlif qrammatik mövzuların orfoqrafiya ilə əlaqəli şəkildə izah edilməsi də diqqətdə saxlanılır. Məsələn, xüsusi və ümumi isimlərin fərqləndirilməsi, mürəkkəb isimlərin və mürəkkəb xüsusi isimlərin yazılışı, ismin hallanması kimi mövzular praktiki nümunələrlə izah olunur. Bundan əlavə, bəzi sözlərdə baş verən səs dəyişmələri – məsələn, ***q*** samitinin ***ğ***-ya, ***k*** samitinin isə ***y***-ya çevrilməsi kimi halları da yazı qaydaları ilə birlikdə öyrədilir ki, bu da şagirdlərin həm qrammatik biliklərini, həm də orfoqrafik vərdişlərini daha da möhkəmləndirir.

Metodik ədəbiyyatda morfologiya ilə orfoqrafiyanın qarşılıqlı əlaqədə tədrisi məsələsi bir sıra tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu sahədə araşdırma aparan müəlliflərdən Ə.Əfəndizadə, M.Həsənov, H.Hüseynov öz əsərlərində xüsusilə şəkilçilərin yazılışı zamanı yaranan çətinliklərə diqqət yetirmişlər. Onlar qeyd etmişlər ki, bəzi şəkilçilərin düzgün yazılışı şagirdlər üçün müəyyən çətinliklər yarada bilər. Buna görə də tədqiqatçılar həmin problemlərin səbəblərini izah etmiş və bu çətinliklərin aradan qaldırılması üçün müxtəlif metodik yollar və tədris üsulları təklif etmişlər. Bu yanaşmalar şagirdlərin həm morfoloji biliklərini, həm də düzgün yazı vərdişlərini inkişaf etdirməyə xidmət edir.

İbtidai siniflərdə orfoqrafik bacarıqların formalaşdırılması üçün sistemli yazı məşqlərinin təşkilidə böyük əhəmiyyət kəsb edir. Yazı məşqləri şagirdlərin öyrəndikləri dil qaydalarını praktik fəaliyyət zamanı tətbiq etməsinə şərait yaradır. Müəllim dərs zamanı müəyyən söz qrupları təqdim edir və şagirdlər həmin sözləri müxtəlif cümlələrdə işlədərək yazırlar. Məsələn, “kitab”, “uşaq”, “gözəl” kimi sözlərdən istifadə etməklə sadə cümlələr qurulur. Bu cür tapşırıqlar şagirdlərin sözlərin həm yazılışını, həm də qrammatik funksiyasını yadda saxlamasına kömək edir.

Yazı məşqləri şagirdlərin diqqətini və məsuliyyət hissini də inkişaf etdirir. Şagird yazı zamanı hər bir sözün düzgün yazılışına diqqət yetirməyə çalışır və bu proses tədricən onun orfoqrafik vərdişlərinin möhkəmlənməsinə səbəb olur. Müntəzəm yazı fəaliyyəti nəticəsində şagirdlər yazılı nitqdə daha az səhv edir və fikirlərini daha aydın ifadə etməyi bacarırlar.

Orfoqrafik vərdişlərin inkişaf etdirilməsində imlaların xüsusi rolu vardır [1]. İmla şagirdlərin yazı bacarıqlarını yoxlamaq və möhkəmləndirmək üçün ən effektiv metodlardan biri hesab olunur. Qısa və sadə imlalar vasitəsilə şagirdlər yeni öyrəndikləri söz və qaydaları praktik şəkildə tətbiq edirlər. Məsələn, müəllim şagirdlərə belə bir mətn diktə edə bilər: “Günəş parlaq idi. Mən bağa getdim. Uşaqlar parkda oynayırdılar.” Şagirdlər bu cümlələri yazarkən sözlərin düzgün yazılışına və durğu işarələrinə diqqət yetirirlər.

İmlalar üzrə işin düzgün təşkili şagirdlərin savadlılığını artırır. Onların müvafiq bilik və bacarıqlara yiyələnməsini sürətləndirir. azərbaycan dili dərslərində mütəmadi olaraq öyrədici imlalardan istifadə olunmalıdır. Yalnız bu halda şagirdlər öyrəndikləri orfoqrafik qaydaları dəfələrlə yadda saxlayır, vərdişə çevirirlər [3, s. 255].

İmladan sonra müəllim şagirdlərin yazılarını yoxlayır və buraxılmış səhvləri izah edir. Bu mərhələdə şagirdlər öz səhvlərini görür, onların səbəbini anlayır və düzgün variantı öyrənirlər. Beləliklə, imla fəaliyyəti həm nəzarət, həm də öyrədici xarakter daşıyır. Müntəzəm imla məşqləri şagirdlərin yazı bacarıqlarının formalaşmasına və orfoqrafik qaydaların möhkəmlənməsinə böyük təsir göstərir.

İbtidai siniflərdə dil tədrisinin daha maraqlı və səmərəli olması üçün oyun üsullarından və interaktiv fəaliyyətlərdən geniş istifadə olunur. Oyunlar şagirdlərin dərsə marağını artırır və onların fəal iştirakını təmin edir. Bu üsullar vasitəsilə şagirdlər dil materialını daha asan və maraqlı şəkildə mənimsəyirlər.

Məsələn, “Söz düzəltmə” oyunu şagirdlərin həm düşünmə bacarıqlarını, həm də söz ehtiyatını inkişaf etdirir. Müəllim şagirdlərə müəyyən hərflər təqdim edir və həmin hərflərdən söz

düzəltməyi tapşırır. Məsələn, "**a**, **k**, **t**, **i**, **b**" hərflərindən "kitab" sözünü düzəltmək mümkündür. Bu fəaliyyət şagirdlərin diqqətini və yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Digər oyun növü isə düzgün və səhv yazılmış sözlərin seçilməsi ilə bağlıdır. Məsələn, müəllim lövhədə iki variant təqdim edir: "gözəl" və "gözel". Şagirdlər düzgün yazılışı seçir və bunun səbəbini izah etməyə çalışırlar. Bu tip fəaliyyətlər şagirdlərin orfoqrafik biliklərini möhkəmləndirir və onların yazılı nitqdə səhv etmə ehtimalını azaldır.

Şagirdlərin dil bacarıqlarının inkişafında şifahi fəaliyyətlər də mühüm rol oynayır. Şifahi tapşırıqlar şagirdlərin söz ehtiyatını genişləndirir və onların fikirlərini sərbəst ifadə etməsinə şərait yaradır. Dərs prosesində şagirdlər müxtəlif dialoqlar qurur, sual-cavab məşqlərində iştirak edir və öyrəndikləri sözləri şifahi nitqdə tətbiq edirlər.

Məsələn, şagirdlər arasında belə bir dialoq qurula bilər:

- Salam! Sən hara gedirsən?
- Mən məktəbə gedirəm. Bəs sən?
- Mən bağa gedirəm.

Bu cür sadə dialoqlar şagirdlərin düzgün tələffüz bacarıqlarını inkişaf etdirir və onların ünsiyyət vərdişlərini möhkəmləndirir.

Müasir təhsil prosesində informasiya və kommunikasiya texnologiyalarından istifadə də mühüm əhəmiyyət daşıyır. Planşet proqramları, audio materiallar və müxtəlif multimedia vasitələri şagirdlərin dil öyrənmə prosesini daha maraqlı və effektiv edir. Bu texnologiyalar vasitəsilə şagirdlər sözlərin düzgün tələffüzünü eşidir, yazılışını görür və interaktiv tapşırıqları yerinə yetirirlər.

Morfoloji qaydaların öyrədilməsi prosesində müəllimin fərdi yanaşması da vacib amillərdən biridir. Hər bir şagirdin dil bacarığı və öyrənmə sürəti fərqli olduğu üçün müəllim tapşırıqları şagirdlərin imkanlarına uyğun şəkildə təşkil etməlidir. Bəzi şagirdlər üçün sadə söz və cümlələr kifayət etdiyi halda, digər şagirdlərə daha mürəkkəb cümlələr və müxtəlif qrammatik formalar təqdim edilə bilər. Bu yanaşma şagirdlərin mərhələli şəkildə inkişaf etməsinə imkan yaradır.

Dərs prosesində seçilən çalışmaların da rolu qeyd edilməlidir. Morfoloji qaydaların öyrənilməsinə, möhkəmləndirilməsinə və öyrənilənlərin tətbiqinə xidmət edən çalışmalar sisteminin tərtibi və bu çalışmaların rəngarəng növlərindən istifadə morfologiya təliminin müvəffəqiyyətlə həyata keçirilməsinə imkan verir [2, s. 144].

Deməк ki, ibtidai siniflərdə morfologiyanın tədrisində hər bir mövzunun orfoqrafiya və orfoepiya ilə əlaqələndirilməsi qayğısına qalmalıdır. Çünki bu mövzuların xüsusiyyətlərinin öyrədilməsi onların tələffüz və yazılışı ilə sıx əlaqədardır [6, s. 187].

Morfoloji və orfoqrafik biliklərin qarşılıqlı əlaqədə öyrədilməsi şagirdlərin dil bacarıqlarının kompleks şəkildə inkişafına səbəb olur. Bu proses nəticəsində şagirdlər sözlərin quruluşunu anlayır, onların düzgün yazılışını mənimsəyir və cümlələri qrammatik baxımdan düzgün qurmağı öyrənirlər. Belə yanaşma şagirdlərin dil mədəniyyətinin formalaşmasına və nitqinin zənginləşməsinə müsbət təsir göstərir.

**Nəticə.** İbtidai siniflərdə morfoloji qaydaların tədrisi ilə orfoqrafik vərdişlərin birlikdə öyrədilməsi şagirdlərin dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Morfoloji biliklərin sistemli mənimsənilməsi şagirdlərin sözlərin quruluşunu və şəkilçilərin funksiyasını anlamasına, müxtəlif qrammatik formaları düzgün tətbiq etməsinə imkan yaradır. Bu biliklər yazılı və şifahi nitqin düzgünlüyünü təmin edir və şagirdlərin fikirlərini aydın ifadə etməsinə şərait yaradır.

Sistemli yazı məşqləri, imlalar, morfoloji təhlillər və oyun üsulları şagirdlərin diqqətini artırır və yazı bacarıqlarını möhkəmləndirir. Şifahi tapşırıqlar və dialoqlar isə düzgün tələffüz və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Müasir texnologiyaların tətbiqi tədrisi daha interaktiv edir və şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmasına imkan yaradır.

Beləliklə, morfoloji və orfoqrafik qaydaların birlikdə öyrədilməsi şagirdlərin dil mədəniyyətini zənginləşdirir, nitqini formalaşdırır və yazılı ifadə bacarığını gücləndirir. Bu yanaşma məktəb dövründə uğurlu dil bacarıqlarının təməlini qoyur və şagirdlərin gələcək təhsilində müsbət nəticələr əldə etməsinə zəmin yaradır.

**Ədəbiyyat**

1. Abbasov, A. Məmmədov, N. İmla mətnləri və işgüzar sənədlər / A.Abbasov, N.Məmmədov. – Bakı: Müəllim, – 2003. – 130 s.

2. Cəfərova, F. Morfoloji qaydaların tədrisinin didaktik əsasları // April Battles.: The road leadinq Azerbaijan to victory. Türkiyə, 26 aprel 2025. – s.136-147
3. Cəfərova, N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası / N.Cəfərova. – Bakı: Mütərcim, – 2019. – 412 s.
4. Cəfərova, N. Orfoqrafiya və orfoepiya tədrisinin metodik əsasları / N.Cəfərova. – Bakı: ADPU, – 2021. – 245 s.
5. Cəfərov, S.Ə. Müasir Azərbaycan dili. II hissə / S.Ə.Cəfərov. – Bakı: Maarif, – 1982. – 214 s.
6. Süleymanzadə, S. İbtidai siniflərdə orfoqrafiya və orfoepiyanın əlaqəli tədrisi yolları // Bakı Qızlar Universiteti. Elmi əsərlər, № 4. – 2020. – s.186-188

*Məqalə filologiya üzrə elmlər doktoru, dosent Nuray Əliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 20.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.83-86*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.83-86*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.83-86*

**UOT: 373.5:53.08:004.38**

# Müasir fizika mövzularının (kvant texnologiyaları) məktəb proqramına inteqrasiyası

**Müəllif(lər):**
**Aygün Sultanova**
Naxçıvan Müəllimlər İnstitutu
Fizika üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** aygunsultanova60@gmail.com
https://orcid.org/0009-0006-7406-6055
**Kəmalə Əzizova**
Elm və Təhsil Nazirliyi Fizika İnstitutu, Azərbaycan Universiteti
Dissertant, elmi işçi
**E-poçt:** kama-azizova2025@rambler.ru
https://orcid.org/0009-0006-7406-6055
**Açar sözlər:** kvant texnologiyaları, innovasiya, peşəkar etika, inteqrasiya

**Annotasiya.** Təqdimatda inkişaf edən təhsil ehtiyacları və texnologiyaları kontekstində müəllim hazırlığının və peşəkar inkişafının əhəmiyyəti müzakirə olunur. Burada müəllimlərin müxtəlif təlim formatları vasitəsilə tədris keyfiyyətini və şagird nailiyyətlərini artırmaq üçün bacarıqlarını təkmilləşdirmələrinin zəruriliyi vurğulanır. Müəllimlərin inzibati tələblər səbəbindən üzləşdikləri çətinliklər vurğulanır və davamlı peşəkar inkişafa tərəfdar çıxır. Müasir pedevtologiya XX əsrdən bəri ayrıca bir pedaqoji fənn kimi inkişaf edir və son otuz ildə dinamik inkişaf yaşayır. Bu, digər sosial-mədəni dəyişikliklərlə bağlı müəllimlik peşəsinə qoyulan yeni tələblərlə bağlıdır. Tədrisin peşəkarlaşdırılması əsas trendə çevrilir. O, müasir nəzəriyyə və tədqiqat nəticələrinə, peşəkar dəyərlərə, aydın şəkildə formalaşmış peşəkar etika və nəhayət, müəllimlərin yüksək peşəkar müstəqilliyinə əsaslanan peşəkar biliklərə vurğu ilə xarakterizə olunur. Müəllimin "yeni" peşəkarlığı peşəkar səriştə konstruksiyasına əsaslanır; onun əsasını peşəkar inkişafın şərti hesab edilən refleksasiya və özünü refleksasiya bacarığı təşkil edir.

Bu məqalədə kvant hesablamasının müstəqil bir fənn kimi deyil, mövcud STEM tədris planlarına daxil edilmiş bir-biri ilə əlaqəli anlayışlar toplusu kimi orta məktəb təhsilinə necə mənalı şəkildə inteqrasiya oluna biləcəyi araşdırılmışdır. Fizika elmləri modullarının bir çox milli tədris planlarında necə fərqləndiyini müzakirə edirik və kvant anlayışlarının tətbiq oluna biləcəyi təbii giriş nöqtələrini müəyyən edirik. Həmçinin layihə əsaslı təlimin, açıq mənbəli resursların və şagirdlərin rəhbərlik etdiyi təşəbbüslərin kvant təhsilinə çıxışı genişləndirmək üçün necə güclü vasitələr ola biləcəyini vurğuladıq.

## Integration of modern physics topics (quantum technologies) to the school program

**Author(s):**
**Aygun Sultanova**
Nakhcivan Teachers Institute
Doctor of Philosophy in Physics, Associate Professor
**E-mail:** aygunsultanova60@gmail.com
https://orcid.org/0009-0006-7406-6055
**Kamala Azizova**
Institute of Physics, Ministry of Science and Education, Azerbaijan University
Dissertation candidate, scientificWorker
**E-mail:** kama-azizova2025@rambler.ru
https://orcid.org/0009-0006-7406-6055
**Key words:** quantum technologies, innovation, professional ethics, integration

**Abstract.** In the presentation the importance of teacher training and professional development in the context of evolving educational needs and technologies are discussed. It emphasizes the need for teachers to improve their skills to improve the quality of teaching and student achievement through various training formats. Difficulties teachers face due to administrative requirements are noted and it supports continuous professional development. Modern pedevtology has been developing as a separate pedagogical subject since the XX century and has experienced dynamic development in the last thirty years. This is connected with new requirements ordered for teaching profession being connected with other social-cultural changes.The professionalization of teaching is becoming a major trend. It is characterized by an emphasis on professional knowledge based on modern theory and research results, professional values, clearly formed professional ethics and, finally, a high level professional independence of teachers. The "new" professionalism of a teacher is based on the professional competence construct, its basis consists of the ability to reflect and self-reflect, which is considered a prerequisite for professional development.

This article explores how quantum computing can be meaningfully integrated into secondary school education, not as a stand-alone subject, but as a set of interconnected concepts embedded in existing STEM curricula. We discuss how physical science modules differ across many national curricula and identify natural entry points where quantum concepts can be introduced. We also highlight how project-based learning, open-source resources and student-led initiatives can be powerful tools for expanding access to quantum education.

## Интеграция тем современной физики (квантовых технологий) в школьную программу

**Автор(ы):**
**Айгюн Султанова**
Нахчыванский институт учителей
Доктор философии по физике, доцент
**Э-почта:** aygunsultanova60@gmail.com
https://orcid.org/0009-0006-7406-6055
**Камала Азизова**
Институт физики, Министерство науки и образования, Азербайджанский университет,
Аспирант, научный сотрудник
**Э-почта:** kama-azizova2025@rambler.ru
https://orcid.org/0009-0006-7406-6055
**Ключевые слова:** квантовые технологии, инновации, профессиональная этика, интеграция

**Аннотация.** В презентации обсуждается важность подготовки учителей и повышения их квалификации в контексте меняющихся образовательных потребностей и технологий. Подчеркивается необходимость повышения квалификации учителей для улучшения качества преподавания и успеваемости учащихся посредством различных форматов обучения. В документе освещаются проблемы, с которыми сталкиваются учителя из-за административных требований, и содержится призыв к непрерывному профессиональному развитию. Современная педевтология развивается как отдельная педагогическая дисциплина с XX века и за последние тридцать лет пережила динамичное развитие. Это связано, в частности, с новыми требованиями, предъявляемыми к профессии учителя в связи с социально-культурными изменениями. Профессионализация преподавания становится важной тенденцией. Она характеризуется акцентом на профессиональные знания, основанные на современной теории и результатах исследований, профессиональных ценностях, четко сформированной профессиональной этике и, наконец, высоком уровне профессиональной независимости учителей. «Новый» профессионализм учителя основан на концепции профессиональной компетентности; его основой является способность к рефлексии и саморефлексии, которая считается необходимым условием профессионального развития.

В этой статье рассматривается вопрос о том, как квантовые вычисления могут быть эффективно интегрированы в среднее образование не как отдельный предмет, а как набор взаимосвязанных концепций, заложенных в существующих учебных программах STEM. Мы обсуждаем, как модули по физическим наукам различаются в различных национальных учебных программах, и определяем естественные точки входа, где можно ввести квантовые концепции. Мы также подчеркиваем, как проектное обучение, ресурсы с открытым исходным кодом и инициативы, возглавляемые учащимися, могут стать мощными инструментами для расширения доступа к квантовому образованию.

**Giriş.** Təhsil sahəsində karyeraya başlamaq həm həyəcanverici, həm də çətin ola bilər. Yeni müəllimlər üçün təlim və peşəkar inkişaf, sinifdəki çətinliklərlə üzləşmək üçün hazır olmalarını təmin etməkdə və eyni zamanda peşədə davamlı olaraq inkişaf etməkdə mühüm rol oynayır. Məqalə, yeni müəllimlərin uzunmüddətli uğuru üçün təməl qoymaq məqsədilə müəllim hazırlığı və peşəkar inkişaf prosesində necə hərəkət edə biləcəklərinə dair məlumat verir.

Müəllim hazırlığı nəzəri təhsil bilikləri və sinifdə praktiki tətbiqi təmin edir. Bu, dərs planlaşdırması, sinif idarəçiliyi, müxtəlif tələbələr üçün fərqləndirmə və texnologiyadan səmərəli istifadə kimi sahələri əhatə edə bilər. Yeni müəllim kimi, təlimdə tam iştirak etmək, öyrəndiyiniz metod və strategiyaların sizi real həyatdakı sinif senarilərinə hazırlayacağını anlamaq vacibdir.

Yeni müəllim kimi peşəkar inkişafda irəliləmək bacarıqlarınızı təkmilləşdirməyə, ən yaxşı təcrübələrdən xəbərdar olmağa və bir müəllim kimi inkişaf etməyə kömək edən faydalı bir təcrübə ola bilər. Təlim imkanlarından dərindən istifadə etməklə, davamlı inkişaf axtarmaqla, başqaları ilə əməkdaşlıq etməklə və tarazlığı qorumaqla uğurlu müəllimlik karyerası üçün güclü bir təməl qura bilərsiniz.

Fizika, şagirdlərin elmi savadlılıq üçün vacib olan mürəkkəb biliklərə, bacarıqlara və düşüncə proseslərinə yiyələnməli olduqları fənlərdən biridir. Bunun reallaşması üçün müəllimlər şagirdləri uyğun fizika öyrənmə mühitləri yaratmaq və özlərini bacarıqlı hiss etməlidirlər.

Müəllimlərin təcrübələrində mükəmməlliyi qorumaq üçün bilik və bacarıqlarını peşəkar inkişaf (Pİ) vasitəsilə daim inkişaf etdirməli olduqları danılmazdır. Lakin müəllim nadir hallarda gözləntiləri doğrulda və ya müəllimlərin axtardığı bilik və bacarıqları təmin edə bilər. Buna cavab olaraq, peşəkar inkişafdan peşəkar təlim və inkişafa keçid çağırışı irəli sürülmüşdür ki, bu da müəllim və şagirdlərin davamlı iştirakını, öyrənməsini və rifahını təşviq edə bilər. Bu proses müəllimlərin təcrübələrini araşdırır və tədrisdəki dəyişikliklərin şagirdlərin nəticələrinə necə təsir etdiyinə dair dəlillər üzərində düşünməklə öz peşəkar təlimlərini idarə etməyə imkan verir [1].

**Material və metodlar.** Son illərdə rəqəmsal texnologiyaların artan istifadəsi və yeni tədris metodlarının tətbiqi səbəbindən riyaziyyat və fizikanın tədrisi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Müəllimlər hazırda dərslərini fərdiləşdirmək, texnoloji vasitələrdən səmərəli istifadə etmək və təhsil resurslarına çıxışdakı bərabərsizlikləri aradan qaldırmaq kimi çətinliklərlə üzləşirlər. İnteraktiv platformalar və onlayn təlim vasitələri kimi texnologiyalar təhsil üçün yeni imkanlar yaratsa da, müəllimlərin bacarıqlarını müasir səviyyədə saxlamaq üçün davamlı peşəkar inkişaf tələb edir.

Əsas diqqət sahələrindən biri hesablama təfəkkürüdür ki, bu da problem həllinin riyaziyyat və fizika da daxil olmaqla fənlərin tədrisinin necə aparıldığını formalaşdıran bir yanaşmadır [2]. Hesablama təfəkkürü şagirdlərə daha güclü analitik və məntiqi bacarıqlar inkişaf etdirməyə kömək etməklə yanaşı, riyazi və elmi anlayışları daha dərindən dərk etməyə kömək edir. Bu yanaşmanın müəllim hazırlığı proqramlarına necə daxil edilə biləcəyini araşdırmaq vacibdir ki, müəllimlər şagirdlərə fənlər üzrə daha geniş bacarıqlar inkişaf etdirməyə kömək edə bilsinlər.

Fizika müəllimlərinin peşəkar inkişafını dəstəkləməyin innovativ yolları araşdırılacaq, daha inklüziv və effektiv tədrisin yaradılmasında rəqəmsal texnologiyaların, hesablama düşüncəsinin və refleksiv təcrübələrin roluna diqqət yetiriləcək.

Kvant texnologiyaları cəmiyyətə və işçi qüvvəsinə getdikcə daha çox təsir göstərdikcə, kvant fizikası (KF) təhsilini orta təhsil də daxil olmaqla, tədris planının bütün səviyyələrinə inteqrasiya etmək ehtiyacı artır. Nəticələr, kvant müdaxiləsi, superpozisiya və kvant ölçməsi kimi təməl KF mövzularının riyazi səviyyədə deyil, konseptual səviyyədə tədris olunmasına güclü ekspert dəstəyini göstərir. Bu nəticələr mövcud milli tədris planları ilə uyğundur və KF təhsili ilə bağlı mövcud perspektivlər barədə dəyərli məlumatlar verir, orta təhsildə əsas kvant fizikası konsepsiyalarının əhəmiyyətini gücləndirir. Bu məlumatlar kvant təhsilinin gələcək istiqaməti ilə bağlı daha çox tədqiqat üçün zəmin yaradır və kvant texnologiyalarının orta məktəb tədris planlarına inteqrasiyasını dəstəkləyir [3].

Kvant hesablamaları elm və sənayedə artan təsirləri ilə inkişaf edən bir sahədir və erkən təhsilə çıxışı getdikcə daha vacib edir. Bu məqalədə

riyaziyyat, kompüter elmləri və fizika üzrə təməl təlimi artırmaq üçün mövcud strukturlar daxilində kvant hesablama konsepsiyalarının orta məktəb STEM tədris planlarına necə daxil edilə biləcəyi araşdırılır. Qlobal əlçatanlığı təmin etmək üçün açıq mənbəli təhsil resurslarından istifadə edərək, əsas kvant ideyalarını standart kurslara daxil edən modul inteqrasiya strategiyası təsvir edilmişdir. Təhsil imkanı bərabərliyinə vurğu edilir: yanaşma inklüziv olmaq və mövcud tədris planındakı boşluqları aradan qaldırmaq üçün hazırlanmışdır ki, dünya üzrə şagirdlər əsas kvant savadlılığını inkişaf etdirə bilsinlər [4]. Təhlilimiz göstərir ki, kvant mövzularının orta səviyyədə inteqrasiyası mümkündür və STEM təlimini zənginləşdirə bilər.

Kvant hesablamaları elmi və texnoloji inkişaf üçün perspektivli bir sahə kimi getdikcə daha çox diqqəti cəlb edir. Praktik tətbiqləri hələ də ortaya çıxsa da, hökumətlər, sənaye sahələri və akademik qurumlar gələcək kvant hazır işçi qüv vəsinin təməlinin qurulmasına investisiya qoymağa başlayırlar. Lakin , bu artan marağa baxmayaraq, kvant hesablamaları hələ də orta məktəb tədris planlarında böyük ölçüdə yoxdur və bu da yeni nəsil tədqiqatçıların hazırlanması səylərinə mane olur.

Təməl ideyalarla erkən tanışlıq elm təhsilində daha geniş məqsədlərə dəstək ola bilər. Bunlara elmi savadlılığın təşviqi daxildir, elmlə bağlı məsələlərdə tənqidi düşüncə və məlumatlı qərar qəbuletməni təşviq etmək və müasir tədqiqatlarla əlaqəni təşviq etmək. Bu şəkildə, erkən kvant təhsili orta STEM tədris proqramlarının mövcud məqsədləri ilə uyğunlaşır və standart təlim nəticələrini tamamlayır.

Kvant hesablama konsepsiyaları ilə təbii şəkildə əlaqəli olan standart tədris planlarında artıq mövcud olan əsas mövzuları müəyyən edirik və yeni məzmunun təqdim edilə biləcəyi nəzərə çarpan boşluqları vurğulayırıq [5]. Müstəqil kvant hesablama kursu təklif etmək əvəzinə, modulyar bir yanaşma təklif edirik: kvant anlayışları tələbələrin artıq öyrəndiyi fənlərə daxil edilir, praktik layihələrdən və tədqiqat icması tərəfindən hazırlanmış sərbəst şəkildə əldə edilə bilən materiallardan istifadə olunur.

Bu tədqiqat mövcud orta məktəb tədris proqramlarını araşdırmaq və kvant hesablama konsepsiyalarının mənalı şəkildə tətbiq oluna biləcəyi fənn sahələrini və layihə əsaslı imkanları müəyyən etmək məqsədi daşıyır. Tədris proqramlarının artıq doymuş olduğunu qəbul edərək və kvant hesablamasının yüksək ixtisaslaşmış bir mövzu olaraq qaldığını nəzərə alaraq, biz onu müstəqil bir mövzu kimi təklif etmirik. Bunun əvəzinə, məqsədimiz kvant prinsipləri ilə təbii olaraq uyğunlaşan müxtəlif ölkələrdə əsas mövzuları və mövcud layihə formatlarını müəyyən etməkdir. Biz bu sahələrin kvant hesablamaları üçün niyə aktual olduğunu vurğulayırıq və həll edildiyi təqdirdə inteqrasiyanı daha təsirli və mümkün edə biləcək bəzi boşluqları müəyyən edirik.

Fizika tədris planları əsasən XVII və XVIII əsrlərdə inkişaf etmiş konsepsiyalara yönəlmiş, müasir fizika mövzuları isə minimal dərəcədə daxil edilmişdir [6]. Bununla belə, mövcud fizika tədris planlarında artıq mövcud olan bir neçə sahə mənalı inteqrasiya üçün perspektivli giriş nöqtələri təmin edir:

Kvant Mexanikasının Əsasları: superpozisiya və dolaşıqlıq kimi əsas prinsipləri təqdim edir. Bu anlayışlar tələbələrə kvant sistemlərinin əvvəllər həll olunmayan hesab edilən problemləri həll edə biləcək yeni hesablama formalarını necə təmin etdiyini anlamağa kömək edir.

Materialşünaslıq: kvant cihazlarının fiziki olaraq necə qurulduğunu anlamaq üçün əsas təmin edir. Xüsusi materiallardan tutmuş kvant qarşılıqlı təsirlərinin idarəetmə parametrlərinə qədər bu bilik tələbələrə texnologiyaların arxasındakı aparat məhdudiyyətlərini anlamağa kömək edir.

Termodinamika: kvant kompüterlərinin tələb etdiyi ətraf mühit şəraitini anlamaq üçün vacibdir. Sabit temperatur və aşağı elektromaqnit səs-küyü uyğunluğu qorumaq və etibarlı sistem davranışını təmin etmək üçün vacibdir.

2000-ci illərin əvvəllərindən etibarən Portuqaliya, İspaniya, Fransa, İtaliya, Birləşmiş Krallıq, Danimarka, İsveç, Finlandiya, Avstraliya və Kanada kimi ölkələr kvant anlayışlarını tədricən orta məktəb fizika proqramlarına müxtəlif dərəcədə daxil etməyə başlayıblar [7].

**Nəticə.** Kvant texnologiyalarına hazır işçi qüvvəsinin inkişafına qlobal marağın artmasına baxmayaraq, kvant təhsilinə çıxış, xüsusən də resursları az olan bölgələrdəki tələbələr üçün qeyri-bərabər olaraq qalır. Bu fərq, tələbələrin yalnız

dar bir hissəsinin bu inkişaf etməkdə olan sahənin inkişafında iştirak etməyə və ya onlardan faydalanmağa hazır olduğu "kvant uçurumu" yaratmaq riskini yaradır. Biz iddia etdik ki, əlçatan və etibarlı kvant açıq mənbəli resurslar bu problemi həll etməyə kömək edə bilər [7].

Həmçinin, orta məktəb şagirdlərinin, xüsusən də praktik fəaliyyətlərə, vizual vasitələrə və mənalı mentorluğa çıxış əldə edildikdə, mürəkkəb kvant mövzuları ilə məşğul ola biləcəklərini göstərdik. Tələbə layihələri, yay məktəbləri, oyunlar və kodlaşdırma təcrübələri ənənəvi sinifdən kənarda anlayışı dərinləşdirmək üçün tamamlayıcı yollar təklif edir. Təhsil işçilərinə göstərilən dəstək də eyni dərəcədə vacibdir. Kvant elmində rəsmi təlimi olmayan müəllimləri gücləndirmək üçün müəllim hazırlığı, peşəkar inkişaf proqramları və seçilmiş tədris materialları vacibdir. Kvant hesablamasını tədricən standart orta məktəb mövzularına inteqrasiya edən modul yanaşmanın necə faydalı ola biləcəyini müzakirə etdik.

Gələcəyə baxdıqda, qlobal miqyasda inklüziv kvant təhsili ekosisteminin qurulması siyasətçilər, tədqiqatçılar, müəllimlər və açıq mənbəli icma arasında əlaqələndirilmiş səylər tələb edəcək. Kvant təhsilinin bir neçə nəfərin imtiyazı olaraq qalmamasını təmin etmək üçün lokal və çoxdilli materiallara və bərabərliyə yönəlmiş tədris planına investisiya qoyuluşu əsas rol oynayacaq [8].

Nəticə etibarilə, gələcək nəsli kvant texnologiyaları ilə inamla məşğul olmağa hazırlamaq, gələcəyin texnoloji çətinliklərini idarə edə və formalaşdıra bilən düşüncəli, elmi cəhətdən savadlı vətəndaşlar yetişdirməkdən ibarətdir. Təvazökar, lakin məqsədyönlü addımlarla orta məktəb təhsili daha ədalətli və davamlı kvant gələcəyi üçün təməl ola bilər.

**Ədəbiyyat**


1. Sjogren, C.A. və digərləri. Arqumentasiyanın təhlili vasitəsilə etik düşüncənin qlobal çağırışlarla əlaqələndirilməsi. – 2023.
2. Greinert, F. və digərləri. Kvant texnologiyası işçi qüvvəsinin inkişafı. – 2024.
3. Eshach, H. və M.N.Fried, M.N. Elm erkən uşaqlıqda öyrədilməlidirmi? – 2005.
4. Bakalavr, MYP-də fənlərarası tədris və öyrənmə. – 2021.
5. Meyer, J.C., Passante G. və Wilcox, B. ABŞ-da kvant informasiya təhsilinə çıxışdakı fərqlər. – 2024.
6. Preskill, J. NISQ-dən kənarda: Meqaquop Maşını. – 2025.
7. Tenjo-Patiño, L. və başqaları. Latın Amerikasında Kvant Hesablama Təhsili. – 2025.
8. Bondani, M. və digərləri. Orta məktəb səviyyəsində kvant texnologiyalarının tətbiqi. – 2022.
9. Kaur, M. və Venegas-Gomez, A. Kvant işçi qüvvəsi mənzərəsinin müəyyən edilməsi. – 2022.
10. Kelp, N.C. və digərləri. Tələbələrdə və cəmiyyətdə elm savadlılığının inkişaf etdirilməsi. – 2023


*Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2026, son daxilolma – 10.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.87-91*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.87-91*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.87-91*

**UOT: 372.882:37.091.33**

# Ədəbiyyat dərslərində icmal mövzularının tədrisində istifadə olunan interaktiv təlim metodları

**Müəllif(lər):**

**Təranə Qəbulova**
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
**E-poçt:** TaranaGabulova@nmi.edu.az

**Açar sözlər:** icmal, monoqrafik oçerk, interaktiv metodlar, ədəbiyyat tədrisi, sənətkar, ədəbi proses, təlim üsulları

**Annotasiya.** Ədəbiyyat tarixinin keçdiyi uzun inkişaf mərhələlərini əhatə edən icmal materialları zəngin məzmunu və geniş əhatə dairəsi ilə seçilir. Ədəbiyyat tədrisində icmal mövzularının öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Bu mövzular vasitəsilə müəyyən tarixi dövrün ədəbi-ictimai xüsusiyyətləri səciyyələndirilir, ədəbiyyatın inkişaf mərhələləri, ədəbi mühit, ədəbi cərəyanlar, yaradıcılıq metodları, milli mətbuat və ədəbiyyatşünaslıq məsələləri haqqında şagirdlərdə sistemli bilik formalaşdırılır.

Ümumtəhsil məktəblərində ədəbiyyat fənni əsasən X–XI siniflərdə xronoloji ardıcıllıq və ədəbi-tarixi prinsip əsasında sistemli şəkildə tədris olunur. Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri, klassik sənətkarların həyat və yaradıcılığı şagirdlərə monoqrafik oçerklər və icmal mövzuları vasitəsilə çatdırılır. Monoqrafik oçerklərdə əsas diqqət sənətkarın həyat və yaradıcılığının araşdırılmasına, həmçinin bir və ya bir neçə bədii əsərin təhlilinə yönəldilir. İcmal mövzularında isə müəyyən dövrün ümumi ədəbi mənzərəsi və ədəbi prosesin əsas istiqamətləri sistemli şəkildə təqdim olunur.

Məqalədə icmal mövzularının tədrisi zamanı tətbiq olunan müxtəlif metod və yanaşmalar geniş şəkildə şərh edilmiş, interaktiv təlim metodlarının tədris prosesindəki rolu təhlil olunmuşdur. Eyni zamanda müzakirə, beyin həmləsi, qrup işi, debat və təqdimat kimi interaktiv üsulların şagirdlərin fəallığının artırılmasına, analitik təfəkkürünün inkişafına və ədəbi biliklərin daha səmərəli mənimsənilməsinə müsbət təsiri əsaslandırılmışdır.

## Interactive teaching methods used in teaching survey topics at literature lessons

**Author(s):**

**Tarana Gabulova**
Nakhchivan Teachers Institute
Senior lecturer
**E-mail:** TaranaGabulova@nmi.edu.az

**Keywords:** survey topic, monographic essay, interactive methods, teaching of literature, craftsman, literary process, teaching methods

**Abstract.** Survey materials covering the long developmental stages of literary history are distinguished by their rich content and broad sphere. The teaching of survey topics plays an important role in literature teaching. Through these topics, the literary and social characteristics of a particular historical period are presented and students acquire systematic knowledge about the stages of literary development, literary environments, literary movements, creative methods, national press and issues of literary studies.

In secondary schools, literature as a subject is systematically taught mainly in the X–XI grades based on chronological sequence and literary-historical principle. The stages of development of Azerbaijani literature, as well as the life and creativity of classical writers are conveyed to students through monographic essays and survey topics. In monographic essays, the main focus is placed on studying the writer's life and works, as well as analyzing one or more literary texts. However survey topics present general literary panorama of a certain period and main directions of the literary process in a systematic way.

In the article various methods and approaches applied in teaching survey topics and the role of interactive teaching methods in the educational process were analysed. It also substantiates the positive impact of interactive methods such as discussions, brainstorming, group work, debates, and presentations on increasing student engagement, developing analytical thinking, and ensuring more effective acquisition of literary knowledge.

## Интерактивные методы обучения, используемые при преподавании обзорных тем на уроках литературы

**Автор(ы):**

**Тарана Габулова**
Нахчыванский институт учителей
Старший преподаватель
**Э-почта:** TaranaGabulova@nmi.edu.az

**Ключевые слова:** сравнение, историческое явление, критический анализ, синтез, Азербайджанская Демократическая Республика, Азербайджанская Республика, государство Сасанидов, Китай, движение хуррамитов, Тайпинское восстание

**Аннотация.** Обзорные материалы, охватывающие длительный путь развития истории литературы, отличаются богатством содержания и широтой охвата. Преподавание обзорных тем в процессе изучения литературы имеет важное значение. Посредством данных тем характеризуются литературно-общественные особенности определённого исторического периода, формируются системные знания об этапах развития литературы, литературной среде, литературных направлениях, творческих методах, национальной прессе и вопросах литературоведения.

В общеобразовательных школах предмет литературы системно преподаётся главным образом в X–XI классах на основе хронологической последовательности и литературно-исторического принципа. Этапы развития азербайджанской литературы, жизнь и творчество классиков литературы доводятся до учащихся посредством монографических очерков и обзорных тем. В монографических очерках основное внимание уделяется изучению жизни и творчества писателя, а также анализу одного или нескольких художественных произведений. В обзорных темах системно представляются общая литературная картина определённого периода и основные направления литературного процесса.

В статье подробно рассмотрены различные методы и подходы, применяемые при преподавании обзорных тем, а также проанализирована роль интерактивных методов обучения в образовательном процессе. Обосновано положительное влияние таких интерактивных методов, как дискуссия, мозговой штурм, групповая работа, дебаты и презентации, на повышение активности учащихся, развитие аналитического мышления и более эффективное усвоение литературных знаний.

Ədəbiyyat həyatı bədii lövhələrlə əks etdirən söz sənəti kimi şagirdlərin müstəqil həyata hazırlanmasında, həyati bacarıqlara yiyələnməsində mühüm rol oynayır. Bədii ədəbiyyatın həyat dərsliyi adlandırılması bu fənnin hər bir oxucu üçün özünü, həyatı, insanı dərk etməsi vasitəsi kimi əhəmiyyətini ifadə edir. Firudin bəy Köçərli yazırdı: "Hər bir millətin şöhrət və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən birisi də onun ədəbiyyatıdır. Ədəbiyyat xalqın aineyi-həqiqətnümasıdır ki, onun maddi və mənəvi tərəqqisini və istiqbalı üçün nicat və səadət yollarını eynilə göstərir. Ədəbiyyat millətin cisminə şəfa, ruhuna səfa, fikrinə cila, ağlına və təmami mənəvi və ruhani qüvvələrinə qol-qanad verib uca məqama qaldırır" [1, s.6].

Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problrmləri, həyatda, cəmiyyətdə baş verən dəyişiklikləri dərk edib qiymətləndirmələrin, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrinə imkan yaradır. Azərbaycan ədəbiyyatı əsrlərdir təlim-tərbiyə məktəbi funksiyasını yerinə yetirir. Gözünü dünyaya açan körpəni ananın oxşmaları, laylaları qarşılayır, dil açıb yeriməyə başlayanda sanamalar, düzgülər, tapmacalar, yaanıltmaclar, uşaq nağılları onun nitqini, təfəkkürünü inkişaf etdirir, həyat üçün zəruri olan ilkin bacarıqlar formalaşdırır. Şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişləri təkmilləşdirməklə, tarixi-xronoloji ardıcıllıqla Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr öyrədilir, ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar genişləndirilir, şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin olunur. Ümütəhsil məktəblərində ədəbiyyatın təlim fənni kimi məzmunun əsasını Azərbaycan ədəbiyyatının kamil nümunələrinin, eləcə də dünya ədəbiyyatından seçmələrin oxusu və öyrənilməsi təşkil edir. ədəbi əsərlərin qavranılması, təhlili tarixi və ədəbi-nəzəri biliklərə, bacarıqlara əsaslanmaqla həyata keçirilir.

Ümumtəhsil məktəblərinin V-XI siniflərində Ədəbiyyatn fənni sistemli şəkildə, yaş səviyyəsinə uyğun müəyyən ardıcıllıqla ədəbi-tarixi baxımdan öyrədilir. Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri, klassiklərin həyat və yaradıcılığı iki yolla: monoqrafik oçerklər və icmallar şəklində şagirdlərə çatdırılır. Əsasən yuxarı siniflərdə, X-XI siniflərdə mövzular bir-birini tamamlamaqla Azərbaycan ədəbiyyatı tarixininin inkişaf yolları, ədəbiyyatımızın ümumi mənzərəsi tam şəkildə əks etdirilir.

Bu formada tədris şagirdlərdə zəngin və çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişaf tarixi haqqında dolğun məlumata yiyələnir. Ədəbiyyat tarixmizin öyrənilməsi onu təsdiqləyir ki, XI-XX əsrlərdə yüzlərlə şair və yazıçılarımız yaşayıb-yaratmış, ədəbi məktəblərin əsasını qoymuş, zəngin bədii irs, qiymətli sənət əsərlərini yaradaraq gələcək nəsillərə yadigaq qoyaraq əbədiyyətə qovuşmuşlar. Sənətkarların həyat və yaradıcılığının monoqrafik formada öyrədilməsi vaxt baxımından çətin olsa da icmal mövzularının tədrisi zamanı onlar haqqında məlumatın verilməsi böyük təlim mahiyyəti daşıyır. Bu baxımdan ədəbiyyat fənninin tədrisində icmal mövzularının əhəmiyyəti böyükdür.

İcmal mövzuları müəyyən bir tarixi dövrün ədəbi-ictimai xüsusiyyətlərini səciyyələndirir, həmçinin ədəbiyyatın inkişaf mərhələlərini, ədəbi mühiti, ədəbiyyatşünaslıq məsələlərini, ədəbi cərəyanları, milli mətbuatı, yaradıcılıq metodlarını aydınlaşdırır. Sənətkarların yaradıcılıq ideyalarını əlaqələndirir, klassiklərin ədəbi fəaliyyəti arasında mənəvi körpü yaradır. Ədəbi məktəb yaradan Nizami Gəncəvi, Məhəmməd Füzuli, M.P.Vaqif kimi sənətkarların yaradıcılıq ənənələrini davam etdirən şairlərin həyatı və yaradıcılığı haqqında da şagirdlərin müəyyən biliklər qazanmasına imkan yaradır.

İcmal mövzularının öyrənilməsində bəzi çətinliklərlə qarşılaşırıq. Belə ki, icmal mövzularının tədrisi zamanı proqramda çox az vaxtın ayrılması, dərslikdəki ümumulədirmənin az olması informasiyanın, ədəbi-tarixi faktların zənginliyi baxımından müəllimlərin çətinliklərlə qarşılaşdığını görürük. Şagirdlərin sənətkarların dərslikdə adı çəkilən əsərlərini oxumaması onların həmin əsərləri qavramasında çətinlik yaradır. Şagirdlər icmal mövzuları haqqında məlumatı müəllimdən və dərslikdən almalıdır. Odur ki, müəllim icmal mövzularının öyrədilməsindəki çətinlikləri nəzərə alaraq, mövzuların tədrisinə özü ciddi hazırlaşmalı, az müddətdə hansı ədəbi-tarixi faktla-

rı, hansı yazıçıların əsərlərini şagirdlərə öyrədəcəyini müəyyənləşdirməlidir.

Fənn müəllimi icmal mövzularını müəyyən hissələrə ayırmalı, hər hissənin mətni üzərində iş aparmalı, icmal mövzularını aşağıdakı formada öyrənilməsinə nail olmalıdır:

1.Giriş icmallar;

2.Ədəbiyyatın inkişaf mərhələlərini işıqlandıran icmallar;

3. Konkret yazıçının yaradıcılığını əks etdirən icmallar.

Müəllim "XIX əsr Azərbaycan ədəbiyyatı" mövzusunu tədris etməmişdən əvvəl A.Bakıxanovun lirik şeirlərini, "Mişkatül-ənvar", "Miratül-Cəmal" məsnəvilərin, "Nəsihətlər"ini, İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsini, X.Natəvanın bəzi qəzəllərini sinifdənxaric oxu kimi mütaliə etdirməlidir. İcmal mövzularının tədrisi prosesində dövrün əsas tarixi və ictimai-siyasi hadisələrinin səciyyələndirilmədi, bu hadisələrin ədəbiyyatda necə əks olunmasını, dövrün ədəbi xülasəsini, görkəmli şair və yazıçıların yaradıcılığının öyrədilməsi məsələləri diqqət mərkəzində saxlanılmalıdır. Müəllim dərsin səmərərliliyini artırmaq məqsədilə əvvəlcədən öyrəniləcək mövzunun planını hazırlamalı, mövzunu plandakı ardıcıllıqla oxutmalı, az vaxt ərzində müxtəlif məlumatları şagirdlərə çatdırmağı bacarmalıdır. İnteraktiv təlim üsul və vasitələrdən məqsədyönlü şəkildə istifadə etməlidir.

X-XI siniflərdə ədəbiyyat dərsliklərinin "Giriş"lə başlaması ədəbiyyatşünaslığın öyrədilməsinin bünövrəsini qoymaq, ədəbi mövzuların öyrənilməsi üçün zəmin yaratmaq, məktəblilərə fənnin məqsəd və vəzifələri haqqında ilkin biliklər vermək məqsədi daşıyır. X sifin Ədəbiyyat dərsliyində Giriş mövzusu aşağıdakı məlumatları əks etdirir: Bədii ədəbiyyatın məqsəd və vəzifələri, şifahi və yazılı ədəbiyyatın fərqli növlərə bölünməsi, hər növün əsas özəllikləri. Ədəbiyyatın milliliyi və beynəlmiləlliyi, Azərbaycan ədəbiyyatının tərkib hissəsi olması, ədəbiyyatşünaslığın sahələri tədris olunur. XI sinif dərsliyindəki Giriş mövzusunda isə Azərbaycan ədəbiyyatının tarixən formlaşmış ideya-bədii inkişaf istiqamətlərindən, Azərbaycan ədəbiyyatı tarixinin orta, yeni və ən yeni dövrlərinin səciyyəvi xüsusiyyətlərindən danışılır. Giriş mövzusnun öyrənilməsi nəzəri, ədəbi və tarixi faktları sistemləşdirib əlaqəli şəkildə danışmağı tələb edir.

X sinfin Ədəbiyyat dərsliyində Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələri aşağıdakı dövrlərə bölünür:

| Dövrün adı | Əhatə etdiyi zaman | Mərhələləri | Mərhələnin adı |
|---|---|---|---|
| *QƏDİM DÖVR* | *ən qədim zamanlardan XIII əsrə qədər* | *XI – XII əsrlər* | *İNTİBAH DÖVRÜ* |
| *ORTA DÖVR* | *XIII – XVI* | ~ | *ANA DİLLİ ƏDƏBİYYATIN FORMALAŞMASI* |
| *YENİ DÖVR* | *XVII əsrdən XX əsrin 20-ci illərinə qədər* | *XVII - XVIII* | *XƏLQİLƏŞMƏ DÖVRÜ* |
| | | *XIX* | *MAARİFÇİLİK DÖVRÜ* |
| | | *1890-1920* | *TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ* |
| *ƏN YENİ DÖVR* | *XX əsrin 20-ci illərindən bu günümüzə qədər* | *1920-1960* | *SOSİALİZM DÖVRÜ* |
| | | *1960-1990* | *MİLLİ ÖZÜNÜDƏRKƏ QAYIDIŞ VƏ İSTİQLALÇILIQ DÖVRÜ* |
| | | *1990 – cı illərdən günümüzə qədər* | *MÜSTƏQİLLİK DÖVRÜ* |

Bu dərslikdə qədim və zəngin ədəbiyyatımız tarixi-ədəbi prinsip əsasında öyrənilir. Araşdırma aparmaqla söz sənətimizin tarixi dönəmlərdə inkişafı, eləcə də görkəmli nümayəndələrinin yaradıcılığı barədə yeni bilik və bacarıqlara yiyələnir.

ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Bilal Həsənli icmal mövzularının öyrədilməsi ilə bağlı yazır: "Tarixi, mədəni, ədəbi, bioqrafik faktlar geniş yer tutduğu üçün ədəbiyyat tədrisində çətin mövzulardan sayılan icmal mövzuların səmərəli öyrənilməsi baxımından dərsdə interaktiv mühazirə, dialoq, ifadəli oxu, şagirdlərin müstəqil çıxışları daha məqsədəuyğundur" [2, s.265].

Ədəbiyyat müəllimi öyrəniləcək icmal mövzunun xarakterindən asılı olaraq, interaktiv təlim metodlarından, formlarından hansının faydalı olacağını əvvəlcədən müəyyənləşdirməli, mövzunu buna uyğun öyrətməyi bacarmalıdır. İcmal mövzularının səmərəli öyrədilməsi təlim metodunun düzgün seçilməsindən asılıdır. Şagirdlərin dərsə həvəssiz gəlməsi, yaxud da əksinə, dərsin başlamasını səbirsizliklə gözləməsi müxtəlif amillərdən asılıdır. Bu amillərdən ən əsası da müəllimin dərsi necə təşkil etməsidir. Dərsin təşkilində, təlimin daha səmərəli və maraqlı olmasında rol oynayan bir çox elementlər vardır ki, onlardan biri də təlim strategiyalarıdır. Analitik strategiyalar şagirdin məlumatı təkcə yadda saxlamasından yox, onu təsnif etməsi, müqayisə aparması, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi, fərziyyələr irəli sürməsi və düzgün nəticə çıxarmasına xidmət edir. Bu strategiyalar vasitəsilə şagird mövzunu hazır bilik kimi deyil, üzərində çalışılmalı problem və ya tədqiqat obyekti kimi görməyə başlayır.

Bu strategiyalardan istifadə edərkən şagird:

- Məlumatı hissələrə bölür, işin strukturunu müəyyənləşdirir;
- Əsas və ikinci məqamları ayırd edir, informasiyanı vaciblik dərəcəsinə görə sıralayır;
- Oxşarlıq və fərqlilikləri tapır, müxtəlif obyekt və hadisələr arasında əlaqələr qurur;
- "Niyə?", "Necə?", "Nə baş verərdi əgər?" tipli sualar üzərində düşünərək fərziyyələr formalaşdırırlar;
- Topladığı dəllilərə əsaslanaraq öz mövqeyini əsaslandırır və nəticə çıxarır.

Beləliklə, analitik strategiyalar şagirdə faktları mexaniki şəkildə təkrar etməkdən çox onları tənqid süzgəcindən keçirməyi, müxtəlif baxış bucaqlarından dəyərləndirməyi və məntiqi təhlil aparmağı öyrədir. Bu proses həm idrak bacarıqlarını, həm də metakoqnitiv bacarıqlarıyəni, şagirdin öz düşünmə addımlarını izləmək, qiymətləndirmək və lazım gəldikdə dəyişdirmək qabiliyyətini inkişaf etdirir. Təlim üsulları geriyə planlamanın əsas hissələrindən olan öyrənmə fəaliyyətlərinə daxildir. Təlim üsulları təlim məqsədinə daha səmərəli şəkildə çatmağa xidmət edir. Təlim strategiyalarına daha çox təhlil, müqayisə və strukturlaşdırmaya yönəlmiş üsullar daxildir. Düzgün seçilmiş təlim üsulu şagirdlərin bilik və bacarığının inkişafına xidmət etməklə yanaşı, şagirdlərin təlimə marağını artırır, hər bir dərsin daha fərqli və fəal keçməsinə şərait yaradır.

Təlim üsulu seçilən zaman nəzərə alınan meyarlar:

• Seçilmiş üsulun tətbiqində şagirdlərin təcrübələrinin olub-olmaması;
• Fənnin məqsədinin unudulmaması;
• Seçilmiş üsulun təlimin forması ilə vəhdət təşkil etməsi;
• Dərsdə veriləcək biliklərin həcmi;
• Dərsdə neçə şagirdin iştirak etməsi;
• Üsulun tətbiqinə sərf olunacaq vaxtı;
• Məşğələ keçiriləcək kabinetin şəraiti;
• Zəruri texniki avadanlıq və təlim materiallarının təminatı;
• Üsulun dərsin hansı mərhələsində tətbiq olunacağı;
• Təlim nəticəsinə nail olunub-olunmayacağı;
• Şagirdlərin yaş səviyyəsi və s.

İcmal mözvuları öyrədilərkən müəllim interaktiv təlimin Klaster, Anlayışın çıxarılması, Karusel, Sinektika, Auksion, Frayer modeli, Sinkveyn, Proqnozlaşdırma, Müzakirə xəritələri, Akvarium, Sokrat dialoqu, 4N1KH, 3.2.1, İnsert, Qartopu texnikası, Fasilələrlə oxu, Müzakirə, Əqli hücum, Diskussiya, Debat, Venn diaqramı, BİBÖ, SWOT (Svot) analizi, Blum klubu, Simulyasiya və rollu oyunlar, Dəyirmi masa, Düşün-cütləş-bölüş-paylaş, Sinif küncləri, Mən kiməm? və başqa metodlarından məqsədyönlü istifadə edə bilər.

İcmal mövzusunun mətni hissələrə bölünür. Fasilələrlə oxu metodunun tələbinə görə, müəllim bir hissənin məzmununu danışdıqdan sonra fasilə yaranır, müəllim sual-cavab apardıqdan sonra növbəti hissələr üzərində iş başlanır.

Müzakirə metodu problemin həlli yolunu tapmaq, düzgün qərar çıxarmaq məqsədi daşıyır.

Əqli hücum metodu vasitəsilə şagirdlərin yeni mövzu haqqında ilkin bilikləri üzrə çıxarılır, onlarda müzakirə olunacaq mövzuya maraq gücləndirilir. İcmal mövzuda qaldırılan problemlə bağlı diskussiya aparılır. Problem qruplarda və ya bütün şagirdlərlə müzakirə oluna bilər.

Düşün-cütləş-bölüş-paylaş metodu bir neçə fəaliyyəti özündə birləşdirən strategiyadır. Bura fərdi, cütlər, qrup və bütün siniflə iş formaları daxildir. Bu baxımdan, bu strategiya həm intorvert və ekstravert şəxsiyyətə, həm də müxtəlif intellekt növlərinə malik şagirdlər üçün səmərəli öyrənmə mühiti yaratmağa imkan verir. Bu üsulu necə tətbiq etmək olar?

1. Şagirdlərə mövzu ilə bağlı sual və ya tapşırıq təqdim edilir.

2. Hər bir şagirdə tapşırığı fərdi şəkildə yerinə yetirmək üçün vaxt verilir (verilən tapşırıqdan asılı olaraq təqribən 1-5 dəq.)-düşün mərhələsi.

3. Vaxt bitikdən sonra şagirdlərə işlərini cütlərlə müzakirə etməyi tapşırın (təqribən 1-2 dəq.)- cütləş mərhələsi.

4. Cütlərlə iş bitdikdən sonra şagirdlərə kiçik qruplarda müzakirə etməyi tapşırın (təqribən 3-4 dəq.)- bölüş mərhələsi

5. Bölüş mərhələsi bitdikdən sonra bütün siniflə müzakirəyə başlayın-paylaş mərhələsi.

Bu təlim üsulunu müəllim məqsədəuyğun (təlim nəticəsinə, şagirdlərin sayına, öyrənmə tərzlərinə və səviyyəsinə uyğun) formada modifikasiya edə, dərsin istənilən mərhələsində tətbiq edə və ya ümumilikdə, bütün dərsi bu strategiya üzərində qura bilər. Burada diqqət yetirilməli əsas məsələ sualın və ya tapşırığın düzgün seçilməsidir. Bu zaman yuxarı təfəkkür səviyyəsinə uyğun tapşırıq və açıq tipli sualların verilməsi məqsədəuyğundur.

Məsələn, Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində Şirin obrazını necə xarakterizə edərdiniz? Siz onun yerində olsaydınız hansı qərarı verərdiniz?

Cəlil Məmmədquluzadənin "Poçt qutusu" əsərində verilən satiranın əsas məqsədi nədir? Müasir dövrdə bu mövzu aktualdırmı? Mirzə Fətəli Axundovun əsərlərində maarifçilik ideyalarının əhəmiyyətini necə izah edırdiniz? Səməd Vurğun poeziyasında vətən mövzusu nrcə təqdim edilir?

Oxuduğunuz bədii əsərin əsas ideyasını müəyyənləşdirin və onu qisa şəkildə təqdim edin? Əsərin sonluğunu dəyişmək imkanınız olsaydı, necə dəyişərdiniz? Fikirlərinizi əsaslandırın və s.

BİBO, 3.2.1 metoduları şagirdlərin refleksiya mərhələsində öyrənilən icmal mövzu ilə bağlı nələri bildiklərini, nələri öyrənmək istədiklərini və öyrəndiklərini aşkara çıxarır. İcmal mövzuların keyfiyyətli öyrədilməsi üçün başqa interaktiv metodlardan istifadə etmək metodik baxımdan faydalıdır.

Bütün bunları nəzərə alaraq demək olar ki, nəinki icmal materilalarının tədrisində, həmçinin digər mövzuların tədrisində də fəal interaktiv təlim metodlarından dərsin məqsədinə uyğun şəkildə istifadə etmək hər bir peşəkar müəllimn vəzifəsidir.

**Ədəbiyyat**

1. Təkmilləsdirilmis-Ədəbiyyat-fənn-kurikulumu.-2025.pdf
2. Həsənli, B. Ədəbiyyatın tədrisi metodikası / B.Həsənli. – Bakı: Müəllim, – 2014.
3. Hüseynoğlu, S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim / S.Hüseynoğlu. – Bakı: – 2009.
4. Ədəbiyyat: 10-cu sinif üçün dərslik. – Bakı: – 2022.
5. Ədəbiyyat: 11-ci sinif üçün dərslik. – Bakı: – 2023.

*Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 13.01.2026, son daxilolma – 12.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.92-97*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.92-97*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.92-97*

**UOT: 372.893:37.091.33**

# Tarix dərslərində tələbələrdə tarixi hadisə və təzahürlərin müqayisəli təhlili bacarıqlarının formalaşdırılması təcrübəsindən

**Müəllif(lər):**

**Aslan İbrahimov**
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
**E-poçt:** AslanIbrahimov@nmi.edu.az

**Açar sözlər:** müqayisə, tarixi təzahür, analitik təhlil, sintez, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Respublikası, Sasani dövləti, Çin, Xürrəmilər hərəkatı, Taypin hərəkatı

**Annotasiya.** Məqalədə tarix dərslərində tarixi hadisə və təzahürlərin müqayisəli təhlilinin metodik əsasları geniş şəkildə araşdırılmışdır. Qeyd olunur ki, müasir təhsil sistemində tarix fənninin tədrisi yalnız faktların yadda saxlanılması ilə məhdudlaşmamalı, eyni zamanda tələbələrdə analitik və tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasına xidmət etməlidir. Bu baxımdan müqayisəli təhlil metodu tarix tədrisində mühüm pedaqoji əhəmiyyət kəsb edir.

Məqalədə müqayisənin mahiyyəti iki və ya daha çox tarixi hadisə və proses arasında oxşar və fərqli cəhətlərin sistemli şəkildə müəyyənləşdirilməsi kimi izah olunur. Bu metod tələbələrə səbəb-nəticə əlaqələrini dərk etməyə, ümumiləşdirmələr aparmağa və müstəqil mühakimə yürütməyə imkan yaradır. Qeyd edilir ki, müqayisə prosesi məqsədyönlü və düzgün müəyyənləşdirilmiş meyarlar əsasında aparıldıqda daha səmərəli nəticələr əldə olunur.

Tədqiqatda xronoloji və məkan üzrə müqayisə növləri təhlil edilmiş, müxtəlif tarixi hadisələr nümunə kimi təqdim olunmuşdur. Bu kontekstdə Azərbaycan Xalq Cümhuriyyəti ilə Azərbaycanın dövlət müstəqilliyinin bərpası prosesi, Çin və Sasani imperiyası dövründə baş verən üsyanlar, həmçinin Xürrəmilər hərəkatı və Taypin üsyanı müqayisəli təhlil nümunələri kimi araşdırılmışdır. Bu nümunələr vasitəsilə tarixi hadisələrin oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi yolları göstərilmişdir.

Məqalədə müəllimin rolu da xüsusi vurğulanır. Müəllimin düzgün müqayisə meyarları müəyyənləşdirməsi, tələbələrin obyektiv nəticələr çıxarmasına nail olması və hadisələrə emosional deyil, elmi yanaşmanı formalaşdırması tarix tədrisinin səmərəliliyini artıran mühüm amillər kimi qiymətləndirilir.

Nəticə etibarilə, müqayisəli təhlil metodunun tələbələrdə analitik düşünmə, məntiqi nəticə çıxarma, tarixi ümumiləşdirmə və elmi mühakimə bacarıqlarının inkişafında mühüm rol oynadığı və tarix tədrisinin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli töhfə verdiyi qənaətinə gəlinmişdir.

## From the experience of the comparative analysis formation skills of historical events and phenomena on students at history lessons

**Author(s):**

**Aslan Ibrahimov**
Nakhchivan Teachers Institute
Senior Teacher
**E-mail:** AslanIbrahimov@nmi.edu.az

**Keywords:** comparison, historical phenomenon, analytical analysis, synthesis, Azerbaijan Democratic Republic, Republic of Azerbaijan, Sasanian state, China, Khurramite Movement, Taiping Rebellion

**Abstract.** The article extensively examines the methodological foundations of the comparative analysis of historical events and phenomena in history education. It is noted that in the modern educational system, the teaching of history should not be limited solely to the memorization of facts, but should also contribute to the development of students' analytical and critical thinking skills. In this regard, the comparative analysis method holds significant pedagogical importance in the teaching of history.

The article explains the essence of comparison as the systematic identification of similarities and differences between two or more historical events and processes. This method enables students to understand cause-and-effect relationships, make generalizations, and develop independent judgments. It is emphasized that comparative analysis yields more effective results when conducted according to clearly defined and purposeful criteria.

The study analyzes chronological and spatial types of comparison and presents various historical examples. In this context, Azerbaijan Democratic Republic and the process of the restoration of Azerbaijan's independence, uprisings in China and during the period of the Sasanian Empire, as well as the Khurramite Movement and the Taiping Rebellion are presented as examples of comparative analysis. Through these examples, methods for identifying similarities and differences among historical events are demonstrated.

The article also places particular emphasis on the role of the teacher. It is stated that selecting appropriate comparison criteria, guiding students toward objective conclusions, and fostering a scientific rather than emotional approach to historical events are important factors in increasing the effectiveness of history education.

In conclusion, the study determines that the comparative analysis method plays an important role in developing students' analytical thinking, logical reasoning, historical generalization, and scientific judgment skills, while also contributing significantly to improving the quality of history teaching.

## Из опыта формирования у студентов навыков сравнительного анализа исторических событий и явлений на занятиях по истории

**Автор(ы):**

**Аслан Ибрагимов**
Нахчыванский институт учителей
Старший преподаватель
**Э-почта:** AslanIbrahimov@nmi.edu.az

**Ключевые слова:** сравнение, историческое явление, критический анализ, синтез, Азербайджанская Демократическая Республика, Азербайджанская Республика, государство Сасанидов, Китай, движение хуррамитов, Тайпинское восстание

**Аннотация.** В статье подробно исследуются методические основы сравнительного анализа исторических событий и явлений в процессе преподавания истории. Отмечается, что в современной системе образования преподавание истории не должно ограничиваться лишь запоминанием фактов, а должно способствовать формированию у студентов аналитического и критического мышления. В этом контексте метод сравнительного анализа приобретает важное педагогическое значение в преподавании истории.

В статье сущность сравнения объясняется как систематическое выявление сходств и различий между двумя или более историческими событиями и процессами. Данный метод позволяет студентам понимать причинно-следственные связи, делать обобщения и формировать самостоятельные суждения. Подчёркивается, что сравнительный анализ даёт более эффективные результаты при его проведении на основе чётко определённых и целенаправленных критериев.

В исследовании анализируются хронологические и пространственные виды сравнения, а также приводятся различные исторические примеры. В частности, рассматриваются Азербайджанская Демократическая Республика и процесс восстановления государственной независимости Азербайджана, восстания в Китае и в период Сасанидская империя, а также Движение хуррамитов и Тайпинское восстание как примеры сравнительного анализа. На основе данных примеров демонстрируются способы выявления сходных и отличительных особенностей исторических событий.

Особое внимание в статье уделяется роли преподавателя. Отмечается, что правильный выбор критериев сравнения, формирование у студентов объективных выводов и развитие научного, а не эмоционального подхода к историческим событиям являются важными факторами повышения эффективности преподавания истории.

В результате делается вывод о том, что метод сравнительного анализа играет важную роль в развитии аналитического мышления, навыков логического вывода, исторического обобщения и научного суждения у студентов, а также способствует повышению качества преподавания истории.

**Giriş.** Müasir mərhələdə ali təhsil sistemində tarix fəninin tədrisi yalnlz faktların yadda saxlanılması ilə məhdudlaşmır, həm də tələbələrdə analitik və tənqidi düşüncə bacarıqlarının formalaşdırılması və inkişafını tələb edir. Bu baxımdan müqayisəli təhlil metodu tarixin tədrisində xüsusi əhəmiyyətə malikdir.

Tarixdə baş vermiş hadisələrin müqayisəli şəkildə öyrənilməsi tələblərə tarixi inkişafın müxtəlif dövrlərində baş vermiş proseslər arasında əlaqə qurmağa, səbəb və nəticələri dərk etməyə və ümumiləşdirmələr aparmağa imkan yaradır. Bu metod, həm də tələblərin müstəqil fikir yürütmə bacarıqlarını inkişaf etdirir.

Bir sıra pedaqoji ədəbiyyatlarda öyrənilən hadisələrin müqayisəsi didaktikada ən mühüm fənd hesab edilir.

Müəllimin iştirakı olmadan aparılan müqayisə, kortəbii xarakterə malik olur. Çox zaman tələbələr öyrəndikləri tarixi hadisələri müasir həyatın onları əhatə edən, öyrənilən müəyyən dərəcə oxşarlığı olan hadisələri ilə müqayisə edirlər. Tələbələrdə tarixə aid biliklər artdıqca və inkişaf etdikcə, tarixin müxtəlif fənlərində əvvəllər öyrənilmiş hadisələrlə müqayisənin rolu da artır. Belə hallarda tələbələrin diqqətini hadisələrin daha parlaq və emosional əlamətləri cəlb edir.

Müqayisə məqsədyönlü olduqda, hadisələrin ən mühüm əlamətlərinə görə aparıldıqda, hadisələrin mahiyyətini açıb göstərdikdə təhsil və tərbiyəvi cəhətdən səmərəli ola bilər. Məqsədyönlu müqayisəyə olan məcburi tələb müqayisə aparılan əlamətlərin dürüst surətdə öz hissələrinə ayrılmasından ibarətdir.

Mürəkkəb tarixi faktları, məsələn, müxtəlif və ya eyni tarixi dövrlərdəki kəndli müharibələrini müqayisə etdikdə oxşarlıq və fərqlərin aşkara çıxarılması müqayisə edilən əlamətlərin xarakterindən asılıdır. Bu zaman tələbələrin onları dərk etdikləri emosionallıq da özünü burada açıq şəkildə göstərir. Kəndli üsyanlarında tələbələrin diqqətini ilk növbədə antifeodal istiqamət, ilk əldə edilən uğurlar, faciəli son kimi ümumi emosional xüsusiyyətlər də diqqəti cəlb edir.

M.İ.Kruqlyak qeyd edirdi ki, müqayisə əsas fikri əməliyyatdır: burada hökmən təhlil və sintez iştirak edir. Müqayisə prosesində mücərrədləşdirmə və ümumiləşdirmə özünü göstərir.

Əvvəlki tədqiqatlarda göstərdiyimiz analitik təhlil və sintez etmə kimi tarix təlimində məntiqi əməliyyatların ən mühümlərindən biri də müqayisədir. Müqayisədə təhlil hökmən iştirak edir. Ona görə ki, müqayisə aparılan zaman, tarixi hadisələrin əlamətləri tərkib hissələrə bölünür və dərk edilir; eyni zamanda müqayisə sintez rolunu yerinə yetirir və daha çox oxşar hadisələr arasındakı əlaqələrlə üzə çıxır.

Müqayisəni təlimdə əhəmiyyətli bir üsul hesab edən M.Əmirov bu haqda K.D.Uşinskinin fikirlərini olduğu kimi qeyd edir: “ Biz dünyada hər şeyi müqayisə vasitəsilə öyrənirik; əgər bizə heç bir əşyaya oxşada bilmədiyimiz bir əşya rast gəlsəydi . .. onun barəsində bir söz belə deyə bilməzdik. . .. Əgər hər hansı bir əşyanı aydın başa düşmək istəyirsinizsə, həmin əşyanı ona ən çox oxşayan əşyadan fərqləndirin və həmin əşyanı ondan ən çox uzaq olan əşyalarla oxşarlıq tapın. Yalnız o zaman əşyanın bütün mühüm əlamətlərini özünüz üçün aydınlasdıra bilərsiniz, elə bu da əşyanın başa düşülməsi deməkdir...” [2, s. 162].

Müqayisəli təhlil – iki və ya daha çox tarixi hadisə, proses və ya təzahür arasında oxşar və fərqli cəhətlərin sistemli şəkildə müəyyən edilməsi prosesidir. Bu metod tələbələrdə analiz və sintez bacarığını, səbəb-nəticə əlaqələrini qurma qabiliyyətini, ümumiləşdirmə və nəticə çıxarma vərdişlərini inkişaf etdirir. Pedaqoji nöqteyi-nəzərdən bu yanaşma konstruktivist təlim nəzəriyyəsinə əsaslanır və tələbələrin aktiv öyrənmə prosesinə cəlb olunmasını təmin edir.

**Tədqiqatın məqsədi.** Yerinə yetirilən tədqiqatın əsas məqsədi tarix dərslərində tətbiq olunan tarixi hadisələrin təzahürlərin müqaisəsi metodunun mahiyyətini və onun xüsusiyyətlərini elmi baxımdan araşdırmaq və tədrisin keyfiyyətini yüksəldən metodik yanaşmaları əsaslandırmaqdır. Tarixi hadisələrin təzahürlərinin müqayisə metodunun məqsədi tələbələrin tarixi hadisə və təzahürləri müqaiyə edərəkən tarixi qanuna uyğunluqları üzə çıxarmaq, tarixi inkişafın fərqli dövrlərində baş vermiş oxşar prosesləri müəyyənləşdirmək, tələbələrdə obyektiv qiymətləndirmə bacarıqlarını formalaşdırmaq, Tarixi hadisələrin milli və ümumbəşəri konteksdə dərkini təmin etməkdən ibarətdir.

**Materiallar və metodlar.** Tarixi hadisələrin təzahürü və müqayisəsi metodlarının tətbiqi zamanı əsas istifadə edilən elmi mənbələr

ali məktəblərinin tələbələri üçün nəzərdə tutulan ümumiləşdirilmiş tarix dərslikləri, müxtəlif dövrlərə aid tədqiqat əsərləri, metodik vəsaitlər, arxiv sənədləri, cədvəllər, sxemlər, şəkillər, təqdimatlar və s. təşkil edir. Metodları isə şifahi şəhr, mühazirə, nağıletmə, nümayiş etdirmə, sual-cavab etmədən ibarətdir.

Bunlarla yanaşı, tədqiqat işi yerinə yetirilərkən M.Əmirov, M.Ə.Şərifli, T.Mustafazadə, Z.Bünyadov, Y.Yusifov və digərlərinin əsərlərindən də elmi mənbə kimi istifadə edilmişdir.

**Müzakirə.** Tarixi hadisə və proseslərin təzahürü zamanı ilk növbədə müqayisəli təhlilin aşağıda adları qeyd olunan növlərinə diqqət edilməlidir:

**Xronoloji müqayisə:** Bu zaman müxtəif tarixi dövlərdə baş vermiş iki hadisə xronoloji baxımdan müqayisə edilir. Məsələn, Azərbaycan Xalq Cumhuriyyətinin yaranması ilə Azərbaycan Respublikasının müstəqilliyinin bərpa etməsinin arasında xronologi baxımdan əlaqə qurmaq və müqayisə etəmk olar. Azərbaycan Xalq Cumhuriyyəti 1918-ci il mayın 28-də Tiflisdə Rusiya imperiyasının süqutu şəraitində yaranmış son dərəcə gərgin vəziyyətdə yaradılmışdır. Bu zaman Osmanlı dövlətinin yaxından hərbi köməkliyi nəticəsində o dövr Azərbaycanının əsas iqtisadi mərkəzi olan Bakı şəhəri erməni-daşnak, bolşevik və s. ünsürlərdən təmizlənmiş və ölkəninin gələcək taleyində çox mühüm bir addım atılmışdır.

XX əsrin 80-ci illərinin sonların Azərbaycanın da daxil olduğu SSRİ-də siyasi və iqtisadi baxımdan ciddi zəifləmə baş vermiş və nəticədə bu imperiyaya daxil olan xalqlar arasında mərkəzdən ayrılaraq öz müstəqilliklərini əldə etmə istiqamətində fəaliyyətlərin genişlənməsi ilə müşahidə edilmişdir. Yarınmış tarixi fürsətdən istifadə edən Azərbaycan xalqı da azadlıq mübarizəsinə qalxaraq çətin mübarizə nəticəsində XX əsrdə yenidən ikinci dəfə özününün siyasi müstəqillliyinə nail olmuş və 1991-ci il oktyabrın 18-də Azərbaycanını dövlət müstəqilliyi yenidən bərpa edilmişdir.

Tarixi hadisələrin məkan üzrə müqayisə edilməsi tarixdə baş vermiş müxtəlif hadisələrin mahiyyətinin dərk edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni dövrdə biri-birindən uzaq ərazilərdə baş vermiş hadisələr müqayisə edilir. Fikrimizi daha aydın çəkildə izah edə bilmək üçün tarixi faktları müqayisə edək. Məsələn: Azərbaycannın və Qərbi Avropanın IX-XI əsrlər tarixilərin müqayisəsi zamanı məlum olur ki, feodalizm quruluşunun inkişafında oxşar dinamikalar müşahidə olunur. Belə ki, Azərbaycanda tarixində qeyd olunan dövr feodal pərakəndəliyi dövrü kimi xarakterizə olunur. Əslində bir ölkənin ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər kimi dövlətlərin olması feodal pərakəndəliyinin əsas göstəricisidir [4, s. 45-67].

Eyni zamanda Avropada 843-cü ildə imzalanan Verden bağlaşmasından sonra Fransa, Almaniya və İtaliya kimi dövlətlərin yaranması və onlarında daxilində baş verən parçalanmalar feodal pərakəndəliyinin nəticəsidir. Əslində bütün bunlar feodalizmin inkişafının qanunauyğun nəticəsi kimi də göstərilə bilər [3, s. 393-405].

**Məkan üzrə** müqayisə zamanı iki fərqli ölkədə baş vermiş iki üsyan müqayisə olunur. Aşağıda gətirəcəyimiz nümunələrlə bu məsələlərə aydınlıq gətirək. İlk öncə Çində feodalizm əleyhinə baş vermiş güclü Xuan Çao üsyanı barədə qısa qeyd edək.

874-cü ildə Çinin şimal-şərqində üsyan başlandı. Xuan Çao adlı bir kəndlinin başçılığı ilə üsyançılar böyük bir ordu yaratdılar. Üsyançların ordusu ölkəninin şimalından cənubuna qədər keçdi və Quançjou şəhərini tutdu. Üsyançılar buradan yeni qüvvə ilə ölkənin paytaxtı Çanan şəhərinə doğru yürüşə başladılar. İmperator və qoşunu şəhəri tərk etdilər. Çanana daxil olan üsyançılar Xuan Çaounu imperator elan etdilər. Xuan Çao ağır vergiləri ləğv etdi və anbarlardan yoxsullara taxıl paylamaq barədə əmr verdi.

İmperator və feodallar şimalda yaşayan köçəriləri köməyə çağırdılar. Xalqın "qara qarğalar" adlandırdıqları köçəri dəstələri paytaxta soxuldu. Xuan Çao Çanandan getməli oldu. 884-cü ildə üsyançılar məğlubiyyətə uğradılar və pərən-pərən düşdülər, onların rəhbərləri isə həlak oldu. Lakin bundan sonra da kəndlilər hələ 20 ilə qədər partizan müharibəsini davam etdirdilər. Göründüyü kimi, Çində feolalizm quruluşuna qarşı baş vermiş bu üsyan ilk öncə uğurlu başlasa da sonda məğlubiyyətə uğramışdır. Biz bu hadisəni Sasanilər dövlətində baş vermiş Məzdəkilər hərəkatı ilə müqayisə etsək görərik ki,

hər iki üsyan fərqli ölkələrdə baç versə də onlar arasında ümumi oxşarlıqlar vardır. Yuxarıda qeyd olunları daha yaxşı başa düşmək üçün Məzdəkin başçılığı ilə baş vermiş üsyana qısa şəkildə diqqət yetirək.

481-529-cu illəri əhatə edən Məzdəkilər hərəkatına Məzdək Bəmdad oğlu başçılıq etmişdir. Məzdək təliminin əsas müddəasi ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaqdan ibarət idi. Sasani hökmdarı I Qubadın hakimiyyəti illərində Məzdəkilər hərəkatı geniş vüsət aldı. Xalq hərəkatından ehtiyat edən, həm də iri feodalların köməyi ilə əyanların qüdrətini sarsıtmağa çalışan I Qubad Məzyədilərə hamilik edirdi. Aclıq zamanı Məzdəkin məsləhəti ilə I Qubad dövlət taxıl anbarlarını əhali üçün açdı. Sonra I Qubad əyanlar tərəfindən taxtdan salındı və Ağ hun hökmdarının yanına qaçmalı oldu. Eftalitlərin köməyi ilə hakimiyyətini bərpa edən I Qubad artıq Məzdəkilərə olan münasibətini dəyişdirdi. Qubadın oğlu Xosrov (531-579) isə məzdəkilərə qanlı divan tutdu [3, s.326,475].

Yuxarıda qeyd edilən iki hadisəninin Venn diyaqramı vasitəsilə oxşar və fərqli tərəflini müəyyən və müqayisə etmək olar. Bu tədqiqatın aparılması mərhələsində xüsusi əhəmiyyət kəsb edir.

| Məzdəkilər və Xuan Çao üsyanlarının oxşar tərəfləri | Məzdəkilər və Xuan Çao üsyanlarının fərqli tərəfləri |
|---|---|
| 1. Feodalizm quruluşuna qarşı yönəlmişdir.<br>2. Üsyan rəhbərlərinin təşəbbüsü ilə ərzaq sarıdan əziyyət çəkən kəndlilərə taxıl anbarları açılmaqla yardımlar edilmişdir.<br>3. Hər iki üyan sonda məğlubiyyətə düçar olmuşdur.<br>4. Hakimiyyətlərini itirən hökmdarlar kənar qüvvələrin köməyindən istifadə etməklə hakimiyyətlərini bərpa etmişlər | 1. Xuan Çao üsyanı Çində, Məzdəkilər üsyanı Sasani İranında baş vermişdir.<br>2. Üsyanlar fərqli illərdə baş vermişdir.<br>3. Məzdəkilər ədalətli cəmiyyət qurmaq uğrunda mübarizə aparmışlar |

İndi isə müqayisəli təhlil metodundan istifadə etməklə bu tədqiqatın aparlmasının mərhələlərini Babəkin rəhbərliyi altında Azərbaycanda olmuş Xürrəmilər hərəkatı ilə Çində baş vermiş Taypinlər hərəkatı nümunəsində müqayisə etməklə göstərilənləri daha ətraflı şəkildə izah edək.

**Xürrəmilər hərəkatı (816-837)**

Səbəblər: Xürrəmilər cəmiyyətdəki ədalətsizliklərin kökünü sosial və mülki bərabərsizlikdə görür və torpaqğın və digər istehsal vasitələrinin xalqın ixtiyarına verilməsi, kəndlilərin, sənətkarların feodal və digər hakim təbəqələrin asılılığından azad edilməsi tələblərini irəli sürürdülər. Lakin xürrəmilər daha irəli gedərək Xilafərin milli əsarətinə qarşı, Azərbaycanın istiqlaliyyətini bərpa etmək uğrunda mübarizə aparırdılar.

**Gedişatı:** Xürrəmilərin çıxışları 778-ci və 808-ci illərdə baş versə də bu üsyanlar uzun müddət davam etməmişdir, ancaq 816-cı ildə Babəkin Xürrəmi icmasına başçılıq etməsindən sonra vəziyyət əsaslı şəkildə dəyişmiş, xürrəmilər xilafətə qarşı müqavimət göstərmiş və bir çox uğurlar əldə etmişlər. 829-cu ildə I Həştadsər döyüşündə, 830-cu ilədə I Həmədan döyüşündə və 836-cı ildə isə II Həştadsar döyüşündə ərəb orduları üzərində qələbələr əldə edilmişdir.

**İştirakçıları**: Xürrəmilərin əsas qüvvəsini kəndlilərin təşkil etməsinə baxmayaraq, orada şəhər yoxsulları, sənətkarlar, orta və iri feodallar da az deyildi.

**Nəticələri:** İllərlə davam etmiş bu müharibə Ərəb xilafətinə ağır zərbə vurmuş və döyüşlərdə ərəblərin yarım milyondan çox döyüşçüsü öldürülmüşdür. Xilafət kökündən sarsılmış və xilafətin tabeliyində olan digər xalqların azadlıq mübarizəsinə səbəb olmuşdur.

**Tarixi əhəmiyyəti:** Bu hərəkatın ən bö-

yük əhəmiyyəti Xilafətin parçalanmasına və yeni dövlərlərin meydanan çıxmasına səbəb olmasıdır [1, s. 286-292, s. 162]

**Taypin hərəkatı (1850-1864)**

**Səbəblər:** "Tiryək müharibələri"ndə Sin sülaləsinin məğlubiyyəti hökumətin zəifləməsinə gətirib çıxardı. "Sin imperiyası"nın əbədiliyi haqqında dini təsəvvürə sarsıdıcı zərbə vuruldu. Müharibələr kəndlilərin istismar edilməsinə gətirib çıxardı. Qaliblərin qoyduqları təzminatı ödəmək üçün vergilərin artırılması güclü kəndli müharibəsinə səbəb oldu.

**Gedişatı:** kəndli müharibəsi 1850-ci ildə ölkənin cənubunda Kanton yaxınlığında başlandı. Mancuriya sülaləsinə və mülkədəarlara qarşı mübarizə müstəmələkəçilərə qarşı mübarizə ilə çuğlaşırdı. Üsyançılara kəndli oğlu, məktəb müəllimi Xun Sütsüan başçılıq edirdi. O, ümumi bərabərlik ideyası təbliğ edir və "Səmavi ümumi rifah dövləti" (Çin dilində "Taypin tyango") yaratmağa çağırırdı. Bu səbəbdən kəndli müharibəsinin iştirakçılarını "taypinlər" adlandırırlar. Taypin kəndliləri güclü ordu yaratdılar və böyük ərazilər ələ keçirdilər. Nankin Taypin dövlətinin paytaxtı, Xun Sütsüan isə imperator oldu.

**İştirakçıları**: Taypin kəndliləri bu hərəkatın əsas iştirakçıları idilər.

**Nəticələri**: Taypin rəhbərləri arasında çəkişmələr baş verirdi, kəndli kütləleri içərisində isə yorğunluq və məyusluq artırdı. Bu, Mancuriya hökmdarlarına taypinləri darmadağın etməkdə kömək etdi. Kapitalist dövlətləri qeyri-bərabər müqavilələri Çinə qəbul etdirdikdən sonra çürümüş Tsin sülaləsinin hakimiyyətdə qalmasını istəyirdilər. Buna görə də ona yardım göstərməklə hərbi müdaxilə təşkil etdilər. Taypinlər fədəkarcasına vuruşsalar da məğlubiyyətə uğradılar. 1864-cü ildə Nankin hökumət quvvələri tərəfindən alındı. Şəhərin yüz mindən çox müdafiəçisi qılıncdan keçirildi. Xun Sütsuan intihar etdi. Taypinlərin istedadlı sərkərdəsi Li Süçen tutuldu və amansız işgəncələrdən sonra öldürüldü.

**Tarixi əhəmiyyəti**: Taypin üsyanı Asiya xalqlarının azadlıq hərəkatı tarixində şanlı səhifə oldu. Üsyan məğlub olsa da feodal quruluşu dərin sarsıntı keçirirdi [3, s. 87-95].

Yuxarıda qeyd edilən iki tarixi hadisəninin Venn diyaqramı vasitəsilə oxşar və fərqli tərəflərini müəyyən və müqayisə etmək olar. Bu tədqiqatın aparılması mərhələsində xüsusi əhəmiyyət kəsb edir.

| **Taypinlər və Xürrəmilər hərəkatlarının oxşar tərəfləri** | **Taypinlər və Xürrəmilər hərəkatlarının fərqli tərəfləri** |
|---|---|
| 1. Sosial bərabərliklə bağlı məsələlərin irəli sürülməsi | 1. Taypinlər hərəkatı Çində, Xürrəmilər hərəkatı Azərbaycanda baş vermişdir. |
| 2.Xarici işğalçılara qarşı mübarizə aparmaları | 2. Bu hərəkatlar fərqli illərdə baş vermişdir. |
| 3. Hər iki hərəkat sonda məğlubiyyətə düçar olmuşdur. | 3. Xürrəmilər ədalətli cəmiyyət qurmaq uğrunda da mübarizə aparmışlar. |

Yuxarıda göstərilən nümunədə müqaiysə olunan tarixi faktlar seçlimış və təzahür və nəticələri müqayisə olunmuşdur. Müəllim burada, həmçinin tələbələr tərəfindən təqdim edilən tarixi faktların təqdim edilməsini düzgün təmin etməli, baş vermiş hadisələrin müxtəlif tarixi dövrlər arasında müqayisənin tam aparılmasını təmin etməlidir. Eyni zamanda müəllim tələbələrin müqayisə olunan tarixi hadisələr arasında düzgün nəticə çıxarılmasına nail olmalı, həmçinin tələblərin məsələyə emosional deyil, tarixi nöqteyi-nəzərdən nəzərdən keçirilməsinə nail olmalıdır.

Tarixi hadisə və təzahürlərin müqayisəsi zamanı aşağıdakı bacarıqlar formalaşdırılıb daha da inkişafı təmin edilməlidir. Analitik və tənqidi düşünmə, məntiqi nəticə çıxarma, tarixi ümumiləşdirmə, müqayisəli təhlil bacarığı, elmi mühakimə yürütmə bacarığı bu fəaliyyətdə əsas yer tutur.

**Nəticə.** Aparılan tədqiqat göstərir ki, tarix dərslərində tarixi hadisə və təzahürlərin müqayisəli təhlili tədris prosesinin səmərəliliyini ar-

tıran mühüm metodik yanaşmalardan biridir. Bu metod vasitəsilə tələbələr yalnız faktları yadda saxlamaqla kifayətlənmir, həm də hadisələrin mahiyyətini dərindən dərk edir, səbəb-nəticə əlaqələrini müəyyənləşdirir və ümumiləşdirmələr aparmaq bacarığı qazanırlar.

Məqalədə təqdim olunan nümunələr sübut edir ki, müqayisəli təhlil həm xronoloji, həm də məkan baxımından tətbiq edildikdə tarixi proseslərin daha dolğun mənimsənilməsinə şərait yaradır. Müxtəlif dövrlərdə və regionlarda baş vermiş hadisələrin müqayisəsi tələbələrdə obyektiv qiymətləndirmə, analitik və tənqidi düşünmə kimi vacib bacarıqları formalaşdırır.

Eyni zamanda müəyyən edilmişdir ki, bu metodun uğurlu tətbiqi müəllimin peşəkarlığından birbaşa asılıdır. Müəllim müqayisə meyarlarını düzgün seçməli, tələbələri istiqamətləndirməli və onların müstəqil nəticə çıxarmasına şərait yaratmalıdır.

Beləliklə, müqayisəli təhlil metodunun sistemli və məqsədyönlü tətbiqi tarix tədrisinin keyfiyyətini yüksəldir, tələbələrin elmi düşünmə qabiliyyətini inkişaf etdirir və onların tarixi hadisələrə daha obyektiv və şüurlu yanaşmasını təmin edir.

**Ədəbiyyat**

1. Bünyadov, Z. Azərbaycan tarixi II cilddə, I cild / Z.Bünyadov, Y.Yusifov. – Bakı: – 2012. – s.286-292.
2. Əmirov, M. Tam orta məktəbdə tarixin fəal/ interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti) / M.Əmirov. – Bakı: Yeni nəşr, – 2011. – 707 s.
3. Mustafazadə, T. Ümumi Tarix I cild / T.Mustafazadə. – Bakı: – 2012. – 1157 s.
4. Şərifli, M.Ə. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri / M.Ə.Şərifli. – Bakı: – 2013. – 398 s, – s.45-67.

*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 19.01.2026, son daxilolma – 03.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 796.015.6:159.947

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.98-101*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.98-101*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.98-101*

# İdman təlimi prosesində iradənin formalaşması və onun əsas mərhələlərinə bir nəzər

**Müəllif(lər):**

**Xatın Ağayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
**E-poçt:** KhatinAgayeva@nmi.edu.az

**Açar sözlər:** iradə, təlim, idman, iradi cəhd, iradənin mərhələləri, psixoloji hazırlıq

**Annotasiya.** Bu məqalədə insan fəaliyyətinin mühüm psixoloji komponentlərindən biri olan iradə anlayışının mahiyyəti, strukturu və əsas mərhələləri idman-təlim fəaliyyəti kontekstində təhlil edilmişdir. Araşdırmada iradi prosesin formalaşması, iradi cəhd və onun mərhələləri elmi-nəzəri baxımdan izah olunmuş, eyni zamanda idman təlimi prosesində iradi keyfiyyətlərin inkişaf etdirilməsi yolları araşdırılmışdır. Məqalədə məqsədyönlü fəaliyyətin və sistemli təlimin iradənin formalaşmasında mühüm rol oynadığı əsaslandırılmışdır.

Tədqiqatın əsas məqsədi idman təlimi prosesində iradənin formalaşma mexanizmini və onun əsas mərhələlərini müəyyənləşdirmək, həmçinin iradi keyfiyyətlərin inkişafında idmanın rolunu araşdırmaqdan ibarətdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, idman təlimi iradənin inkişaf etdirilməsində mühüm əhəmiyyətə malikdir və iradi keyfiyyətlər peşəkar idman fəaliyyətində yüksək nəticələrin əldə olunmasına birbaşa təsir göstərir. Bununla yanaşı, iradənin inkişaf səviyyəsinin mövcud sosial-psixoloji şəraitdən və təlim mühitindən asılı olduğu qənaətinə gəlinmişdir.

Tədqiqatın nəzəri əhəmiyyəti iradənin psixoloji mahiyyətinin və onun idman təlimi prosesində tətbiq mexanizmlərinin elmi əsaslarla müəyyənləşdirilməsindədir. Praktik əhəmiyyəti isə müəllim, tələbə və şagirdlərdə iradi keyfiyyətlərin inkişaf etdirilməsinin vacibliyini əsaslandırması və bu istiqamətdə tətbiq edilə biləcək metodiki yanaşmaları təqdim etməsi ilə səciyyələnir. Araşdırmanın nəticələri göstərir ki, iradi keyfiyyətləri inkişaf etmiş şəxslər, xüsusilə idman təlimi prosesində daha yüksək nailiyyətlər əldə edir, bu isə həm təlimin keyfiyyətinin yüksəldilməsinə, həm də dözümlülük və psixoloji dayanıqlılıq kimi mühüm xüsusiyyətlərin formalaşmasına müsbət təsir göstərir.

## The formation of willpower in the process of sport training and its main stages

**Author(s):**

**Khatın Agayeva**
Nakhchivan Teachers Institute
Senior Teacher
**E-mail:** KhatinAgayeva@nmi.edu.az

**Keywords:** willpower, training, sport, volitional effort, stages of willpower, psychological preparation

**Abstract.** In this article the essence, structure and main stages of willpower as one of the key psychological components of human activity within the context of sport training was analysed. In the study the formation of volitional processes, volitional effort and its stages was explained, ways of developing volitional qualities during sport training were searched as well. In the article the significant role of purposeful activity and systematic training in the formation of willpower was grounded.

The main objective of the research is to determine the mechanism of willpower formation and its principal stages in the process of sport training, as well as to investigate the role of sport in the development of volitional qualities. As a result of research it was defined that, sport training plays a particularly important role in the development of willpower and that volitional qualities directly influence the achievement of high results in professional sport. In addition, it was concluded that, the level of willpower development depends on existing social-psychological condition and the educational environment.

The theoretical significance of the study lies in the scientific explanation of the psychological essence of willpower and the mechanisms of its application in sport training. Its practical significance is characterized by substantiating the importance of developing volitional qualities in teachers, students and pupils as well as presenting methodological approaches applied in this field. The results of the study demonstrate that, individuals with developed volitional qualities achieve higher results, especially in sports training processes, which positively affects both the quality of education and the development of important traits such as endurance and psychological resilience.

## Взгляд на формирование воли в процессе спортивной подготовки и её основные этапы

**Автор(ы):**

**Хатын Агаева**
Нахчыванский институт учителей
Старший преподаватель
**Э-почта:** KhatinAgayeva@nmi.edu.az

**Ключевые слова:** воля, обучение, спорт, волевое усилие, этапы воли, психологическая подготовка

**Аннотация.** В статье анализируются сущность, структура и основные этапы воли как одного из важнейших психологических компонентов человеческой деятельности в контексте спортивно-учебной деятельности. В исследовании с научно-теоретической точки зрения объясняются процесс формирования воли, волевое усилие и его этапы, а также рассматриваются пути развития волевых качеств в процессе спортивной подготовки. В статье обосновывается важная роль целенаправленной деятельности и систематического обучения в формировании воли.

Основной целью исследования является определение механизма формирования воли и её основных этапов в процессе спортивной подготовки, а также изучение роли спорта в развитии волевых качеств. В результате исследования установлено, что спортивная подготовка имеет особое значение в развитии воли, а волевые качества непосредственно влияют на достижение высоких результатов в профессиональном спорте. Вместе с тем сделан вывод о том, что уровень развития воли зависит от существующих социально-психологических условий и образовательной среды.

Теоретическая значимость исследования заключается в научном определении психологической сущности воли и механизмов её применения в процессе спортивного обучения. Практическая значимость состоит в обосновании важности развития волевых качеств у преподавателей, студентов и учащихся, а также в представлении методических подходов, которые могут применяться в данном направлении. Результаты исследования показывают, что личности с развитыми волевыми качествами достигают более высоких результатов, особенно в процессе спортивной подготовки, что способствует как повышению качества обучения, так и развитию таких качеств, как выносливость и психологическая устойчивость.

**Giriş.** Mövzunun müəyyənləşdirilməsi və seçilmə səbəbi. Kompüter texnologiyalarının və süni intelektin sürətlə inkişaf etdiyi eyni zamanda getdikdə daha da yayıldığı dövrümüzdə artlq şagird və tələbələr hər hansı bir araşdırmaya vaxt ayırmaq istəmir, bir başa bu vasitələrdən istifadə edərək bir neçə saniyədə məqsədlərinə çatırlar. Bu da onları getdikdə daha səbirsiz edir. Zamanla sərbəst düşünmə qabiliyyətlərində axsamalar olur. Məhz bunun qarşısını almaq üçün iradənin kiçik yaşdan etibarən inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. İnsan asan olan yola deyil öz iradəsinin köməyi ilə daha çətin, lakin öyrədici və səmərəli yolu seçməlidir. Bunun üçündə iradənin nə olduğunun və necə inkişaf etdirilə biləcəyinin əhəmiyyəti getdikcə artır. Mövzunun seçilməsinin əsas səbəbi də iradənin əhəmiyyətini və xüsusilə idman təlimindəki rolunu qismən aydınlaşdırmaqdan ibarətdir.

*Tədqiqatın fərziyyəsi*. Əgər iradə kiçik yaşdan etibarən uşaqlarda formalaşdırıla bilsə və uşaq mövcud şəraitdə öz iradəsini nümayış etdirməyə uşaqlıqdan hazır olsa bu onun öyrənmə nəticələrinin yüksəlməsinə səbəb ola bilər və eyni zamanda öyrəndiklərini nümayiş etdirmək bacarığına yiyələnəcəkdir.

*Tədqiqatın məqsədi*. Bu məqalənin əsas məqsədi xüsusən idman təlimi dərslərində iradənin necə əhəmiyyətli olduğunu aydınlaşdırmaq və iradəsini düzgün istifadə edən insanla düzgün istifadə edə bilməyənin arasında olan fərqləri müəyyən etməkdən ibarətdir.

*Tədqiqatın vəzifələri:*

- İradə anlayışının nə olduğunu və hansı şəraitdə meydana çıxdığını müəyyən etmək;
- İdman dərslərində iradənin necə inkişaf etdiyini müəyyənləşdirmək;
- İnkişaf etmiş iradənin təlim prosesində hansı uğurlara gətirə biləcəyini aydınlaşdırmaq.

**Materiallar və metodlar.** İradənin inkişaf etdirildikdən sonra tətbiqi ilə şagirdlərin motivasiyası və öyrənmə nəticələrinə təsirini müəyyənləşdirmək məqsədilə aparılmışdır.

*Tədqiqat materiallarının ümumi təsviri:*

Tədqiqat materiallarına psixilogiya kitabları, iradə mövzusunda aparılmış tədqiqatlar, idman dərslərində aparılmış müşahidələr, tarixdə yüksək iradə göstərib qələbə qazanmış idmançıların həyatları üzərində aparılmış araşdırmalar aiddir.

*Nəzəri-metodoloji baza:*

Tədqiqat oyunla təlim, şagirdyönümlü təlim nəzəriyyələri üzərində qurulmuşdur.

Tətbiq olunan metod və üsullar

- İradənin inkişaf etdirilə biləcəyi idman dərslərinin tədbiqinin metod və üsulları

Xarici aləmi qarşıya qoyulmuş məqsədəmüvafiq şəkildə dəyişdirməyin inikasından ibarət olan psixi prosesə iradə deyilir [1, s. 42]. İradə hər zaman xarici aləmin əks olunmasından ibarətdir. Xarici aləm insanın tələblərinə, arzu və istəklərinə tam cavab vermir. Bu zaman insan öz yaradılışının gətirdiyi tələblərə uyğun olaraq xarici aləmi dəişdirmək qərarına gəlir. Bu prosesin nəticəsi olaraq insan öz iradəsini nümayiş etdirir. Bu fikirlərdən belə bir nəticə əldə etmək mümkündür ki, insan iradəsinin meydana çıxmasının bir səbəbi var və bu səbəb ətraf mühitin yəni insan ətrafında baş verən proseslərin özüdür. Bu proseslər insanın əməyi və ya istəyi nəticəsində baş vermir. Lakin insan bu prosesləri cavab olaraq öz iradəsini təzahür etdirir. Bu fikirləri əsas kimi qəbul etsək düşünməyə haqqımız var ki, iradəni heç bir səbəbdən asılı olmayan, səbəbsiz baş verən proses kimi yəni hər hansı bir fövqəlbəşər qüvvənin təzahürü kimi izah etməyə çalışan idealist filosof və psixoloqlar tamamilə səhv edirlər.

Tarixi mənbələr göstərir ki, iradənin təzahürü insanın yaşadığı tarixi şəraitdən asılıdır. Məsələn: Müharibə şəraitində ki, sadə insan bu şəraitinin döğurduğu səbəblərdən asılı olaraq güclü iradə göstərib çətin qərarlar qəbul edə və nəticə etibari ilə qələbə əldə edə bilər. Belə ki, həmin sadə insan adi şəraitində bu dözüm və mətanəti göstərə bilməzdi.Buda onu göstərir ki, insan iradəsinin əksi qarşıya qoyulmuş məqsədə nail olmaq istəyi, bu məqsəd zamanı qarşıya çıxan xarici və daxili maneələri dəf etməyə yönəlməsi qabiliyyətindən yəni obyektiv səbəblərdən meydana gəlir.

İradənin ən mühüm xüsusiyyəti kimi onun şüurlu və məqsədyönlü fəaliyyətdə təzahür etməsini göstərmək olar.

İradə hər zaman müəyyən maneələri dəf etmək üzərində qurulduğu üçün bütün psixi hal və hərəkətləri yalnız bir ümumi məqsəd üzərində cəmləşdirir. Bu məqsəd psixoloji ədəbiyyatda iradi cəhd adlanır. İradi cəhd psixi fəaliyyətin məqsədə çatmaq üçün səfərbər edilməsində ifadə olunan psixi haldır [1. s. 43].

İradə insanın əsas işi görməsinə mane olan proseslərin: arzu, istək və tələblərin cilovlana bilməsi bacarığında özünü göstərir. İradə insanın öz üzərində hakimiyyət qura bilmə bacarığında özünü göstərir. İradə insanın öz üzərində şüurlu

şəkildə tam hakimiyyəti deməkdir. Belə bir misal göstərə bilərik: Universitetə qəbul olmağı istəyən iki şagird nümunəsinə baxaq: Onlardan biri bunun üçün xüsusi ayrılmış müəllimlərin köməyindən istifadə edir, lakin, tez-tez dərs prosesini bölür, fikri dağılır bununla birlikdə ailə və dost yığıncaqlarında iştirak etmək üçün dərslərdə fasilələr verir. Digər şagirdə xüsusi ayrılmış müəllimlərin köməyindən istifadə edir lakin o tam diqqətini dərslərinə verir. Hazırlıq psosesində hər hansı artıq və diqqət dağıdan hallara yol vermir. Zəruri olmadıqda nəinki dostları ilə mənasız yığıncaqlara vaxt ayırmır ailə yığıncaqlarında belə iştirak etmək üçün dərslərinə ara vermir. Nizam-intizama ciddi riyət edir. Qida və istirahət proqramına əməl etmək üçün əlindən gələni edir. Hər iki şagird nəticə etibari ilə imtaha girir. Birinci şagird uğursuzluq qazanır, ikinci isə nümayiş etdirdiyi güclü iradə nəticəsində öz psixikası üzərində tam nəzərət əldə edir və nailiyyət qazana bilir. Bu həmdə bizə bir daha onu sübut edir ki, iradə heçdə idealistlərin dediyi kimi öz başına yaranmır. Eyni şəraitə sahib iki şagirdin biri uğursuzluq digəri isə uğur əldə edir. Bu a onu göstərir ki, iradə şüurlu şəkildə təzahür olunur və onun əks olunmasında ətraf-mühit rol oynayır.

Bütün bu yazılanlar bu nəticəyə gəlməyə səbəb olur ki, insan həyatında əldə etdiyi bütün nailiyyət və məğlubiyyətlərdə iradənin bir-başa və effektiv rolu var. Bəs iradənin əsas terminlərindən biri olan iradi iş nədir? Xüsusiyyətləri nələrdir?. Çətinlikləri aradan qaldırmaq üçün olan işə iradi iş deyilir. Psixoloqlar insanın hər hansı bir iradi işini iki mərhələ bölürlər. Birinci mərhələ hər hansı işə başlamazdan əvvəl onu fikrən aydınlaşdırıb plan qurmaqdan, işin mərhələlərini aydınlaşdırmaqdan ibarətdir. İkinci mərhələ isə işə bilavasitə başlayıb onu tamamlamaqdan ibarətdir. Əgər iş tamamlanmırsa yarımçıq qalırsa bu zaman iradə təzahür olunmuş sayıla bilməz. İradənin əks olunması üçün birinci mərhələ ikinci üçün müəyyən zəmin yaradırsa da əsas olan işin yekunlaşması yəni ikinci mərhələdir.

İradə insan həyatının hər bir mərhələsinə təsir göstərir. Təlim prosesində də iradə əsas şərtlərdən biridir. Eyni zamanda idman təlimində də iradənin özünə məxsus rolu və xüsusiyyətləri vardır. İdmançılar və idmanla məşğul olan tələbələr müxtəlif maneələrlə qarşılaşdıqları zaman iradə fəaliyyətin nəticəsinə birbaşa təsir göstərir. Psixoloqların fikrincə, idmanda və təlim prosesində iradə yalnız anadangəlmə xüsusiyyət deyil, həm də sosial və pedaqoji təsirlər nəticəsində formalaşan psixoloji keyfiyyətdir [2, s. 54]. Bu səbəbdən təlim və məşq prosesində iradi keyfiyyətlərin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

İdmanda və təlim prosesində iradi fəaliyyət bir neçə mərhələdən ibarətdir. Bu mərhələlərə qısa nəzər salaq.

Psixoloji ədəbiyyatda iradi fəaliyyət bir neçə mərhələdən ibarət olan proses kimi izah olunur. Birinci mərhələ məqsədin formalaşması mərhələsi kimi qəbul olunur. Bu mərhələdə insan fəaliyyətə başlamaq üçün səbəblər əldə edir və məqsəd qəbul edir. İkinci mərhələ qərar qəbul etmə mərhələsi hesab olunur. Bu mərhələdə insan müxtəlif seçimlər arasında fəaliyyət istiqamətini müəyyənləşdirir.eynilə yuxadi göstərilən şagird nümunəsində olduğu kimi. Üçüncü mərhələ qərarın icrası mərhələsidir. Bu mərhələdə ən əsas mərhələ hesab oluna bilər, çünki iradənin ən əsas özünü göstərdiyi mərhələ məhz bu mərhələ olacaqdır. Dördüncü mərhələ hər bir prosesdə olduğu kimi nəticələrinin qiymətləndirilməsi mərhələsidir. Bu mərhələdə əldə olunan nəticələr təhlil edilir və gələcək fəaliyyət üçün nəticə çıxarılır. Şagird nümunəsində göstərildiyi kimi iradə zəifliyi göstərən şagird uğursuzluqla qarşılaşdı və gələcəkdə uğur əldə edə bilməsi üçün güclü iradəyə sahib olması lazım olduğunu dərk etdi ( Bəzi hallarda nəticələr düzgün təhlil olunmur və iradənin möhkəmləndirilməsi lazım olduğu qəbul edilmir. Sadəcə olaraq ətraf mühit və digər səbəblər əsas gətirilməklə yanlış nəticələr əldə edilir və iradə getdikcə zəifləyir).

İdman iradənin inkişafı üçün əlverişli hesab edilən sahələrdən biridir. Məşq və idman dərsi prosesində idmançı və idmanla məşğul olan həvəskarlar müxtəlif çətinliklərlə qarşılaşır və bu çətinliklərin aradan qaldırılması iradənin meydana çıxmasına və inkişafına səbəb olur. Dözümlülük, qətiyyət, özünənəzarət idmançı üçün mühüm iradi keyfiyyətlərdir. İdman psixologiyası sahəsində aparılan araşdırmalar göstərir ki, güclü iradi keyfiyyətlərə malik idmançılar stress və yorğunluq vəziyyətində daha dəqiq və inamlı fəaliyyət göstərirlər. İdmanda olduğu kimi təlim prosesində də iradənin inkişaf etdirilməsi tələbələrin elmi fəaliyyətinə müsbət təsir göstərir. Onlar daha inamlı, dözümlü və məqsədtönlü olurlar.

İradənin gənclərdə inkişaf etdirilməsində müəllim və məşqçilərin rolu danılmazdır. Müəllimlər tələbələrdə və şagirdlərdə qarşıya

məqsəd qoymaq bacarığını inkişaf etdirməli və bu məqsədə inmala addımlamağı bacarmağı aşılamalıdırlar, müstəqil qərar qəbul etmə vərdişlərini formalaşdırmalıvə bu qərarın düzgünlüyü təhlil edə bilmə bacarığı aşılamalıdırlar. Bunun üçün motivasiya yaradan təlim metodlarından istifadə etməlidirlər. İdman məşqlərində mərhələli və sistemli məşq proqramlarının tətbiqi iradənin formalaşmasına müsbət təsir göstərir.

**Nəticə.** Bu məqalə tarixin bütün dövrlərində olduğu kimi, müasir və daima inkişaf edən zamanında əsas məsələlərindən biri olan iradə və onun formalaşmasına dair tərtib edilmişdir. Tədqiqatın əvvəlində verilən əsas suallardan biri iradə necə formalaşır olmuşdur. Məqalənin gedişində bu nəticəyə gəlinmişdir ki, idealist filosof və psixoloqların " İradə insana ilahi qüvvə tərəfindən verilmişdir" fikri tamamilə səhvdir. Çünki iradənin özünü göstərməsi üçün müəyyən mühit olmalıdır. Bu mühit mövcud olduqda isə yenə də hər bir insan fərqli iradə formaları göstərəcəkdir. Belə ki, yuxarıda verilən müharibə nümunəsində sadə insanın yaranmış mühit qarşısında iradə formalaşdıraraq nəticə əldə etdiyi göstərilmişdir. Əgər idealistlərə inansaq bu zaman ömrü boyu sadə yaşayıb, heç bir qəti qərar qəbul edə bilməyən insan xüsusi şəraitdə də qərarsız və müti olmalı idi. Lakin tarix və aparılan araşdırmalar bunun tam əksini sübut edir.

İkinci sual olan idmanın iradənin inkişafında rolu varmı sualına gəldikdə isə yenədə psixoloqların əksəriyyəti belə nəticəyə gəlmişdirlər ki, düzgün və sistemli təşkil edilmiş idman məşqçilərin və müəllimlərin düzgün yönləndirməsi ilə iradənin inkişafına səbəb ola bilər. Çünki belə təşkil olunan idman məşğul olanlarda dözümlülük, məqsədyönlülük kimi keyfiyyətləri inkişaf etdiri və iradi cəhdin ikinci şərti olan məqsədə çatma bacarığına yiyələnməyə kömək edir.

Nəticə olaraq onu qeyd etmək olar ki, məqalə qarşısına qoyduğu tədqiqat suallarına cavab verə bilmişdir. Və məqalənin aktuallığı sübut edilmişdir. Çünki zamanından asılı olmayaraq iradə hər zaman insan fəaliyyətinin əsas meyarlarından biri olaraq qalacaqdır. Və insan beyninin yaranmış vəziyyətə göstərdiyi hətta öz temperamentinə zidd olan iradi proseslərin daha dərindən öyrənilməsinə hələ də ehtiyac vardır. Xüsusilə idman yarışlarında qələbəyə aparan iradənin çox böyük əhəmiyyəti vardır. Tarixi nümunə kimi məşhur atlet Naim Süleyman oğlunu göstərə bilərik. Belə ki, o öz ağırlığından dəfələrlə ağır ağırlığı qaldıraraq böyük iradə nümunəsi göstərmişdir. Onun məqsədi xalqının gördüyü zülmü dünyaya tanıtmaq idi. Bu da onda yaranmış vəziyyətlə iradi cəhdin hər iki mərhələsini yerinə yetirməyə şərait yaratdı. Əlbətdə bu qələbədə iradənin inkişafı üçün illərlə əməl olunan idman disiplinini danmaq olmaz.

Yuxarıda göstərilən faktlar və sübutlar isbat edir ki, bu məqalə aktualdır və hələ uzun illər aktual olaraq qalacaqdır.

**Yekun nəticə.** Məqalə xülasədə qarşıya qoyulan bütün suallara cavab vermişdir. Nəticə hissədə ətraflı izah verilmişdir. Məqalənin gedişində mövzunun hələ də aktual olduğu həqiqətəndə sübut edilmişdir. Bunun üçün tarixi mənbələrdən, müqayisəli məsəllərdən və ədəbiyyatdan istifadə olunmuşdur.

**Ədəbiyyat**

**Əsas:**

1. Zəkuzadə, Ə. Psixologiya. 2 hissədə, II hissə / Ə.Zəkuzadə, Ş.Ağayev, A.Abdullayev, Ç.Mustafayeva. Azərbaycan Dövlət Tədris – Pedaqoji Ədəbiyyatı nəşriyyatı. – 1961. – 171 s.
2. İlyin, E.P. Psixologiya voli. Sankt-Peterburq: Piter, – 2009. – 214 s.

**Əlavə:**

3. Hüseynova, G.Q., Vəliyeva, Y.Ə. Emosiyaların psixologiyası / G.Q.Hüseynova, Y.Ə.Vəliyeva. – Bakı: – 2022. 284 s.
4. Əliyev, R. İdman psixologiyası / R.Əliyev. – Bakı: Təhsil, – 2010. – 312 s.
5. Hüseynov, A. Pedaqogika / – Bakı: Təhsil, – 2015. – 501 s.
6. Məmmədov, A. İdman nəzəriyyəsi və metodikası / A.Məmmədov. – Bakı, – 2012. – 454 s.

*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.102-104*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.102-104*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.102-104*

**UOT: 372.874:73:37.036**

# Təsviri incəsənət dərslərində heykəltaraşlıq vasitəsilə yaradıcı bacarıqların inkişafı

**Müəllif(lər):**

**Rübabə İmanlı**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** rubabeimanli@gmail.com

**Toğrul Əsgərov**
Naxçıvan Müəllimlər İnstitutu
Magistr
**E-poçt:** Toghrulaskerov17@gmail.com

**Açar sözlər:** heykəltəraşlıq, yaradıcılıq, təsviri incəsənət, konstruktivist yanaşma, 3D təfəkkür

**Annotasiya.** Tədqiqatın məqsədi təsviri incəsənət təhsilinin, xüsusilə heykəltəraşlıq fəaliyyətlərinin şagirdlərin yaradıcılıq qabiliyyətlərinin, çoxşaxəli intellekt sahələrinin və analitik düşünmə bacarıqlarının inkişafına təsirini araşdırmaqdan ibarətdir. Müasir dövrdə texnologiyanın sürətli inkişafı və onun təhsil sisteminə inteqrasiyası fonunda şagirdyönümlü və konstruktivist yanaşmaların tətbiqi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan təsviri incəsənət təhsili şagirdlərin emosional, estetik və yaradıcı inkişafını təmin etməklə yanaşı, onların özünüifadə və özünü kəşfetmə imkanlarını genişləndirən mühüm vasitə kimi çıxış edir.

Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil və pedaqoji yanaşmaların analizi metodlarından istifadə edilmişdir. Şagirdlərin müxtəlif materiallarla işləməsi, yaradıcı fəaliyyətlərə cəlb olunması və fərdi öyrənmə üslublarının nəzərə alınması əsas metodoloji istiqamətlər kimi müəyyənləşdirilmişdir. Araşdırmanın praktik əhəmiyyəti ondan ibarətdir ki, təsviri incəsənət, xüsusilə heykəltəraşlıq fəaliyyəti şagirdlərin problem həll etmə, əməkdaşlıq, məkan təsəvvürü və yaradıcı düşünmə bacarıqlarının inkişafına mühüm təsir göstərir, eyni zamanda müəllimlər üçün tədris prosesinin daha səmərəli təşkili baxımından geniş imkanlar yaradır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, yaradıcı mühitin təşkili şagirdlərin analitik və mücərrəd düşünmə qabiliyyətlərini gücləndirir, onları qeyri-standart yanaşmalara daha açıq edir və yüksək səviyyədə özünüidarəetmə, müstəqillik və intizam keyfiyyətlərinin formalaşmasına şərait yaradır. Beləliklə, təsviri incəsənət təhsili şagirdlərin həm intellektual, həm də emosional inkişafında mühüm rol oynayaraq onların hərtərəfli şəxsiyyət kimi formalaşmasına xidmət edir.

**Author(s):**

**Rubaba Imanli**
Nakhcivan Teachers Institute
Teacher
**E-mail:** rubabeimanli@gmail.com

**Togrul Asgarov**
Nakhcivan Teachers Institute
Master student
**E-mail:** Toghrulaskerov17@gmail.com

**Keywords:** sculpture, creativity, visual arts, constructivist approach, 3D thinking

## Development of creative skills through sculpture in visual arts classes

**Abstract.** The purpose of the research is to investigate the impact of visual arts education, particularly sculptural activities, on the development of students' creative abilities, multiple intelligence domains, and analytical thinking skills. In the modern era, characterized by the rapid development of technology and its integration into the educational system, the application of student-centered and constructivist approaches has become especially relevant. In this context, visual arts education serves as an important means of fostering students' emotional, aesthetic, and creative development while also expanding their opportunities for self-expression and self-discovery.

The study employed methods of observation, comparative analysis, and the analysis of pedagogical approaches. Working with various materials, engaging students in creative activities, and considering individual learning styles were identified as the main methodological directions. The practical significance of the research lies in the fact that visual arts education, especially sculptural activities, significantly contributes to the development of students' problem-solving, collaboration, spatial imagination, and creative thinking skills, while also providing teachers with broad opportunities for organizing the teaching process more effectively.

The findings of the study indicate that the organization of a creative environment strengthens students' analytical and abstract thinking abilities, makes them more open to non-standard approaches, and creates favorable conditions for the development of self-management, independence, and discipline at a high level. Thus, visual arts education plays a significant role in both the intellectual and emotional development of students, contributing to their formation as well-rounded individuals.

**Автор(ы):**

**Рубаба Иманлы**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** rubabeimanli@gmail.com

**Тогрул Аскеров**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** Toghrulaskerov17@gmail.com

**Ключевые слова:** скульптура, творчество, изобразительное искусство, конструктивистский подход, 3D-мышление

## Развитие творческих способностей посредством скульптуры на уроках изобразительного искусства

**Аннотация**. Целью исследования является изучение влияния художественного образования, в особенности занятий скульптурой, на развитие творческих способностей учащихся, сфер множественного интеллекта и аналитического мышления. В современных условиях стремительного развития технологий и их интеграции в систему образования особую актуальность приобретает применение личностно-ориентированных и конструктивистских подходов. В этом контексте художественное образование выступает важным средством, обеспечивающим эмоциональное, эстетическое и творческое развитие учащихся, а также расширяющим их возможности самовыражения и самопознания.

В ходе исследования были использованы методы наблюдения, сравнительного анализа и анализа педагогических подходов. Основными методологическими направлениями определены работа учащихся с различными материалами, их вовлечение в творческую деятельность и учёт индивидуальных стилей обучения. Практическая значимость исследования заключается в том, что занятия изобразительным искусством, особенно скульптурой, оказывают существенное влияние на развитие навыков решения проблем, сотрудничества, пространственного воображения и творческого мышления учащихся, а также создают широкие возможности для более эффективной организации учебного процесса преподавателями.

В результате исследования установлено, что организация творческой среды способствует развитию аналитического и абстрактного мышления учащихся, делает их более открытыми к нестандартным подходам и создаёт условия для формирования высокого уровня самоуправления, самостоятельности и дисциплины. Таким образом, художественное образование играет важную роль как в интеллектуальном, так и в эмоциональном развитии учащихся, способствуя формированию всесторонне развитой личности.

**Giriş.** Müasir cəmiyyətlərdə texnologiyada yeniliklərin meydana çıxması və onların təhsil sistemlərində əks olunması fərdlər üçün müsbət nəticələr verir. Təsviri incəsənət təhsilinin çoxsaylı tətbiq sahələrinə malik olması və bir çox metod və üsullardan istifadə etməsi fərdlərə bir çox öyrənmə mühitində fəaliyyətlə məşğul olmağa imkan verir və bu fəaliyyətlər vasitəsilə fərdlər öz meyllərindən xəbərdar olurlar. Çoxlu kəşfiyyat sahələrinin prosesə fəal cəlb edilməsi çoxsaylı öyrənmə fəaliyyətlərini dəstəkləyir. Bunun səbəbi, bir neçə şəxsin fəaliyyətlə məşğul olması və bu şəxslərin bir-birindən fərqli olmasıdır. Hər bir şagirdin fəal şəkildə istifadə edə biləcəyi ən azı bir zəka sahəsi var. Prosesdə digər kəşfiyyat sahələri də aktiv ola bilər və ya bu, uşağın beyninin hər iki yarımkürəsindən istifadə etdiyini göstərir. Cəmiyyətin daha çox şüurlu olması üçün fərdlərin özünü kəşf edə bilən və sənət səyahətinə istiqamət verə bilən şüurlu fərdlərə ehtiyacı var. Bu təhsil vasitəsilə mümkün ola bilər. Tədris proqramının bir hissəsi olan və fərdlərin incəsənətlə birbaşa əlaqə qura biləcəyi sahəni təmin edən vizual sənət təhsili mühüm təhsil fənlərindən biridir.

Təsviri incəsənət daha çox diqqətə layiq olan və mütərəqqi və konstruktivist təhsil fəlsəfələri ilə getdikcə əhəmiyyət kəsb edən fənlərdən biridir. Təsviri incəsənət vasitəsilə fərdlər digər fənlərin yaratdığı əqli və fiziki yorğunluqdan uzaqlaşaraq, emosional və mənəvi rahatlıq təmin edən məkanlar yaradırlar. Bu məkanlar fərdlərin sərbəst hərəkət edə biləcəyi və düşünə biləcəyi mühitlər olmalıdır. Çünki fərdlər yalnız öz yaşayış sahəsini qurduqları zaman mənalı nəticələr əldə edə bilərlər. Öyrənmə subyektiv olmalıdır; müəllimlər birbaşa obyektiv məlumat ötürməməlidirlər. Belə inkişaf edən öyrənmə sistemində uşaqlar yaratdıqları məhsullarda öz yaradıcılıqlarını nümayiş etdirəcəklər. Xüsusilə prosesdə çoxlu material və modellərdən istifadə yaradıcılığı artıracaq və şagirdin prosesə mənalı qoşulmasına şərait yaradacaq. Fərdin mərkəzdə olduğu, müəllimin bələdçi rolunu oynadığı, öyrənmənin subyektiv şəkildə şagirdlər tərəfindən qurulduğu təsviri incəsənət təhsilində fərdin yaradıcı təfəkkürü artacaq, uşaqda bir çox sahələrə aid ideyalar formalaşacaq.

Bunun üçün müəllimlər tərəfindən proses sistemli şəkildə proqramlaşdırılmalıdır. Prosesin müəllimlər tərəfindən qurulduğu, şagirdlərin yalnız məhdud düşünmə bacarıqlarına malik olduğu, düşüncələrin boğulduğu ənənəvi təlim yanaşmasından imtina etmək və prosesin daha mütərəqqi təhsil yanaşması ilə idarə edilməsi qəbul edilmiş müasir təhsil anlayışını dəstəkləyir. Xüsusilə yaradıcılıq səviyyəsində nəzərə alındıqda, dayaz öyrənmə nümunələrindən imtina etmək və bir çox düşüncə sahələrini dəstəkləmək bu qəbulun nəticəsidir. Çünki yaradıcılıq müəyyən qanunauyğunluqlar və maneələrlə qarşılaşdıqda öz mənasını itirir və fərdə töhfə vermir. Şəxsiyyətin yaradıcılığının inkişafı və yenidən qurulması üçün proses yaxşı idarə edilməli, öyrənmə üslublarına mane olmamalı, psixi maneələrə yol verilməməlidir.

Bununla belə, düzgün imkanlar nəzərə alınmaqla, heykəltəraşlıq bacarıqları inkişaf etdirmək üçün gözəl bir sahədir. Heykəltəraşlar müxtəlif materiallardan və tapılan əşyalardan heykəllər yaratmaq üçün kəsmək, birləşdirmək, formalaşdırmaq, əymək, qatlama, tikiş, qaynaq, boltlar, bağlama, toxuma və balanslaşdırma kimi bacarıq və üsullardan istifadə edirlər. Heykəltaraşlıq vasitəsilə məftilləri əymək, sabun oymaq və ya taxta kəsib formalaşdırmaq olar. Biz həmçinin materialları daha geniş miqyasda modelləşdirə bilərik. Biz bütün bədənimizi və hisslərimizi özündə birləşdirən kinetik heykəllər və ya heykəllər yarada bilərik.

Heykəltaraşlıq məncə, məktəbdə etdiyimiz ən faydalı və cəlbedici yaradıcı fəaliyyətlərdən biridir. Bəli, bu, təcrübə tələb edir, səliqəsiz və bahalıdır, lakin eyni zamanda inanılmaz dərəcədə əyləncəli, çətin və mürəkkəbdir. Bu, şagirdlərdən plan qurmağı, həm iki, həm də üç ölçüdə düşünməyi, təcrübə aparmağı, problem həll etməyi və əməkdaşlıq etməyi tələb edir. O, bütün bacarıqlarımızı inkişaf etdirir, eyni zamanda təxəyyül və yaradıcılığımızı stimullaşdırır.

**Müzakirə və nəticə.** Tədqiqat izah edir ki, yaradıcı mühitin təşviqi uşaqlara mücərrəd və analitik düşünmə bacarıqlarını inkişaf etdirməyə, onların vizual-məkan qavrayışını kəskinləşdirməyə və qeyri-ənənəvi düşüncəyə daha açıq olmağa kömək edir. Yaradıcı mütəfəkkirlər insanlar və vəziyyətlər haqqında mühakimə yürütməyi dayandırmaqda və gender stereotiplərindən qaçmaqda daha bacarıqlıdırlar. Onlar yüksək

dərəcədə muxtariyyətə malikdirlər və peşəkar məsələlərdə intizam nümayiş etdirirlər. Onlar həzzi gecikdirmək, qeyri-müəyyənliyə dözmək və yüksək səviyyədə özünü idarə etmək qabiliyyətinə malikdirlər.

**Nəticə.** Sənət həyatda və fərdlə birlikdə olduğu müddətcə mövcud olmağa davam edəcək. Keçmişdən gələcəyə doğru təkamül edəcək, hər dövrün anlayışı dəyişdikcə yeni yanaşmalar mənimsəyəcək, cəmiyyəti istiqamətləndirəcək. Bununla da fərd həm özünü irəli aparacaq, həm də cəmiyyəti işıqlandıracaqdır.

**Ədəbiyyat**

1. Abbasova, A. Təsviri incəsənətin tədrisi metodikası. – Bakı: Elm və Təhsil, – 2018.
2. Əliyeva, S.M. Uşaqlarda yaradıcı təfəkkürün inkişafı. – Bakı: Müəllim nəşriyyatı, – 2019
3. Bayramov, Ə.Ə. Təsviri incəsənət dərslərində praktik fəaliyyətin rolu // Azərbaycan Pedaqoji Jurnalı. – 2017, №3, – s.45-52
4. Hüseynov, R. Heykəltaraşlıq əsasları. – Bakı: Təhsil nəşriyyatı, – 2020.
5. Qasımova, L.A. İncəsənət təlimində estetik tərbiyə məsələləri // Mədəniyyət və Təhsil. – 2016. №2, – s.33-39.
6. Məmmədov, F. Yaradıcı bacarıqların formalaşdırılmasının pedaqoji əsasları. – Bakı: Elm, –2015.

*Məqalə sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2026, son daxilolma – 10.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.105-107*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.105-107*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.105-107*

**UOT: 811.111:008:316.77**

# The role of intercultural communication in the enrichment of the English language

**Author(s):**

**Aynur Isayeva**
Nakhcivan Teachers Institute
Teacher
**E-mail:** Aynurisayeva@nmi.edu.az

**Keywords:** intercultural communication, enrichment of the English language, globalization and language, linguistic borrowings, cultural diversity

**Abstract.** This article examines the role of intercultural communication in the enrichment of the English language and analyzes the influence of cultural interaction on the historical development of the language, as well as the continuation of this process in the modern era. Functioning as a global lingua franca, the English language has evolved through continuous contact with diverse cultures, adopting lexical units, idioms, and concepts from numerous linguistic traditions. Historical processes such as colonialism, trade, and migration contributed to the widespread use of words and expressions borrowed from Latin, French, Scandinavian, Arabic, Hindi, and Chinese in everyday speech. These interactions not only enriched the vocabulary of the English language but also reflected the social and cultural realities of different historical periods.

In the contemporary era, globalization, technological advancement, and mass media have further accelerated this process, enabling the incorporation of terms related to digital culture, science, and international cooperation into English. Migration processes and the development of multicultural societies have led to the emergence of idioms, slang expressions, and hybrid linguistic forms reflecting diverse social experiences and identities. Intercultural communication is not limited to the introduction of new lexical items; it also expands the expressive potential of the English language, creating opportunities for the articulation of complex ideas and diverse worldviews. This adaptive process strengthens the flexibility and inclusive character of English, ensuring its responsiveness to the demands of global communication.

The study emphasizes that cultural diversity is one of the principal factors behind the dynamic development of the English language. English serves not only as a means of communication but also as a carrier of cultural memory reflecting mutual interaction and shared knowledge among peoples. Consequently, the English language functions as a living archive of intercultural exchange, demonstrating the continuous and significant role of cultural interaction in linguistic development.

## İngilis dilinin zənginləşməsində mədəniyyətlərarası ünsiyyətin rolu

**Müəllif(lər):**

**Aynur İsayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** Aynurisayeva@nmi.edu.az

**Açar sözlər:** mədəniyyətlərarası ünsiyyət, ingilis dilinin zənginləşməsi, qloballaşma və dil, dil borcları, mədəni müxtəliflik

**Annotasiya.** Bu məqalədə ingilis dilinin zənginləşməsində mədəniyyətlərarası ünsiyyətin rolu araşdırılır, mədəni qarşılıqlı təsirin tarix boyu dilin inkişafına göstərdiyi təsir və müasir dövrdə bu prosesin davam etməsi təhlil edilir. Qlobal lingua franca kimi fəaliyyət göstərən ingilis dili müxtəlif mədəniyyətlərlə davamlı təmas nəticəsində formalaşmış, çoxsaylı dil ənənələrindən lüğət vahidlərini, idiomları və konseptləri mənimsəyərək inkişaf etmişdir. Müstəmləkəçilik, ticarət və miqrasiya kimi tarixi proseslər nəticəsində latın, fransız, skandinaviya, ərəb, hindi və çin dillərindən alınmış söz və ifadələr gündəlik nitqdə geniş yayılmışdır. Bu qarşılıqlı təsirlər yalnız ingilis dilinin söz ehtiyatını zənginləşdirməmiş, həm də müxtəlif dövrlərin sosial və mədəni reallıqlarını əks etdirmişdir.

Müasir dövrdə qloballaşma, texnoloji inkişaf və media vasitələri bu prosesi daha da sürətləndirmiş, rəqəmsal mədəniyyət, elm və beynəlxalq əməkdaşlıq sahələrinə aid terminlərin ingilis dilinə daxil olmasına şərait yaratmışdır. Miqrasiya prosesləri və multikultural cəmiyyətlərin inkişafı müxtəlif sosial təcrübələri və kimlikləri ifadə edən idiomların, jarqonların və hibrid ifadələrin yaranmasına səbəb olmuşdur. Mədəniyyətlərarası ünsiyyət yalnız yeni leksik vahidlərin əlavə olunması ilə məhdudlaşmır, eyni zamanda ingilis dilinin ifadə imkanlarını genişləndirərək mürəkkəb ideyaların və müxtəlif dünyagörüşlərinin ifadəsinə şərait yaradır. Bu uyğunlaşma prosesi ingilis dilinin çevikliyini və inklüziv xarakterini gücləndirərək onun qlobal kommunikasiya tələblərinə cavab verməsini təmin edir.

Tədqiqatda vurğulanır ki, mədəni müxtəliflik ingilis dilinin dinamik inkişafının əsas amillərindən biridir. İngilis dili yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqlar arasında qarşılıqlı əlaqələrin və ortaq biliklərin əks olunduğu mədəni yaddaş daşıyıcısı kimi çıxış edir. Nəticə etibarilə, ingilis dili mədəniyyətlərarası mübadilənin canlı arxivi funksiyasını yerinə yetirərək, mədəni əlaqələrin dilin inkişafında davamlı və mühüm rol oynadığını nümayiş etdirir.

## Роль межкультурной коммуникации в обогащении английского языка

**Автор(ы):**

**Айнур Исаева**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** Aynurisayeva@nmi.edu.az

**Ключевые слова:** межкультурная коммуникация, обогащение английского языка, глобализация и язык, языковые заимствования, культурное разнообразие

**Аннотация**. В данной статье исследуется роль межкультурной коммуникации в обогащении английского языка, а также анализируется влияние культурного взаимодействия на развитие языка на протяжении истории и продолжение данного процесса в современную эпоху. Английский язык, функционирующий как глобальный lingua franca, формировался в результате постоянного контакта с различными культурами, усваивая лексические единицы, идиомы и концепты из многочисленных языковых традиций. Такие исторические процессы, как колониализм, торговля и миграция, способствовали широкому распространению в повседневной речи слов и выражений, заимствованных из латинского, французского, скандинавских, арабского, хинди и китайского языков. Эти взаимодействия не только обогатили словарный состав английского языка, но и отразили социальные и культурные реалии различных исторических эпох.

В современный период глобализация, технологическое развитие и средства массовой информации ещё больше ускорили данный процесс, способствуя включению в английский язык терминов, связанных с цифровой культурой, наукой и международным сотрудничеством. Миграционные процессы и развитие мультикультурных обществ привели к возникновению идиом, жаргонизмов и гибридных выражений, отражающих разнообразные социальные практики и идентичности. Межкультурная коммуникация не ограничивается лишь добавлением новых лексических единиц, но и расширяет выразительные возможности английского языка, создавая условия для выражения сложных идей и различных мировоззрений. Этот адаптационный процесс усиливает гибкость и инклюзивный характер английского языка, обеспечивая его соответствие требованиям глобальной коммуникации.

В исследовании подчёркивается, что культурное разнообразие является одним из ключевых факторов динамичного развития английского языка. Английский язык выступает не только средством общения, но и носителем культурной памяти, отражающей взаимосвязи и общие знания народов. В результате английский язык функционирует как живой архив межкультурного обмена, демонстрируя устойчивую и значимую роль культурных контактов в развитии языка.

**Introduction**. Language is not a static entity; it evolves through constant interaction with societies, cultures, and individuals. English, in particular, has become the most widely used international language, serving as a medium of communication across diverse cultural contexts. Its global spread has been accompanied by continuous enrichment through intercultural communication. From historical encounters such as colonization and trade to contemporary exchanges driven by migration, technology, and media, English has absorbed countless words, idioms, and cultural concepts. This process has not only expanded its vocabulary but also enhanced its ability to express complex ideas and accommodate different worldviews. Intercultural communication thus plays a crucial role in shaping English into a dynamic, inclusive, and globally relevant language. Studying this phenomenon provides valuable insight into how cultural diversity sustains linguistic vitality and ensures the adaptability of English in an interconnected world.

Historical foundations of English enrichment through intercultural communication

The enrichment of the English language is not a simple story of vocabulary growth; it is a grand narrative of centuries of cultural contact, conquest, trade, and human migration that transformed English into a linguistic mosaic. During the medieval period, English was profoundly reshaped by Latin, French, and Norse influences, each leaving indelible marks on its structure and lexicon. The Norman Conquest alone introduced thousands of French terms, saturating English with words of law, governance, art, and aristocratic life, while Norse settlers contributed everyday vocabulary such as sky, egg, and window, embedding the language with a sense of practicality and daily existence.

As the age of exploration unfolded, English became a vessel for global encounters. Colonial expansion carried the language across continents, where it absorbed treasures of expression from Asia, Africa, and the Americas. Words like bungalow from Hindi, tomato from Nahuatl, and coffee from Arabic and Turkish are not mere borrowings—they are cultural artifacts, reminders of human exchange and the blending of civilizations. Trade routes acted as linguistic arteries, pumping new commodities and their names into English: tea from Chinese, sugar from Sanskrit, and countless others that became inseparable from English life.

These historical layers of borrowing illustrate more than linguistic enrichment; they reveal English as a living archive of global human interaction [5]. Every borrowed word carries with it a story of contact, negotiation, and adaptation. Thus, English is not just a language of Britain or America – it is a language of the world, enriched and sustained by the ceaseless flow of intercultural communication across centuries.

Contemporary influences of intercultural communication on English

In the modern era, the enrichment of English through intercultural communication has reached unprecedented speed and intensity [4]. Globalization has transformed English into a constantly evolving linguistic canvas, painted with the colors of countless cultures. Migration and multicultural societies have infused the language with vibrant idioms, inventive slang, and hybrid expressions that mirror the diverse identities of speakers worldwide. These contributions are not superficial; they reshape the rhythm and texture of English, making it a language that resonates with the voices of many communities.

Technology and digital media have become powerful engines of linguistic change. Words such as emoji from Japanese and karaoke have seamlessly entered everyday English, symbolizing how cultural artifacts travel across borders and embed themselves in global communication [2]. Social networks, online gaming, and international collaboration in science and business act as fertile grounds for new vocabulary, much of which originates from non-English-speaking cultures. The digital age ensures that these borrowings spread instantly, transcending geographical boundaries and embedding themselves in the collective lexicon.

Moreover, English adapts continuously to the demands of global diplomacy and commerce, absorbing specialized jargon that reflects cultural concepts from different regions. Unlike historical borrowings that took centuries to settle, modern influences circulate at lightning speed, reshaping English almost overnight. This ongoing exchange guarantees that English remains flexible, inclusive, and capable of expressing ideas across

cultural boundaries [3]. In this way, intercultural communication does not merely sustain English - it propels it forward, ensuring its dynamism and relevance in the interconnected digital age.

Conclusion. The evolution of English is a testament to the extraordinary power of intercultural communication, which has acted as a relentless driving force in enriching the language across centuries. From the sweeping historical borrowings that accompanied conquests, trade, and exploration to the rapid-fire influences of globalization, migration, and digital media, English has never ceased to absorb new words, expressions, and cultural concepts. This process has not only expanded its vocabulary but has also elevated its adaptability, inclusivity, and expressive depth, allowing it to mirror the complexity of human thought and experience. Today, English stands as far more than a tool of communication – it is a living archive of global interaction, a linguistic tapestry woven from countless cultural threads [1]. Each borrowed word, each adapted idiom, is a marker of human connection, a reminder that languages thrive when cultures meet and exchange. Recognizing the role of intercultural communication in this enrichment underscores the profound importance of cultural diversity in sustaining the vitality of languages. In a rapidly changing world, English remains dynamic and relevant precisely because it embraces difference, absorbs innovation, and reflects the interconnectedness of societies. Ultimately, English is not just the language of one nation or people; it is the language of humanity's shared journey, enriched and sustained by the ceaseless dialogue of cultures across time and space.

**References**

1. Zheng, X., & Gao, Y. Promoting Intercultural Competence in English Language Teaching: A Productive Bilingualism Perspective. – 2019. https://www.researchgate.net/publication/333981203_Promoting_Intercultural_Competence_in_English_Language_Teaching_A_Productive_Bilingualism_Perspective
2. Chun, D.M. Developing Intercultural Communicative Competence through Online Exchanges. – 2011. https://www.researchgate.net/publication/273563993_Developing_Intercultural_Communicative_Competence_through_Online_Exchanges
3. Lee, T.Y., Ho, Y.C., & Chen, C.H. Integrating Intercultural Communicative Competence into an Online EFL Classroom: An Empirical Study in Thailand. Asian-Pacific Journal of Second and Foreign Language Education. Springer. – 2023. https://doi.org/10.1186/s40862-022-00174-1?utm_source=copilot.com
4. Byram, M. Teaching and Assessing Intercultural Communicative Competence. Multilingual Matters. – 2020. https://www.researchgate.net/publication/348063635_Teaching_and_Assessing_Intercultural_Communicative_Competence
5. Alfahran İ. English as a Global Language and the Effects on Culture and Identity. – 2016. https://www.academia.edu/73154278/English_as_a_Global_Language_and_the_Effects_on_Culture_and_Identity
6. Deckker D., Sumanasekara S. The origin of the English language: A historical and linguistic review. https://eprajournals.com/pdf/fm/jpanel/upload/2025/April/202504-02-020926?utm_source=copilot.com

*Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2026, son daxilolma – 03.02.2026, qəbulolunma – 12.03.2026

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.108-113
Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.108-113
Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.108-113

UOT: 811.512.162’366.5:37.016

# Azərbaycan dilində əvəzliklər və onların tədrisi məsələlərinə dair

**Müəllif(lər):**

**Sədaqət Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor
**E-poçt:** sedagethesenova@gmail.com

**Açar sözlər:** morfologiya, əvəzlik, nitq hissələri, dil tədrisi, morfoloji təlim, qrammatik kateqoriyalar

**Annotasiya.** Məqalədə Azərbaycan dilində əvəzliklərin tədrisi prosesində meydana çıxan əsas problemlər və onların həlli yolları araşdırılmışdır. Əvəzliklər dil sistemində mühüm yer tutmaqla yanaşı, struktur və semantik baxımdan mürəkkəb xüsusiyyətlərə malik olduğundan onların mənimsənilməsi şagirdlər üçün müəyyən çətinliklər yaradır. Araşdırmada əvəzliklərin növlərinin, funksiyalarının və istifadə xüsusiyyətlərinin tədrisi zamanı qarşıya çıxan metodik problemlər təhlil edilmişdir.

Tədqiqatda müasir pedaqoji yanaşmaların, xüsusilə kommunikativ və koqnitiv metodların tətbiqinin əhəmiyyəti vurğulanmışdır. Əvəzliklərin tədrisində kontekstual yanaşmanın, praktik tapşırıqların və interaktiv metodların rolu əsaslandırılmış, həmçinin dərs prosesində ənənəvi təlim metodlarından istifadənin əhəmiyyəti göstərilmişdir. Məqalədə nəzəri biliklərin praktik fəaliyyətlə əlaqələndirilməsinin şagirdlərin dil bacarıqlarının inkişafına müsbət təsiri xüsusi olaraq qeyd edilmişdir.

Nəticə etibarilə, əvəzliklərin tədrisinin daha səmərəli təşkili məqsədilə müasir metodoloji yanaşmalarla yanaşı, zəruri hallarda ənənəvi təlim metodlarından da istifadə edilməsinin vacibliyi əsaslandırılmışdır. Bu yanaşmalar şagirdlərin morfoloji bilikləri daha dərindən mənimsəməsinə və dil bacarıqlarının inkişafına əlverişli şərait yaradır.

## About issues of pronouns and their teaching in the Azerbaijani language

**Author(s):**

**Sadaqat Hasanova**
Nakhcivan Teachers Institute
Doctor of Philological Sciences, Professor
**E-mail:** sedagethesenova@gmail.com

**Keywords:** morphology, pronoun, parts of speech, language teaching, morphological traning, grammatical categories

**Abstract.** In the article the main problems occured in the process of teaching pronouns in the Azerbaijani language and solving ways were searched . Pronouns occupy an important place in the language system and possess complex structural and semantic features, which create certain difficulties for students in the learning process. The study analyzes the methodological challenges encountered in teaching the types, functions and usage characteristics of pronouns.

In the study importance of applying modern pedagogical approaches, particularly communicative and cognitive methods. were put forward. The role of contextual approaches, practical tasks and interactive methods in teaching pronouns were grounded, the significance of traditional teaching methods usage in the educational process were stated. In the article particular attention is paid to the positive impact of linking theoretical knowledge with practical activities to the development of students’ language skills.

Consequently, the study justifies the necessity of applying modern methodological approaches alongside traditional teaching methods for more effective organization of pronoun teaching. These approaches create favorable condition for students to acquire deeper morphological knowledge and to develop their language skills.

## К вопросу о местоимениях в азербайджанском языке и проблемах их преподавания

**Автор(ы):**

**Садагат Гасанова**
Нахчыванский институт учителей
Доктор филологических наук, профессор
**Э-почта:** sedagethesenova@gmail.com

**Ключевые слова:** морфология, местоимение, части речи, преподавание языка, морфологическое обучение, грамматические категории

**Аннотация.** В статье исследуются основные проблемы, возникающие в процессе преподавания местоимений в азербайджанском языке, а также пути их решения. Местоимения занимают важное место в языковой системе и обладают сложными структурными и семантическими особенностями, что вызывает определённые трудности у учащихся при их усвоении. В исследовании анализируются методические проблемы, возникающие при изучении видов местоимений, их функций и особенностей употребления.

В работе подчёркивается значение применения современных педагогических подходов, в особенности коммуникативных и когнитивных методов обучения. Обоснована роль контекстуального подхода, практических заданий и интерактивных методов в преподавании местоимений, а также показана важность использования традиционных методов обучения в учебном процессе. Особо отмечается положительное влияние связи теоретических знаний с практической деятельностью на развитие языковых навыков учащихся.

В результате исследования обоснована необходимость использования современных методологических подходов наряду с традиционными методами обучения для более эффективной организации преподавания местоимений. Данные подходы создают благоприятные условия для более глубокого усвоения морфологических знаний и развития языковых навыков учащихся.

**Giriş.** Dil tədrisində morfologiya mühüm bölmələrdən biri olub, sözlərin quruluşunu, formalarını və qrammatik funksiyalarını öyrənir. Morfoloji mövzuların düzgün və sistemli şəkildə tədrisi şagirdlərin dil bacarıqlarının formalaşmasında əsas rol oynayır. Bu baxımdan, əvəzliklər xüsusi əhəmiyyət kəsb edir. "Əvəzlik müasir dilçilikdə əsas nitq hissəsi kimi qəbul olunur" [Abdullayev, 2024]. O, nitqdə isim, sifət, say və zərf kimi əsas nitq hissələrini əvəz edərək ünsiyyətin səmərəliliyini artırır. Lakin əvəzliklərin semantik çoxqatlılığı, işarə etmək xüsusiyyətləri və kontekstdən asılı olaraq dəyişən funksiyaları onların tədrisini çətinləşdirir. Ənənəvi tədris metodlarında əvəzliklər əsasən nəzəri şəkildə təqdim olunur ki, bu da şagirdlərin mövzunu tam mənimsəməsinə mane olur. Müasir təhsil yanaşmaları isə daha çox şagirdyönümlü və praktik yönümlü metodların tətbiqini tələb edir. Məqalənin məqsədi əvəzliklərin tədrisi prosesində mövcud problemləri müəyyənləşdirmək, onların səbəblərini təhlil etmək və daha effektiv tədris yollarını təklif etməkdir.

**Metodologiya**. Tədqiqatda təsvir, müqayisəli və izahrdici metodlardan istifadə olunmuşdur. Təsvir metodu vasitəsilə əvəzliklərin dil sistemindəki xüsusiyyətləri və onların tədrisində istifadə olunan üsullar təsvir edilmişdir. Müqayisəli metod ənənəvi və müasir tədris yanaşmalarının fərqlərini müəyyənləşdirmək üçün tətbiq edilmişdir. İzahedici yanaşma isə şagirdlərin əvəzlikləri mənimsəmə səviyyəsinin və qarşılaşdıqları çətinliklərin aydınlaşdırılmasına yönəlmişdir. Bundan əlavə, dərs müşahidələri, tədris materiallarının təhlili və praktik tapşırıqların nəticələri də araşdırmaya cəlb edilmişdir. Tədqiqat çərçivəsində həm nəzəri, həm də praktik materiallar əsasında əvəzliklərin tədrisinin effektivliyini artıran metod və vasitələr müəyyən edilmişdir. Xüsusilə interaktiv üsullar, kontekstual tapşırıqlar və kommunikativ fəaliyyətlərin rolu diqqət mərkəzində saxlanılmışdır.

**Nəticələr**. Aparılan tədqiqat göstərir ki, əvəzliklərin tədrisində əsas çətinliklər onların çoxmənalılığı, kontekstdən asılılığı və digər nitq hissələri ilə funksional əlaqələrindən və omonimlik xüsusiyyətindən irəli gəlir. Şagirdlər əvəzliklərin istifadəsini praktik olaraq tətbiq etməkdə çətinlik çəkirlər. "Tək bir tədris proqramı bütün öyrənənlərin ehtiyaclarını ödəmir" [Husin, 2025]. Uyğun və yeni pedaqoji yanaşmaların tətbiqi və çalışmalar üzərindəki işin möhkəmləndirilməsi bu problemlərin aradan qaldırılmasında daha effektiv nəticələr verir. "Tələbələr bildirmişlər ki, əvvəlki tədris üsulları darıxdırıcı və qarışıq idi" [Hastuti və b., 2024].

Xüsusilə interaktiv dərs üsulları, qrup işləri və situativ tapşırıqlar şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. "Uşaqlar danışığın gedişini proqnozlaşdırmaq üçün əvəzliklərdən istifadə edirlər" [Schleppegrell, de Oliveira, 2023]. Kontekstual təlim əvəzliklərin real nitq mühitində düzgün istifadəsini formalaşdırır. Nəticə olaraq müəyyən edilmişdir ki, əvəzliklərin tədrisi zamanı nəzəri biliklərlə yanaşı praktik fəaliyyətlərə geniş yer verilməlidir. Bu yanaşma şagirdlərin həm qrammatik biliklərini möhkəmləndirir, həm də kommunikativ bacarıqlarını inkişaf etdirir.

**Müzakirə**. Müstəqil respublikamızın bütün ictimai proses lərində Azərbaycan dilinin mühüm rolu vardır. Bu dildən istifadə ilə yüksək kürsülərədn çıxışlar etmək, dinləyicilərlə fikir mübadiləsi aparmaq mümkündür. Hazırda ölkəmizdə Azərbaycan dilinin inkişafına dövlət tərəfindən böyük qayğı göstərilir, bu sahədə çox sayda rəsmi sənədlər imzalanlır. "XXI əsrin ilk onilliyi Azərbaycan təhsil sistemində köklü dəyişikliklərin baş verdiyi bir dövr kimi səciyyələnir. Mübaliğəsiz demək olar ki, bu prosesdə ana dilinin tədrisi üçün yeni bir era başlayır" [Nəbiyeva, 2010, s.7]. Azərbaycan dili kommunikativ məqsəd daşıyır. Bu baxımdan, onun tədrisi həmişə diqqətdə saxlanılmalıdır. Azərbaycan dilinin tədrisində praktik dil materialları daha çox izlənməli, onların problemli cəhətləri üzə çıxarılmalıdır. Bu mənada, nitq hissələrinin öyrədilməsi məsələləri diqqəti cəlb edir. Nitq hissələri üzrə anlayışlar, ümumiyyətlə, morfoloji məfhumlar Azərbaycan dilçiliyində müəyyən qədər araşdırılıb təhlil olunsa da, qrammatikanın həmin sahəsinə aid bir sıra tədqiqatların aparılması zəruridir. Belə ki, qrammmatikadan bəhs edən araşdırmaçılar, əsasən, nəzəri məsələlər üzərində daha çox dayanmışlar. Halbuki praktik işlər problemləri daha sürətlə tanıda bilir. Bu, bir gerçəklikdir ki, "Azərbaycan dili" fənninin tədrisində də bir sıra problemlər mövcuddur. Bu mənada, əvəzli-

yin tədrisi maraqlı mövzulardan biridir. Bundan başqa, unutmaq olmaz ki, "Tələbələrin əvəzliklərin roluna dair anlayışı məhduddur" [Li, Akram, 2024].

Əsas nitq hissələri içərisində mübahisəli, əhatəli leksik-qrammatik vahid olaraq əvəzliyin özünəxas rolu və mövqeyi vardır. Konkret obyektinin olmaması dilçilik elmində əvəzlik haqqında tərəddüdlü fikirlər formalaşdırmışdır. Əvəzlik haqqında "boş söz", "sirli söz" ifadələri yaranmış, bir sıra məqamlarda o, köməkçi nitq hisssəsi sayılmışdır. Maraqlıdır ki, əvəzliklə bağlı dolaşıq fikirlər indi də davam edir və dilçilik ədəbiyyatlarındakı mövzu ətrafındakı elmi-nəzəri fikirlər üst-üstə düşmür. Çağdaş qrammatika kitablarında, xüsusilə də orta məktəb dərsliklərində əvəzlik mövzusunda çox sayda çaşdırıcı mülahizələrlə qarşılaşmaq mümkündür. Bu, tədris prosesinə də öz təsirini göstərir.

Əvəzlik dildə böyük funksiyalara malik olan nitq hisssəsidir və onun sintaktik vəzifələri də çoxdur. "Əvəzliklərin istifadəsi semantik kontekstdən asılı olaraq dəyişir" [Norris, Welch, 2020]. Onun məsuliyyət və diqqətlə öyrədilməsi bir sıra morfoloji və sintaktik məsələlərin həllinə kömək edir. Əvəzlik bütün əsas nitq hissələrini əvəz etdiyindən onun tədrisi müxtəlif nitq hissələri haqqındakı məlumatların genişlənib dərinləşdirilməsinə imkan yaradır. "Dilçilik elmində bir çox məsələlərin aydınlaşdırılması üçün Azərbaycan dilinin əvəzlikləri müəyyən rol oynaya bilər" [Nəbiyeva, 2010, s.121]. Əvəzlik bütün cümlə üzvlərinin yerində işlənə bildiyindən onun sintaktik əhəmiyyəti də çoxdur. Müasir dilçilik ədəbiyyatlarında əvəzlik mətndüzəltmə faktoru kimi də dəyərləndirilir. "Müstəqil nitq hissələrindən əvəzlik aktuallaşaraq müvafiq mətnlərin düzəlməsində mühüm rol oynayır" [Abdullayev, 1998, s.129].

Əvəzliyin tədrisi zamanı diqqəti, ilk növbədə, aşağıdakı məsələlərə yönəltmək lazımdır:

1. Əvəzliklərin çoxsaylı funksiyası;
2. Digər əsas nitq hissələri ilə müqayisədə konkret predmetinin olmaması;
3. Əvəzliyin dilimizdə işlək qrammatik vahidlərdən olması;
4. Əvəzliyin hansı nitq hissəsinin yerində işlənirsə, həmin nitq hissəsinin sualına cavab verməsi və s.

Təcrübə nəticəsində əldə edilən faktlar göstərir ki, əvəzlik digər əsas nitq hissələri ilə müqayisədə daha mühafizəkardır və özünəxas xüsusiyyətlərə malikdir. Azərbaycan qrammamtiklərindən H.Mirzəzadə də bu fikri təsdiq edir: "Azərbaycan dilində mövcud olan əvəzliklər özünün inkişafı ərzində elə ciddi bir dəyişikliyə uğramamış, məna və vəzfəsi etibarı ilə sabit qalmışdır" [Mirzəzadə, 1990, s.104]. Doğrudan da, həm tarixi, həm də çağdaş dil faktlarını müqayisə etdikdə məlum olur ki, əvəzliklə bağlı dəyişmələr formal (xarici) cəhətdən olmuşdur, onlar məzmun (daxili) baxımından dəyişməyə məruz qalmamışdır. Formal dəyişmələr isə fonetik dəyişmələrdir. Dildə kişik bir işarənin də önəmli olduğunu nəzərə aldıqda, tədris zamanı fonetik faktlara da ciddi yanaşmaq lazım gəlir. Bu anlamda, əvəzliyin tədrisində onun səs quruluşuna da diqqət etmək gərəkdir. Belə ki, dilimizdə işlənən əvəzliklərin səs quruluşu, bir tərəfdən, onların aid olduğu dövrün inkişafını əks etdirən fonetik cəhətləri müəyyənləşdirməyə xidmət edirsə, digər tərəfdən də, qrammatik vahidlərin mükəmməl şəkildə öyrədilməsinə köməklik göstərir. Buradan belə bir nəticəyə gəlmək olar ki, tədris zamanı hər hansı bir morfoloji vahidin səs cəhətinə adicə bir zahiri forma kimi yanaşmaq onun bütövlükdə düzgün öyrədilməsinə mane olur.

Qrammatikanın tədrisində əvəzliyin nitqdə çox mühüm rol oynaması məsələsi unudulmamalıdır. Çünki nitq prosesində müxtəlif mövzulu mətnlərdə əvəzliyin mənası cümlə və mətnlərin bağlılığına əhəmiyyətli dərəcədə təsir edir: "Əvəzliyin mənası, əksərən, özündən əvvəlki cümlənin məzmunu ilə açılır. Mətndəki cümlələrin birinin əvəzliklə başlaması onun özündən əvvəlki cümlələrlə daha yaxından əlaqədə olduğunu sübut edən faktdır" [Abdullayev, 1998, s.132].

Əvəzliyin morfoloji vahid kimi tədrisində onun kənar müdaxiləyə məruz qalmaması, milliliyini saxlaması faktını xüsusi olaraq nəzərə çatdırmaq lazımdır. "Əvəzliklər sinifdaxili qarşılıqlı əlaqəni formalaşdırır" [Norris, Welch, 2020]. Qədim və milli nitq hissəsi olan əvəzliyin təsviri və daxili cəhətləri türk dillərinin genetik bağlılığının möhkəmlik dərəcəsini göstərən faktlardandır. Əvəzlik həm semantik, həm qrammatik, həm də üslub xüsusiyyətləri ilə türk dillərində, o cümlədən Azərbaycan dilində önəmli mövqeyə

malik dil vahididir. "Əvəzliklər qrammatikanın əsas (mərkəzi) komponentlərindən biridir" [Li, Akram, 2024].

Bu baxımdan, onun keyfiyyətli tədrisi üçün geniş imkanlar mövcuddur. Əvəzlikləri konkret dil faktları ilə əlaqədə öyrətmək faydalı nəticələrə səbəb olur. Bu, bir tərəfdən, əvəzliyin hərtərəfli mənimsənilməsini təmin edir, digər tərəfdən, başqa nitq hissələri ilə bağlılığın yaranmasını əsaslandırır. "Əvəzliklərin inkişafı dil bacarıqlarından asılıdır" [Kelty-Stephen və b., 2020].

Şəxs əvəzliklərinin tədrisində müxtəlif üsullardan istifadə etmək olar. Birinci şəxs əvəzliklərinə (mən, biz) təkdə və cəmdə xüsusi diqqət edilməlidir. Bu əvəzliklərin ismin hal şəkilçiləri ilə işləndiyi məqamda ortaya çıxan fərqliliyi onların xüsusi cəhətlərindən biri kimi qiymətləndirmək olar.

Qrammatikanın tədrisi elə bir maraqlı və məsuliyyətli prosesdir ki, burada hər hansı bir məsələ haqqında verilən məlumat faktik materiallarla təsdiq edilməlidir. Yalnız belə olduqda tədrisin keyfiyyətindən danışmaq mümkündür. Əgər hər hansı bir dil faktı barədə nə vaxtsa bir fikir deyilib və ya yazılıbsa, onu da etalon kimi qəbul etmək düzgün olmaz. Dil haqqında ən düzgün və ən dəqiq fikri faktlar deyir. Bu baxımdan, "Azərbaycan dili" dərsliklərində lazımi qədər material tapmaq mümkündür.

Əvəzliklərin tədrisində diqqəti çəkən məsələlərdən biri də yerli və şivə xüsusiyyətlərinin nəzərə alınmasıdır. Belə ki, bölgələrdən asılı olaraq bəzən "elə", "belə" əvəzlikləri "böylə", "öylə" kimi deyilir və bu yazı prosesinə də təsir edir. İşarə əvəzlikləri qrammatikamız üçün çox işlək leksik-qrammatik vahidlər olduğundan tədris prosesində onlara xüsusi diqqət etmək lazım gəlir. "Şagirdlər əvəzliklərlə bağlı daim səhvlər edirlər" [Chen, 2023]

Artıq Azərbaycan dili özünəməxsus keyfiyyətlər qazanaraq yeni inkişaf mərhələsinə qədəm qoymuş, ədəbi dil normaları baxımından zənginləşmişdir. Məlumdur ki, cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq dildə də zənginləşmə, dəyişmə prosesləri baş verir. Orta əsrlərdə bir sıra ümumtürk sözləri dilimizin leksik-qrammatik normasına daxil olaraq möhkəmlənmiş, aktiv mövqe qazanmış, zaman keçdikcə həmin sözlər fonetik baxımından "azərbaycanlaşmışdır". Lakin XX yüzilin əvvəlində türkçülük ideyalarının yayılması ilə bağlı olaraq "ortaq türk dili" fikri formalaşmış və Azərbaycan dili bir müddət türk dilinin normalarına söykənmişdir. İşarə əvəzlikləri əsas nitq hissələri arasında bu faktı – Azərbaycan dili morfoloji normalarının öz yerini türk dili normalarına verməsi faktını təsdiq edən leksik-qramamtik örnəklərdəndir. Yəni bəzi əvəzliklər həmin dövrə qədər arxaikləşməyə məruz qalsa da, XX yüzilin əvvəlində təkrar fəallaşmış və bir müddət ədəbi dilimizdə işlənmə tezliyi ilə seçilmişdir. Bu fikri "öylə", "böylə" əvəzlikləri haqqında demək olar. Həmin əvəzliklər XX yüzillliyin ikinci yarısından sonra danışıq faktı kimi qalsa da, ədəbi dil üçün tamamilə arxaikləşmişdir. Lakin bu köhnəlmə fonetik norma ilə məhdudlaşmır. "Öylə", "böylə" əvəzlikləri öz yerini eyni məzmunda olan "elə", "belə" əvəzliklərinə vermiş və yazımızdan çıxmışdır. Bu əvəzliklər çağdaş türk dilində norma faktı kimi qalır, biizm dilimizdə isə yalnız dialekt və şivə örnəyi olaraq yaşayır. Ona görə də qrammatikanın, xüsusilə də əvəzliyin tədrisində bu məsələyə həssaslıqla yanaşmaq lazım gəlir.

Əvəzliklərin tədrisində diqqəti çəkən dil faktlarından biri olan sual əvəzlikləri ilə bağlı məsələlər də maraqlıdır. Dilimizdəki bütün sual sözləri sual əvəzliyi sayılır. Onların sayı, məlum olduğu kimi, məhdud deyil. Çünki hər bir nitq hissəsinin ən azı üç (zərfin isə daha çox) sualı var və onların yerində işlənən əvəzlik suallarının da hamısına yiyələnərək çoxsaylı üslub məqamları qazanır. Əvəzliyin tez-tez və müxtəlif üslublarda işlənməsi üçün dilimiz geniş imkanlara malikdir. Sual əvəzliklərinin tədrisi zamanı bəzi sual sözləri, məsələn, "haçan?" əvəzliyi diqqətdə saxlanmalıdır. Bu əvəzlik hazırda ədəbi dilimizdə "nə zaman?", "nə vaxt?" sual əvəzlikləri ilə müqayisədə az işlənir. Halbuki XX yüzilin ikinci yarısına qədər "haçan?" sual əvəzliyi onunla eyni məzmuna malik olan "nə zaman?", "nə vaxt?" sual əvəzliklərindən daha fəal olmuşdur. Lakin həmin əvəzlik ədəbi dil faktı olduğundan və dərsliklərin leksik tərkibində müəyyən qədər yer tutduğundan o da tədrisdən kənarda qalmamalıdır.

Əvəzliklərin tədrisi prosesində quruluş növləri də unudulmamalıdır. Bu məsələnin vacibliyi, bir tərəfdən də, əvəzliyin quruluşuna aid indiyədək dəqiq fikirlərin formalaşmamasıdır.

Azərbaycan morfologiyasının ən böyük alimi Muxtar Hüseynzadənin fikrinə görə "dilimizdə düzəltmə əvəzlik yoxdur" [Nəbiyeva, 2010, s.123]. Yəni əvəzlik iki quruluş növünə malikdir:

1. Sadə əvəzliklər
2. Mürəkkəb əvəzliklər

Hadi Mirzəzadə sadə əvəzliklərə birinci qrupa biz, siz, özüm, həmin, bu, kimi, bütün əvəzliklərini, ikinci qrupa isə nə üçün, hər kəs tipli əvəzlikləri daxil edir.

Əvəzliyin quruluşu haqqında son dövrlərdə tamamilə fərqli fikirlər yaranmışdır. Məsələn, orta məktəb qrammatikalarının çoxunda əvəzliyin sadə və düzəltmə növlərindən danışılır, mürəkkəb əvəzlik kənarda qalır. Neçənci, kimsə, nəsə, biri, hərə, filankəs sözləri quruluşca düzəltmə hesab olunur. Lakin bu fikirlə razılaşmaq olmaz. Ona görə ki, əvvəla, "filankəs" mürəkkəb əvəzlikdir, yanlış olaraq düzəltmə əvəzliklərin sırasında verilir. İkincisi, son zamanlara qədər əvəzliyin düzəltmə növünün olmaması haqqındakı fikirlər (hətta düzgün fikirlər) təkzib olunur. Bundan başqa, düzəltmə əvəzlik kimi örnək göstərilən sözlərin çoxunda leksik şəkilçi iştirak etmir. Halbuki düzəltmə sözlər leksik şəkilçilərlə formalaşır. Düzəltmə sayılan əvəzliklərin yalnız biri – "neçənci" sözü quruluşuna görə düzəltmədir. Bunları nəzərə alaraq əvəzliyin quruluşunu öyrədərkən morfoloq alimlərin fikirlərinə diqqətlə yanaşmaq lazım gəlir. Daha düzgünü budur ki, dildə hər hansı bir məsələdən danışarkən ən çox dil faktlarına müraciət edilsin.

Beləliklə, tədris prosesi ilə bağlı təcrübə və araşdırmalar göstərir ki, əvəzliklərin öyrədilməsində aşağıdakı məsələlərə diqqət etmək zəruridir:

1. "Azərbaycan dili" dərsliklərindəki əvəzliklə bağlı materiallara müraciət etmək və nəzəri məlumatları konkret dil faktları ilə təsdiq edib möhkəmləndirmək lazımdır. Ona görə ki, dil haqqında hər hansı bir fikir sübut olunmadıqda elmi əhəmiyyətini itirir. Nəzəri linqvistik fikirlərin faktik materiallarla təsdiqi, bu baxımdan, vacibdir.

2. Qrammatika mövzuları, xüsusilə də əvəzliklər tədris edilərkən onların dilimizdə işlənmə məqamlarına diqqət edilməlidir. Çünki əvəzliklər dilimizin milli təbiətini təsdiq edən maraqlı və zəngin leksik-qrammatik vahidlərdəndir. Bundan başqa, əvəzliklər dilimizin ən çox işlənən sözlərindəndir.

3.Tədris zamanı əvəzliklərin hansı nitq hissəsinin yerində işlənməsi məsələsi də diqqətdən kənarda qalmamalıdır. Bu anlamda, əvəzliklər müxtəlif qruplara ayrılaraq öyrədilməlidir.

4. Əvəzliklər öyrədilərkən Azərbaycan dilinin dialekt və şivələri də nəzərə alınmalıdır.

Təcrübə göstərir ki, əvəzliklərin tədrisi zamanı yuxarıda qeyd edilənlərin nəzərə alınması dərsin keyfiyyətinə, öyrənənlərin mənimsəmə qabiliyyətinin yüksəlməsinə müsbət təsir edir.

**Nəticə**. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, əvəzliklərin semantik və funksional xüsusiyyətlərinin mürəkkəbliyi onların yalnız nəzəri şəkildə təqdim olunmasının kifayət etmədiyini göstərir. Araşdırma sübut edir ki, kommunikativ, koqnitiv və interaktiv yanaşmaların tətbiqi əvəzliklərin daha effektiv tədrisinə imkan yaradır. Kontekstual tapşırıqlar, situativ məşqlər və qrup işləri şagirdlərin bu nitq hissəsini real ünsiyyət mühitində düzgün istifadə etmə bacarıqlarını inkişaf etdirir. Nəticə etibarilə, əvəzliklərin tədrisində müasir metodoloji yanaşmaların tətbiqi dil təliminin keyfiyyətini artırır və şagirdlərin qrammatik və kommunikativ bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Bununla yanaşı, müəllimlərin tədris prosesində müxtəlif metod və vasitələrdən istifadə etməsi, dərslərin şagirdyönümlü təşkili və praktik fəaliyyətlərə üstünlük verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma morfoloji biliklərin yalnız yadda saxlanılmasını deyil, həm də onların tətbiq olunmasını zəruriləşdirir.

## Ədəbiyyat


1. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. – Bakı: Xəzər Universiteti, – 1998. – 190 s.
2. Abdullayev, I. Different approaches to the pronoun as a part of speech in modern linguistics. Excellencia: International Multi-Disciplinary Journal of Education, – 2024. – p.12–17. https://multijournals.org/index.php/excellencia-imje/article/view/445
3. Chen, M. Analysis and teaching strategies of middle school English pronouns. International Journal of Education and Humanities. – 2023. https://doi.org/10.54097/xt6pbm07
4. Hastuti, D.P., Sukmawati, S., & Rukmini, D.

Demonstration method in teaching writing and personal pronouns. International Journal of Research in Education. – 2024. https://doi.org/10.26877/ijre.v4i2.562
5. Husin, N., Rahman, N.A., & Karim, R.A. Differentiated instruction practices in English classrooms: A systematic literature review (2020–2025). International Journal of Research and Innovation in Social Science, 8719-8728. https://rsisinternational.org/journals/ijriss
6. Kelty-Stephen, E.G., Wallot, S., & Dixon, J.A. Children with ASD use joint attention to produce and comprehend pronouns. Language Acquisition, 27(4), – 2020. – p.410-433. https://doi.org/10.1080/10489223.2020.1769626
7. Li, S., & Akram, H. Navigating pronoun-antecedent challenges: A study of ESL academic writing errors. SAGE Open, 14(4). – 2024. https://doi.org/10.1177/21582440241296607
8. Mirzəzadə, H. Azərbaycan dilinin tarixi qrammatikası / H.Mirzəzadə. – Bakı: Azərb. Universiterti, – 1990. – 374 s.\
9. Nəbiyeva, Ş. Ana dili tədrisi metodikasinin aktual problemləri (Metodik vəsait) / Ş.Nəbiyeva. – Bakı: ADPU, – 2010. – 127 s.
10. Norris, M., & Welch, A. Gender pronoun use in the university classroom. Transformation in Higher Education, 5, Article 79. – 2020. https://doi.org/10.4102/the.v5i0.79
11. Schleppegrell, M.J., & de Oliveira, L.C. Engaging with readers: Students' metalinguistic understanding of pronouns in writing. Linguistics and Education, 76, 101184. – 2023. https://doi.org/10.1016/j.linged.2023.101184
12. Zhang, Y., & Li, X. Gender bias in Chinese EFL writing: The role of pronouns. Linguistics and Education, 84, 101464. – 2025. https://doi.org/10.1016/j.linged.2025.101464
13. Nguyen, T. H., & Matthews, D. Pronoun use and anticipation in early child language development. Journal of Experimental Child Psychology, 241, 106358. – 2026. https://doi.org/10.1016/j.jecp.2025.106358

*Məqalə akademik İsa Həbibbəyli
tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 12.01.2026, son daxilolma – 10.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 821.512.162.09-1:81'38

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.114-119*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.114-119*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.114-119*

# Xalq şairi Məmməd Arazın bədii dilinin xüsusiyyətlərinə dair

**Müəllif(lər):**

**Ramiz Qasımov**
Naxçıvan Müəllimlər İnstitutu,
AMEA Naxçıvan Bölməsi
Filologiya elmləri doktoru, dosent
**E-poçt:** ramizqasimli44@gmail.com

**Açar sözlər:** Məmməd Araz, bədii dil, poetik üslub, leksik-semantik xüsusiyyətlər, metafora, bədii təsvir vasitələri

**Annotasiya.** Məqalədə xalq şairi Məmməd Arazın bədii dilinin leksik-semantik xüsusiyyətləri, metaforik ifadə imkanları və poetik üslub xüsusiyyətləri araşdırılmışdır. Tədqiqatın əsas məqsədi şairin yaradıcılığında Azərbaycan dilinin ifadəlilik vasitələrinin, fəal və passiv lüğət fondunun, eləcə də bədii təsvir və ifadə vasitələrinin funksional rolunu müəyyənləşdirməkdən ibarətdir. Araşdırma prosesində təsvir, təhlil, sintez, müqayisəli və statistik metodlardan istifadə edilmişdir.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Məmməd Araz yaradıcılığında metafora, metonimiya, təkrir, antiteza, alleqoriya, litota və digər bədii fiqurlar geniş şəkildə işlədilərək poetik dilin ifadəliliyini və emosional təsir gücünü artırır. Müəyyən edilmişdir ki, şairin əsərlərində xüsusilə bədii təkrir və təzadlar dominant üslubi vasitələr kimi çıxış edir, "mən", "sən", "bir", "Azərbaycan", "qəfil" kimi söz və ifadələr isə xüsusi poetik məna və emosional çalar qazanır.

Məqalədə həmçinin belə bir nəticəyə gəlinmişdir ki, Məmməd Arazın poetik dili Azərbaycan ədəbi dilinin zənginləşməsində, milli dilin saflığının qorunmasında və bədii-estetik düşüncənin inkişafında mühüm rol oynayır.

## On the teaching and methodological issues of the poetic language of the people's poet Mammad Araz

**Author(s):**

**Ramiz Gasimov**
Nakhcivan Teachers Institute
Nakhchivan Branch of ANAS
Doctor of sciences on Philology,
Associate Professor
**E-mail:** ramizqasimli44@gmail.com

**Keywords:** Mammad Araz, poetic language, poetic style, lexical-semantic features, metaphor, artistic expressive devices

**Abstract.** The article examines the lexical-semantic features of the poetic language of Mammad Araz, its metaphorical expressive potential, and the characteristics of his poetic style. The main aim of the research is to determine the functional role of the expressive means of the Azerbaijani language, the active and passive vocabulary stock, as well as artistic and figurative devices in the poet's works. Descriptive, analytical, synthetic, comparative, and statistical methods were employed in the course of the study.

The research findings reveal that metaphor, metonymy, repetition, antithesis, allegory, litotes, and other stylistic devices are widely used in the works of Mammad Araz, thereby enhancing the expressiveness and emotional impact of the poetic language. It has been determined that artistic repetition and contrast function as dominant stylistic devices in the poet's творчество, while such words and expressions as "I," "you," "one," "Azerbaijan," and "suddenly" acquire special poetic and emotional meanings.

The article also concludes that the poetic language of Mammad Araz plays a significant role in enriching the Azerbaijani literary language, preserving the purity of the national language, and developing artistic and aesthetic thought.

## К особенностям художественного языка народного поэта Мамеда Араза

**Автор(ы):**

**Рамиз Гасымов**
Нахчыванский институт учителей
Нахчыванское отделение НАНА
Доктор филологических наук, доцент
**Э-почта:** ramizqasimli44@gmail.com

**Ключевые слова:** Мамед Араз, художественный язык, поэтический стиль, лексико-семантические особенности, метафора, художественно-изобразительные средства

**Аннотация.** В статье исследуются лексико-семантические особенности художественного языка Мамед Араз, его метафорические выразительные возможности и особенности поэтического стиля. Основной целью исследования является определение функциональной роли средств выразительности азербайджанского языка, активного и пассивного словарного фонда, а также художественно-изобразительных средств в творчестве поэта. В процессе исследования использовались методы описания, анализа, синтеза, сравнительный и статистический методы.

В результате исследования установлено, что в творчестве Мамед Араз широко используются метафора, метонимия, повтор, антитеза, аллегория, литота и другие художественные фигуры, усиливающие выразительность и эмоциональное воздействие поэтического языка. Выявлено, что в произведениях поэта художественный повтор и противопоставление выступают в качестве доминирующих стилистических средств, а такие слова и выражения, как «я», «ты», «один», «Азербайджан», «внезапно», приобретают особое поэтическое значение и эмоциональную окраску.

В статье также сделан вывод о том, что поэтический язык Мамед Араз играет важную роль в обогащении азербайджанского литературного языка, сохранении чистоты национального языка и развитии художественно-эстетического мышления.

**Giriş**. Azərbaycan dilinin leksik-semantik zənginliyi və ifadə əlvanlığını nəzəri və praktik baxımdan nümunə olaraq ortaya qoyan xalq şairi Məmməd Arazın bədii dilinin araşdırılması tədqiqatın aktuallığını müəyyənləşdirir. M.Arazın bədii dili həm ədəbi dilin fəal lüğət fondu, həm də passiv fonduna daxil olan dialektizm nümunələri ilə olduqca zəngindir. Şairin bədii dili söz və ifadə sərrastlığı, obrazlı ifadə əlvanlığı və texnikası, metaforik ifadə imkanları ilə zəngin və əhatəlidir. Tədqiqatda məqsəd bu örnəklərin həm ədəbi dildə passivləşməkdə olan leksik vahidlərin fəallaşması, həm də ana dilinin saflığının qorunması üçün ana dilinin öz daxili hesabına lüğət fondunun zənginləşdirilməsi nümunələrini ortaya çıxarmaq baxımdan əhəmiyyətini ortaya qoymaqdan ibarətdir.

**Materiallar və metodlar**. Tədqiqatda ana dilinin saflığının qorunması, zənginliyinin təmin edilməsi baxımdan nümunəvilik təşkil edən xalq şairi Məmməd Arazın bədii dili araşdırma obyekti olaraq seçilmiş, onun bədii dilində sözlərin işlənmə tezliyi, fəal və qeyri-fəal söz fondu diqqət mərkəzinə gətirlmiş, nümunələr əsasında fikrin obrazlı ifadə poetexnikası, modelləri, habelə bədii təsvir və ifadə vasitələri təsvir və təhlil edilmiş, elmi-metodiki əsasları müəyyənləşdirilmişdir.

Tədqiqat zamanı təsvir, təhlil (analiz) və tərkib (sintez), ölçmə (statistik), müqayisəli və b. tədqiqat metodlarından istifadə edilmişdir. Təsviretmə metodu ilə tədqiqat üçün əl verən konkret nümunələr seçilmiş, tədqiqatın faktoloji bazası təmin edilmişdir. Nümunələr konkret meyarlara əsasən təhlil edilmiş, səciyyəvi xüsusiyyətləri ortaya qoyulmuş, tərkib (sintez) metodu ilə ümumiləşdirilmişdir. Müqayisəli metodun imkanlarından istifadə edilərək nümunələr və ortaya çıxarılan tezislər müqayisə edilmiş, daha dəqiq və təcrübi elmi nəticənin müəyyənləşməsinə çalışılmışdır. Nümunələrdə təhlilə cəlb edilən ayrıca sözlərin dəfələrlə işlənmə sayı ölçmə (statistik) metod vasitəsilə dəqiqləşdirilmiş və səbəbi izah edilmişdir.

**Nəticələr**. Tədqiqat zamanı aşağıdakı nəticələrə gəlinmişdir ki:

- Xalq şairi Məmməd Arazın bədii dili üçün səciyyəvi olan metaforik ifadə nümunələri Azərbaycan dilində fikir ifadəliliyinin vasitələrini nəzəri və praktik baxımdan sərgiləyən örnəklərdirlər;
- Şairin bədii dilində rast gəlinən məcaz örnəkləri – metafor, epitet, metanimiya, simvol, təşbeh, bədii təzad, təkrir və s. yaranma və ifadə üslubuna görə ana dilinin ifadəliliyini artıran və zənginləşdirən bədii dil nümunələridirlər;
- “böyük dünyamızın kiçik dərdləri Böyük dərdlərindən daha böyükmüş”, “danışmaq da yükdür, susmaq da yükdür” kimi bədii təzadlar orijinallığı ilə seçilməklə bərabər, ictimai-fəlsəfi fikrin ifadəliliyi baxımdan etibarlı metaforik model olaraq ortaya çıxır;
- Şairin yaradıcılığındakı “quş, daş” kimi assonas yaradan səslərdən ibarət sözlərdən istifadə edilməklə bədii-estetik fikir ifdaə edilməklə bərabər, “quş dili”, “daş dili” kimi simvollaşmış ifadələrdən də istifadı edilməklə fikrə forma və məzmun verən bədii təkrir nümunələri yaradılmışdır;
- M.Arazın bədii üslubunda “mən, sən” şəxs əvəzliklərinin bədii təzadının yaradılması və təkririlərinin istifadəsi Azərbaycan ədəbi dilində ictimai-fəsləfi fikir ifadə modelinin variantlılığı baxımdan xüsusi dəyər daşıyır;

**Müzakirə.** Xalq şairi Məmməd Arazın bədii dilində metaforik ifadəlilik və üslubi modellər

Xalq şairi Məmməd Araz ana dilini mövzu edən hər hansı bir şeir yazmasa da, onun bütün yaradıcılığı ana dilinin gözəlliyi, üslubi rəngarəngliyi, leksik zənginliyi baxımından çox münasib və təqdirəlayiqdir. Ana dili onun yaradıcılığında gözəlləşir, zənginlik, mənalılıq və üslubi rəngarənglik qazanır. Onun yaradıcılığında maraqlı bədii ifadə və təsvir vasitələri, qeyri- adi məcazlar, rəmzləşmələr, üslubi müxtəlifliklər, qəribə təzadlar, ölçü vasitələri, bənzətmələr və s. istifadə olunur. “Kəndim, balacasan, çox balacasan” şeirində müəllif maraqlı ölçü, müqayisə nümunələri ortaya qoyur:

Kəndim, balacasan, çox balacasan...
Sənin qayğıların yuxuluq deyil,
Mənim yuxularım yuxuya sığmaz.
Elə qorxular var, qorxulu deyil,
Elə qorxular var, qorxuya sığmaz [6, s. 221].

Və yaxud elə həmin şeir də daxil olmaqla müxtəlif əsərlərində maraqlı təzadlar istifadə edir, üslubi antonimlik, bədii-estetik antitezalar

ortaya qoyur. Bədii ədəbiyyatda çox işlənən bu üslubi fiqurun "əsasında həyati bir təzad dayanır. Təzad da obrazlılığı gücləndirir, əşyaların əlamətlərini, məna, fərq və ziddiyyətlərini real göstərir" [2, s. 225]. Həmçinin "antiteza ziddiyyətli anlayışları bir-birindən fərqləndirməklə bərabər, üslubi effekt yaratmaq üçün də istifadə edilir. Ədəbiyyatşünaslıq və üslubiyyat kitablarında antiteza antonim sözlərdən, obrazlardan və situasiyalardan yaranan fiqur kimi müəyyənləşdirilir..." [1, s. 71].

Danışmaq da yükdür,
Susmaq da yükdür!
Böyük dünyamızın kiçik dərdləri
Böyük dərdlərindən daha böyükdür [2, s. 224].

Şair bir bənd daxilində "böyük və kiçik" kimi leksik təzadlardan yerindəcə istifadə etməklə bərabər, bir misra - Böyük dünyamızın kiçik dərdləri, Böyük dərdlərindən daha böyükdür - daxilində daha maraqlı antitezalar – bədii təzadlar yaratmağa nail ola bilmişdir. Bu misrada bir sətir daxilində "böyük dünyamızın kiçik dərdləri" kimi antiteza yarada bildiyi kimi, bu sətrin özünə də təzad olan ikinci antiteza ilə yaradılmış digər bir sətir ortaya çıxarmışdır: Böyük dərdlərindən daha böyükdür. Eləcə də:

Kiçik bir qayanın döşündən qopub
Böyük bir dünyanın mehinə dönmək [7, s.57].

Və ya:

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim [7, s.49] və s.

Maraqlı, özünəməxsus təkrirlər də onun yaradıcılığında bütün özünəməxsusluğu ilə diqqəti cəlb edir, bədii-estetik təsir, poetik əlvanlıq yaratmaqla bərabər, oxucuya yeni fikir, ideya, məna əxz etdirir. Məlum olduğu kimi, "təkrir mətləbi, məntiqi vurğunu, ahəngi və misraların musiqililiyini dərinləşdirir, qayə-məzmunun təkriri fikrin, lövhə, mənzərə və detalların tələbi ilə yaranır" [2, s. 226]. Xalq şairi M.Arazın yaradıcılığında da təkrirlərdən çox böyük sənətkarlıq və ustalıqla istifadə edilmişdir. "Mən neçə yol danışmışam Arazla" başlıqlı şeirində "dil, bilmirəm, Araz" kimi sözlərin bədii təkririnə yol verilmişdir. Habelə:

O, dərəyə "mənim" deyib,
Mən "mənim".
Deməmişik: "Mən səninəm", "sən mənim".
Deməmişik: dili birik, yolu bir,
Barı birik, varı birik, yoxu bir [7, s. 218].

Diqqət edilsə, tək bu nümunə Xalq şairi Məmməd Arazın ana dilinin leksik üslubi imkanlarından necə məharətlə yararlandığına dair ən layiqli nümunə kimi təqdim oluna bilər. Bu nümunədə təkrir üstünlük təşkil edir. Görüldüyü kimi, birinci bənd, əsasən, "danışmışam" sözünün təkrirlərilə diqqəti cəlb edir, eləcə də birinci və sonuncu misra təkrar olaraq istifadə edilir. Bu azmış kimi misralarda "quş, daş" kimi assonas yaradan səslərdən ibarət sözlərdən daxili qafiyə yaratmaq, habelə "quş dili", "daş dili" kimi simvollaşmış ifadələrdən məharətlə istifadə ortaya qoyulur. Bu məharətini şair şeirin ikinci bəndində də böyük sənətkarlıqla davam etdirir. Üç misra daxilində "mən" şəxs əvəzliyi müxtəlif dəyişmə halında beş dəfə istifadə edilib. Məlum olduğu kimi, dilçilik sahəsində qrammatika fəlsəfəsində "mən" şəxs əvəzliyi özünüdərkin nümunəsi hesab edilir. "Qrammatikanın fəlsəfəsi" kitabında da deyildiyi kimi, "mən" şəxs əvəzliyinin ortaya çıxması insanın özünü dərk etməsi ilə bağlıdır. Bədii ədəbiyyatda da "mən" şəxs əvəzliyi özünüdərkin, habelə oyanışın, intibahın təzahürü kimi çıxış edir. Bu bənddə də şair bu amilə - özünüdərk amilinə, ideyasına diqqəti yönləndirmək istəmişdir. Amma bundan ziyadə şair daha çox diqqəti "mənəmlik" üzərinə gətirməyə çalışmış, Arazla özünün mənəmlik iddiasında olmadığına, ideya, fikir, məslək birliyinə malik olduqlarına diqqət ayırmaq istəmişdir. Bu mənada şair "mən" şəxs əvəzliyini öz yaradıcılığında ənənəvi olaraq "mənəmlik" anlamında istifadə etmiş, müxtəlif fikirlilik, "mənəmlik" içərisində vahid "mənlik", birlik, həmrəylik ideyası ifadə etmişdir. Buna görə də bu bənddə şair birlik mənasında "bir" sözündən də düz beş dəfə istifadə edərək "mən" – "mənəmlik" amilinin əksinə olaraq "var, yox, dil, yol" [bu ikisi üslubi-kontekstual təzaddır – R.Q.] kimi təzadlar arasında vahidlik - "birlik" anlamında istifadə etmiş, təzadları birləşdirmişdir. "Mən" əvəzliyinin müxtəlif şəkillərdə dəyişilmiş formalarının təkririnə Məmməd Arazın yardıcılığında öz ideya və məzmunu ilə xüsusi əhəmiyyət kəsb edən "Məndən ötdü, qardaşıma dəydi" şeirində də rast gəlmək mümkündür. Şeirdə dəfələrlə təkrar edilən "mən" şəxs əvəzliyi və onun müxtəlif

şəkillərdə dəyişilmiş formaları əsərin bədii ruhunu, məğzini, mənasını, əsas ideyasını təşkil edir. Şeirin düz 19 yerində "mən" şəxs əvəzliyinin dəyişilmiş şəkillərindən bədii təkrir olaraq istifadə edilir. Bu şeirin bir özünəməxsusluğu da əsərin "sən-mən" opponentliyi üzərində qurulmasıdır. Şeirdə nə qədər "mən" əvəzliyi və onun dəyişilmiş şəkillərinə rast gəlinirsə, elə bir o qədər də "sən" əvəzliyi və müxtəlif dəyişmələrdə işlənmiş şəkillərinə rast gəlinir. Maraqlıdır ki, bu şeirdə "sən, mən" bədii təkrir yaradan sözlər olmaqdan başqa həm də bədii təzad yaratmaq funksiyasını da yerinə yetirir.

Maraqli bədii ifadə və təsvir vasitələri yaradan Xalq şairi başqa bir şeirində - "Ağlayan qayalar" əsərində də təkrirlərdən istifadə edərkən bir yerdə fərqlilik yaratmağa, digər birində isə müqayisələndirib birləşdirməyə çalışmışdır:

Analar qovrulub yol qırağında.
Analar daş olub yol qırağında [7, s. 55].

Və yaxud "Bir axşamın balladası" əsərində "bu axşam" sözü dəfələrlə işlənərək maraqlı bədii təkrir yaratmışdır. Bu şeirdə də şair öz fikirlərini daha tutarlı şəkildə ifadə etmək və başlıca ideyanı ortaya qoymaq üçün düz on beş dəfə "bu axşam" ifadəsini işlədir və "bu axşam"lardan ibarət mükəmməl bədii təkrir yaradır.

Habelə:

Adamların gülüşündən nəğmə qaparlar,
Adamların gülüşünə nəğmə qatarlar.
Yarpaqların uşaq dilli şənlikləri var,
Yarpaqların uşaq əlli çəpikləri var [7, s. 62],

- deyə misraların önündə eyni sözlərdən bədii təkrir – anafora yaradan şair həm də bu sözlərin işləndiyi fikirlərin maraqlı bədii təzadını yaradır. Misraların özündə bədii təkrir yaradan şair sona doğru "qaparlar, qatarlar" kimi sözlərilə üslubi bədii təzad ortaya qoyur. Xalq şairinin "Azərbaycan – dünyam mənim", "Qəfil" və başqa şeirlərində də bədii təkrir nümunələri yaradılmışdır. Bu şeirdə də statistik təhlil nəticəsində deyə bilərik ki, əsas, başlıca qayənin açılması, poetik təsirin artması istiqamətində "Azərbaycan" sözündən bədii təkrir olaraq istifadə edilmiş, doqquz dəfə təkrar olunmuşdur. "Qəfil" başlığı altında yazılan bu əsərdə "qəfil" bədii təkrir olaraq müvəffəqiyyətlə istifadə olunub. Bu şeirdə də bədii təkrir olaraq "qəfil" sözü düz on səkkiz dəfə istifadə edilib və şeirdə mövzunun açılması, ideyanın müəyyənləşməsində müstəsna rol oynayıb.

Aparılan təhlillər və edilən müşahidələr nəticəsində qətiyyətlə demək olar ki, Xalq şairi Məmməd Araz yaradıcılığında bədii əsərin mövzu-məzmunun tam açılması, bədii ideyanın ortaya çıxması istiqamətində təkrir ən mükəmməl və çevik şəkildə işlənən üslubi vasitə kimi çıxış edir. Ümumiyyətlə, Xalq şairi Məmməd Arazın şeir dilində, poetik üslubunda təkrirlər bədii ifadə vasitəsi, poetik fiqur kimi ön sırada gəlir və demək olar ki, bütün yaradıcılığını əhatə etməklə yaradıcılıq üslubunu-qanununu təşkil edir. Konkret çoxsaylı əsərlərini göstərmək olar ki, bu əsərlər bədii təkrirlər üzərində qurulub. Onun fərdi yaradıcılıq üslubunu da elə təkrirlərdən ibarət üslub kimi müşahidə etməkdə hər kəs haqlıdır. Bu cəhətdən eyni sözün eyni və ya fərqli mənalarda [yəni omonim kimi – R.Q.] istifadə edilməsi Məmməd Araz şeriyyətinin, üslubu və dilinin ilkin səciyyəsi kimi ortaya çıxır. Bu arada ikinci yeri bədii fiqur kimi təzadlar tutur. Olduqca orijinal bədii təzadlar – antiteza yaradan şair fikirlərinin ifadəsində bu bədii vasitədən uğurla istifadə edir.

Olduqca fərqli, özünəməxsus bədii ifadə və təsvir vasitələri yaradan şairin əsərlərində diqqətəşayan şişirtmə-mübaliğə, hiperbola nümunələrinə də rast gəlmək mümkündür. "Bədii məntiqdə onun vəzifəsi əşyanı, insanın meyil və münasibətlərini müqayisə yolu ilə böyütmək, qaldırmaq, bədii çalarla vüsətəndirmək və canlandırmaqdır" [2, s. 219-220]. Məmməd Araz yaradıcılığında qeyri-adi müqayisə vasitəsilə əmələ gələn bu mübaliğələr öz orijinallığı ilə diqqəti cəlb edir. Hətta qüdrətli sənətkarın böyük məharətlə ərsəyə gətirdiyi və Şamil Əsgərova ithaf etdiyi "Daş qartal" şeiri, demək olar, başdan-ayağa mübaliğə və maraqlı metaforlar üzərində qurulub. "Sanki dağ hirslənir: bu nə duruşdur" [7, s. 55], "Mənim arzularım dağ kəllərindən Diksinib bir daşda yoxa çıxıbdır" [7, s. 55], "Bir alim dilindən qopdu qığılcım, Oyandı hövlnak daş qərinələr" [7, s. 103], "Bir haray yuxuma güllə boşaltdı" [7, s. 111], "Hardasa dil açdı bir çoban neyi, Hardasa bir həzin bulaq ağladı" [7, s. 128] nümunələrində bənzərsiz metaforlar yaradılmışdır. O cümlədən "Təbriz ağlayırdı dağlar başında" [7, s. 76], "Arazı bəxtindən çox razı gördüm, Üstündən yol atdı: "Cəsarətlə keç!" [7, s. 181] və

s. kimi metanimiyalar ortaya qoymuşdur.

Xalq şairinin sənətkarlığında şəxsləndirmə də ən fəal bədii fiqur kimi istifadə edilir. "Arazı bəxtindən çox razı gördüm, Üstündən yol atdı: "Cəsarətlə keç!" [7, s. 181] nümunəsində həm də şəxsləndirmə istifadə edilmişdir. Burada – bu bənddə, fikrimizcə, metanimiya, yəni ad dəyişmə var. Çünki burada Araz sadəcə insani əlaməti daşımaqla kifayətlənməyib, daha çox bir xalqın – azərbaycanlıların, özü də Cənubi azərbaycanlıların taleyi timsalında görünməklə onların adından çıxış edir. Bu mənada bu şeirdə Araz məhz metanimiyadır, bizim fikrimizcə. Başqa şeirlərindən birində deyildiyi kimi, Araz bir tarix, bir xalq olaraq özünə yer tapıb. Məhz bu şeirdə Arazın Cənubi Azərbaycanı əvəz etdiyini qətiyyətlə deyə bilərik. Lakin, deyildiyi kimi, Xalq şairinin poetik novatorluq və sənətkarlıq dolu yaradıcılığında şəxsləndirmə - alleqoriya da xeyli istifadə edilən bir bədii fiqurdur. Onun əsərlərinin çoxunda cansız varlıqlara müraciət var, həmçinin daş, torpaq, ağac, quş, dağ, qaya və s. insantək danışır, dilə gəlir, böyük bir tarix, dərd, nisgil, arzu, dilək və s. danışır.

"Palıd, səni kim yıxdı", "Əlvida, dağlar", "Arazın nağməsi", "Bir ömrün qonaqları", "Ərim gəldi" qayası, "Bir dağa açıq məktub", "Çinarla söhbət", "Dağla üz-üzə", "Baba dağ" və başqa şeirlərində məhz belə alleqoriyalara, eləcə də metaforlara [və ya metaforik obrazlara] rast gəlmək olar. Belə ki, metafor "məna köçürməsidir, varlığın, müəyyən bir əhvalatın, hadisə və prosesin səciyyəvi cəhətlərini nəzərə çarpdırmaq, göstərmək və qiymətləndirməkdir" [2, s. 210]. Burada "müqayisə edilən məfhumların biri atılır, onun yerinə atılan məfhumun xüsusiyyəti saxlanılır" [8, s. 87]. "Dalımca su səpir yoxsa buludlar" [7, s. 18], "Xatirəyəm. Mən Məktub gətirmişəm ilk məhəbbətdən" [7, s. 38] kimi nümunələrdə orijinal metaforlar yaradılmışdır. "Bir ömrün qonaqları" əsəri, ümumiyyətlə, alleqoriya baxımdan fərqli və orijinaldır. Alleqoriya insanlara xas olan hadisə və xüsusiyyətlərin cansızların, bitkilərin, heyvanların simasında təsvir olunmasıdır [8, s.89]. Şair böyük məharətlə Xatirə, Tərif, Ehtiyac, Son xəbər, Şöhrət kimi anlayışları şəxsləndirərək bir ömrün – öz şair ömrünün hər cür təfərrüatlı mənasını təcəssüm etdirir.

Şair bədii dilində "Vəhmi dağ titrədir sel nərəsinin" [7, s. 54], "nərəsi qulaq batıran Çayın da bir qulaq nərəsi qalıb" [7, s. 56], "ləpirim quşlar hürküdür" [7, s. 56], "O zaman yarpaqlar biri bir palaz, İndiki yarpaqlar qulaq boydadı" [7, s. 56] kimi nümunələr ortaya qoymaqla kiçiltməyə - litotaya aid ən yaxşı nümunələr, örnəklər təqdim etmişdir.

---------------------------------------------

***Kiçiltmə, və ya litotada "müqayisə və qarşılaşdırma prosesində qəsdən predmetin, hadisə və əhvalatın ölçüsü, miqyas və əhəmiyyəti kiçildilir" [2, s. 223].***

---------------------------------------------

**Yekun nəticə**. Xalq şairi Məmməd Araz yaradıcılığında, diqqət edildiyi kimi, metafora, metanimiya, şəxsləndirmə - əlamət köçürülməsi, əvəzlənməsi və ya mənimsənilməsi kimi bədii fiqurların daha fəal işlənməsinin yaxından şahidi oluruq. *"Xalq şairi Məmməd Arazın yaradıcılığında heyrətamiz obrazlılığın və onun ən mürəkkəb formalarının çox böyük ustalıqla ərsəyə gəlmiş nümunələrilə rastlaşırıq. Bu misilsiz nümunələrin belə poetik ustalıqla ərsəyə gəlməsi bir tərəfdən şairin şəxsi düşüncəsi, fəlsəfi qayəsilə bağlıdırsa, digər tərəfdən onun intəhasız təxəyyülü, poetik ustalığı və ən əsası ətrafda mövcud olan assosiativ münasibətləri, əlaqə və oxşarlıqları dərin nəzərlərlə müşahidə qabiliyyəti və ifadə etmə məharətinə bağlıdır"* [5, s. 188]. Buna görə də onun yaradıcılığında təbiət, dünya, varlıq tam bir vəhdət şəkilndə meydana çıxır: insan, təbiət, dünya bir varlıq kimi görünür, insanla bulaqlar, daşlar, qayalar, ağaclar, kollar və s. assosiativ bağlılıqda öz təcəssümünü tapır. Fikrimizcə, bunun ən qüvvətli səbəbi və məntiqi mənbəyi Xalq şairinin fəlsəfi düşüncəsi və dünyagörüşündədir.

**Ədəbiyyat**


1. Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. – Bakı: Elm, – 1980. – 252 s.
2. Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları / A. Hacıyev. – Bakı: Zaman, – 1999. – 420 s.
3. Hacıyev, T. Yazıçı dili və ideya – üslub təhlili / T.Hacıyev. – Bakı: Maarif, – 1979. – 130 s.
4. Həsənova, S. Məmməd Araz poeziyasının dil-üslub xüsusiyyətləri. // Məmməd Araz: taleyi və sənəti. – Naxçıvan: Əcəmi, – 2014,

– s.61-66.
5. Qasımov, R. Milli yaddaşın məhək daşı: Xalq şairi Məmməd Araz / R.Qasımov. – Naxçıvan: Əcəmi NPB, – 2020. – 208 s.
6. Məmməd, A. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider Nəşriyyat, – 2004. – 224 s.
7. Məmməd, A. Seçilmiş əsərləri. – Bakı: Çaşıoğlu, – 2004. – 384 s.
8. Mir Cəlal, Xəlilov, P. Ədəbiyyatşünaslığın əsasları. – Bakı: Maarif, – 1988. – 280 s.

*Məqalə filologiya üzrə elmlər doktoru, professor Yusif Səfərov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 20.01.2026, son daxilolma – 03.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 811.512.162’282:37.016

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.120-123*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.120-123*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.120-123*

# Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları

**Müəllif(lər):**

**Nuray Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya elmləri doktoru
**E-poçt:** NurayAliyeva@nmi.edu.az

**Açar sözlər:** dialekt, şivə, tədris, müqayisəli metod, eksperimental fonetika üsulu, interaktiv dərs metodları, layihə əsaslı öyrənmə

**Annotasiya.** Məqalədə Azərbaycan dilinin dialekt fonetikasının tədrisi, bu proses zamanı meydana çıxan çətinliklər və onun metodoloji əsasları araşdırılmışdır. Qeyd olunur ki, dialekt fonetikasının tədrisi dilin tarixi inkişafının, fonetik zənginliyinin və regional xüsusiyyətlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə şivələrin ədəbi dil qarşısında tədricən zəifləməsi və dialekt fərqlərinin azalması mövzunun aktuallığını daha da artırır.

Məqalədə vurğulanır ki, ali təhsil müəssisələrində dialektologiya fənni çərçivəsində dialektlərin fonetik xüsusiyyətləri sistemli şəkildə araşdırılmalı, tələbələrə nəzəri biliklərlə yanaşı praktik nümunələr də təqdim edilməlidir. Bununla yanaşı, qeyd edilir ki, bu istiqamətdə aparılmış elmi-metodiki tədqiqatlar olduqca məhduddur. Tədris prosesində dialektlərarası fonetik fərqlərin müqayisəli şəkildə təhlili, ədəbi dil ilə dialektlər arasındakı əlaqələrin izahı və fonetik dəyişikliklərin tarixi aspektlərinin öyrədilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan dialekt və şivələrin müxtəlif dilçilik sahələri üzrə sistemli, kompleks və ardıcıl şəkildə tədrisi vacib hesab olunur.

Məqalədə həmçinin göstərilir ki, müxtəlif tədris metodlarından istifadə dialekt fonetikasının mənimsənilməsini daha səmərəli edə bilər. Müqayisəli metod, eksperimental fonetika üsulu, interaktiv dərs metodları və layihə əsaslı öyrənmə bu sahədə tətbiq olunan əsas metodlar kimi dəyərləndirilir. Nəticə etibarilə, dialekt fonetikasının tədris prosesində daha geniş yer tutması, dilçi mütəxəssislərin bu sahəyə diqqətinin artırılması və metodik yanaşmaların təkmilləşdirilməsi zəruri hesab edilir.

## The place and methodological bases of the Azerbaijani language in teaching dialect phonetics

**Author(s):**

**Nuray Aliyeva**
Nakhcivan Teachers Institute
Doctor of sciences on Philology
**E-mail:** NurayAliyeva@nmi.edu.az

**Keywords:** dialect, accent, teaching, comparative method, experimental phonetics method, interactive teaching methods, project-based learning

**Abstract.** In the article teaching of dialect phonetics of the Azerbaijani language, the difficulties encountered in this process and its methodological foundations were searched. It is noted that, teaching of dialect phonetics is of great importance for studying the historical development of the language, its phonetic richness and regional characteristics. The gradual weakening of dialects under the influence of the literary language and the reduction of dialectal differences in the modern period increase the relevance of the topic.

The article emphasizes that, within the framework of dialectology courses at higher educational institutions, the phonetic features of dialects should be studied systematically and students should be provided not only with theoretical knowledge, but also with practical samples. At the same time, it is pointed out that, scientific and methodological research in this field is extremely limited. In the teaching process, special importance is attached to the comparative analysis of phonetic differences among dialects, the explanation of the relationship between the literary language and dialects and the teaching of historical aspects of phonetic changes. In this regard, the systematic, comprehensive and consistent teaching of dialects and subdialects within different branches of linguistics is considered essential.

In the article it is also stated that, the use of various teaching methods can make the acquisition of dialect phonetics more effective. The comparative method, the experimental phonetics method, interactive teaching methods and project-based learning are regarded as the main methods applied in this field. In conclusion, it is considered necessary to give a broader place to dialect phonetics in the educational process, to increase the attention of linguists to this field and to improve methodological approaches.

## Место и методологические основы преподавания диалектной фонетики азербайджанского языка

**Автор(ы):**

**Нурай Алиева**
Нахчыванский институт учителей
Доктор филологических наук
**Э-почта:** NurayAliyeva@nmi.edu.az

**Ключевые слова:** диалект, говор, преподавание, сравнительный метод, метод экспериментальной фонетики, интерактивные методы обучения, проектно-ориентированное обучение

**Аннотация.** В статье исследуются преподавание диалектной фонетики азербайджанского языка, трудности, возникающие в данном процессе, а также его методологические основы. Отмечается, что преподавание диалектной фонетики имеет важное значение с точки зрения изучения исторического развития языка, его фонетического богатства и региональных особенностей. Постепенное ослабление говоров под влиянием литературного языка и сокращение диалектных различий в современный период обусловливают актуальность данной темы.

В статье подчёркивается, что в рамках курса диалектологии в высших учебных заведениях фонетические особенности диалектов должны изучаться системно, а студентам наряду с теоретическими знаниями необходимо представлять и практические примеры. Вместе с тем отмечается, что научно-методические исследования в данной области крайне ограничены. В процессе преподавания особое значение имеют сравнительный анализ фонетических различий между диалектами, объяснение взаимосвязи литературного языка и диалектов, а также изучение исторических аспектов фонетических изменений. В этой связи важным считается системное, комплексное и последовательное преподавание диалектов и говоров в рамках различных разделов языкознания.

В статье также указывается, что использование различных методов обучения может сделать процесс усвоения диалектной фонетики более эффективным. Сравнительный метод, метод экспериментальной фонетики, интерактивные методы обучения и проектно-ориентированное обучение рассматриваются как основные методы, применяемые в данной области. В заключение подчёркивается необходимость более широкого включения диалектной фонетики в образовательный процесс, усиления внимания специалистов-языковедов к данной области и совершенствования методических подходов.

**Giriş**. Azərbaycan dili zəngin fonetik xüsusiyyətlərə malik olmaqla yanaşı, geniş dialekt və şivə sisteminə sahibdir. Azərbaycan dilinin dialektləri əsasən fonetik, leksik və qrammatik xüsusiyyətlərinə görə ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir. Xüsusilə fonetik aspektdə dialektlər arasında fərqlərin öyrənilməsi və tədrisi, dilin inkişaf dinamikasını anlamaq üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, dialekt fonetikasının tədrisdə rolu artırılmalı və metodik əsasları daha sistemli şəkildə işlənilməlidir. Bu məqalənin məqsədi Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yerini araşdırmaq, onun öyrədilməsinə dair metodik yanaşmaları təklif etmək və bu sahədəki problemləri müzakirə etməkdir.

**Dialekt fonetikasının nəzəri əsasları.** Dialekt fonetikası, dilin müxtəlif bölgələrdə səslənmə xüsusiyyətlərini öyrənən dilçilik sahəsidir. Azərbaycan dilinin dialekt və şivələri arasında fonetik fərqlər əsasən saitlərin uzanması və ya qısalması, diftonqların dəyişməsi, bəzi samit səslərin fərqli tələffüzü, səs əvəzlənmələri ilə özünü göstərir. Məsələn, bəzi şivələrdə "gəlirəm" əvəzinə "gəliyəm", "budaq" əvəzinə "putax", bacarıram əvəzinə "başa:ram", evləndi əvəzinə "əvləndi" formaları işlədilir və nəticədə sözlərin ədəbi dildən fərqli fonetik variantları meydana çıxır. Dialekt fonetikası dilin tarixi inkişafını araşdırmaq üçün də önəmlidir. Çünki hər bir dialekt və şivə müəyyən qədim fonetik xüsusiyyətləri qoruyub saxlayır və ümumi ədəbi dilin formalaşmasına təsir göstərir. Dialekt və şivələrimiz fonetik cəhətdən dilimizin qədim mənzərəsinin yaşadılması baxımından ən önəmli mənbə hesab oluna bilər. Burada qədim yazılı abidələrimizdə, ilk anadilli ədəbiyyat nümunələrimizdə, dastanlarımızda rast gəldiyimiz, türk dilləri üçün xarakterik sayılan bir çox fonetik xüsusiyyətlər mühafizə olunur ki, onları bu gün ədəbi dilimizdə görə bilmirik. Eyni zamanda şivələrimizin fonetikası ədəbi dildən fərqli olaraq türk dilləri və onların dialekt, şivələri ilə bir çox ortaq xüsusiyyətləri də özündə yaşadır.

Azərbaycan dilində dialekt fonetikasının tədrisi. Dialekt fonetikasının tədrisi dilin tarixi inkişafı və zənginliyinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Hazırda orta və ali təhsil müəssisələrində dialekt fonetikasının öyrədilməsi, əsasən, Azərbaycan dili və ədəbiyyat dərsləri çərçivəsində aparılır. Tədris prosesində aşağıdakı aspektlərə diqqət yetirmək vacibdir:

Orta məktəblərdə dialektologiya haqqında şagirdlərə yalnız ümumi məlumat verilir. Şagirdlər dialektologiyanın ədəbi dildən fərqli regional danışıq olduğu haqqında öyrənirlər. Lakin orta məktəbdə tədris prosesində əsas diqqət ədəbi dilin fonetik normalarına yönəldilsə də, dialektlərin fonetik xüsusiyyətlərinə dair müqayisəli təhlillər də aparılmalıdır.

Ali təhsil pilləsində isə tələbələr dialektologiyanı daha dərindən öyrənir, elmi əsaslarını mənimsəyirlər. "Azərbaycan dialektologiyası müstəqil fənn kimi keçən yüzilliyin ortalarından ali məktəblərin filologiya fakültələrində tədris olunur. Bu fənnin tədrisində əsas məqsəd tələbələri dialektologiyanın nəzəri məsələləri ilə tanış etmək, müasir şivələrin fonetik, leksik və qrammatik quruluşu barədə məlumat verməkdir" [4, s. 3]. Ali məktəblərdə dialektologiya fənni çərçivəsində fonetik xüsusiyyətlər dərindən araşdırılmalı və tələbələrə praktiki nümunələr təqdim edilməlidir. Tədrisdə dialektlərarası fonetik fərqlərin müqayisəsi, ədəbi dil ilə dialektlər arasında əlaqənin izahı və fonetik dəyişmələrin tarixi aspektlərinin öyrədilməsi mühüm əhəmiyyət kəsb edir.

Dialekt fonetikasının tədrisi üçün effektiv metodik yanaşmalar seçilməlidir. "Təlimdə sistemliliyin olması, bəşər təcrübəsinin öyrənilməsi əsasında formalaşdırılmış məzmun üzrə iş aparılması və elmi şəkildə müəyyənləşdirilmiş prinsiplərin fəaliyyətdə nəzərə alınması ondan daha faydalı nəticələr almağa kömək edir" [1, s. 8]. Bu baxımdan dialekt və şivələri də müxtəlif dilçilik bölmələri üzrə sistemli, kompleks və ardıcıl şəkildə tədris etmək lazımdır. Dilin ayrı-ayrı bölmələri arasında kəskin sərhəd olmadığı kimi, dialekt və şivələrin tədrisi zamanı da dilçiliyin müxtəlif bölmələri bir-birindən təcrid olunmuş halda təqdim oluna bilməz. Bu bölmələr bir-biri ilə əlaqələndirilməli və müqayisəli, inteqrasiya olunmuş şəkildə izah olunmalıdır. Fonetika məsələləri də tələbələrə bu şəkildə müqayisəli təqdim olunmalıdır.

**Material və metodlar**. Tədqiqat üçün istifadə olunan materiallar əsasən Azərbaycan dilinin dialekt və şivələrinə aid mənbələrdən ibarət-

dir. Bu sahədə aşağıdakı metodlardan istifadə edilə bilər:

1. **Müqayisəli metod**: Dialektlərin fonetik xüsusiyyətləri müqayisə olunaraq, tələbələrə konkret fərqlər izah edilir. Bu zaman həm dilimizin müxtəlif şivələrinə aid materiallardan, həm ədəbi dil materiallarından, həm də qohum dillərin materiallarından istifadə etmək lazımdır.Yəni burada tələbələrə dialekt və şivələrin ədəbi dillə fərqləri izah olunmaqla yanaşı, həm də dilimizin digər şivələri ilə ortaq və fərqli xüsusiyyətləri çatdırılmalıdır.

2. **Eksperimental fonetika üsulu**: Müxtəlif dialektlərə aid audio yazılar dinlədilərək analiz edilir. Bu zaman tələbələr əyani olaraq dialekt fərqlərini müşahidə edə bilir və müəyyən nəticələr əldə edir. Dialekt və şivələrdə özünü göstərən səs variantlarını, səs əvəzlənmələrini onlar birbaşa informatorların dilindən dinləyirlər. Bu zaman onların nəzəri biliklərə yiyələnən zaman bəzən tam olaraq ayırd edə bilmədikləri səs variantlarını müşahidə edilir və dəqiqləşdirilir. Müasir Azərbaycan ədəbi dilində və Azərbaycan dilinin bütün dialekt və şivələrində sait səslərin kəmiyyəti eynidir. Həm ədəbi dildən, həm də bir sıra türk dillərindən fərqlənmə saitlərin kəmiyyəti, növü deyil, ancaq variantlarıdır. Belə ki şivələrdə sait səslərin uzun, qısa, burun variantları mövcuddur. Bu variantlar məhəlli xüsusiyyət daşıyır və müxtəlif şivə qruplarında bir-birindən fərqlidir.

Məsələn, şivələrimizdə sait səslərin uzun və qısa variantları haqqında M.Şirəliyev yazır ki, şivələrdə bütün saitlərin uzun variantı var. ı, i, u, ü saitlərinin isə qısa variantlar da özünü göstərir [5, s. 25; 31]. Çox vaxt tədris prosesində bu səslər tələbələr tərəfindən dəqiq müəyyən edilə bilmir. Lakin audio yazılarda bunlar birbaşa tələffüzdə müşahidə edilir.

3. **İnteraktiv dərs metodları:** Dialektoloji xəritələr və multimedialı təqdimatlardan istifadə olunaraq, daha vizual və praktik dərs mühiti yaradılır. Bu tələbələrin bölgələr üzrə dialekt xüsusiyətlərini görərək daha yaxşı mənimsəməsinə kömək edir. Məsələn, 2015-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutu tərəfindən "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" hazırlanaraq nəşr edilmişdir. Burada "dil faktlarının xəritələrdə verilməsində müxtəlif rəngli dairəciklərdən istifadə olunmuşdur. Xəritələrdə, bir qayda olaraq, ədəbi dillə uyğun gələn formalar qara rəngli dairəciklərlə işarələnmişdir. Dialekt fərqləri isə qırmızı, göy, yaşıl, sarı, bənövşəyi, qəhvəyi dairəciklərlə göstərilmişdir" [2, s. 47]. Bu atlas üzərində işləyərkən tələbələr dialekt fərqlərinin Naxçıvanın ayrı-ayrı rayonları üzrə necə özünü göstərdiyini, onların ortaq və fərqli xüsusiyyətlərini əyani şəkildə görə bilirlər. Eyni fikir dilimizin digər bölgələrinin dialektoloji atlaslarına da aiddir.

4. **Layihə əsaslı öyrənmə:** Tələbələrə müxtəlif bölgələrdən danışıq nümunələri toplamaq tapşırılaraq, onların tədqiqat aparmaq bacarıqları inkişaf etdirilir. Bu metodlar sayəsində tələbələr dialekt fonetikasını daha praktik və sistemli şəkildə mənimsəyə bilərlər. Həm özləri müşahidələr apararaq dilin dialekt xüsusiyyətlərini birbaşa canlı danışıqda görür, həm də onlarda informatorlarla işləmək bacarıqları formalaşır. Bununla yanaşı dialektoloji materialın toplanması, onun sistemləşdirilməsi, öyrənilməsi tələbələrin araşdırmaçı kimi inkişafına imkan verir, onlar ilkin elmi tədqiqatlarını apararaq müəyyən təcrübə əldə edirlər.

Bu metodlar sayəsində tələbələr dialekt fonetikasını daha praktik və sistemli şəkildə mənimsəyə bilərlər.

**Nəticə və müzakirə.** Dialekt fonetikası dilin zənginliyini qoruyan və onun tarixi inkişafını anlamağa kömək edən vacib sahələrdən biridir. Onun tədris prosesində daha geniş yer alması, dilçi mütəxəssislərin bu sahəyə daha çox diqqət ayırması və metodik yanaşmaların təkmilləşdirilməsi vacibdir. Bu sahədə effektiv tədrisin təmin olunması üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

Orta və ali təhsildə dialekt fonetikası daha sistemli şəkildə tədris olunmalıdır;

Tədris proqramlarında dialektoloji fonetik analizlərə daha çox yer ayrılmalıdır;

Müasir texnologiyalar və interaktiv dərs metodlarından istifadə edərək tədrisin keyfiyyəti artırılmalıdır;

Azərbaycan dialekt fonetikasına dair elmi-tədqiqat işləri genişləndirilməlidir.

**Yekun nəticə.** Nəticə olaraq, dialekt fonetikasının öyrənilməsi və tədrisi, dilin tarixi, sosial və mədəni kontekstinin daha yaxşı anlaşılmasına

imkan yaradır. Bu istiqamətdə metodik yanaşmaların inkişaf etdirilməsi və müasir tədris texnologiyalarından istifadə edilməsi Azərbaycan dilçiliyinin gələcək inkişafı üçün əhəmiyyətli addımlardan biri olacaqdır.

Müasir dünyada gedən proseslər şivə fərqlərinin də ədəbi dil qarşısında tədricən zəifləməsinə gətirib çıxarır. Ona görə də dialekt və şivələrin öyrənilməsi və tədrisi indi çox aktualdır. Tələbələrə dialekt xüsusiyyətlərini mənimsətmək onların mövzunu yaxşı mənimsəməsi üçün başlıca şərtdir.

Dialekt və şivələrin fonetikasında müşahidə olunan regional xüsusiyyətlər adətən tələbələr tərəfindən də olduqca maraqla qarşılanır. Çox vaxt onlar öz ərazilərinə aid və öz nitqlərində də özünü göstərən bu cür fonetik xüsusiyyətlərin əvvəlcədən fərqinə varmır və tədris prosesində onu müşahidə edərək öyrənir.

**Ədəbiyyat**

1. Abbasov, O. Təlim prosesində prinsiplərdən vəhdətdə istifadə // Azərbaycan dili və ədəbiyyatı tədrisi (Elmi-metodik jurnal). № 2 (252), – Bakı: Elm və təhsil, – 2017, – s.8-10.
2. Bayramov, İ. Azərbaycan dialektologiyası / İ.Bayramov. – Ankara: İksad, – 2022, – 456 s.
3. Bayramov, İ.M. Azərbaycan dili şivələrinin fonetikası / İ.M.Bayramov. – Bakı: Elm və təhsil, – 2016. – 252 s.
4. Məmmədli, M.Ə. Azərbaycan dialektologiyası / M.Ə.Məmmədli. – Bakı: Zərdabi Nəşr MMC, – 2019. – 352 s.
5. Şirəliyev, M.Ş. Azərbaycan dialektologiyasının əsasları / M.Ş.Şirəliyev. – Bakı: Şərq-Qərb, – 2008. – 416 s.

*Məqalə akademik İsa Həbibbəyli tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 19.01.2026, son daxilolma – 04.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 811.512.162:316.347

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.124-130*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.124-130*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.124-130*

# Qloballaşma şəraitində Azərbaycan dilinin milli kimlikdə rolu

**Müəllif(lər):**

**Fəxriyyə Cəfərova**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** FakhriyyaCafarova@nmi.edu.az
https://orcid.org/0000-0001-2345-67-89

**Açar sözlər:** Azərbaycan dili, qloballaşma, milli kimlik, dövlət dili siyasəti, dilin qorunması, rəqəmsal mühit

**Annotasiya.** Məqalədə qloballaşma şəraitində Azərbaycan dilinin milli kimliyin formalaşması və qorunmasındakı rolu araşdırılmışdır. Tədqiqat göstərir ki, qloballaşma prosesi bir tərəfdən dilin inkişafı üçün yeni imkanlar yaradır, digər tərəfdən isə müəyyən problemlər və çağırışlar meydana çıxarır. Qlobal informasiya məkanının genişlənməsi, texnologiyanın sürətli inkişafı və beynəlxalq kommunikasiya vasitələrinin fəallaşması Azərbaycan dilinin istifadə dairəsini genişləndirərək onun rəqəmsal və tədris mühitində daha geniş tətbiqinə şərait yaradır. Bu proses milli kimliyin möhkəmlənməsinə və ana dilinin qorunmasına mühüm töhfə verir.

Bununla yanaşı, qloballaşma şəraitində xarici dillərin təsirinin artması, alınma sözlərin çoxalması və sosial media dilində qeyri-ədəbi ifadələrin geniş yayılması Azərbaycan dilinin müəyyən sahələrdə mövqeyinə təsir göstərir. Bu isə milli kimliyin qorunması və dilin saflığının təmin edilməsi baxımından ciddi diqqət tələb edən məsələlərdən biridir.

Tədqiqat nəticələri göstərir ki, Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi yalnız dövlət dili siyasəti çərçivəsində deyil, eyni zamanda təhsil sistemi, kütləvi informasiya vasitələri, sosial şəbəkələr və cəmiyyətin fərdi təşəbbüsləri vasitəsilə dəstəklənməlidir. Ana dilinə hörmətin aşılanması, ədəbi dil normalarının qorunması və milli leksikanın zənginləşdirilməsi gənc nəslin milli şüurunun formalaşmasında mühüm rol oynayır.

Beləliklə, Azərbaycan dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin əsas elementlərindən biri kimi qorunmalı və gələcək nəsillərə ötürülməlidir. Qloballaşma şəraitində dilin qorunması və inkişaf etdirilməsi milli-mədəni dəyərlərin yaşadılması, ictimai şüurun gücləndirilməsi və milli irsin davamlılığının təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

## The role of the Azerbaijani language in national identity under conditions of globalization

**Author(s):**

**Fakhriye Jafarova**
Nakhcivan Teachers Institute
PhD in Philology, Associate Professor
**E-mail:** FakhriyyaCafarova@nmi.edu.az
https://orcid.org/0000-0001-2345-67-89

**Keywords:** Azerbaijani language, globalization, national identity, state language policy, language preservation, digital environment

**Abstract.** The article examines the role of the Azerbaijani language in the formation and preservation of national identity under conditions of globalization. The study demonstrates that globalization creates new opportunities for language development while simultaneously generating certain challenges and risks. The expansion of the global information space, the rapid development of technology, and the increasing activity of international communication platforms have broadened the sphere of use of the Azerbaijani language, facilitating its wider application in digital and educational environments. This process contributes significantly to strengthening national identity and preserving the native language.

At the same time, the growing influence of foreign languages, the increase in lexical borrowings, and the widespread use of non-standard language forms in social media negatively affect the position of the Azerbaijani language in certain domains. This issue requires serious attention from the perspective of preserving national identity and maintaining linguistic purity.

The findings indicate that the preservation and development of the Azerbaijani language should be supported not only within the framework of state language policy, but also through the educational system, mass media, social networks, and individual social initiatives. Promoting respect for the native language, preserving literary language norms, and enriching national vocabulary play an important role in shaping the national consciousness of younger generations.

Thus, the Azerbaijani language should be preserved and transmitted to future generations not only as a means of communication but also as one of the fundamental elements of national identity. Under conditions of globalization, the preservation and development of the language are of particular importance for safeguarding national and cultural values, strengthening public consciousness, and ensuring the continuity of national heritage.

## Роль азербайджанского языка в национальной идентичности в условиях глобализации

**Автор(ы):**

**Фахрия Джафарова**
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
**Э-почта:** FakhriyyaCafarova@nmi.edu.az
https://orcid.org/0000-0001-2345-67-89

**Ключевые слова:** азербайджанский язык, глобализация, национальная идентичность, государственная языковая политика, сохранение языка, цифровая среда

**Аннотация.** В статье исследуется роль азербайджанского языка в формировании и сохранении национальной идентичности в условиях глобализации. Исследование показывает, что процесс глобализации, с одной стороны, создаёт новые возможности для развития языка, а с другой – порождает определённые проблемы и вызовы. Расширение глобального информационного пространства, стремительное развитие технологий и активизация международных средств коммуникации способствуют расширению сферы использования азербайджанского языка, обеспечивая его более широкое применение в цифровой и образовательной среде. Данный процесс вносит значительный вклад в укрепление национальной идентичности и сохранение родного языка.

Вместе с тем усиление влияния иностранных языков, увеличение количества заимствований и широкое распространение не литературных форм речи в языке социальных сетей оказывают влияние на позиции азербайджанского языка в отдельных сферах. Это представляет собой важную проблему, требующую серьёзного внимания с точки зрения сохранения национальной идентичности и обеспечения чистоты языка.

Результаты исследования свидетельствуют о том, что сохранение и развитие азербайджанского языка должны поддерживаться не только в рамках государственной языковой политики, но и посредством системы образования, средств массовой информации, социальных сетей и индивидуальных инициатив общества. Формирование уважительного отношения к родному языку, сохранение норм литературного языка и обогащение национальной лексики играют важную роль в формировании национального самосознания молодого поколения.

Таким образом, азербайджанский язык должен сохраняться и передаваться будущим поколениям не только как средство коммуникации, но и как один из основных элементов национальной идентичности. В условиях глобализации сохранение и развитие языка имеет особое значение с точки зрения защиты национально-культурных ценностей, укрепления общественного сознания и обеспечения преемственности национального наследия.

**Giriş**. Müasir dövrdə qloballaşma prosesi dünya xalqlarının sosial, siyasi, iqtisadi və mədəni həyatına əhəmiyyətli təsir göstərən əsas amillərdən biri kimi çıxış edir. Qloballaşma müxtəlif xalqlar arasında əlaqələrin genişlənməsinə, informasiya mübadiləsinin sürətlənməsinə və mədəniyyətlərarası ünsiyyətin intensivləşməsinə səbəb olur. Bu proses bir tərəfdən xalqların inkişafına və inteqrasiyasına şərait yaratsa da, digər tərəfdən milli kimliyin qorunması məsələsini daha da aktuallaşdırır. Milli kimliyin əsas elementlərindən biri dil olduğuna görə qloballaşma şəraitində ana dilinin qorunması və inkişafı hər bir xalq üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dili də milli kimliyin formalaşmasında və qorunmasında əsas vasitələrdən biri kimi çıxış edir.

**Tədqiqatın aktuallığı**. Müasir dövrdə qloballaşma prosesi dünya xalqlarının sosial, iqtisadi və mədəni həyatına əhəmiyyətli təsir göstərir. İnformasiya texnologiyalarının sürətli inkişafı, beynəlxalq əlaqələrin genişlənməsi və mədəniyyətlərarası ünsiyyətin intensivləşməsi müxtəlif dillərin qarşılıqlı təsirini gücləndirmişdir. Bu şəraitdə bir çox dillər qlobal informasiya məkanında geniş yayılmaqla yanaşı, bəzi milli dillər müəyyən dərəcədə kənar təsirlərə məruz qalır. Belə proseslər fonunda ana dilinin qorunması, inkişaf etdirilməsi və onun milli kimliyin əsas elementi kimi mövqeyinin möhkəmləndirilməsi mühüm elmi və ictimai məsələlərdən birinə çevrilmişdir.

Azərbaycan dili xalqın tarixi yaddaşını, mədəni irsini və mənəvi dəyərlərini yaşadan əsas amillərdən biri kimi milli kimliyin formalaşmasında mühüm rol oynayır. Dil vasitəsilə xalqın dünyagörüşü, düşüncə tərzi və mədəni xüsusiyyətləri nəsildən-nəslə ötürülür. Lakin qloballaşma prosesinin təsiri ilə müxtəlif dillər arasında qarşılıqlı əlaqələrin artması, xüsusilə beynəlxalq dillərin təsirinin güclənməsi milli dillərin funksional sahələrində müəyyən dəyişikliklərə səbəb ola bilər. Bu baxımdan Azərbaycan dilinin müasir qlobal mühitdə mövqeyinin araşdırılması və onun milli kimliyin qorunmasındakı rolunun elmi şəkildə təhlil edilməsi xüsusi aktuallıq kəsb edir.

**Tədqiqatın elmi yeniliyi.** Aparılan tədqiqatın elmi yeniliyi qloballaşma şəraitində Azərbaycan dilinin milli kimliyin formalaşması və qorunmasındakı rolunun müasir sosial-mədəni proseslər fonunda kompleks şəkildə təhlil olunması ilə bağlıdır. Tədqiqat çərçivəsində Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi kimi deyil, eyni zamanda milli özünüdərk, mədəni identiklik və ictimai şüurun formalaşmasında mühüm amil kimi çıxış etdiyi elmi əsaslarla izah edilir. Mövzunun araşdırılması zamanı qloballaşmanın dilə təsir mexanizmləri, xüsusilə leksik sistemdə baş verən dəyişikliklər, alınma sözlərin artması və müasir kommunikasiya mühitində dil istifadəsinin xüsusiyyətləri yeni yanaşma prizmasından şərh olunur. Tədqiqatın yeniliklərindən biri də Azərbaycan dilinin milli kimliyin qorunmasında oynadığı rolun müasir informasiya məkanı, sosial şəbəkələr və qlobal kommunikasiya vasitələri kontekstində qiymətləndirilməsidir. Bu istiqamətdə dilin funksional imkanları, onun cəmiyyətin müxtəlif sahələrində tətbiqi və gənc nəslin dilə münasibəti təhlil edilərək qloballaşmanın yaratdığı yeni dil mühitinin xüsusiyyətləri müəyyənləşdirilir. Eyni zamanda, ana dilinin qorunması və inkişaf etdirilməsi baxımından dövlət dil siyasətinin və ictimai münasibətin əhəmiyyəti elmi şəkildə əsaslandırılır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir dövrdə qloballaşma prosesinin təsiri altında Azərbaycan dilinin inkişafı və onun cəmiyyətin sosial-mədəni həyatındakı funksional mövqeyidir. Bu çərçivədə Azərbaycan dilinin milli kimliyin formalaşmasında və qorunmasında oynadığı rol ümumi şəkildə araşdırma obyektini təşkil edir. Dilin ictimai həyatın müxtəlif sahələrində istifadəsi, onun mədəni və mənəvi dəyərlərin daşıyıcısı kimi fəaliyyəti də tədqiqatın obyektinə daxil olan əsas məsələlər sırasındadır.

Tədqiqatın predmeti isə qloballaşma şəraitində Azərbaycan dilinin milli kimliklə qarşılıqlı əlaqəsinin öyrənilməsi, dilin milli şüurun formalaşmasına təsiri və müasir kommunikasiya mühitində dilin funksional xüsusiyyətlərinin təhlilindən ibarətdir. Bununla yanaşı, qlobal informasiya məkanında baş verən dil dəyişikliklərinin Azərbaycan dilinə təsiri, alınma sözlərin istifadəsi, dil normalarının qorunması və ana dilinin cəmiyyətdəki mövqeyi tədqiqatın predmetini təşkil edən əsas istiqamətlər kimi nəzərdən keçirilir.

Beləliklə, tədqiqat çərçivəsində Azərbaycan dilinin qloballaşma prosesləri fonunda milli kimliyin qorunması və inkişafında oynadığı rol

sistemli şəkildə araşdırılır.

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın əsas məqsədi qloballaşma şəraitində Azərbaycan dilinin milli kimliyin formalaşması və qorunmasındakı rolunu elmi baxımdan araşdırmaq və dilin müasir cəmiyyət həyatındakı funksional əhəmiyyətini müəyyənləşdirməkdir. Tədqiqat çərçivəsində Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli-mədəni dəyərlərin, tarixi yaddaşın və ictimai şüurun daşıyıcısı kimi əhəmiyyəti təhlil olunur.

Eyni zamanda, tədqiqatın məqsədlərindən biri qloballaşma prosesinin Azərbaycan dilinə təsirini araşdırmaq, bu proses nəticəsində dil mühitində baş verən dəyişiklikləri müəyyənləşdirmək və ana dilinin qorunması ilə bağlı mövcud problemləri elmi şəkildə təhlil etməkdir. Bu istiqamətdə müasir informasiya mühiti, kütləvi kommunikasiya vasitələri və sosial şəbəkələrin dilin istifadəsinə təsiri də nəzərdən keçirilir.

Bununla yanaşı, tədqiqatın məqsədi Azərbaycan dilinin milli kimliyin qorunmasında və inkişafında oynadığı rolu əsaslandırmaq, ana dilinin cəmiyyətin müxtəlif sahələrində daha səmərəli istifadəsi üçün elmi yanaşmalar irəli sürməkdən ibarətdir. Araşdırma nəticəsində qloballaşma şəraitində Azərbaycan dilinin inkişaf istiqamətləri və onun milli-mədəni dəyərlərin qorunmasındakı əhəmiyyəti müəyyənləşdirilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Aparılan tədqiqat Azərbaycan dilinin qloballaşma şəraitində milli kimliklə qarşılıqlı əlaqəsinin öyrənilməsi baxımından mühüm nəzəri əhəmiyyətə malikdir. Araşdırma zamanı dilin yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də xalqın mədəni irsinin, tarixi yaddaşının və milli şüurunun formalaşmasında mühüm rol oynayan sosial-mədəni fenomen kimi dəyərləndirilməsi dilçilik elminin nəzəri aspektlərinin daha dərindən araşdırılmasına imkan yaradır.

Tədqiqat çərçivəsində qloballaşma prosesinin milli dillərə, xüsusilə Azərbaycan dilinə təsiri ilə bağlı mövcud elmi yanaşmalar ümumiləşdirilir və bu istiqamətdə yeni nəzəri baxışlar irəli sürülür. Dil və milli kimlik anlayışlarının qarşılıqlı əlaqəsinin təhlili Azərbaycan dilçiliyində bu mövzunun daha sistemli şəkildə araşdırılmasına elmi zəmin yaradır. Bununla yanaşı, dilin sosial funksiyaları, onun milli özünüdərk prosesindəki rolu və müasir informasiya mühitində istifadəsinin xüsusiyyətləri nəzəri baxımdan izah edilir.

Araşdırmanın nəticələri dilçilik, sosiolinqvistika və mədəniyyətşünaslıq sahələrində aparılan elmi tədqiqatlar üçün nəzəri mənbə kimi istifadə oluna bilər. Eyni zamanda, bu tədqiqat Azərbaycan dilinin qloballaşma şəraitində inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və milli kimliyin qorunması məsələlərinin elmi əsaslarla araşdırılması baxımından nəzəri əhəmiyyət daşıyır.

**Materiallar və metodlar.** Tədqiqatın aparılması zamanı müxtəlif elmi mənbələrdən və nəzəri materiallardan istifadə edilmişdir. Araşdırma prosesində Azərbaycan dilçiliyi sahəsində yazılmış elmi əsərlər, monoqrafiyalar, elmi məqalələr, dərsliklər və digər elmi ədəbiyyatlar əsas material mənbəyi kimi çıxış etmişdir. Bununla yanaşı, qloballaşma, dil və milli kimlik məsələlərinə dair aparılmış elmi tədqiqatların nəticələri də nəzərdən keçirilmiş və müqayisəli şəkildə təhlil edilmişdir. Müasir informasiya məkanında Azərbaycan dilinin istifadəsi ilə bağlı nümunələr, kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə istifadə olunan dil materialları da araşdırma zamanı əlavə mənbə kimi nəzərə alınmışdır.

Tədqiqatın həyata keçirilməsi prosesində bir sıra elmi metodlardan istifadə edilmişdir. Mövzunun öyrənilməsi zamanı təhlil və sintez metodlarından istifadə edilərək mövzu ilə bağlı mövcud elmi fikirlər sistemləşdirilmiş və ümumiləşdirilmişdir. Müqayisəli metod vasitəsilə qloballaşma şəraitində dil mühitində baş verən dəyişikliklər və Azərbaycan dilinin funksional xüsusiyyətləri qiymətləndirilmişdir. Eyni zamanda, təsviri metoddan istifadə olunaraq Azərbaycan dilinin milli kimliyin formalaşmasındakı rolu və cəmiyyət həyatındakı əhəmiyyəti izah edilmişdir.

Araşdırma zamanı əldə edilən materiallar elmi yanaşma əsasında təhlil edilərək ümumiləşdirilmiş və mövzu ilə bağlı nəticələr çıxarılmışdır. Bu metodoloji yanaşma qloballaşma şəraitində Azərbaycan dilinin milli kimliklə əlaqəsinin daha sistemli şəkildə araşdırılmasına imkan yaratmışdır.

**Müzakirələr**. Qloballaşma müasir dünyanın ən mühüm sosial və mədəni proseslərin-

dən biri hesab olunur. Bu proses dünya ölkələri arasında iqtisadi, siyasi və mədəni əlaqələrin genişlənməsi ilə xarakterizə olunur və nəticədə xalqlar arasında qarşılıqlı təsir daha da güclənir. Qloballaşma yalnız iqtisadi və texnoloji sahələrdə deyil, həm də dil və mədəniyyət sahəsində mühüm dəyişikliklərə səbəb olur. Belə şəraitdə milli dillərin mövqeyi və onların milli kimliyin formalaşmasındakı rolu xüsusi diqqət tələb edən məsələlərdən birinə çevrilir. Azərbaycan dili də qloballaşma prosesinin təsirinə məruz qalan dillərdən biridir və bu baxımdan onun müasir şəraitdə inkişaf istiqamətlərinin araşdırılması elmi baxımdan əhəmiyyətlidir.

Dil hər bir xalqın milli varlığını və mədəni irsini ifadə edən əsas vasitələrdən biridir. Tarix boyu dil yalnız ünsiyyət funksiyası daşımamış, eyni zamanda xalqın mədəniyyətini, adət-ənənələrini və düşüncə tərzini özündə əks etdirmişdir. Bu baxımdan milli kimliyin formalaşmasında və qorunmasında dilin rolu əvəzsizdir. Azərbaycan dili də xalqın milli mənəvi dəyərlərinin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Qloballaşma şəraitində bu funksiyanın daha da aktuallaşması müşahidə olunur, çünki qlobal informasiya mühitində müxtəlif dillər arasında rəqabət güclənir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı dillərin yayılmasına və qarşılıqlı təsirinə böyük imkanlar yaratmışdır. İnternet, sosial şəbəkələr və beynəlxalq kommunikasiya vasitələri vasitəsilə müxtəlif dillərin istifadə dairəsi genişlənmişdir. Bu proses bir tərəfdən mədəniyyətlərarası ünsiyyəti asanlaşdırır, digər tərəfdən isə bəzi milli dillərin istifadəsinin azalması riskini yarada bilər. Azərbaycan dilinin müasir informasiya məkanında mövqeyi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dilin rəqəmsal mühitdə aktiv şəkildə istifadə olunması onun inkişafı və qorunması üçün mühüm şərtlərdən biridir.

Qloballaşmanın dilə təsirinin ən çox müşahidə olunan formalarından biri alınma sözlərin artmasıdır. Müasir dövrdə texnologiya, biznes, iqtisadiyyat və digər sahələrdə yaranan yeni anlayışlar müxtəlif dillərdən alınmış terminlərin istifadəsini zəruri edir. Azərbaycan dilində də bu proses müşahidə olunur və xüsusilə ingilis dilindən alınan sözlərin sayı artmaqdadır. Bu sözlərin bir qismi zaman keçdikcə dilin fonetik və qrammatik xüsusiyyətlərinə uyğunlaşaraq sabitləşir. Lakin bəzi hallarda alınma sözlərin həddindən artıq istifadəsi dilin milli xüsusiyyətlərinə mənfi təsir göstərə bilər. Buna görə də yeni terminlərin yaradılması və milli leksik ehtiyatın qorunması məsələsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi məsələsində dövlət dil siyasəti mühüm rol oynayır. Dövlət dili statusu dilin ictimai həyatın bütün sahələrində istifadə olunmasına hüquqi zəmin yaradır. Təhsil sistemi, kütləvi informasiya vasitələri və rəsmi sənədləşmə sahələrində Azərbaycan dilinin tətbiqi onun funksional imkanlarının genişlənməsinə səbəb olur. Bu proses milli kimliyin möhkəmlənməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Dövlət tərəfindən həyata keçirilən dil siyasəti Azərbaycan dilinin həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə nüfuzunun artmasına şərait yaradır.

Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi istiqamətində dövlət səviyyəsində atılan mühüm addımlardan biri Prezident İlham Əliyevin 2012-ci il mayın 23-də imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamıdır. Bu sərəncam milli dilin müasir dövrdə qarşılaşdığı problemləri həll etmək, onun funksional imkanlarını genişləndirmək və qloballaşma şəraitində dilimizin mövqeyini möhkəmləndirmək məqsədini daşıyırdı. Həmin sənəd çərçivəsində dilimizin tədrisi, kütləvi informasiya vasitələrində istifadəsi, elmi araşdırmaların təşkili və yeni terminlərin yaradılması kimi məsələlər diqqət mərkəzində saxlanmışdır. Bu baxımdan sərəncam yalnız qanuni sənəd kimi deyil, həm də Azərbaycan dilinin inkişafına strateji təsir göstərən tarixi əhəmiyyətli addım kimi qiymətləndirilir [3, s. 276].

Bundan sonra, 2013-cü il aprelin 9-da Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam da xüsusi aktuallıq kəsb edir. Bu sənəd Dövlət Proqramının həyata keçirilməsi üçün hüquqi və praktiki mexanizmləri təsbit etmiş, proqramın icrasını təmin edən

institusional və maliyyə əsaslarını müəyyənləşdirmişdir. Eyni zamanda sərəncam dilimizin saflığının qorunması, ədəbi normaların tətbiqi, milli leksikanın zənginləşdirilməsi və dilçiliyin elmi əsaslarla inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdur.

Hər iki sərəncam Azərbaycan dilinə dövlət səviyyəsində göstərilən qayğının ifadəsi olmaqla yanaşı, milli kimliyin qorunması və inkişafında vacib tarixi əhəmiyyətə malikdir. Qloballaşma şəraitində dilimizin qorunması yalnız dövlət siyasəti ilə deyil, həm də cəmiyyətin və elmi mühitin birgə səyi ilə mümkündür. Bu baxımdan, İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar milli dilin davamlı inkişafı və gələcək nəsillərə ötürülməsi üçün strateji əhəmiyyət daşıyan sənədlərdir.

2015-ci ilin noyabr ayının 9-da Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları iştirak edir və öz çıxışı ilə diqqət çəkir. Bu çıxışda dilimizin qorunması, yad kəlmələrdən təmizlənməsi məsələsi xüsusi qeyd edilir. İlham Əliyev öz çıxışında bütün sahələrə toxunur. Ana dili ilə bağlı məsələləri isə xüsusi qeyd edir: "Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiya-ların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, Ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə, bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik [5].

Milli kimliyin formalaşmasında və qorunmasında təhsil sistemi xüsusi rol oynayır. Ana dilinin məktəblərdə və ali təhsil müəssisələrində yüksək səviyyədə tədris olunması gənc nəslin milli dəyərlərə bağlılığının güclənməsinə xidmət edir. Dilin düzgün və zəngin şəkildə öyrədilməsi gənclərin həm kommunikativ bacarıqlarının inkişafına, həm də milli şüurun formalaşmasına müsbət təsir göstərir. Qloballaşma şəraitində xarici dillərin öyrənilməsi vacib olsa da, ana dilinin mövqeyinin zəifləməsi milli kimlik baxımından müəyyən problemlər yarada bilər. Bu səbəbdən təhsil prosesində ana dilinə xüsusi diqqət yetirilməsi vacib hesab olunur.

Kütləvi informasiya vasitələri və sosial şəbəkələr də dilin inkişafına təsir göstərən mühüm amillərdəndir. Müasir dövrdə gənclərin gündəlik ünsiyyətində sosial şəbəkələrin rolu xeyli artmışdır. Bu mühitdə istifadə olunan dil formaları bəzən ədəbi dil normalarından fərqlənir. Qısaldılmış sözlər, qeyri-standart ifadələr və xarici dillərin təsiri nəticəsində yaranan yeni söz formaları sosial media dilinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Bu proses müəyyən mənada dilin təbii inkişafı ilə bağlı olsa da, ədəbi dil normalarının qorunması baxımından diqqət tələb edir.

Digər tərəfdən, sosial media və internet mühiti Azərbaycan dilinin yayılması üçün yeni imkanlar da yaradır. Onlayn platformalarda Azərbaycan dilində yaradılan məzmunun artması dilin istifadə dairəsinin genişlənməsinə kömək edir. Elektron kitablar, onlayn dərsliklər, internet portalları və sosial şəbəkələrdə yayılan müxtəlif mətnlər Azərbaycan dilinin rəqəmsal mühitdə mövqeyinin güclənməsinə şərait yaradır. Bu isə qloballaşma şəraitində milli dilin qorunması və inkişafı baxımından müsbət amil kimi qiymətləndirilə bilər.

Dil və milli kimlik arasındakı əlaqə yalnız ünsiyyət səviyyəsində deyil, həm də mədəni və mənəvi sahələrdə özünü göstərir. Azərbaycan xalqının zəngin folkloru, ədəbiyyatı və mədəni irsi dil vasitəsilə yaşadılır. Ədəbiyyat və folklor nümunələri xalqın tarixini, dünyagörüşünü və mənəvi dəyərlərini özündə əks etdirir. Bu baxımdan Azərbaycan dili milli mədəniyyətin qorunması və inkişaf etdirilməsində mühüm rol oynayır. Klassik və müasir ədəbiyyat nümunələri dilin bədii imkanlarını genişləndirərək onun zənginləşməsinə töhfə verir.

Qloballaşma şəraitində milli kimliyin qorunması yalnız dövlət siyasətindən deyil, həm də cəmiyyətin dilə olan münasibətindən asılıdır. Hər

bir insan ana dilinə hörmətlə yanaşmalı və onun düzgün istifadəsinə diqqət yetirməlidir. Dil mədəniyyətinin yüksəldilməsi, ədəbi dil normalarının qorunması və ana dilinin gündəlik ünsiyyətdə geniş istifadə olunması milli kimliyin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan cəmiyyətin bütün üzvlərinin dilə məsuliyyətli münasibəti vacib hesab olunur.

Dünya Azərbaycanlılarının V Qurultayı zamanı, 22 aprel 2022-ci ildə Şuşa şəhərində çıxış edən İlham Əliyev ana dilinin qorunmasının və öyrənilməsinin bütün dünya azərbaycanlıları üçün böyük əhəmiyyət daşıdığını xüsusi vurğulamışdır. Prezident qeyd etmişdir ki, xaricdə yaşayan azərbaycanlıların ikinci və üçüncü nəsillərinin öz milli köklərinə bağlı qalması üçün onların Azərbaycan dilini bilməsi çox vacibdir.

O bildirmişdir ki, ailə mühitində ana dilinin yaşadılması mühüm rol oynasa da, təkcə bununla kifayətlənmək olmaz. Bu səbəbdən xarici ölkələrdə Azərbaycan məktəblərinin və bazar günü məktəblərinin yaradılması mühüm addım hesab olunur. Dövlətin bu təşəbbüslərə dəstək verməyə hazır olduğu və bu istiqamətdə işlərin artıq həyata keçirildiyi də vurğulanmışdır.

Prezidentin fikrincə, bu fəaliyyətlərin daha sistemli və təşkilatlanmış şəkildə aparılması vacibdir. Çünki ana dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları bir araya gətirən və onların milli kimliyini qoruyan əsas amillərdən biridir. Buna görə də Azərbaycan dilinin qorunması və gələcək nəsillərə ötürülməsi milli birlik və həmrəyliyin təmin olunmasında mühüm rol oynayır [1].

Bunun davamı kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışı zamanı dilimizlə bağlı keçirdiyi narahatlıq hissini belə ifadə edirdi: "Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, əbədi Azərbaycan dilinin qoruyucuları bizik-müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millər, hər bir xalq üçün Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. 50 milyondan çox insam üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu ya səhvdir, ya təxribatdır" [2].

Prezidentin fikrincə, dilin xarici sözlərlə doldurulması və yalnız gündəlik ünsiyyətdə istifadə olunması, onun zəngin və tarixi strukturlarının unudulmasına səbəb ola bilər. Ona görə də Azərbaycan dilinin əzəli sözlərinə üstünlük verilməli, lazımsız xarici leksik elementlərin yerinə əsl milli ifadələr istifadə olunmalıdır. Bu, yalnız dilin qorunması deyil, həm də milli kimliyin gücləndirilməsi ilə birbaşa bağlıdır.

Akademik İsa Həbibbəyli məsələyə münasibətini belə ifadə edir: "Bu gün alınma sözlərdən yerli-yersiz istifadə onunur və bunun qarşısını almaq üçün neologizmlər və dialektizmlərdən istifadə etməklə dilimizi daxili imkanlar hesabına genişləndirilməli, öz dilimizdə qarşılığı olan sözlərdən istifadə etməliyik" [4].

Akademikin fikrincə, bu problemin həlli Azərbaycan dilinin daxili imkanlarından istifadə etməklə mümkündür. Yəni yeni sözlər (neologizmlər) yaratmaq, dialektlərdən və yerli söz ehtiyatından yararlanmaqla dilimizin söz ehtiyatını zənginləşdirmək mümkündür. Akademik hesab edir ki, əgər bir anlayışın dilimizdə mövcud qarşılığı varsa, onun yerinə xarici sözləri işlətmək məqsədəuyğun deyil. Bu yanaşma yalnız dilin qorunmasını deyil, həm də milli özünəməxsusluğun gücləndirilməsini təmin edir.

**Nəticə**. Aparılan tədqiqat və müzakirələr göstərir ki, qloballaşma prosesi Azərbaycan dilinin inkişafına həm yeni imkanlar, həm də müəyyən çətinliklər gətirir. Qlobal informasiya mühitinin genişlənməsi, beynəlxalq kommunikasiya vasitələrinin sürətlə inkişafı və texnologiyanın həyatın bütün sahələrinə daxil olması Azərbay-

can dilinin daha geniş auditoriyaya çatmasına və istifadəsinin artırılmasına şərait yaradır. Bu, dilin rəqəmsal mühitdə aktiv şəkildə tətbiqi, onlayn platformalarda Azərbaycan dilində məzmunun artması, elmi və tədris resurslarının zənginləşdirilməsi kimi sahələrdə özünü göstərir. Belə imkanlar dilin inkişafı və qorunması üçün strateji əhəmiyyət daşıyır, milli kimliyin güclənməsinə töhfə verir.

Digər tərəfdən, qloballaşma xarici dillərin təsirinin artmasına səbəb olur ki, bu da milli dilin müəyyən sahələrdə mövqeyinə təsir edə bilər. Xüsusilə alınma sözlərin artması, informasiya mühitində qeyri-ədəbi dil formalarının genişlənməsi və xarici mədəniyyətlərin təsiri Azərbaycan dilinin leksik, qrammatik və stilistik sahələrində müəyyən dəyişikliklər yaradır. Bu isə milli kimliyin qorunması baxımından diqqət tələb edən mühüm məsələlərdən biridir.

Buna görə də Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi istiqamətində ardıcıl, kompleks və məqsədyönlü tədbirlərin həyata keçirilməsi zəruridir. Bu tədbirlər yalnız dövlət siyasəti çərçivəsində deyil, həm də təhsil sistemi, kütləvi informasiya vasitələri, sosial şəbəkələr və cəmiyyətin fərdi səyləri ilə dəstəklənməlidir. Məqsəd dilin ədəbi normalarının qorunması, milli leksikanın zənginləşdirilməsi və gənc nəsildə milli şüurun gücləndirilməsidir.

Beləliklə, Azərbaycan dili yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli kimliyin əsas elementi kimi qorunmalı və gələcək nəsillərə ötürülməlidir. Qloballaşma şəraitində dilin qorunması və inkişaf etdirilməsi milli-mədəni dəyərlərin qorunması, ictimai şüurun formalaşması və milli irsin davamlılığının təmin olunması baxımından xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir. Tədqiqat göstərir ki, Azərbaycan dilinin gələcək inkişafı həm dövlət strategiyası, həm də cəmiyyətin diqqətli və məsuliyyətli münasibəti ilə birbaşa bağlıdır.

**Ədəbiyyat**

1. Azərbaycan dilinin saflığının qorunması dövlət siyasətinin əsas prioritet istiqaməti kimi. 25 oktyabr 2022 https://www.yeniazerbaycan.com/xeberlenti_e76024_az.html
2. Azərbayca Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxışı. https://president.az/az/articles/view/70464
3. Cəfərova, F. Dilimizin Heydər Əliyev zirvəsi. – Naxçıvan: Məktəb, – 2023. – 238 s.
4. Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağındakı nitqində qarşçıya qoyduğu vəzifələr. https://science.gov.az/az/news/open/34070
5. https://president.az/az/articles/view/16703

*Məqalə filologiya üzrə elmlər doktoru, professor Yusif Səfərov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2026, son daxilolma – 04.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.131-135*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.131-135*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.131-135*

**UOT: 821.512.162.09-32**

# Mir Cəlalın satirik hekayələrində obraz probleminə müasir yanaşma

**Müəllif(lər):**

**Şəkurə Həsənli**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** sakura.hasanli@icloud.com
https://orcid.org/0009-0003-7091-1328

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, hekayə janrı, Mir Cəlal Paşayev, satira, obraz problemi, bədii təhlil, “Anket Anketov”

**Annotasiya.** Məqalədə XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyi ilə seçilən Mir Cəlal Paşayev yaradıcılığının mühüm istiqamətlərindən biri olan satirik hekayələr bədii təhlilə cəlb edilmişdir. Təhlil prosesində göstərilmişdir ki, yazıçının Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olan satirik əsərləri cəmiyyətdə mövcud olan mənəvi-əxlaqi qüsurların tənqidi və ictimai düşüncənin saflaşması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Müəllifin güldürərək düşündürən satirik üslubu həm dövrünün, həm də müasir dövrün sosial problemlərinin ifadəsində təsirli bədii vasitə kimi çıxış edir.

Araşdırmada qeyd olunur ki, Mir Cəlal Paşayevin satirası yalnız gülüş yaratmaq məqsədi daşımır, eyni zamanda cəmiyyətin ictimai problemlərini üzə çıxaran və onların həlli yollarını işarə edən mühüm ideya-estetik funksiyaya malikdir. Yazıçının əsərlərində yaradılmış obrazlar real həyat hadisələri əsasında formalaşdırılmış, bədii ümumiləşdirmə yolu ilə tipik xarakter səviyyəsinə yüksəldilmişdir. Satirik hekayələrdə cahillik, ikiüzlülük, rüşvətxorluq və mənəvi deqradasiya kimi problemlər kəskin tənqid obyektinə çevrilmişdir. Müəllif bu mövzuların təqdimində təkrarçılıqdan uzaq durmuş, təbii və düşündürücü gülüş yaratmağa nail olmuşdur.

Məqalədə vurğulanır ki, Mir Cəlal Paşayevin satirik yaradıcılığı oxucunu yalnız əyləndirmir, həm də onu özünü və cəmiyyəti dərk etməyə sövq edir. Yazıçının satirası zaman çərçivəsini aşaraq müasirlik qazanmış və aktuallığını bu gün də qoruyub saxlamışdır. Onun əsərləri gənc nəslin mənəvi-estetik tərbiyəsində mühüm rol oynayır və Azərbaycan satirik nəsrinin inkişafında yeni mərhələnin formalaşmasına əhəmiyyətli təsir göstərir.

## A modern approach to the problem of characterization in Mir Jalal’s satirical stories

**Author(s):**

**Shakura Hasanli**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** sakura.hasanli@icloud.com
https://orcid.org/0009-0003-7091-1328

**Keywords:** Azerbaijani literature, story genre, Mir Jalal Pashayev, satire, problem of character, literary analysis, “Anket Anketov”

**Abstract**. In the article satirical stories being one of the important directions of the creativity of Mir Jalal Pashayev having special place in the XX century Azerbaijani literature. In the process of analysis it was stated that, the writer’s satirical works, which are included in the golden treasure of Azerbaijani literature, played a significant role in criticizing moral and social shortcomings and in contributing to the moral purification of society. The author’s satirical style, which makes readers laugh while encouraging them to reflect, serves as an effective artistic means of expressing both the social problems of his period and contemporary realities.

In the study it is noted that, Mir Jalal Pashayev’s satire is not merely a means of creating humor but also possesses an important ideological and aesthetic function by revealing social problems and indicating possible ways of overcoming them. The characters created in the works of writer are based on real-life observations and elevated to the level of typical literary images through artistic generalization. Such issues as ignorance, hypocrisy, bribery and moral degradation become the main targets of criticism in the satirical stories. The author successfully avoids repetition in presenting these themes and achieves a natural yet thought-provoking satirical effect.

In the article it is stated that, Mir Jalal Pashayev’s satirical creativity not only entertains readers but also encourages them to develop self-awareness and a deeper understanding of society. His satire has passed the boundaries of time gaining modernity and preserved its significance till nowadays. His works play an important role in the moral and aesthetic upbringing of the younger generation and have significantly contributed to the development of Azerbaijani satirical prose.

## Современный подход к проблеме образа в сатирических рассказах Мир Джалала

**Автор(ы):**

**Шакура Гасанлы**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** sakura.hasanli@icloud.com
https://orcid.org/0009-0003-7091-1328

**Ключевые слова:**
азербайджанская литература, жанр рассказа, Мир Джалал Пашаев, сатира, проблема образа, художественный анализ, «Анкет Анкетов»

**Аннотация.** В статье в художественный анализ включены красивые и содержательные сатирические произведения Мир Джалала Пашаева, занимающие особое место в азербайджанской литературе прошлого века. В процессе анализа было показано, что сатирические рассказы писателя, вошедшие в золотой фонд нашей литературы и вызывающие смех, сыграли важную роль в очищении общества путем извлечения выводов из критики и играют до сих пор.

Сатира Мир Джалала Пашаева является не просто средством смеха, а стоит на позиции раскрытия социальных проблем современности и указания путей их решения. Образы писателя в его произведениях привлекают внимание как художественное обобщение, взятое из реальной жизни. Его сатира ярко отражала социальные и общественные проблемы того времени. Хотя язык Мир Джалала прост, он глубок и содержателен. Невежество, лицемерие и взяточничество представлены в сатирических рассказах как проблемы. Писатель не допускал повторов при изложении этих тем. Смех в работах естественный и выразительный.

Мир Джалал Пашаев заставляет читателя смеяться и осознавать себя. Его сатира превзошла свое время и обрела современность. Эти работы сохраняют свою актуальность и сегодня. Творчество писателя имеет большое значение в воспитании современного молодого поколения. Сатирический стиль Мир Джалала создал новый этап в азербайджанской литературе. Его произведения — один из ценнейших образцов, обогащающих духовную сокровищницу нашей литературы.

**Giriş**. Azərbaycan ədəbiyyatında xüsusi mövqeyi ilə seçilən sənətkarımız Mir Cəlal Paşayevin satirik əsərləri ədəbiyyatşünaslıqda ətraflı şəkildə araşdırılmış və bədii təhlilə cəlb olunmuşdur. Yazıçı satirik hekayələrində oxucunu həm güldürən, həm də ətraflı şəkildə düşündürən məsələləri cəmiyyətin tənqid vasitəsilə saflaşmasına mühüm təsir göstərmişdir. Bu təsir demək olar ki, indiki dövrümüzdə də öz aktuallığını qoruyub saxlamağa müvəffəq olmuşdur.

Mir Cəlalın yaratdığı obrazlar gerçək həyatda baş verən hadisələrin daxilində qaynaqlanır və bədii ümumiləşdirmə formasında oxucuya ümumiləşmə səviyyəsində təqdim olunur. Mir Cəlalın dili zahirən sadə rahat görünsə də, məzmun və ideya baxımından dərin və düşündürücüdür. Yazıçı demək olar ki, əsərlərində daha çox rüşvətxorluq, ikiüzlülük və s. pis vərdişləri, məndi halları əsas tənqid hədəfinə çevirmişdir.

**Tədqiqatın aktuallığı:** Ötən dövr ərzində bir sıra ədəbiyyatşünas alimlərimiz tərəfindən satirik hekayələrdə obraz problemi mövzusu əsasında müxtəlif vaxtlarda müasir tələblər səviyyəsində məqalələr yazılmış, ciddi tədqiqat işləri aparılmış, dəyərli monoqrafiyalar, məqalələr, resenziyalar yazılmış və yazılmaqdadır. Ancaq nəzərdə tutulan mövzu məqalə işi olaraa planlı və ardıcıl şəkildə təhlilə cəlb edilməmişdir. Ona görə də bu mövzu problematik məsələ olmaqla xüsusi tədqiqat tələb edir. Bütün bunlar mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini şərtləndirən əsas amil məqalə mövzusunun bədii əsərlər üzərində obraz probleminin ilk dəfə sistemli və ardıcıl olaraq elmi və metodik istiqamətdən tədqiqat obyekti kimi araşdırılırmaya cəlb edilməsidir. Mövzuya sistematik olaraq bədii obrazın həyatı, fəaliyyəti, mühiti, zamanı və ictimai-siyasi, tarixi, milli mövqeyi məsələləri kontekstindən yanaşılır.

**Obyekti və predmeti:** Məqalənin mövzusuna uyğun olaraq müvafiq bədii nümunələrin təhlilə cəlb edilərək araşdırmalar aparılması tədqiqatın əsas obyektidir.

**Tədqiqatın məqsədi:** Sözü gedən məqalədə ədəbi qəhrəman və zaman, ədəbi obraz və milli ictimai-siyasi problemlər, obraz səciyyələri məsələlərinin həm elmi, həm də metodik istiqamətdən təhlili tədqiqatın əsas məqsədidir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**: Məqalədə bədii əsərlərin ədəbiyyat dərslərində metodik cəhətdən öyrədilməsinə nəzər salarkən, istər orta ümumtəhsil məktəblərində, istərsə də ali təhsilin bakalavriat təhsili sistemində öyrədilməsinin nəzəri istiqamətinə dair əsaslı məlumatlar verilmişdir. O cümlədən bədii nümunələrin dili üzrə işin nəzəri cəhətdən müasir tələblər baxımından təhlilə cəlb edilməsi, mövcud müddəaların elmi cəhətdən zənginləşməsi, obrazın fəaliyyətlərinin bədii əksinə müasir aspektdən aydınlıq gətirilməsi tədqiqatın nəzəri əhəmiyyətini müəyyən edir.

**Praktik əhəmiyyəti**. Araşdırılan obyektlərdə əldə olunan müsbət nəticələrdən, ali və orta ümumtəhsil məktəblərində dərs proses zamanı istifadə edilməsi məqsədəuyğun hesab edilir.

**Materiallar və metodlar**: Tədqiq olunan mövzuda müasir ədəbiyyatşünaslıqda mövcud olan və geniş yayılan elmi-müqayisəli, elmi-nəzəri metodlar və problematik təhlil üsullarına istinad edilmişdir. Ədəbi-nəzəri cəhətdən bədii təhlilə istinad etməklə ümumiləşdirmələr aparmağa üstünlük verilmişdir. Eyni zamanda nəzərdə tutulan mövzular üzrə müqayisəli təhlillərin aparılması xüsusilə də ümumiləşdirilmələrin aparılması zamanı obrazların bədii inikasına müəllif münasibətinin səciyyəvi cəhəti təhlilin əsas mərkəzinə çəkilmişdir.

**Nəticə və müzakirlər**: Məqalədə qeyd etdiyimiz problemlərin bir sıra səbəbləri vardır. İlk növbədə, tənqiddən nəticə çıxarmaq meyli ötən əsrin otuzuncu illərinin bədii nəsrində, o cümlədən satirik hekayə janrında güclü idi Yazıçı Mir Cəlal da yeni cəmiyyətin əxlaq tərzinə, davranış prinsiplərinə zidd sayılan eybəcərlikləri, mənfilikləri satira hədəfinə çevirərək dövrün təbirincə köhnəliyə qarşı kəskin mübarizə aparırdı və gənclərin mənəvi cəhətdən "ayılmasına" köməklik göstərirdi.

Rauf Vəliyev "Mir Cəlalın satirik hekayələrində gülüş, bu gülüşü doğuran reallıqlar..." mövzulu məqaləsində yazır: "Mir Cəlal xalqın içindən çıxmış böyük sənətkar idi. O, bu xalqın həyatını, məişətini, psixologiyasını, mənəvi dünyasını dərindən bildiyi qədər də, onun ayrı-ayrı tiplərinin üzdəniraq cəhətlərinə də diqqət yetirmiş, insanlarda naqisliyin, riyakarlığın, tamahkarlığın, etibarsızlığın insana yaraşmayan sifətlərin köklü səbəblərini axtarmağa çalışmış,

qələmə aldığı satirik hekayələrdə bütün bunları ifşa obyektinə çevirmişdir" [5, s. 7].

Gülüşü yalnız özünəməxsus olan Mir Cəlalın satirası ictimai həyat hadisələrinin mahiyyətini, dövrün, zamanın, yaxud hər hansı bir keyfiyyətin xarakterini reallıqla canlandırır. Canlılıq, təbiilik, mənalılıq satiranın üzvi tərkib hissəsi kimi onun yaradıcılığını fərqləndirən əsas cəhətlərdən biridir.

Yaqub İsmayılov yazır: "30-cu illərdə ədəbiyyata "Mirzə", "Həkim Cinayətov", "Mərkəz adamı", "Kağızlar aləmi", "Təzə toyun nəzakət qaydaları", "Bostan oğrusu", "Kələntərovlar ailəsi", "Anket Anketov" tipli dəyərli hekayələr gətirmiş Mir Cəlal tənqid oxunu hədəfə qarşı cəsarətlə yönəldə bilirdi. Özünəməxsus realist qələmlə savadsız mirzələri, başgirləyən müəllimləri, cinayətkar həkimləri, "mərkəz adamı" Əntərzadələri, arvad alıb boşamaqla varlanan Balaxanları, mənəviyyatca pozulub "murdar cənazə"yə çevrilən Səadət xanımları, "nəzakət" pərdəsi altında çirkin simalarını gizlədənləri, bürokrat Anket Anketovları vəziyyət və şərait konkretliyində rüsvay edib, oxucuya tanıdırdı" [2, s. 6].

"Anket Anketov" hekayəsində Mir Cəlal obrazın simasında konkret və ümumi cəhətləri olan qüvvətli bədii tipi canlandırmışdır. O, insanlara qarşı münasibətlərinə "liçni delolar"a görə yanaşırdı. Anketov belə qənaətdədir ki, sənəd varsa, o, kəsə inanmaq olar. İnsanlar onun nəzərində ləyaqətinə, bacarığına görə deyil, "liçni delolarına" görə dəyərlidir. Bürokratizmin nümunəsini ifadə edən bu tip cəmiyyət üçün olduqca zərərli ünsürdür. Filankəs xəstədir, işə gəlməyib- ifadəsinə qarşı Anketov, o məmurun iş qovluğunu açaraq baxır və "ola bilməz, çünki burada sağlam olduğu yazılıb" – deyir. Zaman-zaman bürokratizm əngəllərinin qurbanına çevrilən insanların tipik surətinə çevrilən Anket Anketovun mənfi məmur tipi ilə qarşılaşırıq. Buradan belə nəticəyə gəlmək olur ki, ötən əsrin 30-cu illərindən üzü bəri müəssisələrdə bürokratik əngəl törədən məmurlar o zaman da vardı, indi də mövcuddur, gələcəkdə də olacaqdır. Mir Cəlalın hələ keçən əsrin otuzuncu illərində qələmə aldığı "Həkim Cinayətov", "Mərkəz adamı" hekayələrində dövrünün böyük sənətkarlarından biri olan Cəlil Məmmədquluzadə ənənələrinin təsiri aydınca sezilir.

Onun hekayələrini oxuduqca necə bir xarakterlər ustası olduğunun şahidi oluruq. Mir Cəlalın bu məharəti yalnız romanlarında deyil, hekayələrində də diqqəti cəlb edirdi. "Həkim Cinayətov" hekayəsində təsvir olunan əsərin qəhrəmanı bəlkə də yazıçı təxəyyülünün məhsuludur. Lakin necə olmasından asılı olmayaraq Mir Cəlal işlərinə səhlənkar yanaşan həkimin hərəkətinə elə bir məna verir ki, o, cəmiyyətdə oz yerində olmayan təbii olaraq cinayətkar obrazında nəzərlərimizdə canlanır. Düzdür, burada sadə əhvalat təsiri bağışlasa da, gənc tələbə Ramazan Əlizadə atasını xilas etmək üçün xəstəxanaya gəlib həkim Cinayətova müraciət edir. Amma həkim buna etina etməyərək küçədəki vitrinlərə baxır. Nəticədə, xəstəni yoxladığı zaman termometri unutduğunu deyərək yenidən ağır addımlarla xəstəxanaya dönür. Cinayətovun unutqanlıq hesab etdiyimiz bu laqeyd hərəkətinin arxasında bir xəstə insan taleyinin olduğunu nəzərə alsaq, onda həkim və ya bu xarakterli həkimlərin doğrudan da cinayətkar olduğu qənaətinə gələ bilərik.

Müəllif hekayənin oxunaqlığını artırmaq üçün az sözlə çox mətləbləri ifadə edən bu sənət növünün inkişafının təminatçısına çevrilirmişdir. Çünki Mir Cəlal ədəbi aləmdə maraq doğuran sonrakı hekayələri ilə də ciddi oxucu sevgisi qazandı. Ona görə ki, həyat həqiqətlərini bu tələblərdən ucada tutan bir ədibin ədəbiyyat aləminə gəlişinin müjdəsini verirdi.

Mir Cəlalın bir yazıçı kimi ciddi qəbul olunmasının əsas səbəbi 0nun tədqiqatçı, ədəbiyyatçı və müəllim kimi bədii nümunələrin həyat həqiqətlərinin incəliklərini tədris etməsi idi. Yəni bir müəllim kimi öyrədir, həm də öyrənə-öyrənə yazıb yaradırdı. Satirik hekayələrində yaratdığı obrazların getdikcə dolğunlaşdığının şahidi oluruq. Onun hekayələri bu gün də maraqla oxunur, bədiilik, sənətkarlıq xüsusiyyətlərini özündə yaşadır.

Belə hekayələrindən biri də "Kəmtərovlar ailəsi"dir. Ümumiyyətlə, bu hekayə Mir Cəlalın ən maraqlı hekayələrindəndir. Hekayənin məzmunu ilə tanış olarkən məlum olur ki, Qulam Kəmtərovla arvadı Leyla təzə ailə qursalar da varlanmaq hərisliyi, paxıllıq hissləri onlara rahatlıq vermir. Hərəsi üç-dörd yerdə işləməklə çoxlu pul qazanmaq istəyirlər, evdə görüşə bilmillər, ancaq yazışmalar vasitəsi ilə əlaqə saxlayırlar.

Hadisələr davam etdikcə hekayənin qəhrəmanları kinayəli, acı gülüşlə müşayiət olunurlar. Onlar oxucuların qınaq obyektinə çevrilirlər. Çünki Qıyıq Ələkbərin varı, pulu onların yuxusunu ərşə çəkir. Qulam deyir: "Qıyıq Ələkbərin nəyi bizdən artıqdır? Özümüzü oda-közə vursaq da, gərək bir dəsgahlı ev-eşik düzəldək.

Qonşular baxsın, yana-yana qalsın." [1, s. 62].

Hekayə yeni bir ədəbi priyomla, orijinal təsvir ilə başlayır:

"- Yallah, yallah, hardasan? Kefin necədir?

- Sən nə təhərsən?

- Göz dəyməsin, qıvraqlaşmısan, rəngin açılıb.

- Bir qıvraqlığım yoxdu, işdən baş açıram ki?

- Neyləyək bir görüşək?

- Bu vıxadnoy zanitəm, gələn vıxadnoy bəlkə...

- Sən evdə olacaqsan?

- Söz versən gözləyərəm.

- Gözlə, birtəhər eləyib gələrəm" [4, s. 60].

Bu mükalimədə "Kəmtərovlar ailəsi" hekayəsinin qəhrəmanları Qulam Kəmtərovla arvadı Leylanın həyatının bir anlıq söhbətləri verilib. ikisi də bir şəhərdə, hətta bir evdə yaşayırlar, ər-arvaddılar. Bir evdə bir-birinin üzünü az-az görən bu ərarvadın yazışmaları, məktubları daha maraqlı təsir bağışlayır: "Leyla səhər işə gedəndə Qulamı şirin yuxuda qoyub gedir. Vacib sözü olanda balaca kağız yazıb stolun üstünə qoyur: "Qulam qayqanaq bişirəsi olsan, yumurta bufetin alt gözündədir, yağ da taxçada" [3, s. 63].

Qulamın da arvadı Leylaya yazdığı maraqlı məktubu var: "Qadası mənim sayuz kitabçamı görməmisən, tapsan stolun üstünə qoy".

Müəllif onları sadə dillə oxucularına təqdim edir. Sanki o bu cütlüyün taleyinə acıyır, onların var-dövlət yığmaq arzusuna qurban gedən könül xoşluğunun, can rahatlığının izinə düşür, onları qınağa çəkir:

Sual: Bu qəhrəmanların dərdi nədir? Belə ailəmi olar?

Kəmtərovlar ailəsi gecəli-gündüzlü "çarpışır", hər biri üç yerdə işləyə-işləyə vardövlət yığmağa, özlərinin dedikləri kimi qonşuları yandırıb-yaxan "ev" qurmağa başlayırlar. Onların arzuları gözlərində qalır. İşdə yuxusuzluq ucbatından səhvə yol verən Qulam əsas işindən qovulur. Onun başqa yerlərdə işləməsindən xəbər tutan müdiriyyət buradakı işinə də xitam verir.

Evin təmizlik işlərinə baxan sarıkönək qadın rahatlıqla bu evə gəlib-gedir, evin qiymətli əşyalarını, daha çox da Leylanın cehizlərini "silib-süpürür" edib aparır.

Bundan baş açmayan ər-arvad itən əşyaların yerini bir-birindən soruşa-soruşa vaxtıvədəni, axtarışın əsil məqamını uduzmuş olurlar.

Hadisə - kulminasiya nöqtəsinə çatır.

Əsəri oxuyan oxucu qəhrəmanların tutduqları səhv yolda başlarına gələn bu acınacaqlı hala yana-yana gülür. Əsərin oxucuya təlqin etdiyi məqsəd və ideya çox ibrətamizdir.

Yazıçı təsvir edir, inandırıcı bədii vasitələrlə göstərir, güldürür, düşündürür, nəticə çıxarmağa, ibrət götürməyə səsləyir. Balaca bir hekayənin bu qədər təsir dairəsi, tərbiyə imkanları böyükdür. Hekayə, Mir Cəlal yaradıcılığının sənətkarlıq xüsusiyyətini üzə çıxarmağa xidmət edir.

Sərvət hərisliyinə nifrət oyadan yazıçının qələmə aldığı bu mövzu keçmişdə də, hazırkı yaşadığımız bu dövrdə də aktualdır, müasirdir. Aradan yüz illik bir zaman keçməsinə baxmayaraq Kəmtərovlar ailəsinin varlanmaq arzusunda olan prototipləri bu gün də mövcuddur. Belə ailələrin böyük əksəriyyəti soradan dağılmaya məruz qalır. Çünki müasir ailənin təməlində inam, sevgi və hörmət olmasa, onu əldə olunan sərvət belə saxlaya bilməz.

Yaxud, ötən əsrin 30-cu illərində Sovet hakimiyyətinin ilk illərində Kəmtərovlar ailəsi varlanmaq arzusunu daha çox işləməkdə, bir çox iş yerlərində çalışmaqda görürdülərsə, indi onu başqasının cibinə girməkdə, malını-mülkünü qəsb etməkdə, yüzlərin, minlərin haqqına girməkdə görürlər. İndiki "Kəmtərov"lar vacib gəlirli postlara – vəzifələrə yiyələnir, xalqın gözündən pərdə asır, kürsülərdə nitq deyə-deyə, yalançı vədlər verə-verə öz məqsədlərinə "nail" olurlar. Əslində sonadək yeyə bilmirlər. Onların bir çoxu müttəhim kürsüsündə əyləşdirilir, məhbəslərdə yediklərini qusmağa məcbur edilirlər. Elə ədibin bu hekayəni yazmaqda məqsədi də belələrini ifşa etmək idi.

**Yekun nəticə**: Beləliklə, ümumiləşdirərək qeyd edə bilərik ki, ötən əsrin 30-cu illərində Mir Cəlal Paşayevin qələmə aldığı satirik hekayələr

sovet dövrü ictimai həyatının insan şüurunda kök salmış eybəcərliklərini zaman-zaman tənqid etmişdir. Bir sıra tədqiqatçılar Mir Cəlalın satirik hekayələrini bu gün də yeni baxışlara əsasən tədqiq etməkdədirlər. Bu əsərlər XXI əsrin əvvəli hesab olunan indiki zamanda da öz orijinallığını itirməmiş, əksinə günümüzlə səsləşən bir çox neqativ halları satirik istiqamətdə tənqid hədəfinə çevirmiş və çevirməkdədir.

**Ədəbiyyat**

1. Eyvazlı, H. Tarixi dramlarda ədəbi şəxsiyyət obrazı / H.Eyvazlı. – Naxçıvan: NMİ, "Məktəb" nəşriyyatı, – 2009. – 186 s.
2. İsmayılov, Y. Ön söz. Mir Cəlal. Seçilmiş əsərləri / Y.İsmayılov. – Bakı, Şərq-Qərb, – 2005. – s.55).
3. Paşayev, M.C. Seçilmiş əsərləri / M.C.Paşayev. – Bakı: Şərq-Qərb, – 2005. – 380 s.
4. Sadiqov, Ş. Ədəbiyyat problemlərini əks etdirən hekayələr haqqında... – Bakı: 525-ci qəzet, 06.02.2021.
5. Vəliyev, R. Mir Cəlalın satirik hekayələrində gülüş, bu gülüşü doğuran reallıqlar... "Azad Azərbaycan" qəzeti. 20 may 2021-ci il, – s.7.

*Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 13.01.2026, son daxilolma – 10.02.2026, qəbulolunma – 12.03.2026

UOT: 811.512.162:81’373:316.42

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.136-140*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.136-140*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.136-140*

# Qloballaşma şəraitində Azərbaycan dilinin zənginləşməsi məsələlərinə dair

**Müəllif(lər):**

**Leyla Qəhrəmanova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** qehremanovaleyla@nmi.edu.az

**Açar sözlər:** Azərbaycan dili, qloballaşma, dilin lüğət tərkibi, alınma sözlər, dövlət proqramı

**Annotasiya.** Məqalədə qloballaşma şəraitində Azərbaycan dilinin inkişafı və zənginləşməsi məsələləri geniş şəkildə araşdırılmışdır. XXI əsrdə informasiya texnologiyalarının sürətli inkişafı, beynəlxalq əlaqələrin genişlənməsi və mədəniyyətlərarası ünsiyyət dillər arasında qarşılıqlı təsirin güclənməsinə səbəb olmuşdur. Bu proses Azərbaycan dilinə də təsir göstərərək onun lüğət tərkibinin genişlənməsinə, yeni terminlərin yaranmasına, funksional imkanlarının artmasına və üslubi zənginliyinin inkişafına şərait yaratmışdır.

Məqalədə Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən dil siyasəti əsas götürülərək ana dilinin milli kimliyin əsas göstəricilərindən biri olduğu vurğulanır. Eyni zamanda qeyd edilir ki, qloballaşma prosesi dil üçün yalnız təhlükə mənbəyi deyil, düzgün istiqamətləndirildiyi halda onun inkişafını stimullaşdıran mühüm vasitə kimi çıxış edə bilər. Araşdırmada alınma sözlərin istifadəsi, söz yaradıcılığı prosesi və milli söz ehtiyatının qorunmasının vacibliyi geniş şəkildə təhlil olunur.

Azərbaycan dilinin qloballaşma şəraitində qorunması və inkişaf etdirilməsi məqsədilə dövlət səviyyəsində həyata keçirilən proqram və tədbirlərin əhəmiyyəti xüsusi qeyd edilir. Tədqiqat nəticələri göstərir ki, Azərbaycan dilinin qorunması, zənginləşdirilməsi və inkişaf etdirilməsi məqsədyönlü dil siyasəti, ictimai məsuliyyət və elmi yanaşma tələb edir. Məqalədə Azərbaycan dili həm milli kimliyin qoruyucusu, həm də müasir dünyanın tələblərinə uyğun inkişaf edən dinamik ünsiyyət vasitəsi kimi xarakterizə olunur.

**Author(s):**

**Leyla Gahramanova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** qehremanovaleyla@nmi.edu.az

**Keywords:** Azerbaijani language, globalization, vocabulary of the language, borrowed words, state program

## On the issues of enrichment of the Azerbaijani language under conditions of globalization

**Abstract**. The article extensively examines the issues related to the development and enrichment of the Azerbaijani language under conditions of globalization. In the 21st century, the rapid advancement of information technologies, the expansion of international relations, and the intensification of intercultural communication have strengthened interaction among languages. This process has also influenced the Azerbaijani language, contributing to the expansion of its vocabulary, the emergence of new terms, the growth of its functional capacities, and the enrichment of its stylistic potential.

The article, based on the language policy implemented by Heydar Aliyev, emphasizes that the native language is one of the principal indicators of national identity. It is also noted that globalization should not be viewed solely as a threat to language; when properly directed, it can serve as an important means of linguistic development. The study provides a detailed analysis of the use of borrowed words, word-formation processes, and the importance of preserving the national lexical fund.

Particular attention is paid to the significance of state programs and initiatives aimed at preserving and developing the Azerbaijani language in the context of globalization. The findings demonstrate that the preservation, enrichment, and development of the Azerbaijani language require a purposeful language policy, public responsibility, and a scientific approach. The article characterizes the Azerbaijani language both as a guardian of national identity and as a dynamically developing means of communication capable of meeting the demands of the modern world.

**Автор(ы):**

**Лейла Гахраманова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** qehremanovaleyla@nmi.edu.az

**Ключевые слова:**
азербайджанский язык, глобализация, словарный состав языка, заимствованные слова, государственная программа

## К вопросу обогащения азербайджанского языка в условиях глобализации

**Аннотация.** В статье подробно рассматриваются вопросы развития и обогащения азербайджанского языка в условиях глобализации. В XXI веке стремительное развитие информационных технологий, расширение международных связей и межкультурной коммуникации усилили взаимодействие между языками. Данный процесс оказал влияние и на азербайджанский язык, способствуя расширению его словарного состава, появлению новых терминов, увеличению функциональных возможностей и развитию стилистического богатства языка.

В статье, опираясь на языковую политику, проводимую Общенациональным лидером Гейдаром Алиевым, подчёркивается, что родной язык является одним из важнейших показателей национальной идентичности. Одновременно отмечается, что глобализация представляет собой не только источник угроз для языка, но и при правильном подходе может выступать важным фактором его развития. В исследовании подробно анализируются использование заимствованных слов, процессы словообразования и необходимость сохранения национального словарного фонда.

Особое внимание уделяется значению государственных программ и мероприятий, направленных на сохранение и развитие азербайджанского языка в условиях глобализации. Результаты исследования показывают, что сохранение, обогащение и развитие азербайджанского языка требуют целенаправленной языковой политики, общественной ответственности и научного подхода. В статье азербайджанский язык рассматривается как хранитель национальной идентичности и одновременно как динамично развивающееся средство коммуникации, соответствующее требованиям современного мира.

**Giriş**. XXI əsr qloballaşma əsri kimi xarakterizə olunur. İnformasiya texnologiyalarının inkişafı, beynəlxalq əlaqələrin genişlənməsi, mədəniyyətlərarası ünsiyyətin artması dillərin bir-biri ilə qarşılıqlı təsirini gücləndirmişdir. Qloballaşma prosesi Azərbaycan dilinə də təsir göstərərək onun lüğət tərkibinin, üslub imkanlarının və funksional sahələrinin genişlənməsinə səbəb olmuşdur. Bu təsir bəzən narahatlıq doğursa da, düzgün istiqamətləndirildikdə dilin zənginləşməsi üçün mühüm amilə çevrilir.

Bu fikir Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dili haqqında söylədiyi dərin məzmunlu fikirlərlə tam səsləşir.

**Metodlar**. Bu məqalədə Azərbaycan dilinin qloballaşma şəraitində zənginləşməsini araşdırmaq üçün müqayisə metodu, təhlil və ümumiləşdirmə üsulu tətbiq edilmişdir. Dilin lüğət tərkibindəki dəyişikliklər, alınma sözlərin istifadəsi və milli sözlərin qorunması aspektləri müqayisəli şəkildə araşdırılmışdır. Qloballaşma dövründə dilə daxil olan yeni terminlər, söz yaradıcılığı prosesləri və dil siyasətinin tətbiqi təhlil edilmişdir. Tədqiqat nəticələri əsasında Azərbaycan dilinin inkişaf istiqamətləri və zənginləşmə yolları ümumiləşdirilmişdir.

**Nəticələr**. Qloballaşma Azərbaycan dilinə həm çətinliklər, həm də inkişaf imkanları gətirir; dilin lüğət tərkibi, üslub imkanları və funksional sahələri genişlənir, yeni termin və anlayışlar meydana çıxır. Alınma sözlər dilin zənginləşməsinə töhfə verə bilsə də, onların kor-koranə istifadəsi milli söz ehtiyatının passivləşməsinə və dilin təmizliyinin pozulmasına səbəb ola bilər. Dilin inkişafı üçün milli sözlərin qorunması və daxili imkanlar hesabına yeni terminlərin yaradılması vacibdir; bu, Azərbaycan dilinin özünəməxsusluğunu və milli kimliyini qoruyur.

**Müzakirə**. Heydər Əliyev Azərbaycan dilini xalqın milli varlığının, mənəvi sərvətinin və dövlətçiliyinin əsas dayaqlarından biri kimi qiymətləndirmişdir. Onun fikrincə, dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın tarixini, mədəniyyətini və düşüncə tərzini yaşadan əsas amildir. Məhz bu baxımdan, dilin qorunması onun inkişafdan kənarda saxlanılması deyil, əksinə, dövrün tələblərinə uyğun şəkildə zənginləşdirilməsi deməkdir.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti göstərir ki, Azərbaycan dili müasir dünyaya açıq olmalı, lakin öz milli mahiyyətini qorumalıdır. Bu yanaşma qloballaşma şəraitində də aktualdır: Azərbaycan dili yeni anlayışları qəbul etməklə, elmi və texnoloji tərəqqiyə uyğunlaşmaqla inkişaf edir, eyni zamanda milli kimliyin daşıyıcısı olaraq qalır. Beləliklə, qloballaşmanın dilimizə təsiri Ümummilli liderin ideyalarına uyğun olaraq düzgün istiqamətləndirildikdə narahatlıq mənbəyi deyil, inkişaf və zənginləşmə yolu kimi dəyərləndirilə bilər.

Bu gün Azərbaycan beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunur ki, bu məsələdə qloballaşma önəmli yer tutur. Dünyanın ayrı-ayrı dövlətlərində demokratikləşmə prosesinin səviyyəsi digər parametrlərlə yanaşı, həmin ölkədə qloballaşma indeksinin səviyyəsi ilə də müəyyən edilir. Bu gün tez-tez rast gəlinən ifadələrdən biri məhz qloballaşmadır. İstər-istəməz maraqlı bir sual yaranır. Qloballaşma nədir və bu qloballaşma nə zaman başlayıb? Onu da qeyd edək ki, “qloballaşma“ terminini hamı tərəfindən qədul olunmuş şəkildə ifadə edən baxışlar sistemi hələ formalaşmayıb [4, s. 347].

Bu məsələ ilə bağlı müxtəlif fikirlərə təsadüf edilir. T.Hacıyeva “Qloballaşma və lokallaşma proseslərinin türk dövlətlərinin dil siyasətinə təsiri” məqaləsində qeyd edir: “Qloballşma hər şeydən öncə, inteqrasiyadır və cəmiyyətin tarixi ilə sıx bağlıdır, insan cəmiyyəti yarandığı vaxtdan bu proses başlamışdır. Qloballaşmanın mahityyətini qısa şəkildə cəmiyyətin bir çox sahələrində, ilk önsə iqtisadiyyatda sərhədlərin pozulması kimi şərh etmək olar” [3, s. 149]. Bir həqiqət də varki, “qloballaşma” sözü ilk dəfə iqtisadiyyat sahəsində əlaqələrin genişlənməsi ilə bağlı olaraq yaranməşdır.

Bəziləri elə başa düşürlər ki, qloballaşma prosesi yeni bir hadisədir. Əslində isə bu belə deyildir. Diqqət etsək görərik ki, bəşəriyyət həmişə inteqrasiya etməyə çalışmışdır ki, burada əsas məqsəd tək bir siyasi və iqtisadi mühitin hissəsi olmaq məsələsidir.

Ölkəmiz qlobal dünyanın bir hissəsi olmaqla, Şərqə məxsus milli adət-ənənələrini, tarixini qoruyaraq, Qərbin uğur və nailiyyətlərindən istifadə edərək inkişaf xətti üzrə irəliləyir və bu irəliləmədə uğurlara imza atır.

Bizə atalarımızdan miras qalan, mənəvi

sərvətimiz olan doğma dilimizi qorumaq, inkişaf etdirmək qoruyub saxlamalı olduğumuz dəyərlər sırasında birinci yerdə dayanır. Belə ki, cəmiyyətdə baş verən dəyişmələr dilə də təsir edir, dil sahəsində müəyyən proseslər baş verir. Azərbaycan dilinə söz yaradıcılığı prosesi məhz bu dəyişmələr sırasına daxildir.

Azərbaycan dilinin söz yaradıcılığı qaydalarından biri və belə demək mümkünsə, ən birincisi sözlərin leksisk yolla əmələgəlmə prosesidir. Ədəbiyyatlardan da məlumdur ki, leksik yolla söz yaradıcılığının bir-birindən fərqlənən altı üsulu vardır ki, bura daxildir:

1.Dialekt və şivələr hesabına;

2.Alınma sözlərin hesabına;

3.Yeni məna kəsb etmək hesabına;

4. Fonetik şəklin dəyişməsi ilə;

5.Düzəltmə və ya mürəkkəb sözlərin sadələşməsi ilə;

6. Kalka hesabına söz artımı [5, s. 121].

Dilin zənginləşməsində dilin daxili imkanları hesabına yeni sözlərin yaranması nə qədər aktiv olsa da, dilin leksik qatının alınmalar hesabına zənginləşməsi həmişə üstün rola malik olduğu kimi, bu gün öz üstünlüyü ilə diqqət çəkməkdədir. Alınmalardan söhbət açmışkən qeyd edək ki, çalışmaq lazımdır ki, bu sözlərdən ehtiyatlı və məsuliyyətli istifadə edək. Son zamanlar hətta mətbuat səhifələrinə yol tapan alınmalar sanki dilimizi sıxışdırmış, publisistik üslubun aydınlıq, anlaşıqlıq kimi xüsusiyyətlərinə kölgə salmışdır.

Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, bəzi alınma sözlər vardır ki, bu gün həmin sözlərin qarşılığı ilə işlənməsi sanki bir dəb halını almışdır. Milli sözlərimizin alınma sözlərlə qoşa işlənməsi halları artmaqdadir. Diqqət edək: deputat-millət vəkili, proyekt-layihə, anket-sorğu, kvorum-yerərsay. Siyahını daha da artırmaq olar.

Dillərin qarşılıqlı əlaqəsi təbii bir haldır, lakin hər bir sözün dilimizə kor-koranə alınması isə dilimizin lüğət tərkibini korlamaqla yanaşı, milli dilin sıxışdırılmasına da səbəb olmuş olur.

Bütün həyatı boyu ana dili məsələsini diqqətdə saxlayan, yorulmaq bilmədən mübarizə aparan, Ana dili ilə bağlı silsilə məqalələr yazan Üzeyir Hacıbəylinin 1920-ci ildə “Azərbaycan” qəzetində “Çi” imzası ilə çap etdirdiyi “Zurna” felyetonunu xatırlamaq yerinə düşər. Anası ilə dialoq şəklində verilən bu yazıda Üzeyir Ana dilini sanki anasından öyrənir. Maraqlı bir fikirlə yekunlaşır: “Gördüm ki, anam çox bilicidir, dedim, ay ana, kaş ki, sən mənimlə bütün idarələrimizin hamısını gəzib, hər kəsə özünə görə ad qoyaydın və bizə Ana dili öyrədəydin” [2, s.88-89].

Demək ki, dilimizin inkişafı ilk növbədə milli sözlərimizlə bağlıdır. Alınma sözlərə meydan verib, milli sözlərimizi sıxışdırmaq dilə mənfi münasibətin təsiri kimi başa düşüləndir.

Millilik anlayışı dedikdə adət-ənənlərimizlə, yanaşı dilimiz də yada düşür. Bu gün elm və texnika inkişaf edir, Avropaya interqasiya oluruq, ictimai-siyasi yeniləşmə baş verir. Bütün bunlar isə söz və terminlərin yaranmasını zəruri edir.

Məlumdur ki, dildəki yeni cism və məfhumları adlandırmaq üçün dilin milli söz ehtiyatı bəzən həmin tələbi odəyə bilmir və bu tələb başqa dillərdən söz almağı zəruri edir. A.Babayev bu məsələ ilə bağlı fikirlərini belə qeyd edir:”-Dildə alınma sözlərin böyük rolu vardır. Müasir dövrümüzdə elə bir dil mövcud deyil ki, o dilin lüğət tərkibi ancaq öz sözlərindən təşkil edilsin. Əgər elə bir dil varsa, deməli, o, inkişaf etməyib. Müasir inkişafla bağlı olaraq xalqlar bir-biri ilə elmi, mədəni, iqtisadi həmçinin siyasi baxımdan sıx bağlıdırlar. Bu, dillərin yaxınlaşmasıdır və birinin digərinə vəd edilməsi üçün əsas təşkil edir” [1, s. 302].

Demək ki, elm və texnikanın tərəqqisi yeni söz və ifadələrin dilimizə gəlməsi məsələsini gündəmə gətirir. Alınmalar dilimizin zənginləşməsi üçün əhəmiyyət kəsb etsə də, zamanla alınma sözlərin milli sözlərimiz üzərində hegemonluğu hallarına da səbəb ola bilir. Bunlar isə öz növbəsində milli sözlərin passivləşməsi, alınma sözlərin fəallıq qazanması ilə müəyyən edilir. Alınma sözlərin dildə fəallaşması milli dili məhvə doğru sürükləmiş olur. Bunun qarşısını almaq üçün isə yeni terminləri araşdırmaq, həmin məfhuma uyğun milli sözlərdən istifadə etmək məsələsi qarşıya qoyulur.

Dilimizdə yeni bir məfhumu ifadə etmək üçün söz ehtiyatımız varsa, dilə yad olan sözlərin dilimizə daxil olmasına niyə yol verək? Çalışmaq lazımdır ki, milli sözlərimizdən geniş istifadə edilsin və dilimiz yad sözlərlə zənginləşməsin.

Amma onu da qeyd edək ki, alınmalara mü-

nasibət heç də birmənalı deyil. Bəzi dilçi alimlər alınmaların dili zənginləşdirməklə yanaşı, onun təmizliyinə xələl gətirməsi fikri ilə çıxış edirlər. Bəzi dilçilər isə buna normal yanaşaraq, dövrün tələbi kimi dəyərləndirirlər. Bu fikri belə izah etmək olar ki, bəzən dil özü məfhumu adlandırmaq iqtidarında olmur və bu da məcburi şəkildə alınmalardan istifadəni zəruri etmiş olur. Bunun da nəticəsində alınmaların dildə geniş şəkildə istifadəsi elə bir mərhələyə gəlib çatır ki, bəzi insanlar alınma sözləri milli sözlərdən fərqləndirə bilmirlər.

Bu məsələnin həlli üçün dilçi alim L.A.Bulaxovski alınma sözlərin əlamətlərini aşağıdakı kimi səciyyələndirir:

1. Alınmaların əksəriyyəti gəldiyi dilin qanunlarına tam uyğun gəlir. Bunları müəyyənləşdirmək üçün araşdırıcı dilçilik sahələrini dərindən bilməli və həm tarixi müşahidələr, həm də dəqiq, müqayisəli təhlillər aparmalıdır.

2. Bəzi alınma sözlər işləndiyi dilin qanunlarına cuzi uyğunlaşdırılmışdır ki, həmin sözləri asanlıqla müəyyənləşdirmək mümkündür.

3. Bəzi sözlərin alınma olduqlarını bildirən bəzi amillər mövcuddur. Bura daxildir:

a) tələffüz fərqi;

b) şərh və təhlildə bəzi pozuntular;

c) ikitərəfli samitin işlənməsi;

ç) bəzi morfoloji elementlər;

d) hallanmaya tabe olmamaq meyli (6, s.130).

Onu da qeyd edək ki, istənilən bir dil məqsədsiz şəkildə digər dillərdən söz almaz. Hər bir alınma söz müəyyən ehtiyacdan, tələbatdan dilin lüğət tərkibinə daxil olur.

Azərbaycan dili tarix boyu müxtəlif mədəniyyətlərlə təmasda olmuş, bu təmaslar nəticəsində lüğət tərkibi genişlənmişdir. Ərəb, fars, rus və digər dillərdən keçmiş sözlər bu gün dilimizin ayrılmaz hissəsinə çevrilmişdir. Qloballaşma dövründə isə əsas təsir mənbəyi ingilis dilidir. Elm, texnologiya, iqtisadiyyat və internet mühitində yaranan yeni anlayışlar Azərbaycan dilinə yeni terminlərin daxil olmasına səbəb olur. Bu terminlər düzgün uyğunlaşdırıldıqda dilin ifadə imkanlarını artırır.

Qloballaşma dövründə Azərbaycan dilinə əsasən ingilis dilindən yeni söz və terminlər daxil olur. Xüsusilə informasiya texnologiyaları və internet sahəsində bu təsir aydın görünür. Məsələn, "internet", "onlayn", "sayt", "platforma", "blog", "mobil tətbiq", "sosial şəbəkə" kimi sözlər artıq gündəlik dilimizdə geniş istifadə olunur. Eyni zamanda "menecer", "marketinq", "brend", "startap" kimi iqtisadi terminlər də müasir dövrün reallıqlarını ifadə etmək üçün dilimizə daxil olmuşdur. Bu sözlər yeni anlayışları ifadə etdiyi üçün dilin lüğət imkanlarını artırır.

Bununla yanaşı, qloballaşma şəraitində dilin zənginləşməsi yalnız xarici sözlərin qəbulu ilə məhdudlaşmamalıdır. Əsas məsələ həmin anlayışlar üçün Azərbaycan dilinin daxili imkanları hesabına qarşılıqlar yaratmaqdır. Bir çox terminlər üçün Azərbaycan dilində qarşılıqlar da yaradılmışdır. Məsələn, "download" sözü əvəzinə "yükləmək", "online" əvəzinə "onlayn" və ya "xətt üzərində", "password" əvəzinə "şifrə", "link" əvəzinə "keçid" sözlərindən istifadə olunur. Bu cür uğurlu qarşılıqlar dilin daxili potensialının güclü olduğunu göstərir və Azərbaycan dilinin zənginləşməsinə milli əsasda töhfə verir.

Bu mənada, 9 aprel 2013-cü ildə Ölkə prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın hazırlanması zamanın tələbindən doğurdu.

Proqramın əsas əhəmiyyəti ondan ibarətdir ki, burada Azərbaycan dilinin zənginləşdirilməsi kortəbii prosesə buraxılmır, əksinə, elmi əsaslara söykənən, planlı və məqsədyönlü fəaliyyət kimi nəzərdə tutulur. Xüsusilə yeni terminlərin yaradılması, dil normalarının qorunması, elektron mühitdə Azərbaycan dilinin mövqeyinin gücləndirilməsi və dilçilik elminin inkişafı kimi məsələlərin dövlət proqramı səviyyəsində həlli qloballaşmanın yaratdığı çağırışlara adekvat cavabdır. Bu baxımdan, Dövlət Proqramı həm dilimizin milli mahiyyətinin qorunmasına, həm də onun müasir dünyaya inteqrasiyasına xidmət edir.

**Nəticə**. Qloballaşma şəraitində Azərbaycan dilinin zənginləşməsi düzgün dil siyasətindən, cəmiyyətin dilə münasibətindən və təhsil sistemindən birbaşa asılıdır. Dilimizi qorumaq onu qapalı saxlamaq deyil, müasir dünyaya uyğun şəkildə inkişaf etdirməkdir. Milli kimliyimizi ifadə

edən ən mühüm vasitə olan Azərbaycan dili qloballaşan dünyada həm özünəməxsusluğunu saxlamalı, həm də zənginləşərək gələcək nəsillərə ötürülməlidir.

**Ədəbiyyat**


1. Babayev, A. Azərbaycan dili və nitq mədəniyyəti / A.Babayev. – Bakı: – 2011. – 621 s.
2. Cəfərova, F.İ. Dilimizin Heydər Əliyev zirvəsi / F.İ.Cəfərova. – Naxçıvan: Məktəb, – 2023. – 238 s.
3. Hacıyeva, T.İ. Qloballaşma və lokallaşma proseslərinin türk dövlətlərinin dil siyasətinə təsiri. – Bakı: BDU, – 2006. №2, – s.149-153.
4. Mehdiyev, R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri / R.Mehdiyev. – Bakı: – 2005. – 463 s.
5. Məmmədov, İ.O. Azərbaycan dilinin etnoqrafik leksikası / filologiya üzrə elmlər doktoru dissertasiyanın avtoreferatı / – Bakı: – 1993. – 64 s.
6. Врагина, А.А. Русское слово в языках мира. Москва: Просвещение, – 1978. – 192 s.


*Məqalə filologiya üzrə elmlər doktoru, dosent Nuray Əliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2026, son daxilolma – 05.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.141-145*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.141-145*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.141-145*

**UOT: 327(479.24:574):008**

# Müstəqillik dövründə Azərbaycan-Qazaxıstan mədəni əlaqələri (1990-2025)

**Müəllif(lər):**

**İsmayıl Zeynalov**
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** ismayılzeynalov@gmail.com
https://orcid.org/0009-0005-7857-4359

**Açar sözlər:** Azərbaycan-Qazaxıstan münasibətləri, müstəqillik dövrü, strateji tərəfdaşlıq, mədəni-humanitar əlaqələr, regional əməkdaşlıq mədəni əlaqələr, ədəbiyyat və incəsənət, teatr, informasiya, təhsil, rəqəmsal mühit, hümanitar əməkdaşlıq

**Annotasiya.** Məqalədə Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında müstəqillik dövründə (1990-2025-ci illər) formalaşmış və mərhələli şəkildə inkişaf etmiş ikitərəfli münasibətlər hərtərəfli şəkildə təhlil edilir. Araşdırmada siyasi, iqtisadi və mədəni-humanitar əməkdaşlığın əsas istiqamətləri və regional proseslərə təsiri elmi-nəzəri yanaşma əsasında araşdırılır.

Məqalədə mədəni-humanitar sahədə əməkdaşlıq da mühüm istiqamət kimi qiymətləndirilir. Təhsil, elm, ədəbiyyat, incəsənət və informasiya sahələrində həyata keçirilən birgə layihələr, eləcə də TÜRKSOY, Türk Akademiyası və Türk Dövlətləri Təşkilatı çərçivəsində aparılan fəaliyyətlər xalqlar arasında mənəvi yaxınlığın möhkəmlənməsinə xidmət etmişdir. 2003-cü ildən sonra Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan-Qazaxıstan münasibətlərinin ardıcıl şəkildə inkişaf etdirildiyi və yeni regional çağırışlara uyğun olaraq əməkdaşlığın məzmununun genişləndirildiyi qeyd olunur. Məqalədə əsaslandırılır ki, 1990–2025-ci illər ərzində Azərbaycan–Qazaxıstan əlaqələri qarşılıqlı etimad, ortaq maraqlar və strateji tərəfdaşlıq prinsipləri əsasında inkişaf etmiş, bu münasibətlər təkcə ikitərəfli əməkdaşlıq baxımından deyil, həm də Türk dünyasının inteqrasiyası və Avrasiya regionunda sabitliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan və Qazaxıstan müstəqillik əldə etdikdən sonra tarixi-mədəni yaxınlıq və ortaq geosiyasi maraqlar əsasında münasibətlərini sürətlə inkişaf etdirmişdir. Bununla yanaşı siyasi dialoqun ardıcıllığı, iqtisadi və hümanitar mədəni sahələrdə əməkdaşlığın genişlənməsi və yüksəlməsinə səbəb olmuşdur. 1990-cı illərdən 2025-ci ilə qədər Azərbaycan-Qazaxıstanın mədəniyyət kontekstində iqtisadi-siyasi sahələrdə olduğu kimi mədəniyyət kontekstində də davamlı inkişaf etmişdir.

Məqalədə vurğulanır ki, hər iki dövlətin 1991-ci ildə müstəqillik qazanması və 1992-ci ildən etibarən diplomatik münasibətlərin qurulması Azərbaycan–Qazaxıstan əlaqələrinin yeni mərhələsinin başlanğıcı olmuşdur. Müstəqilliyin ilk illərində münasibətlər nisbətən məhdud xarakter daşısa da, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra ikitərəfli əlaqələr sistemli və məqsədyönlü inkişaf mərhələsinə daxil olmuşdur. Xüsusilə 1994-cü ildən etibarən qarşılıqlı rəsmi səfərlər, imzalanmış sazişlər və siyasi dialoqun intensivləşməsi əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə şərait yaratmışdır.

## Azerbaijan-Kazakhstan relations during the period of independence (1990-2025)

**Author(s):**

**Ismayil Zeynalov**
Nakhchivan State University
Doctor of Philosophy in History, Associate Professor
**E-mail:** ismayılzeynalov@gmail.com
https://orcid.org/0009-0005-7857-4359

**Keywords:** Azerbaijan-Kazakhstan relations, period of independence, strategic partnership, cultural-humanitarian relations, regional cooperation cultural relations, literature and art, theater, information, education, digital environment, humanitarian cooperation

**Abstract**. The article comprehensively analyzes the bilateral relations between the Republic of Azerbaijan and the Republic of Kazakhstan, which were formed and developed gradually during the period of independence (1990-2025). The study examines the main directions of political, economic, and cultural-humanitarian cooperation and their impact on regional processes based on a scientific-theoretical approach.

The article also assesses cooperation in the cultural and humanitarian sphere as an important direction. Joint projects implemented in the fields of education, science, literature, art and information, as well as activities carried out within the framework of TURKSOY, the Turkic Academy and the Organization of Turkic States, have served to strengthen the spiritual closeness between the peoples. It is noted that after 2003, during the leadership of President Ilham Aliyev, Azerbaijan-Kazakhstan relations have been consistently developed and the content of cooperation has been expanded in accordance with new regional challenges. The article substantiates that during 1990-2025, Azerbaijan-Kazakhstan relations have developed on the basis of mutual trust, common interests and the principles of strategic partnership, and these relations have gained significant importance not only in terms of bilateral cooperation, but also in terms of the integration of the Turkic world and strengthening stability in the Eurasian region.

After gaining independence, Azerbaijan and Kazakhstan have rapidly developed their relations based on historical and cultural proximity and common geopolitical interests. At the same time, the consistency of political dialogue has led to the expansion and enhancement of cooperation in the economic and humanitarian cultural spheres. From the 1990s to 2025, the cultural context of Azerbaijan-Kazakhstan has developed continuously in the economic and political spheres as well as in the cultural context.

The article emphasizes that the independence of both states in 1991 and the establishment of diplomatic relations since 1992 marked the beginning of a new stage in Azerbaijani-Kazakh relations. Although relations were relatively limited in the first years of independence, after the return of Great Leader Heydar Aliyev to power in Azerbaijan in 1993, bilateral relations entered a stage of systematic and purposeful development. In particular, since 1994, mutual official visits, signed agreements and intensification of political dialogue have created conditions for the elevation of relations to the level of strategic partnership.

## Культурные связи между Азербайджаном и Казахстаном в период независимости (1990–2025)

**Автор(ы):**

**Исмаил Зейналов**
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
**Э-почта:** ismayılzeynalov@gmail.com
https://orcid.org/0009-0005-7857-4359

**Ключевые слова:** азербайджано-казахстанские отношения, период независимости, стратегическое партнёрство, культурно-гуманитарные связи, региональное сотрудничество, образование, искусство, информация, гуманитарное сотрудничество

**Аннотация.** В статье анализируются двусторонние отношения между Азербайджанской Республикой и Республикой Казахстан, сформировавшиеся в 1990-2025 годах. Исследуются основные направления политического, экономического и культурно-гуманитарного сотрудничества, а также их влияние на региональные процессы. Культурно-гуманитарное сотрудничество рассматривается как одно из важнейших направлений двусторонних отношений. Совместные проекты в области образования, науки, литературы, искусства и информации, а также сотрудничество в рамках ТЮРКСОЙ, Тюркской академии и Организации тюркских государств способствовали укреплению духовной близости между народами.

В статье отмечается, что обретение независимости обоими государствами в 1991 году и установление дипломатических отношений в 1992 году ознаменовали начало нового этапа азербайджано-казахстанских связей. Особенно после возвращения Гейдара Алиева к власти в Азербайджане в 1993 году отношения стали развиваться более системно, а взаимные визиты и подписанные соглашения создали условия для формирования стратегического партнёрства. С 2003 года, в период президентства Ильхама Алиева, содержание сотрудничества было значительно расширено.

В результате обосновывается, что в 1990–2025 годах азербайджано-казахстанские отношения развивались на основе взаимного доверия, общих интересов и принципов стратегического партнёрства, играя важную роль не только в развитии двустороннего сотрудничества, но и в укреплении интеграции тюркского мира и региональной стабильности.

**Giriş.** Azərbaycanın Mərkəzi Asiyanın Türk dövlətləri ilə bir-birinin müstəqilliklərini 1991-ci ildə tanımalarına, 1992-ci ildən diplomatik münasibətlər yaratmaqlarına baxmayaraq qarşılıqlı münasibətlərin intensiv inkişafı yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra 1994-cü ilin ortalarından başlamışdır. Bu da təsadüfü olmamış, bir tərəfdən yeni yaranmış dövlətlərin özlərinin xarici siyasət fəaliyyətlərindən irəli gəlmişdir. Müstəqilliklərinin ilk illərində türk dövlətləri arasında hər hansı formada yaxınlaşma və yaxud da, əməkdaşlıq cəhdləri bunların xarici siyasətinin dini, etnik təsübkeşlik prinsipləri çərçivəsində qurulduğu və əməkdaşlığın pantürkizmin, turançılıq, böyük türk millətçiliyi olduğu haqda müşahiyyət olunurdu. Bütün bunlar isə adı çəkilən türk dövlətləri arasında Azərbaycan və Qazaxıstan əlaqələri daha çox diqqəti cəlb edir. 1994-cü ildən Qazaxıstanla diplomatik əlaqə genişlənməklə digər sahələrdə olduğu kimi mədəni əlaqələrin də daha çox inkişaf etmişdir. Azərbaycan və Qazaxıstan respublikalarının müstəqilliklərini elan etdikləri ərafədə 1991-ci il 30 sentyabr-02 oktyabr tarixlərində Azərbaycan Respublikasının Nümayəndə heyətinin Qazaxıstana rəsmi səfəri iki dövlət arasında əməkdaşlığın və mehriban qonşuluq əlaqələrinin daha da inkişaf etdirilməsi məqsədə uyğun həyata keçirilmişdi. Bu səfər çərçivəsində dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə imzalanmışdır. Bu müqavilə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı ilə təsdiq edilmiş və 1996-cı il sentyabr ayında Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan-Qazaxıstan əlaqələrini tənzimləyən sənəd imzalanmışdır. 1991- ci il oktyabr ayından 1993-cü ilin iyul ayına qədər bir qədər sönük olsa da 1994-cü ildən siyasi, iqtisadi əlaqələrin yaranması ilə yanaşı mədəni əlaqələr də yaradılmışdır və bu iş birliyi Ulu Öndər Heydər Əliyevin Qazaxıstana səfəri zamanı Almaatada imzalanmışdır. Bu əlaqələr getdikcə genişlənmişdir [9, s.118].

Sonradan mədəni cəhətdən Azərbaycan Qazaxıstan iş birliyinə Türkiyə, Qırğızıstan, Özbəkistan və Türkmənistan dövlətləri də qoşuldular və 34 hərfli ortaq əlifba tərtib edilməsi barədə anlaşma bağladılar. Bu atılan addımlar türk dövlətlərinin daha da yaxınlaşmasına səbəb oldu. Bundan sonra 1994-cü ildə Ankarada Türk Dünyası Yazıçılar Qurultayı çağrılanda səmimi görüşlər təşkil olundu və ortaq yazıçılar birliyi yaratmaq razılaşması əldə olundu. Bu sosial və mədəni yaxınlaşma getdikcə daha da genişləndi. Festifallar və musiqi günlərinin keçirilməsi çərçivəsində anlaşmalar əldə edildi. Həmçinin təhsil sahəsində də əməkdaşlıq əlaqələri yaradıldı. Bu iş birliyinin yaradılmasında Azərbaycan Prezidenti Ulu Öndər Heydər Əliyevin və Qazaxıstan prezidenti Nazarbayevin misilsiz xidmətləri olmuşdur. Beləliklə, Azərbaycan-Qazaxıstan mədəni əlaqələrinin genişlənməsinə xüsusi önəm verilmiş və Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu əlaqələr Azərbaycan prezidenti İlham Əliyev tərəfindən uğurla davam etməkdədir.

**Əsas hissə**. XX əsrin sonlarında dünya siyasi xəritəsində mühüm dəyişikliklər baş verdi. Sovet İttifaqının dağılması nəticəsində Qafqaz regionlarında bir sıra müstəqil dövlətlər meydana gəldi. Bu dövlətlərdən Azərbaycan və Qazaxıstan həm tarixi və mədəni, həm də etnik-mənəvi baxımdan bir-birinə ən yaxın olan ölkələr olduğundan hər iki xalq əsrlər boyu ortaq türk köklərinə, islam dininə, mədəniyyətinə, adət-ənənələrinə və dil birliyinə malik olmuşdur. Ona görə də bu yaxınlıq bu dövlətlərin müstəqillik dövründə dövlətlərarası dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlıq prinsipləri üzərində münasibətlərin qurulmasına şərait yaratmışdı. 1991-2025-ci illər ərzində iki ölkə arasında siyası-iqtisadi əlaqələrlə yanaşı mədəni əməkdaşlıq istiqamətində də əlaqələr yüksəlmişdir. Mədəni əlaqələr sahəsində Azərbaycan-Qazaxıstan ortaq tük kimliyinin və mədəni əlaqələr bütün istiqamətləri üzrə əməkdaşlığın genişlənməsi üçün ciddi addımlar atılmışdır. Təhsil, elm, incəsənət, ədəbiyyat və informasiya sahələrində əməkdaşlıq iki xalq arasında yaxınlığı daha da gücləndirmişdir. TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti fondu kimi qurumlar çərçivəsində həyata keçirilən birgə layihələr xalqın ortaq tarixini, dilini və dəyərlərini yaşatmağa yönəlmişdir [4, s.19]. Bu baxımdan Azərbaycan və Qazaxıstan arasında mədəni əlaqələr iki xalqın ortaq tarixi, dini, mənəvi və etnik köklərinə əsaslanır.

Hər iki dövlət türkdilli xalqlar ailəsinə mən-

sub olmaqla eyni dil ailəsinin oxşar adət-ənənələrini folklor dəyərləri və ortaq tarixi yaddaşı paylaşır. Müstəqilliyin bərpasından sonra bu ortaq mədəni irs iki ölkə arasında diplomatik və iqtisadi əlaqələrlə yanaşı mədəni-hümanitar əməkdaşlığın da möhkəmlənməsinə zəmin yaratmışdır. Mənbələrdən aydın olur ki, 1990-cı illərin əvvəllərində Azərbaycan və Qazaxıstan arasında mədəni əlaqələrin hüquqi bazası formalaşmağa başlamışdır. 1993-cü ildə “Mədəniyyət və elm sahəsində əməkdaşlıq haqqında saziş” imzalanmış, bu sənəd iki ölkə arasında mədəniyyət, təhsil, elm və incəsənət sahələrində birgə layihələrin həyata keçirməsini nəzərdə tutmuşdur. O vaxdan bəri dövlət səviyyəsində mədəniyyət günləri, incəsənət festivalları, sərgilər, və musiqi proqramları təşkil olunur.

Azərbaycan və Qazaxıstan arasında mədəni əlaqələrin inkişafinda dövlət başçılarının və mədəniyyət nazirliklərinin fəaliyyəti mühüm rol oynamışdır. Hər iki ölkə mütəmadi olaraq “Azərbaycan Mədəniyyəti Günləri” və “Qazaxıstan Mədəniyyəti Günləri” tədbirləri keçirir. Bu tədbirlər Bakıda, Astanada (indiki Nur-Sultan), Almatıda və digər şəhərlərdə təşkil olunaraq xalqların bir-birini daha yaxından tanımasına şərait yaratmışdır (2, s.119). Məsələn, 2006 və 2016-cı illərdə Bakıda keçirilən Qazaxıstan Mədəniyyəti Günləri çərçivəsində tanınmış qazax sənətçiləri, musiqi kollektivləri və rəssamlar öz əsərlərini Azərbaycan ictimaiyyətinə təqdim etmişlər. Eyni zamanda, Qazaxıstanda Azərbaycan mədəniyyətini təbliğ edən bir sıra tədbirlər uğurla həyata keçirilmişdir.Azərbaycan Təhsil sahəsində əməkdaşlıq mədəni əlaqələrin dərinləşməsində mühüm yer tutur. 1990-c1 illərin sonlarından etibarən Azərbaycan və Qazaxıstan ali təhsil müəssisələri arasında ikitərəfli müqavilələr imzalanmış, tələbə mübadiləsi proqramlari genişlənmişdir. Qazaxıstanın nüfuzlu ali məktəblərində Əl-Fərabi adına Qazax Milli Universitetində, L.N.Qumilyov adına Avrasiya Milli Universitetində və başqa ali məktəblərdə azərbaycanlı tələbələr təhsil alır, eyni zamanda Azərbaycan universitetlərində qazax tələbələr də oxuyurlar.

Hər iki ölkənin elmi-tədqiqat mərkəzləri arasında ortaq layihələr, konfranslar və simpoziumlar keçirilməkdədir [5, s.49]. Ortaq türk mədəniyyəti və tarixi irsin qorunması istiqamətində Azərbaycan və Qazaxıstan birgə səylər göstərir. 1992-ci ildə yaradılan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı TÜRKSOY çərçivəsində hər iki dövlət fəal əməkdaşlıq edir. TÜRKSOY-un əsas məqsədi türkdilli ölkələrin mədəniyyətini beynəlxalq səviyyədə təbliğ etmək, ortaq ədəbi, musiqi və folklor irsini qorumaqdır. Qazaxıstanın Türkistan şəhəri və Azərbaycanın Şəki, Naxçıvan, Gəncə kimi şəhərləri TÜRKSOY tərəfindən “Türk dünyasının mədəniyyət paytaxti” elan olunmuş, bu çərçivədə onlarla mədəni tədbir, sərgi və elmi konfrans təşkil edilmişdir [7, s.15]. Azərbaycan və Qazaxıstan mədəni əlaqələrinin əsas sütunlarından biri ədəbiyyat və incəsənət sahəsində qarşılıqlı təsirdir. Qazax ədəbiyyatının görkəmli nümayəndələri olan Abay Kunanbayev və Muxtar Auezovun asərləri Azərbaycanda geniş tanınır, eyni zamanda Azərbaycan klassikləri Nizami Gəncəvi, Məhəmməd Füzuli və Cəlil Məmmədquluzadənin yaradıcılığı Qazaxıstan ədəbi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər iki ölkədə bu böyük şəxsiyyətlərin yubileyləri dövlət səviyyəsində qeyd edilir, onların irsi əsasında ədəbi-bədii layihələr həyata keçirilir [8, s.21]. 2021 -ci ildə Abay Kunanbayevin 175 illiyi münasibətilə Bakıda keçirilən tədbirlər Qazaxıstan-Azərbaycan mədəni münasibətlərinin dostluq ruhunu daha da möhkəmləndirmişdir. Kino və teatr sahəsində əməkdaşlıq da mədəni əlaqələrin əhəmiyyatli hissəsini təşkil edir. Azərbaycan və Qazaxıstan kino istehsalçıları birgə filmlərin çəkilməsi, film festivallarında qarşılıqlı iştirak və milli kino irsinin tanıdılması istiqamətində əməkdaşlıq edirlər. Hər iki ölkənin milli teatrları qarşılıqlı qastrol səfərləri həyata keçirir, ortaq teatr festivallarında çıxış edir. Məsələn, 2018-ci ildə Astanada keçirilən “Türk dünyası teatr festivali”nda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı uğurla çıxış etmişdir [8, s.43].

Mədəni əməkdaşlığın daha bir vacib istiqaməti informasiya və media sahəsindədir. Azərbaycan və Qazaxıstan arasında televiziya və radio proqramlarının mübadiləsi, eləcə də mədəniyyət və tarix mövzularında sənədli filmlərin birgə istehsalı xalqlar arasında qarşılıqlı anlayışın və mənəvi yaxınlığın güclənməsinə xidmət edir. Hər iki ölkənin xəbər agentlikləri arasında informasiya mübadiləsi sazişləri imzalanmış, jurnalistlər üçün ortaq media təlimləri və forumlar

təşkil olunur.

Azərbaycan və Qazaxıstan arasındakı mədəni əlaqələr təkcə dövlətlər səviyyəsində deyil, həm də ictimai təşkilatlar və diaspor birlikləri vasitəsilə möhkəmlənir. Qazaxıstanda yaşayan on minlərlə azərbaycanlı icması ölkənin sosial-mədəni həyatında fəal iştirak edir. Onların təşəbbüsü ilə Almatı, Astana və Aktau şəhərlərində Azərbaycan mədəniyyət mərkəzləri yaradılmışdır. Bu mərkəzlər milli mədəniyyətin təbliği, Azrbaycan dili və musiqisinin öyrədilməsi, Novruz bayramı və digər milli bayramların qeyd olunması istiqamətində fəaliyyət göstərirlər [6, s.119]. Eyni zamanda, Azərbaycanda yaşayan qazax icması da ölkələr arasında dostluq əlaqələrinin qorunmasında mühüm rol oynayır. Son illərdə Azərbaycan və Qazaxıstan mədəni əlaqələrini rəqəmsal mühitdə də inkişaf etdirirlər. Mədəni irsin rəqəmsallaşdırılması, onlayn sərgilər, virtual muzeylər və elektron kitab layihələri bu əməkdaşlığın yeni istiqamətləridir.

Xüsusilə, 2020-ci ildən sonra pandemiya dövründə onlayn mədəni layihələr vasitəsilə xalqlar arasında əlaqə davam etdirilmiş, birgə vebinarlar, ədəbi görüşlər və rəqəmsal incəsənət sərgiləri keçirilmişdir. Mədəni əlaqələrin inkişafında Türk Dövlətləri Təşkilatının Humanitar Fəaliyytlər Proqramı, eləcə də Türk Akademiyası və Türk Mədəniyyəti Fondu kimi institutlar mühüm rol oynayır [10, s.18]. Bu qurumların dəstəyi ilə ortaq dərsliklərin hazırlanması, türk xalqlarının folklor irsinin toplanması, tarixi şəxsiyyatlər haqqında elmi araşdırmaların aparılması kimi layihələr həyata keçirilir. Azərbaycan və Qazaxıstan alimləri bu istiqamətlərdə birgə elmi tədqiqatlar aparır, türk dünyasının ortaq tarixi yaddaşının qorunmasına töhfə verirlər. Bütün bu faktlar göstərir ki, Azərbaycan və Qazaxıstan arasında mədəni əlaqələr son otuz il ərzində davamlı inkişaf etmiş, bu əlaqələr iki xalq arasında mənəvi yaxınlığı, qarşılıqlı anlaşmanı və ortaq türk kimliyini daha da gücləndirmişdir. 1991-2025-ci illər ərzində mədəni əməkdaşlıq təkcə dövlət siyasətinin bir istiqaməti deyil, həm də xalqların dostluğunun, birliyinin və ümumtürk dayərlərinə sadiqliyinin təzahürüdür. Mədəni əlaqələrin dərinləşməsi gələcəkdə elm, təhsil, incəsənət və texnologiya sahələrində də ortaq layihaələrin genişlənməsi üçün möhkəm zəmin yaradır.

**Material və metodlar**. Tədqiqatın əsas materiallarını Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 1991-2025-ci illərdə imzalanmış dövlətlərarası müqavilələr, əməkdaşlıq haqqında sazişlər, rəsmi sənədlər, dövlət qurumlarının hesabatları, eləcə də Azərbaycan-Qazaxıstan münasibətlərinə dair nəşr olunmuş elmi əsərlər, monoqrafiyalar, məqalələr və statistik məlumatlar təşkil etmişdir. Bununla yanaşı, TÜRKSOY, Türk Akademiyası, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq qurumların fəaliyyətinə dair materiallardan da istifadə olunmuşdur.

Tədqiqat prosesində tarixi-komparativ, sistemli təhlil, xronoloji yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Tarixi-komparativ metod vasitəsilə Azərbaycan-Qazaxıstan mədəni əlaqələrinin müxtəlif inkişaf mərhələləri müqayisəli şəkildə araşdırılmış, xronoloji metodun tətbiqi ilə 1990-2025-ci illər ərzində baş vermiş əsas hadisələr və əməkdaşlıq istiqamətləri ardıcıllıqla təhlil edilmişdir. Sistemli təhlil metodu vasitəsilə mədəni-humanitar əməkdaşlığın təhsil, elm, ədəbiyyat, incəsənət, informasiya və media sahələrindəki inkişaf xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Eyni zamanda, sənəd və mənbələrin məzmun təhlili aparılmış, əldə olunan faktlar ümumiləşdirilərək elmi-nəzəri nəticələr çıxarılmışdır. Tədqiqat zamanı obyektivlik, tarixilik və elmi sistemlilik prinsipləri əsas götürülmüş, Azərbaycan-Qazaxıstan mədəni əlaqələrinin formalaşması və inkişafı regional inteqrasiya prosesləri kontekstində qiymətləndirilmişdir.

**Nəticə.** Azərbaycan və Qazaxıstan arasında 1991-2025-ci illəri əhatə edən dővr iki dövlətin müstəqil inkişaf tarixində mühüm mərhələ olmuşdur. Bu dövrdə tərəflər arasında münasibətlər qarslıqlı etimad, barabərhüquqlu aməkdaşlıq və ortaq maraqlar prinsipi üzərində qurulmuşdur. Siyasi, iqtisadi və mədani istiqamətlərdə əldə olunmuş uğurlar bu münasibətlərin strateji tərafdaşlıq səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır.

Mədəni sahədə əlaqələr xalqlar arasında mənəvi yaxınlığın və ortaq türk kimliyinin təcəssümünə çevrilmişdir. Təhsil, elm, incəsənət, ədəbiyyat və informasiya sahələrində əməkdaşlıq, TÜRKSOY və Türk Akademiyası kimi qurumlar vasitəsilə həyata keçirilən layihələr xalqlar

arasında dostluğun daha da dərinləşməsinə xidmət etmişdir. Ümumilikdə, 1991-2025-ci illərdə Azərbaycan-Qazaxıstan münasibətləri qarşılıqlı etimad və strateji tərəfdaşlıq nümunəsi kimi formalaşmışdır. Bu əlaqələr təkcə iki dövlət arasında deyil, bütövlükdə Türk dünyasının inteqrasiyası və Avrasiya regionunda sabitliyin möhkəmlənməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə "yaşıl enerji", rəqəmsal iqtisadiyyat, elmi-texnoloji əməkdaşlıq və mədəni diplomatiya sahələrində birgə layihələrin həyata keçirilməsi bu münasibətlərin yeni mərhələyə keçidini təmin edəcəkdir.

Azərbaycan və Qazaxıstanın təhsil sahəsində, o cümlədən universitetlərarası əməkdaşlıq, tələbə mübadiləsi, festivallar və birgə tədbirlər xalqlar arasında yaxınlığı artırmışdır. Türk dünyasının bu mədəni birliyini möhkəmləndirmək məqsədilə yaradılmış təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı Azərbaycan və Qazaxıstan əlaqələrinə yeniliklər gətirmişdir. Belə ki, bu təşkilatlar çərçivəsində qəbul olunan qərarlar iki ölkənin bütün sahələrində olduğu kimi mədəni sahələrinin inkişafına dəstək göstərmişdir. Bununla yanaşı, Azərbaycanın Qazaxıstanla mədəni əlaqələri xalqların birliyini daha da gücləndirmişdir. Azərbaycanda Qazaxıstanın, Qazaxıstanda isə Azərbaycanın mədəniyyətinə göstərilən diqqət xalqlar arasında mənəvi əlaqələri daha da dərinləşdirmişdir. Azərbaycanın Qazaxıstanla mədəni əlaqələrinin Türk dünyasının inteqrasiyasına daim töhvə verir və əməkdaşlığı dərinləşdirir, sülhün möhkəmlənməsinə xidmət edir. Azərbaycan və Qazaxıstanın müstəqillik dövründə yaratdığı münasibətlər bir daha onu göstərir ki, ortaq tarixə və mədəniyyətə sahib olan xalqlar strateji əməkdaşlıqla böyük nəticələr əldə edə bilərlər və edirlər. Azərbaycan və Qazaxıstanın strateji tərəfdaşlığı müstəqillik dövründə formalaşmış ən mühüm sahəsi olan mədəni əlaqələr nümunə kimi tarixdə qalacaqdır.

**Ədəbiyyat**

1. Əliyev, İ. Azərbaycan-Qazaxıstan strateji əməkdaşlığı yeni mərhələ. – Bakı: ADA nəşriyyatı, – 2022.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq hesabatı 2000-2023. – Bakı: – 2023.
3. Heydər Əliyef Fondu. Azərbaycan-Qazaxıstan humanitar əlaqələri hesabatı 2004-2020. – Bakı: – 2021.
4. Əliyev, R. Azərbaycan-Qazaxıstan Əməkdaşlığı: Siyasi, İqtisadi, və Mədəni Perspektivlər / R.Əliyev. – Bakı: "Nurlan" nəşriyyatı, – 2021.
5. Həsənov, V. Azərbaycan-Qazaxıstan mədəni əlaqələrinin tarixi və müasir inkişafı / Türkoloji araşdırmalar jurnalı № 1. – 2020.
6. Əliyeva, S. Türk dövlətləri arasında mədəni inteqrasiya və Azərbaycan-Qazaxıstan nümunəsi / Hümanitar Elmlər jurnalı, № 2. – 2022.
7. Məmmədov, R. Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişaf dinamikası (1991-2023) / "Xəzər" araşdırmalar jurnalı, № 3. – 2023.
8. TÜRKSOY (2022). Türk dünyasının mədəni inteqrasiyası üzrə illik hesabat. – Ankara. – 2022.
9. Bağımsızlıqlarının 25 illiyində Türk Cümhuriyyətləri. Edi türklər. Abdullavahab Kara-Fahri Sola.TDBB (Türkdünyası Bələdiyyələr Birliyi). – 338 s. – İstanbul: – 2017.
10. Əliyev, H. Azərbaycanın xarici siyasəti, regional və qlobal kontekstdə / H.Əliyev. – Bakı: "Elm və təhsil" nəşriyyatı. – 2020.

*Məqalə tarix üzrə elmlər doktoru, dosent Emin Şıxəliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 20.01.2026, son daxilolma – 11.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.146-150*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.146-150*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.146-150*

**UOT: 72:94"04/14":316.728**

# Orta əsr şəhərlərində memarlıq və həyat tərzinə dair bəzi qeydlər

**Müəllif(lər):**

**Sara Hacıyeva**
AMEA Naxçıvan Bölməsi
Naxçıvan Müəllimlər İnstitutu
**E-poçt:** hacyevasara@ yahoo.com

**Açar sözlər:** orta əsr şəhərləri, memarlıq üslubları, ticarət və sənətkarlıq, sosial təbəqələşmə, dini abidələr

**Annotasiya.** Orta əsr şəhərləri dövrün sosial, iqtisadi və mədəni həyatını əks etdirən mühüm memarlıq və şəhərsalma nümunələri kimi səciyyələnir. Bu şəhərlər əsasən qala və müdafiə sistemləri ilə əhatə olunmuş, şəhərsalma prinsipləri isə təhlükəsizlik, ticarət, dini və ictimai tələblərə uyğun şəkildə formalaşdırılmışdır. Avropa şəhərlərində roman və qotika memarlıq üslubları üstünlük təşkil etdiyi halda, İslam şəhərlərində məscidlər, mədrəsələr, karvansaraylar və daxili həyət sistemi memarlığın əsas elementlərini təşkil etmişdir.

Məscidlər yalnız dini ibadət məkanı kimi deyil, həm də şəhərin sosial və mədəni həyatının əsas mərkəzlərindən biri kimi fəaliyyət göstərmişdir. Bazar meydanları və karvansaraylar isə ticarət və iqtisadi münasibətlərin inkişafında mühüm rol oynamış, eyni zamanda ictimai görüşlərin və mədəni fəaliyyətlərin təşkil olunduğu məkanlara çevrilmişdir. Orta əsr şəhərlərində sosial təbəqələşmə memarlıq quruluşunda da aydın şəkildə özünü göstərirdi. Belə ki, varlı təbəqələr və feodallar şəhərin mərkəzi hissəsində geniş və rahat yaşayış məkanlarında məskunlaşdıqları halda, sənətkarlar, kəndlilər və fəhlələr daha çox şəhərin kənar hissələrində yerləşən dar küçəli məhəllələrdə yaşayırdılar.

Memarlıq və şəhərsalma yalnız yaşayış məkanlarının təşkili ilə məhdudlaşmamış, həm də cəmiyyətin sosial, iqtisadi və dini strukturunu əks etdirən mühüm amillərdən biri olmuşdur. Nəticə etibarilə, orta əsr şəhərləri müdafiə, iqtisadi, sosial və mədəni funksiyaların vəhdətini özündə birləşdirən kompleks şəhər mühiti kimi formalaşmış və müasir şəhərsalma ənənələrinin inkişafına mühüm təsir göstərmişdir.

## Some notes about architecture and lifestyle in medieval cities

**Author(s):**

**Sara Hajiyeva**
Nakhchivan Branch of ANAS
Nakhchivan Teachers Institute
**E-mail:** hacyevasara@ yahoo.com

**Keywords:** medieval cities, architectural styles, trade and craftsmanship, social stratification, religious monuments

**Abstract**. Medieval cities are characterized as important samples of architecture and urban planning reflecting the social, economic and cultural life of time. These cities were generally surrounded by fortresses and defensive systems, while urban planning principles were shaped according to the requirements of security, trade, religion and public life. Roman and Gothic architectural styles predominated in European cities, whereas mosques, madrasas, caravanserais and courtyard-based structures constituted the main architectural elements in Islamic cities.

Mosques functioned not only as places of worship but also as major centers of the social and cultural life of the city. Market squares and caravanserais played a significant role in the development of trade and economic relations and also served as venues for public gatherings and cultural activities. Social stratification in medieval cities was clearly reflected in their architectural structure. Wealthy classes and feudal lords resided in spacious and comfortable houses located in the city center, while craftsmen, peasants and workers mainly lived in narrow districts situated on the outside of the city.

Architecture and urban planning were not limited merely to the organization of living spaces but also reflected the social, economic and religious structure of society. Consequently, medieval cities emerged as complex urban environments combining defensive, economic, social and cultural functions and they significantly influenced the development of modern urban planning traditions.

## Некоторые заметки об архитектуре и образе жизни в средневековых городах

**Автор(ы):**

**Сара Гаджиева**
Нахчыванское отделение НАНА
Нахчыванский институт учителей
**Э-почта:** hacyevasara@ yahoo.com

**Ключевые слова:** средневековые города, архитектурные стили, торговля и ремесло, социальное расслоение, религиозные памятники

**Аннотация.** Средневековые города характеризуются как важные образцы архитектуры и градостроительства, отражающие социальную, экономическую и культурную жизнь своей эпохи. Эти города, как правило, были окружены крепостями и оборонительными сооружениями, а принципы градостроительства формировались в соответствии с требованиями безопасности, торговли, религии и общественной жизни. В европейских городах преобладали романский и готический архитектурные стили, тогда как в городах исламского мира основными элементами архитектуры являлись мечети, медресе, караван-сараи и система внутренних дворов.

Мечети выполняли не только религиозную функцию, но и служили важнейшими центрами социальной и культурной жизни города. Рыночные площади и караван-сараи играли значительную роль в развитии торговли и экономических отношений, а также являлись местами общественных встреч и проведения культурных мероприятий. Социальное расслоение в средневековых городах ярко проявлялось и в архитектурной структуре. Богатые слои населения и феодалы проживали в просторных и комфортных домах центральной части города, тогда как ремесленники, крестьяне и рабочие жили преимущественно на окраинах, в кварталах с узкими улицами.

Архитектура и градостроительство не ограничивались лишь организацией жилого пространства, но также отражали социальную, экономическую и религиозную структуру общества. Таким образом, средневековые города сформировались как комплексная городская среда, объединяющая оборонительные, экономические, социальные и культурные функции, и оказали значительное влияние на развитие современного градостроительства.

**Giriş**. Orta əsr şəhərləri təkcə memarlıq üslublarını əks etdirmir, həm də həmin dövrün sosial, iqtisadi və mədəni həyatının əsas mərkəzləri kimi çıxış edirdi. Bu şəhərlər qalalar və müdafiə divarları ilə əhatə olunmuş, təhlükəsizlik funksiyası ilə yanaşı, ticarət, dini və ictimai həyatın mərkəzi rolunu da daşıyırdı. Qalalar yalnız hərbi müdafiə məqsədini təmin etməklə kifayətlənməyərək, şəhərin siyasi və sosial strukturlarını simvolizə edirdi. Memarlıq, şəhərsalmanın strukturunu və sosial təbəqələşməni müəyyən etməklə, şəhərin həm estetik, həm də funksional quruluşunu formalaşdırırdı [Qənbərova & Güneri, 2018, s. 55].

İslam dünyasında orta əsr memarlığı və şəhərsalma prinsipləri əsasən dini və ictimai mərkəzlər üzərində qurulmuşdur. Məscidlər, mədrəsələr, bazarlar və açıq həyətlər yalnız ibadət və ticarət üçün deyil, həm də sosial, elmi və mədəni fəaliyyətlərin təşkili üçün mühüm rol oynayırdı. Məscidlər eyni zamanda cəmiyyətin sosial həyatının toplaşdığı mərkəzlər kimi fəaliyyət göstərir, mədrəsələr isə elmi və təhsil funksiyasını yerinə yetirərək, şəhərin intellektual inkişafına töhfə verirdi. Açıq meydanlar və bazarlar ticarət və sənətkarlıq fəaliyyətlərinin mərkəzi olmaqla yanaşı, ictimai görüş və mədəni tədbirlərin təşkil edildiyi sahələr idi.

Naxçıvan bölgəsi orta əsr İslam memarlığının zəngin nümunələri ilə seçilir. Burada Yusif Küseyr Oğlu türbəsi, Mömünə Xatın türbəsi və Qarabağlar türbəsi kimi abidələr, yalnız dini və memorial funksiyalarla kifayətlənməyib, həm də dövrün sosial və mədəni həyatını əks etdirən mühüm strukturlar kimi fəaliyyət göstərmişdir. Mömünə Xatın və Qarabağlar türbələri XII-XIV əsrlərin memarlıq xüsusiyyətlərini əks etdirir və bölgənin İslam memarlığının zirvələrini təşkil edir. Həmçinin, Naxçıvan Came və Təpəbaşı məscidləri dini ibadət məkanları olmaqla yanaşı, sosial və mədəni mərkəzlər kimi də əhəmiyyətli rol oynamışdır. Came məscidi XII əsrdə Selçuklu üslubunda inşa edilmiş, regionun memarlıq irsinin mühüm göstəricilərindən biridir. Avropada isə roman və gotika üslubları memarlığın əsas cizgilərini təşkil edirdi. Roman üslubu qalın divarlar, yarım dairəvi pəncərələr və kütləvi kilsə strukturları ilə xarakterizə olunurdu. Gotika üslubu isə hündür qüllələr, böyük vitraj pəncərələr və dekorativ elementlərin bolluğu ilə fərqlənirdi. Hər iki üslub şəhərlərin ictimai və dini mərkəzlərini vizual və funksional olaraq gücləndirirdi. Beləliklə, orta əsr şəhərləri yalnız memarlıq baxımından deyil, həm də sosial, iqtisadi və mədəni həyatın təşkili baxımından mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın orta əsr şəhərlərində memarlıq və şəhərsalma prinsipləri, həm sosial təbəqələşməni, həm iqtisadi və ticarət əlaqələrini, həm də dini-mədəni həyatın təşkilini əks etdirərək, müasir şəhərsalma anlayışının ilkin təməlini qoymuşdur.

**Naxçıvanda Orta Əsr Memarlığı**. Naxçıvan, İslam memarlığının zəngin və müxtəlif nümunələrinə malik bölgə kimi diqqəti cəlb edir. Burada yerləşən Yusif Küseyr Oğlu türbəsi, Mömünə Xatın türbəsi, Gülüstan və Qarabağlar türbəsi yalnız dini və memorial funksiyalara xidmət etməklə kifayətlənmir, eyni zamanda dövrün sosial, iqtisadi və mədəni həyatını əks etdirən mühüm struktur nümunələridir. Mömünə Xatın və Qarabağlar türbələri XII-XIV əsrlərin memarlıq xüsusiyyətlərini nümayiş etdirir, xüsusən də kubik formalar, ornamentli daş işləri və türbələrin plan quruluşu bölgənin memarlıq irsindəki yüksək səviyyəni göstərir [Hacıyeva, 2017, s. 14]. Bundan əlavə, Naxçıvan Came məscidi və Təpəbaşı məscidi yalnız dini ibadət üçün deyil, həm də sosial və mədəni mərkəz funksiyasını da daşımışdır. Came məscidi XII əsrdə Selçuklu memarlıq üslubunda inşa edilmiş, məscidin geniş həyəti, minarəsi və ibadət zalı şəhərin ictimai və dini həyatında mühüm rol oynamışdır. Bu abidələr həmçinin şəhərin sosial təbəqələşməsini və iqtisadi əlaqələrini vizual və funksional şəkildə əks etdirir. Naxçıvanın orta əsr memarlığı, şəhərsalma və sosial həyat arasında qarşılıqlı əlaqəni nümayiş etdirərək, dövrün şəhər mədəniyyətini və mədəni irsini qoruyub saxlamışdır.

**Memarlıq və Şəhərsalmanın Sosial Həyata Təsiri.** Orta əsr Naxçıvan şəhərləri yalnız estetik baxımdan deyil, həm də sosial və iqtisadi həyatın formalaşmasında mühüm rol oynamışdır. Memarlıq və şəhərsalma, əhalinin sosial təbəqələşməsini, dini və mədəni həyatını əks etdirən əsas amillərdən biri olmuşdur. İslam şəhərlərində məscidlər və mədrəsələr yalnız dini ibadət mərkəzi deyil, həm də insanların sosial və mədəni fəaliyyətlərinin toplaşdığı əsas məkanlar

idi. Böyük məscidlər və mədrəsələr eyni zamanda elmi və dini fəaliyyətlərin inkişafına şərait yaratmış, şəhər əhalisinin təhsil və sosial əlaqələrini təşkil etmişdir [Qənbərova & Güneri, 2018, s. 55]. Orta əsr şəhərlərində sosial təbəqələşmə memarlıqla açıq şəkildə görünürdü. Zənginlər və feodallar şəhərin mərkəzində yerləşən geniş və bəzəkli saraylarda, villalarda və ya şəhərin strateji nöqtələrində yaşayan, bu məkanlarda həm şəxsi, həm də ictimai fəaliyyətlərini həyata keçirirdilər. Kəndlilər, sənətkarlar və işçilər isə şəhərin kənar hissələrində, dar küçələrdə və sıx tikilmiş məhəllələrdə məskunlaşırdılar. Bu fiziki struktur sosial mövqeləri, iqtisadi imkanları və ictimai münasibətləri birbaşa əks etdirir, şəhərin planlaşdırılmasında sosial təbəqələşmənin açıq göstəricisi olurdu [Gözəlova, 2012, s. 295]. Memarlıq və şəhərsalma həmçinin iqtisadi fəaliyyətlərə də xidmət edirdi. Bazar meydanları, karvansaraylar və sənətkarlıq mərkəzləri şəhərin iqtisadi həyatının mərkəzi funksiyasını yerinə yetirir, həm yerli əhali, həm də uzaq bölgələrdən gəlmiş tacirlər üçün iqtisadi əlaqələrin və mədəni mübadilənin inkişafını təmin edirdi. Bu məkanlar eyni zamanda ictimai və mədəni tədbirlərin təşkil olunduğu sahələr kimi şəhərin sosial strukturu ilə sıx əlaqəli idi. Beləliklə, Naxçıvanın orta əsr memarlığı və şəhərsalma prinsipləri, dövrün sosial, iqtisadi və mədəni həyatını vizual və funksional olaraq əks etdirərək, həm şəhərin sosial təbəqələşməsini, həm iqtisadi əlaqələrini, həm də dini-mədəni fəaliyyətlərini bir araya gətirən kompleks bir sistem meydana gətirmişdir.

**Ticarət və İqtisadi Həyat.** Orta əsr Naxçıvan şəhəri yalnız memarlıq və dini mərkəzlər baxımından deyil, həm də iqtisadi və ticarət fəaliyyətinə görə regionun mühüm mərkəzlərindən biri kimi diqqət çəkirdi. Şəhərin bazarları və karvansarayları dövrün iqtisadi həyatının əsas mərkəzləri olmaqla yanaşı, sosial və mədəni münasibətlərin inkişafında da vacib rol oynayırdı. IX-X əsrlərdə ərəb coğrafiyaçıları iri yaşayış məntəqələrini xarakterizə edərkən, bazarın mövcudluğunu şəhərin ən mühüm göstəricilərindən biri kimi qeyd etmişlər [Azərbaycan tarixi, 2007, s. 165]. Bu fakt göstərir ki, bazar yalnız iqtisadi fəaliyyət üçün nəzərdə tutulmamış, həm də şəhərin ictimai və sosial həyatının təşkili baxımından əhəmiyyət daşıyırdı. Naxçıvan bazarları həm topdansatış, həm də pərakəndə ticarət üçün nəzərdə tutulmuşdu. Burada yerli ustaların hazırladığı saxsı və mis qablar, xalçalar, müxtəlif parçalar, zərgərlik məmulatları və digər sənətkarlıq məhsulları satılırdı. Eyni zamanda, bazarlarda müxtəlif ölkələrdən gəlmiş tacirlər öz mallarını təqdim edirdi. Çindən, İrandan, Hindistandan, Misirdən və Türkiyədən gətirilmiş məhsullar Naxçıvan bazarlarının zəngin çeşidini təşkil edirdi. Bu ticarət şəbəkəsi yalnız şəhərin iqtisadi rifahını təmin etməklə kifayətlənməyib, həm də müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini və mədəni mübadiləni təşviq edirdi. Nəticədə, bazarlar həm iqtisadi, həm də mədəni və sosial əlaqələrin inkişafında mühüm rol oynayan məkana çevrilirdi [Məmmədov, 1977, s. 158]. Ticarətin inkişafında karvan yollarının və çay üzərində dayanıqlı körpülərin inşası xüsusi əhəmiyyət kəsb edirdi. XII-XIII əsrlərdə Araz çayı üzərində tikilmiş Xudafərin və Culfa körpüləri yalnız mühəndislik bacarığının parlaq nümunəsi olmaqla kifayətlənməyib, eyni zamanda Naxçıvanın Azərbaycanın digər bölgələri və həm Şərq, həm də Qərb ticarət mərkəzləri ilə əlaqələrini möhkəmləndirməyə xidmət edirdi. Bu körpülər karvanların təhlükəsiz və fasiləsiz hərəkətini təmin etməklə, şəhərin iqtisadi həyatının davamlılığını və məhsuldarlığını artırır, həmçinin regionun ticarət strategiyasının inkişafına təkan verirdi [Azərbaycan arxeologiyası, 2008, s. 471]. Bütün bunlar Naxçıvanın Orta əsrlərdə yalnız mədəni və siyasi, eyni zamanda iqtisadi baxımdan da strateji əhəmiyyətə malik olduğunu göstərir. Şəhərin bazarları, karvansarayları və ticarət yolları yerli əhalinin rifahını təmin etməklə yanaşı, regional və transregional ticarət əlaqələrinin formalaşmasına, eləcə də sosial və mədəni münasibətlərin zənginləşməsinə şərait yaratmışdır.

**Memarlıq, İqtisadiyyat və Mədəniyyət**. İslam memarlığı ticarət və iqtisadi fəaliyyəti təşkil etməkdə mühüm rol oynamışdır. Bazar meydanları, karvansaraylar və digər ticarət məkanları yalnız iqtisadi fəaliyyət üçün nəzərdə tutulmamış, həm də ictimai və mədəni fəaliyyətlərin toplaşdığı mərkəzlər kimi çıxış edirdi. Bu mərkəzlərdə ticarət əməliyyatları ilə yanaşı, sənətkarlıq işləri, dini və mədəni tədbirlər, ictimai müzakirələr və elmi fəaliyyətlər də aparılırdı. Beləliklə, memarlıq və şəhərsalma iqtisadi həyatın

yalnız funksional deyil, həm də sosial və mədəni aspektlərini təmin edirdi. Naxçıvanın coğrafi mövqeyi, strateji karvan yollarına yaxınlığı və Araz çayının nəqliyyat imkanları, şəhəri dövrün əsas ticarət mərkəzlərindən birinə çevirmişdir. İpək yolu və digər karvan yolları vasitəsilə şəhər yalnız məhsul mübadiləsi üçün deyil, həm də müxtəlif mədəniyyətlərin qarşılaşdığı, ideya və texnologiyaların yayıldığı mərkəz olmuşdur. Bu yolla Naxçıvan həm iqtisadi, həm də mədəni baxımdan regionun inkişafında mühüm rol oynamışdır [Salamzadə, 1976, s. 3]. Beləliklə, orta əsr Naxçıvanında ticarət və iqtisadi həyat memarlıq və şəhərsalma ilə sıx bağlı idi. Bazar meydanları, karvansaraylar və yollar, şəhərin iqtisadi fəaliyyətlərini və sosial əlaqələrini təşkil etməklə yanaşı, mədəni və elmi həyatın inkişafına da şərait yaratmışdır. Memarlıq və şəhərsalma prinsipləri, iqtisadiyyatın təşkili, sosial təbəqələşmə və mədəni fəaliyyətlərin bir arada təmin olunmasını mümkün etmişdir.

**Naxçıvan Memarlıq İrsinin Qorunması**. Orta əsr memarlığı və şəhərsalmanın qorunması Naxçıvanın mədəni irsində xüsusi əhəmiyyət daşıyır. Bu irs, yalnız tarixi abidələrin estetik dəyəri ilə məhdudlaşmır, həm də dövrün sosial, iqtisadi və dini həyatını əks etdirən mühüm məlumat mənbəyidir. Nuh Peyğəmbərin türbəsi, Əlincə qalası və Qarabağlar qəbiristanlığı kimi abidələr, bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Nuh Peyğəmbərin türbəsi, həm dini, həm də sosial mərkəz funksiyasını daşıyaraq, şəhər əhalisinin gündəlik dini və mədəni həyatında mühüm rol oynayırdı. Əlincə qalası isə yalnız müdafiə məqsədli qala kimi çıxış etməmiş, həm də şəhərin sosial və siyasi strukturlarını vizual şəkildə əks etdirən mərkəz olmuşdur. Qarabağlar qəbiristanlığı isə memorial funksiyasının yanında, Naxçıvan əhalisinin dini inancları və sosial münasibətləri barədə məlumat verən tarixiləşmiş məkan kimi qiymətləndirilir. Bu abidələr şəhərsalma, memarlıq üslubu və sosial təbəqələşməni əks etdirən canlı nümunələrdir və bölgənin mədəni irsinin qorunmasında və araşdırılmasında əsas rol oynayır. Abidələrin qorunması yalnız onların fiziki varlığının saxlanması ilə məhdudlaşmamalıdır. Onların tarixi konteksti, memarlıq üslubu, şəhərsalma prinsipləri və sosial funksiyaları da öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır. Mədəni irsin qorunması həm də turizm, elmi tədqiqat və yerli icmaların mədəni identifikasiyası baxımından əhəmiyyətlidir. Orta əsr şəhərlərinin memarlığı və həyat tərzi, yalnız dövrün iqtisadi, sosial və mədəni strukturlarını əks etdirməklə kifayətlənmir, həm də müasir şəhərsalma və memarlıq prinsiplərinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvan, orta əsrlərdə müdafiə, dini, sosial və iqtisadi mərkəz kimi fəaliyyət göstərmiş, şəhərsalma və memarlıq baxımından zəngin irs yaratmışdır. Qalalar, türbələr, məscidlər, bazar meydanları və karvansaraylar yalnız fiziki məkan kimi deyil, həm də şəhərin sosial təbəqələşməsini, iqtisadi fəaliyyətlərini və mədəni həyatını əks etdirən nümunələrdir.

**Materiallar və metodlar**. Tədqiqatın əsas materiallarını orta əsr şəhərlərinin memarlıq xüsusiyyətləri, şəhərsalma prinsipləri, sosial həyat tərzi və iqtisadi münasibətləri ilə bağlı elmi ədəbiyyatlar, tarixi mənbələr və memarlıq abidələri təşkil etmişdir. Araşdırmada Naxçıvan bölgəsinin orta əsr memarlıq irsini əks etdirən Yusif Küseyr Oğlu türbəsi, Mömünə Xatın türbəsi, Qarabağlar türbəsi, Naxçıvan Came məscidi, Təpəbaşı məscidi, Əlincə qalası və digər abidələr nümunə kimi təhlilə cəlb edilmişdir. Bununla yanaşı, orta əsr şəhərlərinin memarlıq və sosial quruluşu ilə bağlı yerli və xarici tədqiqatçıların əsərlərindən istifadə olunmuşdur.

Tədqiqat zamanı tarixi-müqayisəli, təsviri, analitik və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Orta əsr şəhərlərinin memarlıq quruluşu Avropa və İslam şəhərsalma ənənələri kontekstində müqayisəli şəkildə araşdırılmış, şəhərsalma prinsiplərinin sosial və iqtisadi həyata təsiri təhlil edilmişdir. Memarlıq abidələrinin funksional xüsusiyyətləri, şəhərin müdafiə sistemi, dini-mədəni mərkəzləri və ticarət infrastrukturu elmi-nəzəri baxımdan qiymətləndirilmişdir.

Araşdırmada həmçinin mənbələrin müqayisəli təhlili, müşahidə və ümumiləşdirmə metodlarından istifadə edilərək orta əsr şəhərlərində memarlıq, iqtisadiyyat və sosial həyat arasındakı qarşılıqlı əlaqələr müəyyənləşdirilmişdir. Tədqiqatın metodoloji əsasını tarixşünaslıq, memarlıq nəzəriyyəsi və şəhərsalma prinsiplərinə dair elmi yanaşmalar təşkil etmişdir.

**Nəticə**. Naxçıvanın orta əsr memarlıq abi-

dələri, həm yerli əhalinin gündəlik həyatını, həm də dövrün siyasi, iqtisadi və dini münasibətlərini əks etdirir. Memarlıq və şəhərsalma prinsipləri, sosial mövqelərin fiziki məkanda görünməsi, bazarların və karvansarayların iqtisadi fəaliyyətdəki rolu, məscid və mədrəsələrin dini və mədəni həyatın təşkilindəki əhəmiyyəti ilə birgə, orta əsr şəhərlərinin kompleks strukturunu formalaşdırır. Eyni zamanda, bu irs yalnız tarixi və mədəni əhəmiyyət daşımır, həm də elmi tədqiqatlar, turizm və mədəni maarifləndirmə baxımından da qiymətlidir. Nuh Peyğəmbərin türbəsi, Əlincə qalası, Qarabağlar qəbiristanlığı və digər abidələr, Naxçıvanın orta əsr memarlıq və şəhərsalma irsini qoruyaraq, gələcək nəsillərə ötürülməsi üçün mühüm vasitədir. Bu abidələrin qorunması və təbliği, həm tarixi biliklərin formalaşmasına, həm də bölgənin mədəni və sosial inkişafına töhfə verir. Beləliklə, orta əsr şəhərlərinin memarlığı və həyat tərzi, Naxçıvanın mədəni irsinin ayrılmaz hissəsi kimi, həm yerli, həm də beynəlxalq səviyyədə qiymətləndirilir. Onların qorunması və araşdırılması, yalnız keçmişin öyrənilməsi deyil, eyni zamanda müasir şəhərsalma, memarlıq və mədəni inkişafın təməl prinsiplərinin müəyyən edilməsinə də xidmət edir.

**Ədəbiyyat**


1. Qənbərova, G., & Güneri, A. Naxçıvanın mülki tikililərinin memarlığı. Dərs vəsaiti / G.Qənbərova, A.Güneri. – Bakı: – 2018.
2. Gözəlova, Y.H. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. – Bakı: Elm. – 2012.
3. Məmmədov, R. Naxçıvan şəhərinin tarixi oçerki. – Bakı: Elm. – 1977.
4. Salamzadə, Ə. (1976). Əcəmi Əbubəkir oğlu və Naxçıvan memarlıq abidələri. – Bakı: – 1976.
5. Azərbaycan tarixi: 7 cilddə (Cild II). – Bakı: Elm. – 2007.
6. Azərbaycan arxeologiyası (6 cilddə, Cild VI). – Bakı: Şərq-Qərb. – 2008.
7. Hacıyeva, S. Naxçıvanda sənətkarlıq (XII–XIX əsrlər) / S.Hacıyeva. – Naxçıvan: Əcəmi. – 2017.



*Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 22.01.2026, son daxilolma – 03.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.151-158*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.151-158*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.151-158*

**UOT: 517.927:517.984**

# Özü-özünə qoşma diferensial ifadələrin vektor funksiyalar fəzasında birtərtibli tənlikləri

**Müəllif(lər):**

**Sahil Əliyev**
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru
**E-poçt:** SahilAliyev@nmi.edu.az
https://orcid.org/0009-0002-3889-0072

**Nailə Namazova**
Naxçıvan Dövlət Universiteti
Riyaziyyat üzrə fəlsəfə doktoru
**E-poçt:** nailadeniz@mail.ru
https://orcid.org/0009-0001-8960-2889

**Açar sözlər:** vektor funksiya, xətti diferensial tənliklər, özü-özünə qoşma, diferensial ifadə, kvazitörəmələr, Laqranj düsturu

**Annotasiya.** Həqiqi və kifayət qədər diferensiallanan əmsallara malik istənilən özü-özünə qoşma diferensial ifadə

$$l(y)=(-1)^n (p_0 y^{(n)})^{(n)} + (-1)^{(n-1)} (p_1 y^{(n-1)})^{(n-1)}+...+p_n y$$

şəklində göstərilə bilər. Əgər $p_{n-k}(x)$ əmsallarının hər biri həqiqi olub kifayət qədər törəməyə malikdirsə, onda mötərizələr açıldıqda ifadə aşağıdakı kimi yazıla bilər:

$$q_0 y^{[2n]} +q_1 y^{[2n-1]} +..+q_{2n} y$$

Məqalənin əsas məqsədi bu tip tənliklərin ümumi xassələrini araşdırmaqdır. Müəyyən olunur ki, bu zaman xətti diferensial tənliklər nəzəriyyəsinə xas olan əsas xüsusiyyətlər saxlanılır.

Adi xətti diferensial tənliklər nəzəriyyəsində olduğu kimi, əvvəlcə birtərtibli tənliklər sisteminin həllinin varlığı və yeganəliyi məsələsi araşdırılır. Belə sistemlər vektor funksiyalar fəzasında bir birtərtibli tənlik kimi nəzərdən keçirilir. Sonda bircins tənliyin həllinin ümumi xassələri öyrənilir, həllin yerləşdiyi intervallar haqqında teorem isbat edilir və ümumi həllin forması müəyyənləşdirilir.

## First-order equations in the vector function space for self-adjoint differential expressions

**Author(s):**

**Sahil Aliyev**
Nakhchivan Teachers Institute
Doctor of Philosophy on Mathematics
**E-mail:** SahilAliyev@nmi.edu.az
https://orcid.org/0009-0002-3889-0072

**Naila Namazova**
Nakhchivan State University
Doctor of Philosophy on Mathematics
**E-mail:** nailadeniz@mail.ru
https://orcid.org/0009-0001-8960-2889

**Keywords:**

**Abstract**. Any self-adjoint differential expression with real and sufficiently differentiable coefficients can be represented in the form

$$l(y)=(-1)^n (p_0 y^{(n)})^{(n)} + (-1)^{(n-1)} (p_1 y^{(n-1)})^{(n-1)}+...+p_n y$$

If the coefficients $p_{n-k}(x)$ are real-valued and possess sufficient smoothness, then after expanding the brackets the expression can be written as

$$q_0 y^{[2n]} +q_1 y^{[2n-1]} +..+q_{2n} y$$

The main aim of the paper is to investigate the general properties of such equations. It is shown that all characteristic features of the theory of linear differential equations are preserved in this setting.

As in the classical theory of linear differential equations, the study begins with the existence and uniqueness problem for systems of first-order equations. Such systems are considered as a single first-order equation in the space of vector functions. Finally, the general properties of solutions to the homogeneous equation are studied, a theorem on the intervals of existence of solutions is proved, and the form of the general solution is determined.

## Однопорядковые уравнения в пространстве векторных функций для самосопряжённых дифференциальных выражений

**Автор(ы):**

**Сахиль Алиев**
Нахчыванский институт учителей
Доктор философии по математике
**Э-почта:** SahilAliyev@nmi.edu.az
https://orcid.org/0009-0002-3889-0072

**Наиля Намазова**
Нахчыванский государственный университет
Доктор философии по математике
**Э-почта:** nailadeniz@mail.ru
https://orcid.org/0009-0001-8960-2889

**Ключевые слова:** векторная функция, линейные дифференциальные уравнения, самосопряжённость, дифференциальное выражение, квазипроизводные, формула Лагранжа

**Аннотация.** Любое самосопряжённое дифференциальное выражение с вещественными и достаточно дифференцируемыми коэффициентами может быть представлено в виде

$$l(y)=(-1)^n (p_0 y^{(n)})^{(n)} + (-1)^{(n-1)} (p_1 y^{(n-1)})^{(n-1)}+...+p_n y$$

Если коэффициенты $p_{n-k}(x)$ являются вещественными и обладают достаточной степенью гладкости, то после раскрытия скобок выражение принимает вид

$$q_0 y^{[2n]} +q_1 y^{[2n-1]} +..+q_{2n} y$$

Основной целью работы является исследование общих свойств данных уравнений. Показано, что при этом сохраняются все характерные свойства теории линейных дифференциальных уравнений

Как и в классической теории линейных дифференциальных уравнений, исследование начинается с вопроса существования и единственности решений систем уравнений первого порядка. Такие системы рассматриваются как одно уравнение первого порядка в пространстве векторных функций. В заключение исследуются общие свойства решений однородного уравнения, доказывается теорема о промежутках существования решений и определяется форма общего решения.

**Giriş.** Bilirik ki, həqiqi və kifayət qədər diferensiallanan əmsallara malik istənilən özü-özünə qoşma diferensial ifadəni

$$l(y) = (-1)^n\left(p_0 y^{(n)}\right)^{(n)} + (-1)^{n-1}\left(p_1 y^{(n-1)}\right)^{(n-1)} + \dots + p_n y \qquad (1)$$

şəklində göstərmək olar.

Tərsinə, əgər $p_{n-k}(x)$ əmsallarının hər biri həqiqidirsə və k-cı tərtib daxil olmaqla törəmələrə malikdirlərsə, onda (1)-də mötərizələri açmaqla biz

$$q_0 y^{[2n]} + q_1 y^{[2n-1]} + .. + q_{2n} y$$

şəklində özü-özünə qoşma diferensial ifadə almış olarıq.

Lakin aşağıda izah edilən nəzəriyyədə əmsalların diferensiallanan olması haqda bu cür tələb irəli sürməyə ehtiyac yoxdur:

Əgər $(a, b)$ $l(y)$ diferensial ifadəsinin baxıldığı intervaldırsa, onda

$$\frac{1}{p_0(x)}, p_1(x), \dots, p_n(x) \qquad (2)$$

funksiyaları $(a, b)$ intervalında ölçüləbilən və bu intervalın hər bir qapalı sonlu $[\alpha, \beta]$ alt intervalıda cəmlənən funksiyalardırlar.

Bundan sonra biz bu şərtin ödəndiyini qəbul edib hər dəfə onu xatırlatmayacağıq. Bu zaman $(a, b)$ intervalının sonsuz olduğu hal istisna edilmir, ona görə də $a = -\infty$ və ya b$= +\infty$ ola bilər.

Əgər $(a, b)$ intervalı sonludursa və $\frac{1}{p_0(x)}, p_1(x), \dots, p_n(x)$ funksiyaları bütün $(a, b)$ intervalında cəmlənəndirlərsə, onda $l(y)$ ifadəsi requlyar ifadə adlanır. Əks halda isə $l(y)$ ifadəsi sinqulyar ifadə adlanır. Bu zaman əgər $a > -\infty$ isə və (2) funksiyaları hər bir $[\alpha, \beta]$, $\beta < b$ intervalında cəmlənəndirlərsə, onda sol uc nöqtəsi olan a requlyar uc nöqtə, əks halda isə sinqulyar uc nöqtə adlanır. Başqa sözlə, $a = -\infty$ olduqda və ya $a$ sonlu olub, lakin əmsalların $[\alpha, \beta]$ şəklindəki intervalda cəmlənən olmaları şərti ödənmədikdə $a$ uc nöqtəsi sinqulyar olur.

Analoji qayda ilə $b$ nöqtəsinin requlyar və ya sinqulyar olması anlayışı təyin edilir.

Aşkardır ki, $l(y)$ ifadəsi yalnız və yalnız hər iki $a$ və $b$ uc nöqtələri requlyar olduqları halda requlyardır.

**Kvazitörəmələr**.

$l(y)$ ifadəsinə daxil olan $y$ funksiyasının $2n$-ci tərtibədək törəmələrinin hamısı mövcud olmaya da bilər. Bu onunla bağlıdır ki, $p_0, p_1, \dots, p_n$ əmsalları diferensiallanmayan da ola bilərlər. Ona görə də $y', \dots, y^{(2n)}$ törəmələrinin əvəzinə $y$ funksiyasının kvazitörəmələri adlanan və aşağıdakı qayda ilə təyin olunan törəmələrə baxmaq daha məqsədəuyğundur.

$y$ funksiyasının $l(y)$ ifadəsinə uyğun kvazitörəmələri

$$\left.\begin{aligned} y^{[k]} &= \frac{d^k y}{dx^k}, k = \overline{1, n-1} \\ y^{[n]} &= p_0 \frac{d^n y}{dx^n} \\ y^{[n+k]} &= p_k \frac{d^{n-k} y}{dx^{n-k}} - \frac{d}{dx}\left(y^{[n+k-1]}\right), k = \overline{1, n} \end{aligned}\right\} \qquad (3)$$

düsturları ilə təyin olunan $y^{[1]}, y^{[2]}, \dots, y^{[2n]}$ funksiyalarına deyilir.

Bundan əlavə

$$y^{[0]} = y$$

işarə edək. Kvazitörəmələrin bu cür təyin olunmasından

$$l(y) = y^{[2n]} \qquad (4)$$

alınır.

Əgər verilən $y$ funksiyasının $(2n-1)$-ci tərtib də daxil olmaqla kvazitörəmələri mövcud-durlarsa və $[a, b]$ intervalının hər bir sonlu $[\alpha, \beta]$ alt intervalında mütləq kəsilməzdirsə, onda biz $l(y)$ ifadəsinin $y$ funksiyası üçün mənası olduğunu hesab edəcəyik.

**Laqranj düsturu**.

Tutaq ki, $y$ və $z$ iki funksiyadır və $l(y)$ ifadəsinin bu funksiyalar üçün mənası vardır. Onda,

$$l(y)\bar{z} - y l(\bar{z}) = \frac{d}{dx}[y, z] \qquad (5)$$

harada ki,

$$[y,z]=\sum_{k=1}^{n}\left\{y^{[k-1]}\bar{z}^{[2n-k]}-y^{[2n-k]}\bar{z}^{[k-1]}\right\} \tag{6}$$

(5) düsturu Laqranj düsturu adlanır.
(6)-nın hər iki tərəfini diferensiallamaqla və (3)-dən bilavasitə alınan

$$\left.\begin{aligned} y^{[2n]}&=l(y)\\ \frac{d}{dx}y^{[k-1]}&=y^{[k]},k=\overline{1,n-1}\\ \frac{d}{dx}y^{[n-1]}&=\frac{1}{p_0}y^{[2n]}\\ \frac{d}{dx}y^{[2n-k]}&=p_{n-k+1}y^{[k-1]}-y^{[2n-k+1]},k=\overline{1,n}\end{aligned}\right\}$$

münasibətlərindən istifadə etməklə Laqranj düsturunun doğruluğunu yoxlamaq olar.

(5)-in hər iki tərəfini sonlu $[\alpha,\beta]\subset(a,b)$ intervalında inteqrallamaqla Laqranj eyniliyinin

$$\int_{\alpha}^{\beta} l(y)\bar{z}dx-\int_{\alpha}^{\beta} yl(\bar{z})dx=[y,z]_{\alpha}^{\beta} \tag{7}$$

inteqral formasını almış oluruq.

Burada $[y,z]_{\alpha}^{\beta}$ $[y,z]$ funksiyasının $x=\beta$ və $x=\alpha$ nöqtələrindəki qiymətləri fərqidir.

Tutaq ki, $l(y)$ aşağıdakı kimi təyin olunan diferensial ifadədir:

$$l(y)=(-1)^n\left(p_0y^{(n)}\right)^{(n)}+(-1)^{n-1}\left(p_1y^{(n-1)}\right)^{(n-1)}+\cdots+p_ny$$

$$l(y)=g(x) \tag{8}$$

şəklindəki tənliyə sağ tərəfi $g(x)$ olan adi xətti diferensial tənliyin ümumiləşməsi kimi baxmaq olar. Biz onu yenə də xətti diferensial tənlik adlandıracağıq. $g(x)\equiv 0$ olduqda ( 8 ) tənliyi bircins xətti diferensial tənlik, əks halda isə qeyri-bircins xətti diferensial tənlik adlanır.

## Vektor funksiyalar fəzasında birtərtibli tənliklər

$$\frac{dy}{dx}=A(x)y+f(x) \tag{9}$$

şəklindəki tənliyə baxaq. Burada $f(x)=\{f_1(x),f_2(x),\dots,f_n(x)\}$ verilən funksiya, $y(x)=\{y_1(x),y_2(x),\dots,y_n(x)\}$ isə qeyd olunmuş sonlu ölçülü $R_n$ vektor fəzasından qiymətlər alan axtarılan funksiyadır; Bunun üçün $A(x)$ – verilən və qiymətləri $R_n$-də xətti operatorlar, yəni $n$ tərtibli matrislər olan operator, yəni matris funksiyadır. Əgər $y(x)$ vektor funksiyası $(a,b)$ intervalının hər bir sonlu $[\alpha,\beta]$ alt intervalında mütləq kəsilməzdirsə və sanki $(a,b)$ intervalının hər yerində (9) tənliyini ödəyirsə, onda $y(x)$ vektor funksiyası (9) tənliyinin həlli adlanır.

Bu zaman əgər $y(x)$ vektor funksiyasının hər bir $y_k(x)$ koordinatı mütləq kəsilməzdirsə, onda bu funksiyaya mütləq kəsilməz vektor funksiya deyilir. (9) tənliyinin həlli haqqında aşağıdakı teorem doğrudur:

**TEOREM 1:** Tutaq ki , $A(x)=\left(a_{\mathrm{jk}}(x)\right),\ j,k=\overline{1,n}$ və $f(x)=\left(f_1(x),f_2(x),\dots,f_n(x)\right)$ funksiyaları

1° $a_{jk}(x),f_k(x),\ j,k=\overline{1,n}$ funksiyaları $(a,b)$ intervalında ölçüləbilən funksiyalardır.

2° $|A(x)|,|f(x)|$ funksiyaları $(a,b)$ intervalının hər bir sonlu qapalı $[\alpha,\beta]$ alt intervalında cəmlənəndirlər.

şərtlərini ödəyir. Əgar $x_0-(a,b)$ intervalından götürülmüş ixtiyari ədəd, $y_0$ isə $R_n$-dən olan ixtiyari vektor isə, onda (9) tənliyinin

$$y|_{x=x_0}=y_0 \tag{10}$$

şərtinin ödəyən $y(x)$ həlli var və bu həll yeganədir.

**İSBATI:** Tutaq ki, $y(x)$ funksiyası (9) tənliyini və (10) başlanğıc şərtini ödəyir. (9) tənlyini $x_0$-dan $x$-ə qədər inteqrallasaq və (10) şərtini nəzərə alsaq,

$$y(x)=y_0+\int_{x_0}^{x}[A(\xi)y(\xi)+f(\xi)]d\xi \tag{11}$$

alarıq. Bu halda (11)-ün sağ tərəfindəki inteqral mövcuddur, çünki, $y(\xi)$ mütləq kəsilməz olduğu üçün $[x_0,x]$ intervalında məhduddur.

Beləliklə, (9) tənliyinin (10) şərtini ödəyən hər bir həlli eyni zamanda (11) tənliyinin də həllidir. Aşkardır ki, bunun tərsi də doğrudur. Yəni, (11) tənliyinin hər bir həlli eyni zamanda (9) tənliyinin (10) şərtini ödəyən həllidir: Ona görə da (9) tənliyinin (10) şərtini ödəyən həllinin axtarılması əvəzinə (11) tənliyinə baxmaq olar.

(11) tənliyini həll etmək üçün

$$y_0(x) = y_0 \tag{12}$$

$$y(x) = y_0 + \int_{x_0}^{x} [A(\xi)y(\xi) + f(\xi)]\xi \quad n = 1,2,3,\dots \tag{13}$$

qəbul edərək adi ardıcıl yaxınlaşmalar metodundan istifadə edəcəyik.

$x_0$ nöqtəsini özündə saxlayan kifayət qədər kiçik intervalda $y_n(x)$ funksiyalar ardıcıllığı müntəzəm olaraq (11) tənliyinin $y(x)$ halına yığılır.

Aşkardır ki, bu müddəanı uc nöqtələrindən biri $x_0$ olan interval üçün isbat etmək kifayətdir, çünki, $x_0$ nöqtəsini özündə saxlayan interval, iki bu cür intervalın birləşməsidir.

Məsələn, $[x_0, x_1]$ $(x_0 < x_1)$ şəklində intervala baxaq və

$$M_n = \max_{x_0 \le x \le x_1} |y_{n+1}(x) - y_n(x)| \ (14)$$

$$q = \int_{x_0}^{x_1} |A(x)|dx \tag{15}$$

kimi işarə edək. (13) barabərliklərindən çıxır ki,

$$y_{n+1}(x) - y_n(x) = \int_{x_0}^{x} A(\xi)[y_n(\xi) - y_{n-1}(\xi)]d\xi$$

ona görə də $x_0 \le x \le x_1$ olduqda,

$$|y_{n+1}(x) - y(x)| \le M_{n-1} \int_{x_0}^{x} |A(x)|d\xi \le M_{n-1}q$$

Ancaq $x$-in hər-hansı qiymətində sol tərəf $M_n$ qiymətini aldığından, nəticə etibarı ilə, $M_n \le qM_{n-1}$ Buradan isə $M_n \le M_0 q^n$ alarıq.

$$y_0(x) + [y_1(x) - y_0(x)] + [y_2(x) - y_1(x)] + \cdots \tag{16}$$

sırasına baxaq. Sonuncu bərabərsizliyə əsasən (16) sırası $M_0 + M_0 q + \cdots$ həndəsi silsiləsinin ikinci həddindən başlayaraq normaya görə mojratlanandır. Deməli (16) sırası $q < 1$ halında normaya görə mütləq yığılandır. Digər tərəfdən, $q$ ədədinin ( 15 ) tərifindən aydındır ki, $q$ ədədi ixtiyari qədər kiçik ola bilər, xüsusi halda, $x_1 x_0$-a kifayət qədər yaxın olduğu halda 1 -dən kiçik ola bilər. Deməli, $x_1$-in bu cür seçimində (16) sırası normaya görə müntəzəm yığılandır, yəni, $y_n(x)$ ardıcıllığı $[x_0, x_1]$ intervalında hər-hansı $y(x)$ funksiyasına müntəzəm yığılır.

(13)-da limitə keçsək, alarıq ki, bu cür təyin olunan $y(x)$ limit vektor funksiyası (11) tənliyini ödəyir. Bununla da $[x_0, x_1]$ intervalında həllin varlığı isbat edilmiş olur.

İndi isə bu intervalda həllin yeganəliyini isbat edək. Fərz edək ki, (11) tənliyinin $[x_0, x_1]$ intervalında $y(x)$ həlli ilə yanaşı daha bir $z(x)$ həlli də var. Onda,

$$y(x) = y_0 + \int_{x_0}^{x} [A(\xi)y(\xi) + g(\xi)]d\xi$$

bərabərliyindən

$$z(x) = y_0 + \int_{x_0}^{x} [A(\xi)z(\xi) + g(\xi)]d\xi$$

bərabərliyini hədbəhəd çıxsaq,

$$y(x) - z(x) = \int_{x_0}^{x} A(\xi)[y(\xi) - z(\xi)]d\xi \tag{17}$$

alarıq.

$$p = \max_{x_0 \le x \le x_1} |y(x) - z(x)| \tag{18}$$

işarə edək. Əgər $y(x) \ne z(x)$ olarsa, onda $p > 0$. (17) bərabərliyindən çıxır ki ,

$$|y(x) - z(x)| \le p \int_{x_0}^{x} A(\xi)d\xi = pq < p$$

Bu bərabərsizlik $|y(x) - z(x)|$ ifadəsinin maksimal qiyməti olan $p$ üçün də ödənməlidir yəni $p < p$. Bu isə mümkün deyil. Deməli, $y(x) \equiv z(x)$ və $[x_0, x_1]$ intervalında həllin yeganəliyi isbat olundu.

Artıq teoremi bütünlüklə isbat etmək olar.

İstənilən $[\alpha,\beta]\subset(a,b)$ sonlu intervalını elə sonlu sayda $[a_k,a_{k+1}]$ intervallama bölmək olar ki, bu intervalların hər biri üçün,

$$\int_{a_k}^{a_{k+1}}|A(\xi)|d\xi<1$$

bərabərsizliyi ödənsin.

Yuxarıda isbat olunan teoremə əsasən bu intervalların hər birində həllin varlığı və yeganəliyi haqda teorem ödənir. Ona görə də $x_0$ nöqtəsini özündə saxlayan ixtiyari $[a_i,a_{i+1}]$ intervalında həll mövcuddur və yeganədir. Onda alınır ki , həll iki qonşu intervalda mövcuddur və yeganədir və s. Bu mülahizələr göstərir ki, teorem istənilən sonlu $[\alpha,\beta]\subset(a,b)$ intervalında, deməli bütün $(a,b)$ intervalında da ödənir.

**TEOREM 2:** Əgər $f(x)$ funksiyası $(a,b)$ intervalında ölçüləbilən və hər bir sonlu $[\alpha,\beta]\subset(a,b)$ intervalında cəmlənən funksiyadırsa, onda $c_0,c_1,\dots,c_{2n-1}$ kompleks ədədlərinin və $(a,b)$ intervalının $x_0$ daxili nöqtəsinin necə seçilməsindən asılı olmayaraq $l(y)=f$ tənliyinin $(a,b)$ intervalında

$$y^{[k]}\big|_{x=x_0}=c_k\ k=\overline{0,2n-1}$$

şərtlərini ödəyən yeganə həlli var,

**İSBATI:**

$$\left.\begin{aligned}
&\frac{dy}{dx}=y^{[1]}\\
&\frac{dy^{[1]}}{dx}=y^{[2]}\\
&\dots\dots\dots\dots\dots\\
&\frac{dy^{[n-2]}}{dx}=y^{[n-1]}\\
&\frac{dy^{[n-1]}}{dx}=\frac{1}{p_0}y^{[n]}\\
&\dots\dots\dots\dots\dots\\
&\frac{dy^{[2n-2]}}{dx}=p_{n-1}y^{[i]}-y^{[2n-1]}\\
&\frac{dy^{[2n-1]}}{dx}=p_ny-f
\end{aligned}\right\}\qquad(19)$$

birtərtibli tənliklər sisteminə baxaq. Girişdəki (10) və (11) düsturlarına əsasən (19) sistemi $l(y)=f$ tənliyinə ekvivalentdir, belə ki, $y^{[1]},y^{[2]},\dots,y^{[2n-1]}$ funksiyaları $y$ funksiyasının ardıcıl kvazitörəmələridirlər. Digər tərəfdən, (19) sistemini (9) şəklində yazmaq olar. Doğrudan da,

$$\tilde{y}=\left(y,y^{[1]},y^{[2]},\dots,y^{[2n-2]},y^{[2n-1]}\right)$$

$$\tilde{f}=(0,0,\dots,0,f)$$

vektor funksiyalarını və

$$A(x)=\begin{bmatrix}
0 & 1 & & & & & & 0\\
 & & \ddots & & & & \cdot & \\
 & & & \ddots & & \cdot & & \\
 & & & & \ddots & 0 & & \\
 & & & & 1 & \frac{1}{p_0} & & \\
 & & & & p_1 & & -1 & \\
 & & & p_2 & & & & -1\\
 & & \cdot & & & & \cdot & \\
 & \cdot & & & & & & \cdot\\
 & p_{n-1} & & & & & & -1\\
p_n & & & & & & & 0
\end{bmatrix}$$

matris funksiyasını daxil edək, harada ki, $\frac{1}{p_0}$ $n$ - ci sətir və $n+1$ - ci sütunun kəsişməsində, bütün

doldurulmamış yerlərda isə 0-lar durur.
Onda ( 19) sistemini

$$\frac{d\tilde{y}}{dx} = A(x)\tilde{y} + \tilde{f} \tag{20}$$

şəklində yazılır. Lakin fərziyyəyə görə $p_0, P_1, \dots, p_n$ əmsalları girişdəki şərtləri ödəyir. Bundan nəticəyə gəlinir ki, $A(x)$ matrisi Teorem1-in bütün şərtlərini ödəyir. Deməli, (20) tənliyinin $(a, b)$ intervalında $\tilde{y}_0 = (c, c_1, c_2, \dots, c_{2n-1})$ olmaqla $\tilde{y}|_{x=x_0} = \tilde{y}_0$ başlanğıc şərtini ödəyən həlli var və yeganədir. Bununla da **Teorem 2** isbat olundu.

**QEYD1:** Aşkardır ki, $f(x)$ funksiyasının hər bir $[\alpha, x_0] \subset (a, b)(\alpha \neq x_0)$ sonlu intervalında cəmlənən olması şərti daxilində $x_0$ nöqtəsi $(a, b)$ intervalını requlyar uc nöqtəsidirsə, onda **Teorem2** öz qüvvəsini saxlayır.

**QEYD2:** Əgər $\lambda$ ixtiyari kompleks parametr olmaqla $l(y) = f$ tənliyini $l(y) - \lambda y = f$ tənliyi ilə əvəz etsək, onda TEOREM 2 yenə də doğrudur.

## Bircins tənliyin həllərinin xassələri

**TEOREM 2-** dən istifadə etməklə adi bircins tənliyin həllərini ümumiləşdirərək

$$l(y) = 0 \tag{21}$$

bircins tənliyinin həllərinin xassələrini almaq olar. Tutaq ki, $y_1, y_2, \dots, y_{2n}$ (21) tənliyinin həlləridir.

$$W = \begin{vmatrix} y_1 & y_2 & \cdots & y_{2n} \\ y_1^{[1]} & y_2^{[1]} & \cdots & y_{2n}^{[1]} \\ \cdot & \cdot & \cdot & \cdot \\ y_1^{[2n-1]} & y_2^{[2n-1]} & \cdots & y_{2n}^{[2n-1]} \end{vmatrix}$$

determinantı bu həllərin Vronsk determinantı adlanır.

**TEOREM 3 :** Əgər (21) bircins tənliyinin $y_1, y_2, \dots, y_{2n}$ həlləri xətti asılıdırlarsa, onda onların $(a, b)$ intervalında Vronsk determinantı eyniliklə sıfıra bərabərdir. Tərsinə, əgər bu determinant $(a, b)$ intervalının heç olmazsa bir $x_0$ nöqtəsində sıfıra bərabərdirsə, onda $y_1, y_2, \dots, y_{2n}$ həlləri xətti asılıdırlar.

**İSBATI:** Tutaq ki, $y_1, y_2, \dots, y_{2n}$ həlləri xətti asılıdırlar, yəni heç olmazsa biri sıfırdan fərqli elə $c_1, c_2, \dots, c_{2n}$ sabitləri var ki, $(a, b)$ intervalında

$$c_1 y_1 + c_2 y_2 + \cdots + c_{2n} y_{2n} = 0 \tag{22}$$

(22) hər iki tərəfinin ( $2n - 1$ ) - ci tərtib də daxil olmaqla kvazitörəmələrini götürsək,

$$\left.\begin{array}{l} c_1 y_1^{[1]} + c_2 y_2^{[1]} + \cdots + c_{2n} y_{2n}^{[1]} = 0 \\ \dots\dots\dots\dots\dots\dots \\ c_1 y_1^{[2n-1]} + c_2 y_2^{[2n-1]} + \cdots + c_{2n} y_{2n}^{[2n-1]} = 0 \end{array}\right\} \tag{23}$$

(22)-(23) bərabərlikləri birlikdə $c_1, c_2, \dots, c_{2n}$-ə nəzərən trivial olmayan həllə malik bircins tənliklər sistemidir; Deməli, bu sistemin determinantı, yəni, Vronsk determinantı 0-a bərabərdir.

Tərsinə, tutaq ki, bu determinant $(a, b)$ intervalının $x = x_0$ nöqtəsində 0 -a bərabərdir. Onda, heç olmazsa biri 0 -dan fərqli $c_1, c_2, \dots, c_{2n}$ sabitlərini elə seçmək olar ki, $x_0$ nöqtəsində (22)-(23) bərabərlikləri ödənsin. Onda

$$y = c_1 y_1 + c_2 y_2 + \cdots + c_{2n} y_{2n}$$

funksiyası $l(y) = 0$ tənliyinin

$$y^{[k]}\Big|_{x=x_0} = 0, k = \overline{0,2n-1} \tag{24}$$

başlanğıc şərtlərini ödəyən həllidir.

Həllin yeganəliyinə əsasən $(a, b)$ intervalında $y \equiv 0$ olmalıdır, çünki, $l(y) = 0$ tənliyinin (24) şərtini ödəyən həllidir, yəni $y_1, y_2, \dots, y_{2n}$ xətti asılıdırlar.

Bircins tənliyin xətti asılı olmayan $y_1, y_2, \dots, y_{2n}$ həllər sistemini qurmaq asandır.

Bunun üçün $(a_{jk})$ matrisinin determinantının 0 -dan fərqli olması şərti ilə

$$y_j^{[k-1]}\Big|_{x=x_0} = a_{jk}, j, k = \overline{1,2n}$$

başlanğıc şərtlərini ödəyən həlli seçmək kifayətdir. Bircins tənliyin xətti asılı olmayan istənilən $y_1, y_2, \dots, y_{2n}$ həllər sisteminə onun fundamental həllər sistemi deyilir.

**TEOREM 4:** Bircins tənliyin hər bir həlli onun fiksə edilmiş istənilən fundamental həllər sisteminin xətti kombinasiyasıdır.

**İSBATI:** Tutaq ki $y_1, y_2, \dots, y_{2n}$ həllərin hər-hansı fundamental sistemidir, $y$ isə bircins tənliyin hər-hansı həllidir. $c_1, c_2, \dots, c_{2n}$ sabitlərini elə seçək $ki, (a, b)$ intervalının qeyd olunmuş $x_0$ nöqtəsində

$$\left.\begin{aligned} y &= c_1 y_1 + \dots + c_{2n} y_{2n} \\ y^{[1]} &= c_1 y_1^{[1]} + \dots + c_{2n} y_{2n}^{[1]} \\ &\dots\dots\dots\dots\dots\dots \\ y^{[2n-1]} &= c_1 y_1^{[2n-1]} + \dots + c_{2n} y_{2n}^{[2n-1]} \end{aligned}\right\} \quad (25)$$

olsun. Bu mümkündür, çünki, $x = x_0$ olduqda (25) tənliklər sisteminin $c_1, c_2, \dots, c_{2n}$ -ə nəzərən, determinantı $y_1, y_2, \dots, y_{2n}$ fundamental sisteminin Vronsk determinantı olub sıfırdan fərqli olan tənliklər sistemi əmələ gətirir. Lakin (25) bərabərlikləri göstərir ki, $y$ və $c_1 y_1 + \dots + c_{2n} y_{2n}$ funksiyaları bircins tənliyin eyni bir başlanğıc şərtləri ödəyən həlləridirlər; həllin yeganəliyinə əsasən $(a, b)$ intervalında

$$y \equiv c_1 y_1 + c_2 y_2 + \dots + c_{2n} y_{2n}$$

Teorem 4 onu göstərir ki, $2n$ tərtibli $l(y) = 0$ bircins tənliyinin bütün həlləri çoxluğu $2n$ ölçülü xətti fəzadır. Çünki, bu həllərin istənilən xətti kombinasiyası da həlldir.

**Qeyd:** Bu bəndin bütün nəticələri $\lambda$ ixtiyari kompleks parametr olmaqla

$$l(y) - \lambda y = 0$$

bircins tənliyi üçün də öz qüvvəsini saxlayır.

Doğrudan da, biz bu nəticələri çıxararkən Teorem 2-ya əsaslanırdıq, Teorem 2 isə $l(y) = f$ tənliyini $l(y) - \lambda y = f$ tənilyi ilə əvəz etdikdə öz qüvvəsini saxlayırdı

**Material və metodlar:** Tədqiqatın əsas obyektini özü-özünə qoşma diferensial ifadələrin vektor funksiyalar fəzasında birtərtibli diferensial tənliklər sistemi şəklində araşdırılması təşkil edir. İşdə xətti diferensial tənliklər nəzəriyyəsinə aid klassik və müasir elmi yanaşmalardan istifadə olunmuş, özü-özünə qoşma diferensial ifadələrin ümumi xassələri, kvazitörəmələr anlayışı və Laqranj düsturunun tətbiqi tədqiq edilmişdir.

Araşdırma zamanı funksional analiz, diferensial tənliklər nəzəriyyəsi və operatorlar nəzəriyyəsinin metodlarından istifadə edilmişdir. Tədqiqatın gedişində özü-özünə qoşma diferensial ifadələrin requlyar və sinqulyar halları müqayisəli şəkildə təhlil olunmuş, kvazitörəmələrin tətbiqi vasitəsilə diferensial ifadələrin daha ümumiləşdirilmiş formaları müəyyənləşdirilmişdir. Bundan əlavə, vektor funksiyalar fəzasında birtərtibli xətti diferensial tənliklərin həllinin varlığı və yeganəliyi ardıcıl yaxınlaşmalar üsulu əsasında araşdırılmışdır.

Tədqiqatda nəzəri analiz, müqayisəli təhlil, inteqral çevirmələr və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Müxtəlif teoremlərin isbatında inteqral bərabərliklərdən, Laqranj düsturundan və Vronski determinantının xassələrindən istifadə olunmuşdur. Eyni zamanda, bircins xətti diferensial tənliklərin fundamental həllər sisteminin qurulması və ümumi həll formalarının müəyyənləşdirilməsi həyata keçirilmişdir.

Tədqiqatın metodoloji əsasını xətti diferensial tənliklər nəzəriyyəsinin klassik müddəaları, funksional analiz prinsipləri və spektral analiz metodları təşkil etmişdir.

**Nəticə.** İntervalın requlyar uc nöqtə olduğu hallara baxılmış və diferesial ifadənin intervalda requlyar və sinqulyar olduğu hallar araşdırılmışdır. Diferensial ifadənin əmsalları diferensiallan-mayan olduğu halları nəzərə alaraq kvazitörəmələri adlanan qayda ilə təyin olunan törəmələrə baxılmışdır. Kvazitörəmələrin köməyilə xətti diferensial ifadələri daha yığcam və əlverişli şəkildə yazmaqla ümumiləşmiş xətti diferensial tənliklərə baxılmış, vektor funksialar fəzasında birtərtibli tənlik üçün həllin varlıq və yeganəlik teoremi isbat edilmişdir. Sonda isə bircins tənliyin həllinin ümumi xassələri və ümumi həllin formaları müəyyənləşdirilmişdir.

**Ədəbiyyat**

1. Наймарк, М.А. Линейные дифференциальные операторы // – Москва: "Наука", – 1964.
2. Наймарк, М.А. Исследование спектра и разложение по собственным функциям несамосоп-ряженного дифференциального оператора второго порядка на полуоси // Труды Московс-кого Математического Общества, – 1954, Т.3, – с.181-270.

3. Левитан, Б.М. Теория операторов обобщенного сдвига / Б.М.Левитан. – Москва: Наука, – 1973. – 312 с.
4. Хачатурян, И.Г. О восстановлении дифференциального уравнения по спектру, – Москва: препринт №73, ИПМ АН СССР, –1976.
5. Хромов, А.П. Разложение по собственным функции обыкновенных линейных дифференциальных операторов в конечном интервале// Труды второй научной кон. Поволжья, – Куйбышев, – 1962, – с.109-113.
6. Станкевич, М. Об одной обратной задаче спектрального анализа для обыкновенного дифференциального оператора четного порядка // Док.МГУ, сер., матем., –1981, №4, – с.24-28.
7. Тамаркин, Я.Д. О некоторых общих задачах теории обыкновенных линейных дифференциальных уравнений // – Петроград, – 1917, – 308 с.

*Məqalə pedaqogika üzrə elmlər doktoru, dosent Rövşən Həsənov təərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 15.01.2026, son daxilolma – 03.02.2026, qəbulolunma – 12.03.2026

*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2026, № 1, s.159-162*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2026, № 1, p.159-162*
*Нахчыванский институт учителей. Научные труды, 2026, № 1, с.159-162*

**UOT: 521.13:517.938**

# О различных классах периодических решений задач небесной механики

**Автор(ы):**

**Азад Мамедли**
Начыванский государственный университет,
Батабатская астрофизическая обсерватория
**Э-почта:** azad_mammadli@yahoo.com

**Ключевые слова:** периодические решения, ограниченная задача трёх тел, небесная механика, точки либрации, стационарные решения, устойчивость орбит, космические исследования, численные методы

**Аннотация.** Статья посвящена одной из наиболее важных и актуальных проблем небесной механики – существованию периодических решений в ограниченной задаче трёх тел, их классификации и методам исследования. В работе проводится систематический анализ научных исследований, выполненных в данном направлении начиная со времён Эйлера и до современного периода. Рассматриваются этапы развития аналитических, качественных и численных методов, применяемых для нахождения периодических решений. Приводятся сведения о различных формах ограниченной задачи трёх тел – круговой, эллиптической, параболической и гиперболической, при этом отмечается, что наиболее подробно изучены круговая и эллиптическая ограниченные задачи.

Особое внимание уделяется механизму возникновения точек либрации и их значению для космических исследований и проектирования орбит. Подробно рассматриваются свойства точек равновесия, открытых Эйлером и Лагранжем, а также вопросы устойчивости периодических и условно-периодических движений в их окрестностях. Обобщаются и оцениваются результаты исследований Пуанкаре, Хилла, Шварцшильда, Мермана, Рябова, Аксенова и других учёных, внёсших значительный вклад в развитие данной области.

В статье также представлены результаты исследований автора, посвящённых изучению точек либрации и стационарных решений. Анализируются достижения, полученные благодаря использованию современных компьютерных технологий и численных методов при поиске периодических решений и исследовании их устойчивости. В заключение показано, что изучение периодических решений в ограниченной задаче трёх тел имеет важное научно-практическое значение как для развития теоретической небесной механики, так и для проектирования и управления траекториями космических аппаратов.

## Göy mexanikası məsələlərində müxtəlif sinif dövri həllər haqqında

**Müəllif(lər):**

**Azad Məmmədli**
Naxçıvan Dövlət Universiteti,
Batabat Astrofizika Rəsədxanası
**E-poçt:** azad_mammadli@yahoo.com

**Açar sözlər:** dövri həllər, məhdud üç cisim məsələsi, göy mexanikası, librasiya nöqtələri, stasionar həllər, orbitlərin sabitliyi, kosmik tədqiqatlar, ədədi metodlar

**Annotasiya.** Məqalə göy mexanikasının ən mühüm və aktual problemlərindən biri hesab olunan məhdud üç cisim məsələsində dövri həllərin mövcudluğu, onların təsnifatı və tədqiqi metodlarına həsr edilmişdir. Tədqiqatda Eylerin dövründən başlayaraq müasir dövrə qədər bu istiqamətdə aparılmış elmi araşdırmalar sistemli şəkildə təhlil olunur, dövri həllərin əldə edilməsində tətbiq olunan analitik, keyfiyyət və ədədi metodların inkişaf mərhələləri araşdırılır. Məqalədə məhdud üç cisim məsələsinin müxtəlif formaları – dairəvi, elliptik, parabolik və hiperbolik halları haqqında məlumat verilir, xüsusilə dairəvi və elliptik məhdud üç cisim məsələlərinin daha geniş öyrənildiyi göstərilir.

Araşdırmada librasiya nöqtələrinin yaranma mexanizmi, onların kosmik tədqiqatlar və orbitlərin planlaşdırılması baxımından əhəmiyyəti xüsusi olaraq vurğulanır. Eyler və Laqranj tərəfindən müəyyən edilmiş tarazlıq nöqtələrinin xüsusiyyətləri, bu nöqtələrin yaxınlığında mövcud olan dövri və şərti dövri hərəkətlərin sabitliyi məsələləri geniş şəkildə şərh edilir. Eyni zamanda Puankare, Hill, Şvartsşild, Merman, Ryabov, Aksenov və digər alimlərin bu sahədə əldə etdikləri nəticələr ümumiləşdirilir və onların elmi əhəmiyyəti qiymətləndirilir.

